# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# YETMİŞ YEDDİNCİ KİTAB

## NOYABR 2016 - DEKABR 2016

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**

**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində ölkəmizə səfərə gələn Belarus Respublikasının Prezidenti və İsrail Dövlətinin Baş naziri ilə görüş və danışıqları, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələr, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə aid materiallar toplanmışdır.

Çoxcildliyin bu cildində Azərbaycan Prezidentinin «Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın multikulturalizm modeli» mövzusunda Beynəlxalq konfransda iştirak edən bir qrup din xadimlərini, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibini, Amerika Birləşmiş Ştatlarının, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının yüksəkvəzifəli nümayəndə heyətlərini qəbul etməsi barədə materiallar da yer almışdır. Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır.

Oxucular bu cilddə ölkə rəhbərinin Füzuli, Zərdab, Tərtər və Ağdam rayonlarına səfərləri zamanı aprel döyüşlərində zərər çəkmiş kəndlərdə olmasına, xəstəxanalarda yaralı əsgərlərə baş çəkməsinə, həmçinin nəqliyyat və sosial infrastruktur, mədəniyyət obyektlərinin, təhsil müəssisələrinin yeni binalarının açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallarla və bu görüşlərdə nitq və çıxışları ilə də tanış ola bilər.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## ALBANİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ GENTİ QAZHELİ İLƏ GÖRÜŞ

*5 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Albaniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Genti Qazhelinin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Genti Qazheli Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Genti Qazheli etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Azərbaycan ilə Albaniya arasında münasibətlərin uğurla inkişaf etdiyini deyən prezident İlham Əliyev ölkələrimiz arasında yaxşı siyasi əlaqələrin mövcud olduğunu vurğuladı. Albaniya Prezidentinin və Baş nazirinin Azərbaycana səfərlərini və onlarla keçirdiyi görüşləri məmnunluqla xatırladan dövlətimizin başçısı bu səfərlərin əməkdaşlığımızın inkişaf etdirilməsi baxımından çox əhəmiyyətli olduğunu dedi. İkitərəfli əlaqələrimizin inkişafına toxunan prezident İlham Əliyev enerji sahəsində əməkdaşlığımızın bu əlaqələrin əsas istiqamətlərindən biri olduğunu qeyd etdi. Dövlətimizin başçısı enerji sahəsində əlaqələrin digər istiqamətlərdə, o cümlədən sərmayə qoyuluşu, ticarət, nəqliyyat sahələrində də əməkdaşlıq üçün yaxşı imkan yaradacağını bildirdi. «Cənub Qaz Dəhlizi» kimi mühüm layihənin birgə həyata keçirilməsinin önəmini vurğulayan prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Albaniyaya investisiya yatırmaqda maraqlı olduğunu dedi. Dövlətimizin başçısı beynəlxalq təşkilatlarda bir-birini daim dəstəkləyən Azərbaycan və Albaniyanın bu təsisatlar çərçivəsində əməkdaşlıqlarını davam etdirəcəklərinə*

*ümidvar olduğunu bildirdi. İkitərəfli əlaqələrimizdə qarşılıqlı dəstəyin əhəmiyyətini vurğulayan prezident İlham Əliyev Albaniyanın Azərbaycana dost ölkə olduğunu söylədi, Albaniyada da ölkəmizə eyni münasibətin göstərildiyini məmnunluqla qeyd etdi və bu baxımdan tərəfdaşlığımızın gücləndirilməsinin və bu potensialdan maksimum istifadə olunmasının vacibliyini bildirdi.*

*Səfir Genti Qazheli Albaniya prezidenti Buyar Nişaninin və Baş nazir Edi Ramanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Səfir Trans–Adriatik qaz boru kəmərinin ölkəsi üçün böyük əhəmiyyət daşıdığını dedi. Diplomatik əlaqələrimizin müstəsna xarakterə malik olduğunu qeyd edən səfir Albaniya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin genişləndirilməsi işinə sadiq qalacağını bildirdi və iqtisadi əlaqələrimizin gücləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Dövlətimizin başçısı Albaniya Prezidentinin və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Albaniyanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

# ERİTREYA DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ PETROS TSEQQAİ ASGHEDOM İLƏ GÖRÜŞ

*5 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Eritreya Dövlətinin ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Petros Tseqqai Asghedomun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Petros Tseqqai Asghedom Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Petros Tseqqai Asghedom etimadnaməsini təqdim etdikdən sonra prezident İlham Əliyev səfirlə söhbət etdi.*

*Səfir Petros Tseqqai Asghedom Eritreya Dövlətinin Prezidenti İsaias Afeverkinin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğuladı. Səfir əməkdaşlığımızın inkişaf etdirilməsi işində səylərini əsirgəməyəcəyini dedi.*

*Ölkələrimiz arasında ikitərəfli əlaqələrin o qədər də fəal olmadığını vurğulayan dövlətimizin başçısı Petros Tseqqai Asghedomun səfir kimi Azərbaycanda fəaliyyətinin müxtəlif sahələrdə qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi və əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.*

*Ticarət sahəsində əməkdaşlığın çox aşağı səviyyədə olduğunu deyən dövlətimizin başçısı səfirin ölkəmizin müxtəlif strukturlarının nümayəndələri ilə çoxlu görüşlər keçirəcəyinə, hər sahədə əməkdaşlıq imkanlarının araşdırılması ilə bağlı müzakirələr aparacağına ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı prezident İsaias Afeverkinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Eritreya Prezidentinə çatdırmağı xahiş etdi.*

## «TEATR VƏ MULTİKULTURALİZM» MÖVZUSUNDA KEÇİRİLƏN IV BAKI BEYNƏLXALQ TEATR KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – dünyanın müxtəlif ölkələrindən Bakıya toplaşmış görkəmli teatr peşəkarlarını səmimi-qəlbdən salamlayır və konfransınızın işinə uğurlar diləyirəm. Əminəm ki, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və xalqımızın həyat tərzi olan multikulturalizm şəraitində siz müzakirəsinə toplaşdığınız bir çox məsələlərin həllinə nail olacaq və sülh, qardaşlıq çağırışı olan multikulturalizm ideyalarını teatr kimi möhtəşəm mədəniyyət amilinin köməyi ilə dünyaya yayacaqsınız.

Azərbaycan teatrının ləyaqətli tarixi var. Belə ki, XIX əsrin 2-ci yarısından başlayaraq, Azərbaycanda cərəyan edən ictimai-siyasi hadisələr ölkədə maarifçilik hərəkatının inkişafına güclü təkan verir, ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində forma və məzmun dəyişiklikləri yaradır. Peşəkar Azərbaycan teatrı məhz belə bir dövrün güclü mənəvi iqlimi şəraitində yaranmışdır.

144 yaşlı peşəkar teatr mədəniyyətinin vətəni olan Azərbaycan «Azərbaycan teatrı 2009–2019-cu illərdə» Dövlət Proqramı çərçivəsində artıq 4-cü dəfədir Beynəlxalq Teatr Konfransı keçirir. Sevindirici haldır ki, builki konfrans respublikamızda elan olunmuş «Multikulturalizm ili» tədbirləri sırasındadır və Azərbaycan multikulturalizm modelinin dünyanın teatr xadimləri arasında da tanınmasına öz töhfəsini verir.

Təqdirəlayiqdir ki, dünyanın ən ünlü teatr biliciləri və peşəkar aktyorlarının «Teatr və multikulturalizm» mövzusuna həsr olunmuş IV Bakı Beynəlxalq Teatr Konfransında bir araya gəlməsinin əsas məqsədi teatrın bu günü və gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirməkdən, dünya insanının

multikulturalizm və tolerantlıq mühitində yaşaması naminə səyləri birləşdirməkdən ibarətdir. Bu çox nəcib və xeyirxah əməldir. İnsanlığın dərk edilmiş xoşbəxtliyinə tuşlanmış fəaliyyətdir.

Ümid edirəm ki, dünyanın 40-a yaxın ölkəsindən teatr mütəxəssisinin qatıldığı bu konfrans iştirakçıların hər biri üçün maraqlı və faydalı olacaq, dünya teatr prosesinin inkişafına öz dəyərli töhfəsini verəcək. Konfransa toplaşan dünyaca məşhur rejissorlar, aktyorlar, baletmeysterlər, prodüserlər, rəssamlar, jurnalist-pedaqoqlar, teatrşünaslar maraqlı fikir mübadiləsi aparacaq, ölkələr arasındakı mədəni dostluq tellərini daha da möhkəmləndirəcəklər.

Sizi bir daha qədim mədəniyyət məkanı Azərbaycanda salamlayır, hər birinizin fəaliyyətinə və konfransın işinə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 noyabr 2016-cı il*

**KAMBOCA KRALI ƏLAHƏZRƏT**
**NORODOM SİHAMONİYƏ**

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Kamboca xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 noyabr 2016-cı il*

## İTALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ PAOLO CENTİLONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də İtaliya Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Paolo Centiloninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə yaxşı əlaqələrin mövcudluğunu qeyd etdi. İtaliyaya son səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev səfər çərçivəsində Azərbaycan ilə İtaliya arasında qəbul edilən strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin çox mühüm əhəmiyyət daşıdığını vurğuladı, sənədin iki ölkə arasında əməkdaşlıq, həmçinin qarşıya qoyulan məqsədlər baxımından önəmli olduğunu dedi. İqtisadi sahədə də əlaqələrin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı italiyalı iş adamlarının ölkəmizdə biznes fəaliyyətinə maraq göstərdiyini məmnunluqla qeyd edərək, təşkil olunan biznes-forumların iş adamları arasında təmasların artırılması baxımından əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq naziri Paolo Centiloninin ölkəmizə səfərinin səmərəli olacağına əminliyini bildirdi.*

*Nazir Paolo Centiloni İtaliya Respublikasının Baş naziri Matteo Renzinin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan ilə İtaliya arasında əlaqələrin inkişafının məmnunluq doğurduğunu vurğulayan Paolo Centiloni ölkəmizə italiyalı iş adamlarından ibarət nümayəndə heyəti ilə səfər etdiyini dedi.*

*Azərbaycanın qeyri-neft sektoru ilə bağlı götürdüyü öhdəliklərə sadiqliyini yüksək qiymətləndirdiklərini bildirən Paolo Centiloni iqtisadiyyatın şaxələndirilməsinin önəmini vurğuladı. İtaliyanın ölkəmizin iştirakı ilə həyata keçirilən enerji layihələrində fəal iştirak etdiyini məmnunluqla qeyd edən Paolo Centiloni TANAP və TAP layihələrinin icrasına başlanılmasının əlaqələrimizin inkişafı istiqamətində mühüm mərhələ olacağına əminliyini bildirdi.*

*TANAP və TAP layihələrinin enerji təhlükəsizliyi və şaxələndirmə baxımından əhəmiyyətinə toxunan prezident İlham Əliyev bu layihəyə artıq 7 ölkənin cəlb olunduğunu dedi, gələcəkdə isə daha iki ölkənin qoşulmasının önəmini vurğuladı. «Cənub Qaz Dəhlizi» layihəsinin icrasının gündəlikdə duran məsələ olduğunu qeyd edən dövlətimizin başçısı «Şahdəniz-2» layihəsi ilə bağlı işlərin 80 faizinin, TAP layihəsi üzrə işlərin isə təqribən 30 faizinin artıq icra olunduğunu qeyd edərək, bu istiqamətdə bütün işlərin vaxtında həyata keçiriləcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə iki ölkə arasında bir sıra sahələrdə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi və möhkəmləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Baş nazir Matteo Renzinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Respublikasının Baş nazirinə çatdırmağı xahiş etdi.*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA

Hörmətli cənab Tramp!

Amerika Birləşmiş Ştatlarının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Seçkilərdə qazandığınız qələbə dost Amerika xalqının Sizə olan etimadının və dəstəyinin göstəricisidir.

Ümid edirəm ki, Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlər bundan sonra da uğurla inkişaf edəcəkdir. Ölkələrimiz arasında əlaqələrin 25 illik tarixi var. Bu müddət ərzində dostluq və əməkdaşlıq münasibətlərimiz yüksək səviyyəyə qalxmışdır. Siyasi, iqtisadi, enerji, təhlükəsizlik sahələrində, o cümlədən beynəlxalq terrorizmə qarşı mübarizədə və NATO-nun Əfqanıstanda sülhyaratma əməliyyatlarında fəal əməkdaşlıq edirik.

Uzun illərdir ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkir. Ərazilərimizin 20 faizi işğal altındadır, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Azərbaycanın ərazi bütövlüyü bütün dünya birliyi və beynəlxalq təşkilatlar tərəfindən tanınıb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etsə də, Ermənistan buna məhəl qoymur. Bizim qəti mövqemiz bundan ibarətdir ki, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT-nin Baş Məclisi, ATƏT, Avropa Şurası, NATO, Avropa Parlamenti, İƏT, «Qoşulmama Hərəkatı» və digər beynəlxalq təşkilatların qərar və qətnamələri yerinə yetirilməlidir. Münaqişə beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Ümidvaram ki, ABŞ Minsk qrupunun həmsədri kimi, Sizin rəhbərliyiniz altında bu münaqişənin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinə öz töhfəsini verəcəkdir.

Bir daha Sizə səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, dost Amerika xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 noyabr 2016-cı il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİŞEL AUNA**

Hörmətli cənab Prezident!

Livan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Livan əlaqələrinin genişlənməsi, dostluq və əməkdaşlıq münasibətlərimizin inkişafı yolunda birgə səylər göstərəcəyik.

Eyni zamanda ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Livan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 noyabr 2016-cı il*

**FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MAHMUD ABBASA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Fələstin Dövlətinin Elan Edilməsi Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Fələstin münasibətləri bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Fələstin xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 noyabr 2016-cı il*

# FÜZULİ RAYONUNA SƏFƏR

*12 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Füzuli rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Horadiz şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev prezident İlham Əliyevə məlumat verdi ki, ulu öndərin abidəsinin ucaldıldığı parkda son vaxtlar geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Bu park rayon sakinlərinin sevimli istirahət mərkəzlərindən birinə çevrilib.*

*Dövlətimizin başçısına son vaxtlar rayonda görülən işlər, həyata keçirilən layihələr və gələcəkdə yaradılacaq müəssisələr barədə də məlumat verildi. Bildirildi ki, növbəti illərdə rayonda aqropark, ət və süd məhsulları istehsal edən müəssisə və istixana kompleksinin inşası nəzərdə tutulub.*

## 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolunun yenidənqurma və bərpadan sonrakı vəziyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Füzuli rayonunda 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolunun yenidənqurma və bərpadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bu gün ölkəmizdə yol-nəqliyyat infrastrukturunun tamamilə yeniləşdirilməsi və müasirləşdirilməsi, bu sahədə əsaslı dəyişikliklərin yer aldığı proses uğurla davam etməkdədir. Regionların, həmçinin kənd və qəsəbələri birləşdirən avtomobil yollarının, yolayrıcıları və körpülərin inşasına və yenidən qu-*

*rulmasına xüsusi diqqət yetirilir. Müasir səviyyədə inşa olunan bu yollar regionların inkişafına müsbət təsir göstərir, rayonların simasını əsaslı şəkildə dəyişdirir, nəqliyyatın və əhalinin rahat, təhlükəsiz və maneəsiz hərəkətini təmin edir. Bu işlərin icrası həm də onu nümayiş etdirir ki, dünyanı bürümüş iqtisadi böhrana baxmayaraq, Azərbaycanda bütün sosial layihələr uğurla icra olunur. Bu isə dövlətimizin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsidir.*

*Füzuli rayonunun 12 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini, o cümlədən 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən 23 kilometrlik avtomobil yolunun tikintisi dövlətimizin başçısının 2014-cü ildə imzaladığı sərəncama əsasən həyata keçirilib. Prezident İlham Əliyevin bu il imzaladığı sərəncama uyğun olaraq, Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolunun tikintisinin başa çatdırılması «Azəravtoyol» ASC-yə həvalə edilib.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov bildirdi ki, üçüncü və dördüncü texniki dərəcəyə uyğun olaraq, layihələndirilən bu avtomobil yolunun birinci hissəsinin uzunluğu 20,5 kilometrdir və Qayıdış–Yeni Yurd arasındakı məsafəni əhatə edir. İkinci hissə Yeni Yurd–Xocavənd arasındakı məsafəni əhatə edir və uzunluğu 2,5 kilometrdir.*

*Qeyd edildi ki, inşaat işləri zamanı yol boyunca müxtəlif diametrli 21 suötürücü boru tikilib. Yuxarı Mil kanalı üzərində uzunluğu 18 metr, eni 12 metr olan qəzalı vəziyyətdəki körpü əsaslı təmir edilib. Yolboyu 144 müxtəlif yol nişanı və 38 göstərici lövhə quraşdırılıb.*

*Bu yolun tikilməsi nəticəsində yük və sərnişin daşınması xeyli yaxşılaşacaq.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Horadizdə «Azərxalça» ASC-nin ilk filialının – Xalça kombinatının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Füzuli rayonunda «Azərxalça» ASC-nin ilk filialının – Xalça kombinatının açılışında iştirak etmişdir.*

*Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub, milli naxışlarımızın şöhrəti dünyanı qarış-qarış gəzib, böyük diqqətə səbəb olub. Azərbaycan xalçalarının qədim zamanlardan başlayan şöhrəti bu gün yeni layihələrlə zənginləşir. Prezident İlham Əliyevin bu il imzaladığı sərəncamla «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin yaradılması da məhz bu amildən qaynaqlanıb. ASC-nin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, onların ölkə daxilində və xaricdə satışının təşkili, istehsalatda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsidir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev prezident İlham Əliyevə məlumat verdi ki, ilkin mərhələdə «Azərxalça» ASC-nin Füzuli rayonu ilə yanaşı, Ağdam, Tovuz, Ağstafa, Qazax, Şəmkir, Quba, İsmayıllı, Xaçmaz, Qəbələ rayonlarında da filiallarının yaradılması nəzərdə tutulub. Hazırda bu rayonlarda filial binalarının tikintisinə başlanılıb. Yerlərdə «Azərxalça»nın xalçaçılıq üzrə hazırlıq-tədris kursları, ustad dərsləri təşkil edilib, işçi potensialının müəyyənləşdirilməsi və gücləndirilməsi üçün müvafiq tədbirlər görülüb.*

*«Azərxalça» ASC-nin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.*

*Bildirildi ki, Horadizdə yaradılan filial Azərbaycanın tarixi xalçaçılıq mərkəzlərindən olan Qarabağ xalçaçılıq məktəbini təmsil edəcək. Filialın ümumi sahəsi 586 kvadratmetr olan binasında 160 toxucu, 10 nəfər inzibati-təsərrüfat işçisi fəaliyyət*

*göstərəcək. Bina toxuculuq emalatxanası, anbar, yeməkxana, tibb otağı və digər bölmələrdən ibarətdir. Emalatxanada 160 toxucu müxtəlifölçülü 43 dəzgahda Qarabağın tarixi xalça çeşniləri əsasında xalçalar toxuyacaq. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim və orijinal xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıb. Emalatxana zəruri xammal və ləvazimatlarla təmin edilib. Toxucular həm Horadiz şəhərinin, həm də Füzuli rayonunun ayrı-ayrı kəndlərinin, o cümlədən hazırda işğal altında olan kəndlərin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça»nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında mütəmadi iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər.*

*Dövlətimizin başçısı kombinatın işçiləri ilə söhbət etdi.*

**İ ş ç i l ə r:** Xoş gəlmisiniz, cənab Prezident!

**İ l h a m Ə l i y e v:** Xoş gördük. Necəsiniz? İşlər necədir?

**M a h n u r A l ı y e v a**: Möhtərəm cənab Prezident, bütün füzulililər adından Sizi salamlayırıq və Sizə təşəkkürümüzü bildiririk ki, bizə belə müəssisə, belə iş yeri açmısınız. Hazırda 160 qadın burada işlə təmin olunub. Gün o gün olsun ki, işğal altındakı torpaqlarımız qaytarılsın və orada belə müəssisələr açılsın, bizim qarabağlı qadınlar Qarabağ xalçaları toxuyub nümayiş etdirsinlər.

**İ l h a m Ə l i y e v:** Mən çox şadam ki, artıq «Azərxalça» fəaliyyətə başlayır. Bilirsiniz ki, bir müddət bundan əvvəl mənim sərəncamımla «Azərxalça» şirkəti yaradılmışdır. Bu qurumun əsas vəzifəsi Azərbaycanda xalçaçılığı inkişaf etdirmək, bizim tarixi mirasımızı qorumaq və eyni zamanda, ölkəmizdə güclü xalçaçılıq sənayesi yaratmaqdır. Bu məqsədlə bir çox rayonlarda, o cümlədən Füzuli rayonunda «Azərxalça»nın xətti ilə belə gözəl müəssisələr yaradılıb və yaradılır. Hamımız yaxşı bilirik ki, xalçaçılıq sənətini qadınlar yaşadırlar. Bu müəssisələrin yaradılması, fəaliyyətə başlaması qadınlar üçün iş yerlərinin açılması deməkdir. Bu da çox vacibdir. Çünki

qadınlar üçün iş yerləri açmaq o qədər də asan məsələ deyil. Ancaq bu gün siz burada işləyirsiniz, yaxşı maaş alırsınız, həm ailə büdcəsinə bunun böyük töhfəsi olur, eyni zamanda, qədim sənətimiz yaşayır, yaşayacaq, gənc nəslə də siz öz təcrübənizi ötürəcəksiniz. Bununla bərabər, Azərbaycanın çox gözəl ixrac məhsulu olan xalça artıq dünya bazarlarına çıxacaq. Bu həm ölkəmizin təbliğatına xidmət edəcək, həm də bütün dünya görəcək ki, xalqımız nə qədər istedadlı xalqdır. Digər tərəfdən, bu, ölkəmizə pul gətirəcək. Beləliklə, ölkə iqtisadiyyatı çoxşaxəli surətdə inkişaf edəcək. Bu müəssisənin fəaliyyəti nəticəsində ildə neçə xalça istehsal olunacaq?

**V i d a d i  M u r a d o v** *(«Azərxalça» ASC-nin İdarə Heyətinin sədri):* Cənab Prezident, bu müəssisədə dəzgahların əksəriyyəti Azərbaycan brendidir. Ayda 251 kvadratmetr xalça istehsal olunacaq. Qarabağın 16 rayonunun müxtəlif çeşniləri, tarixi ənənələri əsasında toxunacaq. Biz 3 ay ərzində burada tədris kursları təşkil etdik. Peşəkar ustalarımız bu kurslarda 160 nəfəri öyrətdilər. Bu yerlər bizə bir az azlıq edir. Biz düşünürük ki, filialları başqa yerlərdə də açmaq, genişləndirmək lazımdır.

**İ l h a m  Ə l i y e v:** Bəli, genişləndirmək lazımdır.

**V i d a d i  M u r a d o v:** Xalçaçı çoxdur. Füzuli rayonunda 500–600 xalçaçı var.

**İ l h a m  Ə l i y e v:** Bəli, onları da cəlb etmək lazımdır.

**V i d a d i  M u r a d o v:** Biz istəyirik ki, hamısı xalçaçılıqla məşğul olsunlar və Azərbaycanın Qarabağ xalçaları dünyada nə qədər şöhrət tapıbsa, bu gün də bu Qarabağ xanımları, xalçaçıları ilə, cənab Prezident, Sizin də köməyiniz sayəsində yenə də dünyada öz şöhrətinə çatsın.

**İ l h a m  Ə l i y e v:** Siz xalçaçılığı harada öyrənmisiniz?

**R ö y a  A b b a s o v a:** Bura mənim ilk iş yerimdir. Sağ olsun müəllimlərimiz, onlar öyrədiblər. İndi işə başlayırıq. Çalışırıq ki, öyrəndiklərimizi işdə tətbiq edək. İstəyirik ki, xalçalarımız yaxşı alınsın.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı. Mən burada gənc qızları görürəm və bizim peşəkar ustalarımız öz təcrübələrini onlarla bölüşəcəklər. Bəs siz bu vaxta qədər harada işləyirdiniz?

**M a h n u r  A l ı y e v a:** Bizim əvvəl işimiz olmayıb. İşlə indi təmin edilmişik.

**İ l h a m  Ə l i y e v:** Yəqin ki, xalçaçılığı yaxşı bilirsiniz.

**M a h n u r  A l ı y e v a:** Bəli, bu bizim nənələrimizdən qalan bir sənətdir. Mənim yaşadığım kəndin özünün xalçası olub – «Xanlıq» xalçası. Ancaq bir az unudulmuşdu. Sizin sayənizdə o, artıq bərpa olundu. Ona görə Sizə çox minnətdarıq. Çox sağ olun. Çalışacağıq ki, Sizin etimadınızı doğruldaq.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, bunun çox böyük mənası var. Biz bu qədim sənəti yaşadırıq. İndi biz haqlı olaraq hesab edirik ki, xalçaçılıq sənətinin vətəni Azərbaycandır. Bunu deməyə kifayət qədər əsaslar var. Digər tərəfdən, bu, ənənəvi sənət növüdür. Nadir xalçalarımız var. Ona görə də bunu yaşatmalıyıq. Gənc nəsil də bu işlərə çox maraq göstərir. Bir daha qeyd etmək istəyirəm ki, həm dünyada Azərbaycanı geniş şəkildə təbliğ edəcəyik, həm də bu, böyük ixrac məhsuludur. Ona görə də bütün bu məsələləri həll etmək üçün «Azərxalça» yaradılmışdır və ilk müəssisə bu gün artıq fəaliyyətə başlayır.

*Sonra dövlətimizin başçısı müəssisədə iş prosesini izlədi.*

## Ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 12-də Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Ali Baş Komandan İlham Əliyev komanda idarəetmə məntəqəsindən düşmənin mövqelərini izlədi.*

*Dövlətimizin başçısına cəbhə xəttində ümumi vəziyyətlə bağlı məruzə edildi.*

*Sonra prezident, Ali Baş Komandan İlham Əliyev döyüş tapşırığını yerinə yetirərkən, xüsusi fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.*

*Dövlətimizin başçısı hərbçilərlə görüşdü və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törədib. Qəhrəman Azərbaycan Ordusu – xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab verib. Uğurlu əks-hücum əməliyyatı keçirərək, düşmənə sarsıdıcı zərbələr vurub və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilibdir.

Bu gün biz Lələtəpə ərazisindəyik. Hələ bir neçə ay bundan əvvəl bu ərazi işğal altında idi. Biz bu işğala son qoyduq. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərində işğal altında olan 2000 hektardan çox torpaq uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalçılardan azad edilib. Minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu tam nəzarət edir.

Onu da qeyd etməliyəm ki, əks-hücum əməliyyatımız əlverişsiz mövqelərdən başlamışdır. Biz yüksəklikləri, təpələri işğalçılardan azad etdik və böyük qəhrəmanlıq göstərdik. Aprel döyüşləri hərbi dərsliklərə salınmalıdır. Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərdi. Biz şəhidlər verdik, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgərlərimiz, zabitlərimiz olubdur. Mən Hərbi Hospitalda yaralı əsgər və zabitlərimizlə görüş zamanı onlarda ruh yüksəkliyi gördüm. Onların bir arzusu var idi – tezliklə sağalmaq və döyüş bölgələrinə qayıtmaq.

Bu bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları vətənpərvər vətəndaşlardır. Bizim əsgərlərimiz, zabitlərimiz Vətən uğrunda, torpaq uğrunda ölümə

getməyə hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır. Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir. Aprel döyüşləri bunu bir daha göstərdi. Aprel döyüşlərindən sonra ordumuzun maddi-texniki təminatı ilə bağlı əlavə tədbirlər görülür, vəsait ayrılıb, ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlar, texnika alınır və artıq bizim sərəncamımızdadır.

Ordumuzun döyüş qabiliyyəti ilə bərabər, vətənpərvərlik ruhu da yüksəkdir. Biz öz torpağımızdayıq, bura Azərbaycandır. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır. Biz öz torpağımızdayıq. Heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik. Aprel döyüşləri bunu bir daha sübut etdi.

1994-cü ilin yanvar ayında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmiş, 22 kənd işğalçılardan azad edilmişdi. Bu, böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu bizim əzəli torpağımızdır, tarixi

torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq.

Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə – bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik. Sizə eşq olsun! Azərbaycan inkişaf edəcək və biz ərazi bütövlüyümüzü bərpa edəcəyik! Sağ olun.

## HORADİZDƏ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ YENİ QƏSƏBƏDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*12 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Füzuli rayonunun Horadiz şəhərində məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə yaradılan şəraitlə tanış olmuşdur.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma yurdlarından qovularaq, qaçqın və məcburi köçkünə çevrilən soydaşlarımızın yeni evlər və mənzillərlə təmin olunması istiqamətində son illər əhəmiyyətli tədbirlər görülür. 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 2,9 milyon kvadratmetr yaşayış sahəsi olan 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. İndiyədək 50 min ailə və ya 250 min qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılıb. Qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılmasına 2,3 milyard manat vəsait sərf olunub. Bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün son 23 ildə 6,1 milyard manat vəsait xərclənib. Son 13 ildə məcburi köçkünlərə aylıq yemək xərci üçün verilən müavinətin məbləği 4 dəfə, kommunal xidmətlərə görə vəsaitin məbləği isə 4,5 dəfə artırılıb. Son 13 ildə 2000 nəfərdən çox məcburi köçkünə sahibkarlıq subyektinin investisiya layihələrinin maliyyələşdirilməsinə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 40 milyon manat güzəştli kredit verilib. Məcburi köçkünlər arasında yoxsulluq həddi son 13 ildə 75 faizdən 12 faizə düşüb.*

*Yalnız bu ilin 10 ayında Sabirabad rayonunda fin tipli qəsəbələrdə müvəqqəti məskunlaşmış 440, Qazaxdakı 304, Zaqataladakı 135 məcburi köçkün ailəsinin həmin rayonlarda yeni salınmış qəsəbələrə və Bakının Ramana qəsəbəsində inşa edilmiş beşmərtəbəli binaya 50 məcburi köçkün ailəsinin, Sumqayıt şəhərinin Hacı Zeynalabdin Tağıyev qəsəbəsində 50 hərbçi ailəsinin yeni yaşayış binasına köçürülməsi təmin edilib. Prezidentin ehtiyat fondundan ayrılan vəsait hesabına Abşeron rayonu ərazisində 44 hazır mənzil alınıb, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərdəkandakı əlillər üçün pansionatında müvəqqəti məskunlaşan məcburi köçkünlərin bu ilin noyabrında buraya köçürülməsi təmin ediləcək.*

*İndi Bakı da daxil olmaqla, Tərtər, Beyləqan, Şirvan, Sumqayıt, Kürdəmir və Ucarda qəsəbə, məhəllə və yaşayış komplekslərinin layihə-smeta sənədləri hazırlanır. Bundan əlavə, Gəncə, Goranboy, Bərdə və Ağcabədidə yeni layihələndirmə işləri üçün müvafiq torpaq sahələri ayrılıb. Bu ilin proqramına əsasən Horadizdə 400 məcburi köçkün ailəsi üçün yeni qəsəbə salınıb.*

*Dövlət başçısına bildirildi ki, 417 hektar sahəni əhatə edən yeni qəsəbədə 400 ev, məktəb, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, klub-icma mərkəzi, poçt binası tikilib. Bu qəsəbəyə ölkə üzrə mövcud olmuş 16 fin tipli qəsəbədən və Füzuli rayonunda olan sonuncu fin tipli qəsəbədə müvəqqəti məskunlaşmış məcburi köçkünlər köçürüləcəklər.*

*Prezident İlham Əliyev qəsəbədəki evlərdən birində yaradılan şəraitlə tanış oldu.*

*Bildirildi ki, bütün zəruri sosial-texniki infrastruktur obyektləri ilə birlikdə salınan qəsəbədə 400 evin ümumi yaşayış sahəsi 21511 kvadratmetrdir. Mənzillərdən 20-si birotaqlı, 200-ü ikiotaqlı, 168-i üçotaqlı, 12-si isə dördotaqlıdır. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun sifarişi ilə aparılan tikinti işləri zamanı zəruri infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilib.*

*Qəsəbədə 120 yerlik uşaq bağçası da tikilib. İkimərtəbəli bağça hər cür avadanlıqla təchiz olunub.*

*Dövlətimizin başçısı bağçada uşaqların əyləncəsi və istirahəti üçün yaradılan şəraitlə tanış oldu. Burada balacaların təlim-tərbiyəsi üçün bütün tələblər nəzərə alınıb. Bağçanın musiqi zalında da hər cür şərait mövcuddur.*

*Qəsəbədə məktəblə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, bu təhsil ocağı 320 şagird yerlikdir. Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Bundan başqa, burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərə qayğısını və onlarla görüşlərini əks etdirən fotostendlər yaradılıb. Burada aprel döyüşlərində ordumuzun qələbəsini əks etdirən fotolardan ibarət guşə və indiyədək istifadəyə verilmiş yeni qəsəbələrin fotostendləri, akt zalında müxtəlif tədbirlərin keçirilməsi üçün bütün imkanlar var.*

*Məktəbin hərbi kabineti əyani vəsaitlərlə zənginləşdirilib.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev burada Heydər Əliyev adına Ali Hərbi Məktəbin, Dövlət Sərhəd Xidməti Akademiyasının, Cəmşid Naxçıvanski adına Hərbi liseyin Füzulidən olan kursantları və orta məktəb şagirdləri ilə görüşdü.*

**K u r s a n t:** Cənab Ali Baş Komandan, Azərbaycan Respublikasının hərbi məktəblərinin kursantları Sizinlə görüşə hazırdır.

Möhtərəm Prezident, cənab Ali Baş Komandan! Azərbaycan Respublikası vətəndaşlarının ən böyük arzusu işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad olunmasıdır. Bu mənim də ən böyük arzumdur. Məhz ona görə də məktəbli vaxtlarımdan hərbçi olmaq qərarına gəlmişəm. Sərhədçi peşəsinə olan rəğbətim və marağım məni Dövlət Sərhəd Xidməti Akademiyasına gətirdi. Akademiyada yaratdığınız ideal şəraitə görə Sizə təşəkkürümüzü bildiririk. Sizə söz veririk ki, etimadınızı öz şərəfli xidmətimizlə doğruldacaq, Azərbaycan Respublikasının Prezidentinə, dövlətinə və xalqına daim sədaqətlə xidmət edəcəyik.

**İ l h a m Ə l i y e v:** Sağ ol. Əyləş.

**M ə k t ə b l i:** Cənab Ali Baş Komandan, mən Füzuli rayonunun Horadiz şəhərindəki Mais Səfərov adına 1 saylı tam orta məktəbin şagirdiyəm. Valideynlərimin anadan olduğu Füzuli şəhəri hazırda düşmən tapdağı altındadır. Mən belə bir qərara gəlmişəm ki, hərbçi olum, torpaqlarımızın azadlığı uğrunda mübarizədə iştirak edim.

**K u r s a n t:** Cənab Ali Baş Komandan, Azərbaycan Respublikasının hər bir vətəndaşı kimi, mən də istəyirəm ki, işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad edək. Məhz buna görə hərbçi peşəsini seçmişəm. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təyyarəçi ixtisası üzrə təhsil alıram. Təyyarəçi olmaq istəyimin səbəbi odur ki, məhz bir təyyarəçinin gördüyü iş bir hərbi hissənin gördüyü işə bərabərdir. Məhz buna görə də düşmənə kiçik zərbə deyil, böyük zərbə endirmək istəyirəm.

**İ l h a m Ə l i y e v:** Ölkəmizin hərbi potensialı gündən-günə güclənir. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu prosesi uğurla gedir. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Bu gün Azərbaycan Ordusunda olan texnika, silah-sursat ən yüksək texnologiyalara malikdir.

Döyüş qabiliyyətimiz, peşəkarlıq artır, kadr potensialı da güclüdür və sizin kimi gənclər gələcəkdə ordumuzun, bütün hərbi birləşmələrimizin inkişafında öz rolunu oynayacaq.

Siz hərbçi peşəsini seçmisiniz. Bu çox şərəfli peşədir. Bu peşə ölkəmizə, dövlətimizə lazımdır. Bu ərazi işğal altında idi. 1994-cü ildə Azərbaycan Ordusu uğurlu hərbi əməliyyat keçirərək, bu ərazini və Füzuli rayonunun digər ərazilərini işğalçılardan azad etmişdir. İndi bu ərazilərdə binalar tikilir, qəsəbələr salınır, inkişaf gedir. Bu, ölkəmizin gücünü göstərir ki, biz işğaldan azad edilmiş torpaqlarda belə yüksək səviyyəli şərait yarada bilmişik.

Bu il Azərbaycan Ordusu növbəti tarixi qələbə qazanmışdır. Füzuli rayonunda Lələtəpə zirvəsini işğalçılardan təmizləmə

əməliyyatı bizim şanlı tariximizdir. Biz ordumuzla fəxr edirik. Şəhidlərimiz Vətən, torpaq uğrunda qan töküblər. Biz işğala son qoymalıyıq və qoyacağıq.

Ordumuzun gücü ilk növbədə, ordumuzda hökm sürən vətənpərvərlik ruhundadır. Döyüş qabiliyyətimiz də, Vətən sevgisi də buna bağlıdır. Hər bir Azərbaycan gənci, hər bir vətəndaş vətənpərvər olmalıdır, Vətəni hər şeydən çox sevməlidir və Vətən uğrunda öz qəhrəmanlığını göstərməlidir. Bizim ordumuz belə ordudur, bizim hərbçilərimiz belə hərbçilərdir. Biz ordumuzla, hərbçilərimizlə fəxr edirik. Sizin qarşınızda çox gözəl nümunələr var. Bu gün Lələtəpə ərazisində olarkən, düşmənlə üz-üzə dayanan hərbçilərlə görüşərkən bir daha gördüm ki, bizim gənclərimiz nə qədər vətənpərvərdir, peşəkardır, Vətənə bağlıdır. Peşəkarlıq, nizam-intizam, vətənpərvərlik, döyüş qabiliyyəti – bunlar bizim ordumuzun böyük üstünlüyüdür. Bu gün düşmənin istənilən hədəfini məhv etməyə qadirik. Aprel döyüşləri ordumuzun gücünü bir daha göstərdi.

Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram. Çox şadam ki, uşaqlar, gənclər orduda xidmət etmək üçün böyük maraq göstərirlər. Siz hərbçi peşəsini seçərək, ölkəmizin hərbi potensialını gücləndirəcəksiniz. Sizə uğurlar arzulayıram. Həmişə Vətənə bağlı olun. Sağ olun.

*Dövlətimizin başçısı burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Füzuli rayonuna səfərlərini əks etdirən videoçarxa baxdı.*

*Azərbaycan Prezidenti məktəbin idman zalında gənc idmançıların çıxışlarını izlədi, onlarla xatirə şəkli çəkdirdi.*

*Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasındadır. Bu siyasət təkcə paytaxtı deyil, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə öz nadirliyi ilə seçilir.*

*Məlumat verildi ki, qəsəbənin elektrik, qaz, içməli və suvarma suyu ilə təchizatı yüksək səviyyədə qurulub. Bütün zəruri infrastruktura malik qəsəbədə yol-küçə şəbəkələrinin tikintisi də uğurla yerinə yetirilib. Bu yaşayış massivi respublika üzrə qaçqın və məcburi köçkünlər üçün salınan 95-ci qəsəbədir.*

*Qəsəbədə yaradılan şəraitlə tanışlıqdan sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri və məcburi köçkünlər ilə görüşdü.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Sizi ürəkdən salamlayıram. Füzuli rayonunda yenidən olmağımdan çox məmnunam. Bu gün 400 köçkün ailəsi üçün yeni salınmış qəsəbənin açılışını qeyd edirik. Gözəl qəsəbədir, bütün şərait yaradılıb. Məktəb, uşaq bağçası, tibb məntəqəsi, gözəl fərdi evlər tikilib, təbii ki, infrastruktur layihələri icra edilib, içməli su, qaz, elektrik xətləri çəkilib, yollar salınıb.

İnşaatçılar da yaxşı işləyiblər. Mən onları da salamlayıram, onlara öz minnətdarlığımı bildirmək istəyirəm. İnşaatçılar son illər ərzində məcburi köçkünlər üçün 95 qəsəbə salıblar. Bu qəsəbələr yüksək səviyyədə qurulub, bütün şərait yaradılıb. Artıq bu, Azərbaycan standartıdır. Burada yaradılmış məktəbin, uşaq bağçasının binaları, fərdi evlər zövq oxşayır. Ona görə mən inşaatçıları da salamlayıram, köçkünlərə də öz hörmətimi bildirmək istəyirəm.

Bildiyiniz kimi, Azərbaycan dövləti məcburi köçkünlərin vəziyyətini yaxşılaşdırmaq və məşğulluğunu artırmaq üçün müntəzəm olaraq ciddi tədbirlər görür. 2004-cü ildə müvafiq proqram qəbul edilmişdir. 2007-ci ildə bu proqrama əlavələr edilib. Bu proqramın icrası uğurla davam edir. Qeyd etdiyim kimi, 95 qəsəbə salınıb, təkcə Füzuli rayonunda 16 qəsəbə salınıb. Bu illər ərzində ancaq tikinti işlərinin aparılması üçün 2 milyard manatdan çox vəsait ayrılıb. Bütövlükdə isə məcburi köçkünlərə ayrılmış vəsait 6 milyard manatdan çoxdur. Bu bir daha onu

göstərir ki, Azərbaycan dövləti öz vətəndaşlarına, xüsusilə işğaldan əziyyət çəkən vətəndaşlarına böyük diqqətlə yanaşır, qayğı göstərir. Bu bir daha Azərbaycan dövlətinin siyasətini əks etdirir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Məcburi köçkünlər uzun illərdir ki, işğaldan əziyyət çəkir. Köçkünlər arasında yoxsulluq hələ 13 il bundan əvvəl 75 faiz səviyyəsində idi. Bu gün köçkünlər arasında yoxsulluq 12 faizə düşübdür, ancaq ölkə üzrə orta göstərici 5 faizdir. Hələ görüləsi işlər çoxdur. Təbii ki, köçkünlər üçün ilk növbədə, yaşayış yerləri inşa edilməli idi və edilir. Onların məşğulluğu ilə bağlı da çox ciddi addımlar atılır.

Bu istiqamətdə bundan sonra da addımlar atılacaq. Gələn il yeni qəsəbələr salınacaqdır. Dövlət Neft Fondundan maliyyələşən bu qəsəbələrin inşası, əlbəttə ki, köçkünlərin vəziyyətini bir qədər yüngülləşdirir. Bu günə qədər Dövlət Neft Fondundan ayrılmış vəsait hesabına 250 min köçkün yeni evlərlə, mənzillərlə təmin edilib. Bu bir daha onu göstərir ki, bizim ən böyük təbii sərvətimiz olan neft Azərbaycan xalqının sərəncamındadır, Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Əgər bu imkanlar olmasaydı, belə gözəl qəsəbələr salmaq mümkün olmazdı. Məhz güclü iqtisadi imkanlarımız bu şəraiti yaradır. Biz öz təbii resurslarımızdan səmərəli şəkildə istifadə edirik. İlk növbədə, sosial layihələrə diqqət yetiririk, köçkünlərin problemlərini həll etməyə çalışırıq.

Sonuncu çadır şəhərciyi 2007-ci ildə ləğv edildi. Bu mənim 2003-cü ildə seçkiqabağı vədlərimdən biri idi ki, 5 il ərzində çadır şəhərcikləri ləğv ediləcək. Biz buna 4 il ərzində nail olduq. Bu gün isə fin tipli sonuncu qəsəbə ləğv olunur. Fin tipli 16 qəsəbə var idi, indi onların biri də qalmayıb. Fin tipli sonuncu qəsəbənin yerində Füzuli köçkünləri üçün yeni müasir qəsəbə salınacaq. Beləliklə, Füzuli rayonunun köçkün problemi, demək olar ki, öz həllini tapacaq.

Bu gün Füzuli rayonu ərazisində 71 min insan yaşayır. Rayon əhalisinin ümumi sayı isə 128 mindir. Yeni salınmış 16 qəsəbədə vətəndaşlar məskunlaşıblar. 1994-cü ildə işğaldan

azad edilmiş ərazilərdə yeni qəsəbələr salınıb, o cümlədən bu qəsəbə. Horadiz şəhəri vaxtilə qəsəbə idi, biz ona şəhər statusu verdik. 1994-cü ildə işğaldan azad edilmiş torpaqlarda, bax, belə gözəl şərait yaradılıb. Bu bizim gücümüzü göstərir. Ermənistana bəlkə də ən böyük zərbə elə budur. İşğal edilmiş Dağlıq Qarabağda və digər torpaqlarımızda məskunlaşan ermənilər bu gün səfalət içində yaşayırlar. O görüntülər bəzən televiziya və internet vasitəsilə yayımlanır – səfalət, yoxsulluq, işsizlik, ümidsizlik. Bizim torpağımızı zəbt ediblər, ancaq o torpaqlarda normal həyat qura bilməyiblər və bilməyəcəklər. Çünki o torpaq onlara məxsus deyil. Bu bizim dədə-baba torpağımızdır. Biz o torpaqlara qayıdacağıq, necə ki, buraya – Horadizə qayıtdıq, Lələtəpəyə qayıtdıq. Digər torpaqlara da qayıdacağıq. Ona görə işğaldan azad edilmiş ərazilərdə ən müasir şəraiti yaratmaq bizim siyasətimizi əks etdirir və gücümüzü göstərir.

Bu gün Horadiz abad, inkişafda olan şəhərdir. Horadizdə bir çox sosial obyektlər inşa edilib – Olimpiya İdman Kompleksi, Muğam Mərkəzi, Rəsm Qalereyası, Diaqnostika Mərkəzi, Gənclər Mərkəzi, Heydər Əliyev Mərkəzi, digər obyektlər. Füzuli rayonunun bütün infrastruktur məsələləri öz həllini tapıbdır. İçməli su, elektrik enerjisi məsələləri həll olunub. Bir neçə il bundan əvvəl mənim iştirakımla 25 meqavat gücündə su-elektrik stansiyası açılıb ki, bu nəinki Füzuli rayonuna, ətraf bölgələrə də enerji verir. Qazlaşdırma Füzuli rayonunda 100 faizdir. Biz heç Azərbaycanda hələ 100 faizə çatmamışıq, təqribən 90–95 faizə yaxınlaşırıq, Füzulidə bu, 100 faizdir. Kəndlərarası 3 böyük yol layihəsi icra edilib. Kəndlərin, demək olar ki, hamısı yollarla təmin edilib. Bu gün daha bir yolun açılışını etdik. Bax, budur bizim dövlətimizin gücü və bizim siyasətimiz.

Bu gün mənə məruzə edildi ki, Füzuli rayonunda 120 min ton taxıl yığılıbdır. Ancaq sovet vaxtında cəmi 40 min ton taxıl yığılırdı. Hələ rayonun yarısı işğal altındadır. Düzdür, o illərdə 120 min ton üzüm yığılırdı. İndi üzüm istehsalı yoxdur. O vaxt

200 tondan çox barama yetişdirilirdi. Biz baramaçılığı indi bərpa edirik. Biz o səviyyəyə yəqin ki, bir neçə ildən sonra çatacağıq. Yəni Füzuli rayonunun potensialı çox böyükdür. İnsanlar da zəhmətkeşdir, vətənpərvərdir. Ona görə rayonun gələcək inkişafı ilə bağlı atılacaq addımlar Füzulini daha da gücləndirəcək. İndi kənd təsərrüfatının digər sahəsi – pambıqçılıq sürətlə inkişaf edir. Keçən il heç pambıq istehsalı yox idi.

**A l ı A l ı y e v** *(Füzuli Rayon İcra Hakimiyyətinin başçısı):* Keçən il olmayıb, bu il 300 tondan artıqdır, hələ yığacağıq da.

**İ l h a m Ə l i y e v:** 300 tondan artıq, gələn il yəqin ki, bir neçə min ton olacaq.

**A l ı A l ı y e v:** Bəli, cənab Prezident, gələn il üçün 2000 hektardan çox sahədə pambıq əkiləcək. Müqavilələr də bağlanılıb.

**İ l h a m Ə l i y e v:** Müqavilələr bağlanılıb, o cümlədən aprel ayında işğaldan azad edilmiş torpaqlarda da əkin işləri aparılır. Bunu da biz artıq təmin edirik. Gələcəkdə baramaçılığın da çox böyük potensialı var. Baramaçılıq elə bir sahədir ki, 30–40 gün ərzində insanlara yaxşı pul qazanmaq imkanı verir. Özü də dövlət subsidiyalar verir, tinglərlə təmin edir. Yəni dövlət bütün işləri görür ki, insanlar yaxşı pul qazansınlar, dolanışıqları yaxşı olsun. Ona görə biz bu il 70 ton barama tədarük etmişik, keçən il 200 kiloqram idi. Gələn il bir neçə yüz ton barama istehsal olunacaq və gələcəkdə minlərlə ton barama tədarük ediləcəkdir. Bu da bilavasitə insanların güzəranına müsbət təsir göstərəcək. Füzuli rayonunda həm yeni sahələrdə, həm həyətyanı əkin sahələrində baramaçılıq sürətlə inkişaf edəcək. Bu məqsədlə Şəki İpək kombinatının fəaliyyəti bərpa edildi. Kombinatın yenidən qurulması ilə bağlı planlar var. Bu kombinat Azərbaycanda tədarük edilən bütün baramanın emalı ilə məşğul olacaq.

Mən 6-cı dəfədir ki, Füzuli rayonuna prezident kimi səfər edirəm. Hər dəfə burada olarkən, bu inkişafı, yenilikləri görəndə ürəkdən sevinirəm. Bu gün «Azərxalça» qurumunun Xalça kombinatında olmuşam. Bu da yenilikdir. «Azərxalça» yeni yaradılmış təşkilatdır. Bu təşkilatın qarşısında vəzifə

qoyulub ki, Azərbaycanın müxtəlif yerlərində müasir xalçaçılıq sənayesi bərpa edilsin. Artıq 10 rayonda bu işlər görülür. Onlardan biri də Horadiz şəhəridir. Bu kombinatda 160 insan çalışır, onların hamısı qadınlardır, yaxşı maaş alırlar və xalçaçılıq sənətini də yaşadırlar. Gələcəkdə bu, ölkəmizdə böyük valyuta ehtiyatının yaradılmasına imkan verəcək. İcra hakimiyyətinin başçısı məruzə etdi ki, indi Füzulidə digər sahələrdə də işlər görülür. Aqroparkın yaradılması layihəsi var, icra edilir, istixanalar salınır, südçülük təsərrüfatı yaradılır.

**A l ı A l ı y e v:** Bəli, aqroparkın layihəsi var, işlər gedir. Tikinti işlərinin 40 faizi həyata keçirilib. Sizin xeyir-duanızla 4 iri taxılçılıq təsərrüfatı yaratmışıq. Camaat bilir ki, həmin torpaqlar qeyri-müəyyən adamların əlində idi. Bu gün ermənilər də görürlər ki, biz orada əkirik, biçirik, becəririk. Bu da bizə 10–12 min ton məhsul verəcək.

**İ l h a m Ə l i y e v:** Bəli, mənim göstərişimlə qısa müddət ərzində 200 min hektardan çox torpaq sahəsi o torpaqları qanunsuz şəkildə zəbt edənlərin əlindən alınıb və insanlara verilib. Əgər kimsə boş torpağı zəbt edibsə, bilsin ki, əlindən alınacaq. Əgər əlindən alınmağını istəmirsə, əkib-becərsin, həm özü pul qazansın, həm də ki, insanlara xeyir versin. Ancaq o torpaqları zəbt edənlər, görünür, maraqlı deyillər ki, orada nəsə iş görsünlər. Görünür, onların pulu o qədərdir ki, o torpaqlardan pul qazanmaq fikrində deyillər. Ona görə bu proses davam edəcək. Biz yalnız birinci mərhələdə qanunsuz zəbt edilmiş 200 min hektar torpağı insanlara qaytarmışıq. Bu gün kənd təsərrüfatında gedən proseslər artıq öz bəhrəsini verir. Biz pambıqçılığı bərpa etmişik. Hava şəraitinin pisləşməsinə baxmayaraq – oktyabr ayında aramsız yağışlar yağırdı, qoymurdu ki, məhsul yığılsın – bu il 60 min ton, yəni keçən illə müqayisədə 2 dəfə çox pambıq tədarük edilib. Amma hələ ki, yığım gedir və biz istədiyimiz rəqəmə çatacağıq. Gələn il isə 250 min ton, bəlkə də 300 min ton pambıq yığılacaq. Biz pambıqçılığın şöhrətini qaytaracağıq. O cümlədən Füzuli rayonunda pambıqçılığın inkişafı üçün çox gözəl imkanlar var.

Bu, insanlar üçün məşğulluq deməkdir, hər bir rayonun inkişafı deməkdir. Gələcəkdə bizim planlarımız ondan ibarətdir ki, hər bir rayon özünü təmin edə bilsin. Bu gün rayonların bir çoxu dotasiya ilə yaşayır. İndi Azərbaycan dövlətinin gücü, maddi imkanları var, biz bunu edirik və edəcəyik. Ancaq hər bir rayon çalışmalıdır ki, öz hesabına yaşasın. Buna imkan var.

Bu gün mən hərbçilərlə görüşdüm. Lələtəpə ərazisində onlarla bir yerdə oldum, onları təltif etdim. Onlara dedim və bir daha sizə, bütün Azərbaycan xalqına demək istəyirəm ki, Lələtəpə əməliyyatı bizim şanlı tariximizdir. Aprel döyüşləri Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun gücünü göstərdi. Düşmənə döyüş meydanında sübut etdik ki, biz güclüyük. Biz ermənilərin uzun illər ərzində yaratdıqları mifi, yalanı dağıtdıq ki, guya onların güclü ordusu varmış. Bu gün döyüş meydanında biz sübut etdik ki, kimin ordusu güclüdür, kimin ordusu nəyə qadirdir. Bizim hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişlər. Biz şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralılarımız var. Mən hərbçilərə də dedim, sizə də demək istəyirəm ki, Hərbi Hospitalda onlara baş çəkərkən hamısı – bəziləri ağır vəziyyətdə idi – deyirdi: biz sağalan kimi döyüş bölgəsinə qayıdacağıq və Vətən uğrunda ölməyə də hazırıq. Bax, bizdə belə övladlar yetişib.

Müstəqillik dövründə Azərbaycan gəncləri böyük zirvələrə çatıb. Onlarda vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, döyüşkənlik ən yüksək səviyyədədir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Biz həm Füzuli və Cəbrayıl rayonlarında, həm də Ağdərə rayonunda bir çox strateji yerləri işğalçılardan azad etdik, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi olan yerləri də qaytarmışıq, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazilərinin bir hissəsi işğalçılardan təmizlənib, azad edilib. İndi Lələtəpə ərazisindən on minlərlə hektar torpağa nəzarət edirik. Erməni ordusu orada heç tərpənə də bilmir. Bu gün ordu quruculuğu prosesi uğurla davam edir.

Aprel döyüşlərindən sonra növbəti tapşırıqlar verildi, maliyyə vəsaiti ayrıldı. Ordumuza nə qədər lazımdırsa, o qədər də vəsait

ayrılacaq. Ermənistan isə başqasının yardımına möhtacdır. Başqa mənbələrdən pul, kredit, silah və digər materiallar verilməsə, Ermənistan nə iqtisadi cəhətdən, nə də hərbi cəhətdən ayaqda dura bilməz. Bunu hamı yaxşı bilir. Dünya da bilir. O məsələyə bir daha qayıtmaq istəyirəm, onlar əllərində, nəzarətlərində olan müxtəlif kütləvi informasiya vasitələri ilə rəy formalaşdırmağa, mif, əfsanə yaratmağa çalışırdılar ki, guya onların yenilməz ordusu Azərbaycana zərbə vurub, torpaqları işğal edib. Ancaq həyat göstərir ki, xarici yardım olmadan onlar nəinki işğal edə, heç tutduqları torpaqları saxlaya bilməzlər. Aprel döyüşləri onu göstərdi ki, Azərbaycan Ordusu heç nəyə baxmadan uğurlu əks-hücum əməliyyatı keçirərək, torpaqlarımızı işğalçılardan azad edibdir. Yəni biz öz hesabımıza yaşayırıq. Heç kimdən asılı deyilik və imkan daxilində öz həyatımızı qururuq.

Bu gün Azərbaycan dünya miqyasında uğurlu inkişaf yolu ilə gedən bir ölkə kimi tanınır. Bizim həm sosial, həm iqtisadi, hərbi quruculuq, enerji təhlükəsizliyi sahələrində, ictimai proseslərin inkişafı ilə, multikulturalizmlə, dinlərarası dialoqla bağlı təcrübəmiz öyrənilir. Bütün bu məsələlərdə Azərbaycan nümunə kimi göstərilir və biz bu yolla gedirik.

Bir daha qeyd etmək istəyirəm ki, gələcəkdə ordumuza nə qədər silah-sursat lazımdırsa, Azərbaycanda o qədər də istehsal olunacaq və idxal ediləcəkdir. Bizim torpaqlarımız işğal altındadır. Aprel döyüşləri onu göstərdi ki, bu işğala son qoyulmalıdır. Ermənistan rəhbərliyi başqasının gücünə güvənməsin. Burada üzbəüz mövqelərimiz arasında bir neçə yüz metr məsafə var, hətta ondan da az. May ayında Tərtər rayonunda olarkən, mənim durduğum yerdən erməni hərbi mövqelərinə 50–60 metr məsafə var idi. Əgər istəyirlər ki, məsələ sülh yolu ilə həll olunsun və erməni xalqı itki verməsin, torpaqlarımızdan çəkilsinlər. Biz də müharibə istəmirik, ancaq biz torpaqlarımızı istəyirik. İşğalçılardan azad edilmiş, bu gün durduğumuz, bax, bu yerdə – Lələtəpədə olmağımız onu göstərir ki, biz o günü yaxınlaşdırırıq.

Siz – burada yaşayan insanlar böyük hörmətə layiqsiniz. Siz döyüş bölgəsində, düşmənlə üz-üzə yaşayırsınız. Buna baxmayaraq, qurursunuz, yaradırsınız, uşaqlar böyüdürsünüz. Mən sizə minnətdaram. Sizi salamlayıram, sizə yeni uğurlar arzulayıram.

**Elnarə Məmmədova** *(məcburi köçkün):* Hörmətli cənab Prezident, bizim Füzuli torpağına xoş gəlmisiniz! Sizin başqa rayonlara, o cümlədən Füzuliyə səfərləriniz nəticəsində bütün rayonlar abadlaşır, gözəlləşir. Haraya gedirsiniz, oraya uğur gətirirsiniz. Biz 20 ildən artıq fin tipli qəsəbədə çox ağır şəraitdə yaşamışıq, vaqonlarda dərs keçmişik. Ancaq nailiyyətlərimiz də çox olub. Bu, fin tipli 16-cı qəsəbədir ki, ləğv etmisiniz. Rayonumuzda məcburi köçkünlər üçün 16 qəsəbə salınıb. Bütün bunlar çox qısa bir müddətdə uğurla icra olunub. Yaradılan bu şəraitə görə bütün məcburi köçkünlər adından Sizə dərin təşəkkürümü bildirirəm.

Cənab Prezident, ölkəmizin əhalisinin sayının az və ərazisinin kiçik olmasına baxmayaraq, Azərbaycanda 1 milyondan artıq qaçqın və məcburi köçkün var. Onların problemləri ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində olduğu kimi, Sizin rəhbərliyinizlə də çox uğurla həll olunur. Ancaq 550 milyonluq Avropa 1 milyon miqrantın əlində əsir-yesir qalıb. Siz qısa bir müddətdə Azərbaycanı çox yüksək səviyyədə inkişaf etdirmisiniz və abadlaşdırmısınız.

Cənab Prezident, inanırıq ki, biz – məcburi köçkünlər Sizin siyasətiniz nəticəsində tezliklə öz doğma torpaqlarımıza qayıdacağıq. Sizi əmin edirik ki, bizim üçün tikdirdiyiniz, övladlarımıza hədiyyə etdiyiniz bu gözəl məktəb binasında xalqımıza, Vətənimizə vətənpərvər övladlar yetişdirəcəyik. Çox sağ olun. Allah Sizi qorusun.

**İlham Əliyev:** Sağ olun.

**Məcnun Namazəliyev** *(Rayon Ağsaqqallar Şurasının sədri):* Cənab Prezident, xoş gəlmisiniz! Sizi Füzulidə salamlamaq bizim üçün həmişə fəxrdir, iftixardır.

Cənab Prezident, mən Sizin gəlişinizi ikiqat bayram hesab edirəm. Prezidentimiz Füzulidədir. Allah Sizi qorusun. Həm də

bu gün ulu öndərin əli ilə yazılmış, ümumxalq səsverməsi ilə təsdiq edilmiş Azərbaycan Konstitusiyası Günüdür. Bu münasibətlə Sizi təbrik edirəm.

Cənab Prezident, füzulililər çox yaxşı yaşayırlar. Hər şeyimiz – evimiz, güzəranımız, çörəyimiz, işimiz var. Bunların hamısını bizim üçün Siz yaratmısınız. Biz bütün xidmətlərdən pulsuz istifadə edirik. Hələ üstəlik çörəkpulu da verirsiniz. Çox sağ olun.

Füzuli camaatı qədirbiləndir, Sizi çox sevirik. Cənab Prezident, Füzuli camaatı tarixən işləyən olub, rahat camaat olub. Bizim Füzuli keçmiş dövrdə 27 Sosialist Əməyi Qəhrəmanı yetişdirib. Azərbaycanda 274 Sosialist Əməyi Qəhrəmanı olub. Onların 27-si Füzulidəndir. Bu gün də o cür zəhmətkeşlərimiz var. Siz sahibkarlarımız, torpaqda işləyən hər bir adam, fermerlər üçün çox gözəl şərait yaratmısınız. Torpaq, toxum, subsidiya, kredit, texnika, gübrə, yanacaq verirsiniz, təkcə qalır işləmək. Buna görə Sizə çox təşəkkür edirik.

Füzuli Azərbaycanda 5 rayondan biridir ki, 100 min tondan çox taxıl istehsal edir. Siz indicə dediniz, bu il 121 min tondur. Biz son 6 ildə 650 min tona yaxın taxıl vermişik. Heç SSRİ dövründə 1930-cu ildən 1990-cı ilə qədər Füzuli 650 min ton taxıl istehsal etməyib.

Cənab Prezident, başqa sahələrimizdə də uğurlarımız çoxdur. Sizin bir gözəl tapşırığınız var ki, biz qeyri-neft sektorunu gücləndirək və idxaldan asılılığımızı azaldaq. Füzulililər bunu yaxşı bilirlər. Pambıqçılığı, üzümçülüyü, baramaçılığı da inkişaf etdiririk. Heyvandarlıq məhsulları istehsalında da yaxşı nəticələrimiz var.

Cənab Prezident, Sizin tapşırığınızla Horadiz–Bakı qatarı işləyir. Füzulidən Bakıya hər gün avtobuslar, taksilər gedir. Hər gün camaat özünün istifadə etdiyindən əlavə, Bakıya yüzlərlə balon qatıq, süd, pendir, yağ, toyuq, yumurta, ət daşıyır. Həm qohumlarına pay verir, həm də satıb ehtiyaclarını ödəyirlər. Bu gün Füzulidə avtomobili olmayan ailə çox azdır. Bəzilərinin 2-3

maşını var. Çox sağ olun, cənab Prezident, bu inkişaf sizin sayənizdə baş verib.

Cənab Prezident, Siz sərəncamınızla Horadizə şəhər statusu vermisiniz. Horadiz, sözün həqiqi mənasında, cənnətə çevrilib. Siz keçən səfərinizdə bir söz demişdiniz: «Horadiz gülüstana çevrilib». Bu gün biz həmin sözləri Horadizin görməli yerlərinə şüar kimi yazmışıq.

Bu gün Horadizdə ulu öndərin adını daşıyan çox yerlər var – prospekt, park, mərkəz, abidə. Hər gün orta məktəblərin tarix dərsləri Heydər Əliyev Mərkəzində keçirilir. Kəndlərdən uşaqları avtobusla oraya gətirirlər ki, ulu öndərin həyat yolunu və fəaliyyətini əyani şəkildə öyrənsinlər. Biz Azərbaycanın tarixini, keçdiyi yolu camaatımıza, uşaqlarımıza əyani şəkildə çatdırırıq. Ulu öndərin abidəsinin önünə əsgərlərimiz gəlirlər, Vətənə sədaqət andı içirlər.

Cənab Prezident, son illər, xüsusilə aprel hadisələrindən sonra Azərbaycan Ordusunun gücü dünyada məşhurdur. Bu Sizin sayənizdə mümkün olub. Ordumuz müasir texnika ilə təchiz olunub. Əsgərlərimiz üçün çox gözəl şərait yaradılıb. Yeməkləri, yataqları bizimkindən də yaxşıdır. Hətta yaşı çatmayan gənclər də komissarlığa gedib xidmətə yollanmaq istəyirlər. Bu, əsl vətənpərvərlikdir.

Cənab Prezident, bu ilin aprel ayında Fransanın Altkirç şəhərinin meri, Senatın üzvü Horadizə gəlmişdi. Horadizlə qardaşlaşma müqaviləsi imzalandı. Həmin senator Horadizlə tanışlıqdan sonra ictimaiyyətin nümayəndələri ilə görüşdü. Dedi ki, bizim Altkirç şəhəri 75 il bundan qabaq İkinci dünya müharibəsi zamanı dağılıb, şəhərimizin bərpasını hələ tam qurtarmamışıq. Biz ona işğala məruz qalmış Horadizin şəkillərini göstərdik. Senator çox qısa müddətdə bu qədər gözəl, böyük bərpa işlərinin görülməsinə heyran qaldı. Bu işlərin hamısı Sizin tapşırığınızla görülüb. Siz gözəl bir kəlam söyləmisiniz: «Hər bir məmur vətəndaşın xidmətində durmalıdır». Bu, bir meyardır.

**İlham Əliyev:** Düzdür.

**M ə c n u n  N a m a z ə l i y e v:** Bəli, vətəndaş incidilə bilməz. Vətəndaşın evinə gedib soruşurlar ki, nə var, nə yox? Sonra kəndlərdə qəbullar təşkil edilir. Hamı Sizin tapşırığınızı canla-başla yerinə yetirir. Siz aprel hadisələrindən danışdınız, cənab Prezident. O müharibə cəmi 3-4 gün çəkdi. Adətən, görmüşük ki, düşmən güllə atanda camaat qaçıb gizlənir. Amma bizim camaatımız hamılıqla işləyirdi. Həmin günlərdə biz hamımız Horadizdə, kəndlərdə idik. Heç kimin əli işdən soyumamışdı. Əksinə, hamı ordumuzun uğurlarından ruhlanmışdı, bir-birini təbrik edirdi. Sanki müharibə getmirdi. Bir tərəfdə güllə, top mərmisinin səsi, tankların gurultusu eşidilirdi, bir tərəfdə isə camaat çox rahat işləyirdi. Çünki ordumuz irəli gedirdi. Cənab Prezident, Siz əmr etsəniz, ordumuz Qarabağı bir neçə günə işğaldan azad edə bilər. Allah Sizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

**M ə c n u n  N a m a z ə l i y e v:** Cənab Prezident, ulu öndərimizin çox qiymətli kəlamları var. Onlardan biri də «Azərbaycan dünyaya günəş kimi doğacaqdır» kəlamıdır. Bu kəlam ötən əsrin axırlarında gənclərin qurultaylarının birində deyilib. Bu gün Azərbaycan xalqı, o cümlədən bütün füzulililər də bilirlər ki, bizim günəşimiz başımızın üstündədir, o, cənab İlham Əliyevdir. Siz torpağımıza istilik, hərarət verirsiniz, səmamızı işıqlandırırsınız, havamızı isidirsiniz. Cənab Prezident, işıq istilik, həyat deməkdir. Siz bizə həyat verirsiniz, Allah Sizi qorusun. Biz çörəyimizi, güzəranımızı Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə tapmışıq. Biz həyatın, güzəranın, pulun nə demək olduğunu o kişinin dövründə görmüşük. İndi isə biz Sizin sayənizdə yaxşı yaşayırıq. Cənab İlham Əliyev bizim əbədi Prezidentimizdir. Biz cənab İlham Əliyevdən başqa Prezident tanımırıq. Cənab Prezident, Allah Sizi qorusun, Siz də bizi qoruyun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, xoş sözlərə görə sizə minnətdaram.

## Dövlət Rəsm Qalereyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Füzuli rayonunun Horadiz şəhərində Dövlət Rəsm Qalereyasının açılışında iştirak etmişdir.*

*Bu gün Azərbaycanda bütün sahələrdə olduğu kimi, mədəniyyətin inkişafı ilə bağlı ciddi addımlar atılır. İndi paytaxtla yanaşı, regionlarda da mədəniyyət ocaqları əsaslı təmir edilir və yeniləri tikilir. Bölgələrdə müasir tipli yeni mədəniyyət infrastrukturunun yaradılması isə ilk növbədə, bu sahənin regionlarda hərtərəfli inkişafına stimul verir. Bütün bu tədbirlər bir daha onu göstərir ki, qədim və zəngin mədəni dəyərlərə malik olan Azərbaycanda mədəniyyət məsələləri daim diqqətdə saxlanılır. Horadiz şəhərində Dövlət Rəsm Qalereyasının yaradılması da ölkədə mədəniyyət və incəsənətin inkişafına göstərilən diqqətin daha bir nümunəsidir.*

*Prezident İlham Əliyev qalereya binasının rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Diqqətə çatdırıldı ki, binanın sahəsi 324 kvadratmetrdir. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif illərdə Füzuli rayonuna səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb. Qalereyanın ikimərtəbəli binasında rəsm əsərlərinin nümayiş etdirilməsi üçün sərgi zalı fəaliyyət göstərir.*

*Belə bir qalereyanın Füzuli rayonunda tikilib istifadəyə verilməsi rəsmlə maraqlanan, bu sahəyə həvəs göstərən gənclər üçün son dərəcə böyük əhəmiyyət daşıyır. Gələcəkdə qalereyanın fondunun zənginləşdirilməsi də nəzərdə tutulub. Rəsm qalereyasında 25 nəfər daimi işlə təmin ediləcəkdir.*

## Horadiz şəhərində inşa edilən avtovağzal kompleksi ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Füzuli rayonunun Horadiz şəhərində inşa edilən avtovağzal kompleksi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevin yürütdüyü siyasətin mühüm hədəflərindən biri də Azərbaycanda yol-nəqliyyat sisteminin müasir-*

*ləşdirilməsidir. Bu sırada yeni yaradılan avtovağzalların xüsusi çəkisi vardır. Yeni və müasir səviyyədə inşa edilən bu nəqliyyat obyektlərinin sırasına daha biri əlavə olunub. Horadiz şəhərində yeni avtovağzal ən müasir tələblər səviyyəsində tikilib.*

*Dövlətimizin başçısı avtovağzalın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Füzuli Rayon İcra Hakimiyyətinin sifarişi əsasında tikilən avtovağzal kompleksinin ümumi ərazisi yarım hektardır. Müasir memarlıq üslubunda inşa olunan avtovağzal binasının tikinti sahəsi isə 450 kvadratmetrdir.*

*Binada sərnişinlərin istirahəti üçün lazımi şərait yaradılıb. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin müxtəlif illərdə Füzuli rayonuna səfərlərini əks etdirən fotolardan ibarət guşə vardır.*

*Avtovağzalda sərnişinlərin rahatlığını təmin etmək üçün 6 perron, 30 yerlik gözləmə zalı, ictimai-iaşə obyekti, həkim otağı inşa edilib. Burada ana və uşaq otağı da var. Kompleksin həyətində avtobuslara texniki xidmət göstərilməsi üçün açıq bokslar tikilib. Kompleksdə 25 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.*

*Azərbaycan Prezidenti avtovağzal binasının eyvanından Horadiz şəhərinin mənzərəsini seyr etdi.*

*Qeyd edək ki, dövlətimizin başçısının tapşırıqlarına əsasən, paytaxtla yanaşı, regionlarda da yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər müsbət nəticə verməkdədir. Belə avtovağzal kompleksinin yaradılması isə rayonun inkişafında mühüm rol oynayacaq.*

## BEYLƏQAN RAYONUNA SƏFƏR

*12 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Füzuli rayonuna səfərini başa çatdırdıqdan sonra Beyləqan rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev prezident İlham Əliyevə son vaxtlar rayonda görülən işlər, həyata keçirilən layihələr, o cümlədən abidənin yerləşdiyi Heydər Əliyev parkında yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, burada sakinlərin və qonaqların istirahəti üçün hər cür şərait yaradılıb, yaşıllıqlar salınıb.*

### Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Beyləqanda Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, muzeyin inşası cari il ərzində aparılıb. Rayonun daxili imkanları hesabına həyata keçirilən layihə çərçivəsində ümumi sahəsi 420 kvadratmetr olan bina tikilib. Zəruri infrastrukturla təchiz olunan muzeydə 129 eksponatın sərgilənməsi üçün hər cür şərait yaradılıb. Bayraq Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraqları, gerbləri, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur.*

*Azərbaycan Xalq Cümhuriyyətinə aid əsginaslar, Azərbaycan Respublikasının poçt markaları, müxtəlif güc nazirliklərinin zabitlərinin hərbi geyim formaları da burada sərgilənir. Muzeydə müstəqillik dövrümüzün tarixi hadisələrinə də geniş yer verilib.*

## Birinci Şahsevən–Əhmədli–Dünyamalılar avtomobil yolu ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də əsaslı yenidənqurma və bərpadan sonra istifadəyə verilən Birinci Şahsevən–Əhmədli–Dünyamalılar avtomobil yolu ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı yolun texniki göstəricilərini, görülən işləri əks etdirən stendlərə baxdı.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov yolun texniki-iqtisadi göstəriciləri barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Birinci Şahsevən–Əhmədli–Dünyamalılar avtomobil yolunun tikintisi prezident İlham Əliyevin 2013-cü ildə imzaladığı sərəncama əsasən həyata keçirilib. Yolun 22 kilometrlik hissəsinin açılışı 2014-cü ildə dövlətimizin başçısının iştirakı ilə olub. Cari ildə isə Birinci Şahsevən–Əhmədli–Dünyamalılar avtomobil yolunun tikintisinin başa çatdırılması «Azəravtoyol» ASC-yə həvalə edilib.*

*Bildirildi ki, dördüncü texniki dərəcəyə uyğun layihələndirilən yolun uzunluğu 39 kilometrdir. Hərəkət hissəsinin eni 6 metr olan yol 2 zolaqdan ibarətdir. Yol boyunca 80 suötürücü boru tikilib, 360 təhlükəsizlik dirəyi, müxtəlif yol nişanları və göstərici lövhələr quraşdırılıb. Ən əsası odur ki, 25 min əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən bu yolun tikintisi yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırmağa imkan verəcək.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

# «QARABAĞ TAXIL» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN ÖZƏL PİLOT TAXILÇILIQ TƏSƏRRÜFATININ FƏALİYYƏTİ İLƏ TANIŞLIQ ZAMANI BEYLƏQAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*12 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də «Qarabağ Taxıl» Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) özəl pilot taxılçılıq təsərrüfatının fəaliyyəti ilə tanış olmuşdur.*

*Son illərdə ölkəmizdə sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, icra olunan dövlət proqramları ölkənin sosial-iqtisadi inkişafının dinamikliyini göstərən amillərdəndir. Bu gün Azərbaycanda sahibkarlar dövlət tərəfindən həm mənəvi, həm siyasi, həm də iqtisadi dəstək alır. Bölgələrdə yeni zavod, fabrik və digər istehsal müəssisələrinin fəaliyyətə başlaması işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların potensialından düzgün istifadə mexanizmlərini də üzə çıxarır.*

*Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, həmçinin güzəştli kreditlər hesabına maliyyələşdirilən, müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrdən olan və ölkə əhalisinin keyfiyyətli ərzaq məhsullarına tələbatının ödənilməsinə xidmət edən iri və müasir müəssisələrin yaradılması xüsusi əhəmiyyəti ilə seçilir. Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq, ölkəmizdə müasir tipli müəssisələrin yaradılmasının miqyası genişlənib. Bu da aqrar sahədə sahibkarlığın inkişafını daha geniş şəkildə təşviq etməyə, rəqabətqabliyyətli kənd təsərrüfatı məhsullarının istehsalına, ixrac potensialının və məşğulluğun ar-*

*tırılmasına güclü təsir edib. Digər tərəfdən, belə müəssisələrin yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsinə, milli brendlərin yaradılmasına, kənd təsərrüfatı sahəsində əlaqələndirilmiş vahid sistemin, eləcə də istehsalçı-emalçı-istehlakçı münasibətlərinin formalaşmasına, aqrar sahədə ixtisaslı kadrların hazırlanmasına və yeni iş yerlərinin açılmasına geniş imkanlar yaradıb. Belə müəssisələrdən biri də «Qarabağ Taxıl» MMC-nin özəl pilot taxılçılıq təsərrüfatıdır.*

*Məlumat verildi ki, bu layihənin həyata keçirilməsinə 10 milyon manat dövlət güzəştli krediti verilib. Təsərrüfatda tutumu 20 min ton olan taxıl anbarı kompleksi, gücü saatda 100 ton olan qurutma sistemi və tutumu 6 min ton olan Logistika Mərkəzi yaradılıb. Dövlət investisiyaları hesabına «Yuxarı Mil kanalının tikintisi» layihəsi çərçivəsində ümumi uzunluğu 10,7 kilometr, suötürücülük qabiliyyəti saniyədə 16–18 kubmetr olan beton örtüklü kanal, yığılmış suların ərazidən kənarlaşdırılması üçün 2 yeraltı suötürücü hidrotexniki qurğu və 7 kilometr uzunluğunda əsas suaxıdıcı kollektor tikilib. Bundan əlavə, Beyləqan rayonu ərazisində 1500 hektar sahədə qrunt sularının təmizlənməsi üçün kompleks meliorativ tədbirlər aparılıb, 35/10 kilovoltluq «Dostluq» yarımstansiyasından Beyləqan–Xaçınabad yolunun kənarı ilə 7 kilometr uzunluğunda köhnə elektrik xətti tamamilə yenilənib, 35/10 kilovoltluq «Xocavənd» yarımstansiyasından yüksəkgərginlikli ikidövrəli elektrik xətti çəkilib. Həmçinin ərazidən keçən, uzunluğu 23 kilometr olan Daşburun–Beyləqan–Xaçınabad avtomobil yoluna asfalt örtük döşənib.*

*Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, respublikada ilk özəl pilot taxılçılıq təsərrüfatı olan «Qarabağ Taxıl» MMC Ağcabədi və Beyləqan rayonlarının ərazisində müasir suvarma sistemlərinin tətbiqi ilə 4800 hektar sahədə yaradılıb. «Qarabağ Taxıl» MMC «Səba» şirkətinin müəssisəsi və istehsal sahələrindən biridir. Şirkətin səhmlərinin 25 faizi Azərbaycan İnvestisiya Şirkətinə məxsusdur. Bu təsərrüfat dövlət və özəl sektor əməkdaşlığının gözəl nümunəsidir. «Səba» MMC-yə, həmçinin «Səba» quş əti istehsalı müəssisəsi,*

*«Biləsuvar Aqro» MMC-nin Süd Məhsulları zavodu, «Dəvəçi Broyler Dərin Emal» MMC aiddir.*

*Prezident İlham Əliyevə təsərrüfatda soya və silosluq qarğıdalı biçini, buğda səpini prosesi nümayiş olundu.*

*İqtisadiyyat naziri Şahin Mustafayev dövlətimizin başçısına istehsal prosesi haqqında məlumat verdi.*

*Azərbaycan Prezidenti soya paxlasının əkin sahələri, məhsuldarlığı, istehsalı, ixracı, emalı və idxalın əvəzlənməsi imkanlarına dair məlumatları əks etdirən stendlərə baxdı.*

*Emal zamanı soya paxlasının 85–90 faizi yem və bitki yağına çevrilir. Yem tamamilə heyvan qidası üçün istifadə edilir. Quşçuluqda qidalanmada soyanın xüsusi çəkisi 32–35 faiz, dəyər çəkisi isə 48–53 faizdir. Heyvandarlıqda isə bu göstəricilər müvafiq olaraq 18–20 faiz və 53–58 faiz təşkil edir.*

*«Səba» Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Natiq Quliyev dövlətimizin başçısına məlumat verdi ki, müəssisə ölkədə yetişdirdiyi quşları öz yemi ilə bəsləyən yeganə şirkətdir. Burada yetişdirilən qarğıdalı və digər dənli bitkilər, soya məhsulu «Səba» quşlarının əsas yemini təşkil edir. 2013-cü ildən bu müəssisə «Səba» quşçuluq sahəsinin idxal olunan qarğıdalı yeminə tələbatını yerli məhsul hesabına tam aradan qaldırıb. Bu ildən böyük sahədə becərilməyə başlanan soya isə növbəti illərdə soyaya da idxal tələbini aradan qaldıracaq.*

*Diqqətə çatdırıldı ki, qarğıdalı və ondan alınan məhsullar üzrə respublikanın illik tələbatı təxminən 600 min ton, soyada isə 160 min ton təşkil edir. Bu məhsulların idxalının əvəzlənməsi üçün əlavə olaraq 50 min hektar qarğıdalı, 40 min hektar soya əkilməsinə ehtiyac var.*

*Sonra dövlətimizin başçısı iri fermer təsərrüfatlarının, aqroparkların, eləcə də «Qarabağ Taxıl» MMC-nin fəaliyyətlərini, həmçinin müəssisənin ilkin və mövcud vəziyyətini, təsərrüfatda dövlət investisiyası hesabına görülən işləri əks etdirən stendlərlə tanış oldu.*

*İqtisadiyyat naziri Şahin Mustafayev məlumat verdi ki, əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yax-*

*şılaşdırmaq məqsədilə artıq respublikanın 20 rayonunda 44 min hektardan çox sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılıb. Ümumi dəyəri 181 milyon manat olan bu təsərrüfatların yaradılmasına 72,4 milyon manat dövlət güzəştli kreditləri verilib. Hazırda Şəmkir rayonunda ərazisi 543 hektar olan aqroparkda Logistika Mərkəzi, çeşidləmə və qablaşdırma, istixana, bağçılıq, tingçilik və digər istehsal, həmçinin infrastruktur müəssisələri yaradılır. Bundan başqa, Şabran rayonunda 1740 hektar ərazidə «Şabran Aqropark»ın təşkili işləri davam etdirilir. Ümumilikdə, respublikanın regionlarında 114,7 min hektar ərazidə 20-dən çox aqroparkın yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.*

*Bildirildi ki, təsərrüfatın yarandığı ilk illərdə 2250 hektar sahədə ərzaq buğdası əkilib və hər hektardan 5,5 ton olmaqla, 12,4 min ton məhsul götürülüb. 2000 hektar sahədə isə qarğıdalı əkilib və hər hektardan 12 ton olmaqla, 24 min ton yüksəkkeyfiyyətli məhsul istehsal edilib. Bu il növbəli əkinlə əlaqədar 250 hektar sahədə taxıl biçini aparılıb və hər hektardan 5,7 ton olmaqla, 1,4 min ton taxıl götürülüb. 2000 hektar dənlik qarğıdalı əkini sahəsində də biçin aparılıb. Hər hektardan 14 ton olmaqla, 28 min ton məhsul əldə edilib. 1600 hektar soya əkini sahəsinin 1000 hektarında aparılan biçin zamanı hər hektardan 3,3 ton olmaqla, 3,3 min ton məhsul istehsal edilib. Taxılı biçilmiş 160 hektar ərazidə isə silosluq qarğıdalı əkilib və yaxın günlərdə yaşıl kütlənin biçininə başlanılacaq. Təsərrüfatda dənlik qarğıdalıda məhsuldarlıq hər hektardan 140 sentnerədək, taxılda 60 sentnerədək və soya paxlasında 35 sentnerədək təşkil edir. Bundan əlavə, layihənin ikinci mərhələsi üzrə 1000 başlıq müasir heyvandarlıq kompleksinin yaradılması nəzərdə tutulub. Layihənin icrası nəticəsində 130-dək yeni iş yeri yaradılıb və orta aylıq əməkhaqqı 350 manat təşkil edir. Təsərrüfatda 20 adda 80 kənd təsərrüfatı texnikası və bütün infrastruktura malik özəl aqroservis yaradılıb. Buradakı təsərrüfat texnikası dünyanın aparıcı şirkətlərinin istehsalıdır və yüksək məhsuldarlıq əldə etməyə geniş imkan yaradır. 2 hektar sahəsi olan aqroservisdə*

*texniki təmir, yanacaqdoldurma, texnikanın yuyulması məntəqələri və digər infrastruktur vardır.*

*Dövlətimizin başçısı təsərrüfat ilə tanışlıqdan sonra Beyləqan rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin işçiləri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** «Qarabağ Taxıl» təsərrüfatı Azərbaycanda ilk pilot layihədir. Bir neçə il bundan əvvəl təsərrüfat yaradılıb və onun yaxşı göstəriciləri var. Bu gün artıq Azərbaycanda 30-dan çox iri fermer təsərrüfatı var və ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində bu təsərrüfatlar çox böyük rol oynayır.

Mən bu gün vəziyyətlə tanış olarkən gördüm ki, bütün işlər yaxşı səviyyədə qurulub, böyük əkin sahələri artıq istifadədədir. Əvvəllər bu torpaqlardan, demək olar ki, istifadə olunmurdu. Bax, o stendlərdəki fotoşəkillər də bunu göstərir. Mənə verilən məlumata görə, indi burada ərzaq buğdası üzrə məhsuldarlıq hektardan 57 sentnerdir. Hesab edirəm ki, bu, rekord göstəricidir. Çünki ölkə üzrə orta məhsuldarlıq 30 sentnerdir. Biz bunu da yaxşı nəticə kimi qəbul edirik. Çünki əvvəlki illərdə 20–22 sentner idi. Sizdə isə 57 sentnerdir. Bu onu göstərir ki, əgər düzgün yanaşma olarsa, bütün məsələləri ən yüksək səviyyədə həll etmək olar. Buradakı məhsuldarlıq, demək olar ki, inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşır.

«Qarabağ Taxıl» böyük təsərrüfatdır. Böyük investisiyalar qoyulub, o cümlədən dövlət tərəfindən maddi dəstək göstərilib, güzəştli şərtlərlə kredit ayrılıb və bu, dövlət–özəl sektorun birgə fəaliyyətinin nəticəsidir.

Bu gün bu təsərrüfatın fəaliyyəti ərzaq təhlükəsizliyinin təmin olunmasında öz rolunu oynayır. Azərbaycanda ilk dəfə olaraq, məhz sizin təsərrüfatınızda soya əkilibdir. Bu da çox müsbət haldır. Əfsuslar olsun ki, əvvəlki illərdə bizdə soya əkilmirdi. Baxmayaraq ki, bu çox səmərəli sahədir və il ərzində soya idxalı üçün Azərbaycandan xaricə 50 milyon dollardan çox pul gedir. İndi əgər biz özümüzü soya ilə təmin etsək – qarşıya belə vəzifə qoyulub – bu pul ölkəmizdə qalacaq. İkincisi isə biz

gələcəkdə soyanı ixrac da etməliyik. Bunun üçün imkanlar var. Siz – kənd təsərrüfatı ilə məşğul olan insanlar – bunu yaxşı bilirsiniz.

Beləliklə, biz ərzaq təhlükəsizliyimizi təmin edəcəyik. Bu gün hələ ki, biz buğda ilə özümüzü tam təmin edə bilmirik. Bunun obyektiv səbəbləri var. Ancaq bu hədəfə yaxınlaşırıq. Bununla bərabər, bizim taxılçılıqda böyük ixrac potensialımız yaranmalıdır. Necə ki, biz meyvə-tərəvəz məhsullarını, digər məhsulları ixrac edirik, gələcəkdə taxılçılıq məhsullarını da ixrac etməliyik. Ancaq ilk növbədə, daxili tələbatımızı ödəməliyik.

Bu gün deyə bilərəm ki, bütün ölkələr ərzaq təhlükəsizliyi ilə bağlı müəyyən narahatlıqlar yaşayır. Çünki dünyada əhali artdıqca tələbat da artır, torpaq sahəsi isə artmır. Bu tələbatı ödəmək üçün çox ciddi addımlar atılmalıdır. Bizim o qədər də böyük torpaq sahəmiz yoxdur. Ona görə biz hər qarış torpaqdan səmərəli istifadə etməliyik. Bir qarış torpaq da boş qalmamalıdır. Digər tərəfdən, biz məhsuldarlığı artırmalıyıq. Qeyd etdiyim kimi, taxılçılıqda ərzaq buğdası hektardan 57 sentnerdir. Əgər ölkə üzrə məhsuldarlıq 40–45 sentnerə qalxsa, biz mövcud olan əkin sahələri ilə öz tələbatımızı ödəyəcəyik. Bəs məhsuldarlıq nədən asılıdır? Düzgün aqrotexniki tədbirlər görülməlidir. Texnika – sizdə ən müasir, qabaqcıl firmaların texnikası vardır – gübrələr verilir və iş düzgün təşkil edilməlidir. Dövlət öz tərəfindən nə lazımdırsa, onu edir. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Dövlət tərəfindən fermerlərə subsidiyalar, güzəştli şərtlərlə gübrələr, yanacaq verilir, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər ayrılır, infrastruktur yaradılır. Bax, bu yol dövlət tərəfindən tikilibdir. Digər infrastruktur layihələri, elektrik enerjisi ilə bağlı layihələr də icra olunur ki, emal müəssisələri inkişaf etsin. Dövlət öz dəstəyini göstərir. Belə olan halda, işlər daha sürətlə gedəcək.

Bu gün kənd təsərrüfatının inkişafı bizim üçün prioritet sahədir. Biz mövcud torpaq fondundan səmərəli şəkildə istifadə

etməliyik. Biz yeni əkin sahələrini dövriyyəyə cəlb edirik və bu istiqamətdə işlər sürətlə gedir. Həm öz tələbatımızı ödəyəcəyik, həm də böyük ixrac potensialımız yaranacaq.

Beyləqan rayonunda kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar, böyük torpaq sahələri var. İndi Beyləqanda pambıqçılığın inkişafı sürətlə gedir. Bu il və xüsusilə gələn il minlərlə hektarda pambıq əkiləcək və bu da fermerlərə pul gətirəcəkdir.

Digər vacib sahələr də diqqət mərkəzindədir. İndi fermerləri və kənd camaatını çox maraqlandıran sahə baramaçılıqdır. Bu istiqamətdə də çox ciddi addımlar atılır. Bu da insanların həyat səviyyəsini yaxşılaşdırır. Biz özümüzü şəkər çuğunduru ilə tam təmin etməliyik ki, Şəkər Emalı zavodumuz yerli məhsul əsasında işləsin. Bu istiqamətdə işlər aparılır və aparılmalıdır.

Hər bir dövlət, o cümlədən Azərbaycan öz ərzaq təhlükəsizliyini təmin etməlidir. Biz artıq bu məqsədə çox yaxınlaşmışıq. Hələ ki, süd məhsulları ilə özümüzü təqribən 80 faiz təmin edirik. Buğda ilə isə özümüzü hələ ki, tam təmin edə bilmirik. Digər əsas ərzaq məhsulları da Azərbaycanda istehsal olunur.

Mən sizi görülən işlər münasibətilə təbrik edirəm. Arzu edirəm ki, «Qarabağ Taxıl» MMC öz fəaliyyətini genişləndirsin, həm bu ərazidə, eyni zamanda, digər sahələrdə də. Sizdə işlər yaxşı alınır, yaxşı nəticələr var. Mən gəlmişəm ki, bu nəticələri öz gözümlə görüm və sizi əldə edilmiş nəticələrlə, nailiyyətlərlə təbrik edim.

**V ü s a l M ə m m ə d o v**(*müəssisənin əməkdaşı):* Cənab Prezident, bizim müəssisəyə xoş gəlmisiniz! Mən Aqrar Universitetin məzunuyam. Sizin təşəbbüsünüzlə 2012-ci ildə yüksək texnologiyanın tətbiqi ilə yaradılmış bu müəssisədə çalışırıq. Bu müəssisə yaradıldıqdan yüksək məhsuldarlıq əldə edilir. Bizim müəssisədə ölkə üzrə məhsuldarlıqdan 2 dəfə artıq məhsul götürülür. Bu il biz hektardan 55–60 sentner ərzaqlıq buğda, 130–140 sentner dənlik qarğıdalı məhsulu əldə etmişik. Bizim müəssisə respublikada yeganədir ki, soya paxlası yetişdirməklə məşğuldur. Bu il 1600 hektar əkin sahəsinin hər hektarından 30–35 sentner məhsul əldə etdik. Çox sağ olun ki, belə yeni müəssisənin

yaradılması üçün tapşırıq vermisiniz. Biz cavan mütəxəssisləri belə müəssisələrdə işləmək çox həvəsləndirir. Bütün bunlara görə bir daha minnətdarlığımı bildirirəm.

**İlham Əliyev:** Sağ olun.

**Etibar Hüseynov***(müəssisənin əməkdaşı):* Cənab Prezident, mən də pivot suvarma sistemlərində işləyirəm. Orada bütün müasir texnologiyaların tətbiqi nəticəsində əvvəlkilərdən fərqli olaraq, həm su itkisinə yol verilmir, həm də ki, əl əməyi yüngülləşib. Buna görə də Sizə minnətdaram.

**İlham Əliyev:** Çox yaxşı. Pivot sistemi müasir texnologiyadır və biz bunun nəticələrini görürük, məhsuldarlıq bunun hesabına xeyli artır.

**Xaləddin Köçəriyev***(müəssisənin əməkdaşı):* Cənab Prezident, mən də mexanizator kimi, əvvəllər sovet texnikası ilə işləmişəm. İndi texnika çox müasirdir, içərisində kondisioner, havalandırma sistemi, hər cür şərait var.

**İlham Əliyev:** Həmin bu «John Deere»də işləyirsən?

**Xaləddin Köçəriyev:** Bəli, «John Deere»i işlədirəm. Çox rahatdır, kompüter sistemi ilə işləyir.

**İlham Əliyev:** Əvvəllər hansı texnika ilə işləmisən?

**Xaləddin Köçəriyev:** Ancaq «Niva» kombaynında işləmişəm.

**İlham Əliyev:** Fərq böyükdür?

**Xaləddin Köçəriyev:** Fərq çox böyükdür. Allah Sizin canınızı sağ eləsin. Sizə minnətdaram.

**İlham Əliyev:** Bundan daha üstün texnika yoxdur.

**Xaləddin Köçəriyev:** Bəli, yoxdur.

**İlham Əliyev:** Çünki «John Deere» dünyada bir nömrədir.

**Xaləddin Köçəriyev:** Allah Sizi qorusun, çox sağ olun.

**İlham Əliyev:** Mən çox şadam ki, indi Azərbaycanda belə gözəl şərait yaradılır. Sizin də iş şəraitiniz yaxşıdır.

**Xaləddin Köçəriyev:** Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Bu texnikanın indi kondisioneri də var, kabinəsi də rahatdır, məhsulu itkisiz toplayır və sizin işinizi də

yüngülləşdirir. Ona görə texnika, gübrələr, suvarma və işin düzgün təşkili, bax, bu nəticəyə gətirib çıxarır. İndi bizim bütün iri fermer taxılçılıq təsərrüfatları bu hədəfə çatmalıdır, necə deyərlər, 50–55 sentner adi bir hal olmalıdır.

**Y e g a n ə M ə m m ə d o v a***(rayon sakini):* Möhtərəm cənab Prezident, icazə verin, mən də rayon ictimaiyyəti adından Sizi salamlayım, rayonumuza göstərdiyiniz yüksək diqqətə və qayğıya görə beyləqanlıların minnətdarlığını çatdırım. Qeyd edim ki, biz öz rayonumuzda normal şəraitdə yaşayırıq. Yaşayış üçün hər şəraitimiz var. İşığımız, suyumuz, qazımız, ən əsası, iş yerimiz var. Bütün bunları Siz yaratmısınız. Biz öz ölkəmizi başqa dövlətlərlə də müqayisə edirik. Dünyanın əksər bölgələrində müharibələr gedir. Hər gün onlarla, yüzlərlə günahsız insanlar ölür. İqtisadi böhran hökm sürür. Çox şadıq ki, bizdə bu vəziyyət yoxdur. Azərbaycan firavan, sabit bir ölkədir. Belə firavanlığa və sabitliyə görə Sizə minnətdarıq. Sağ olun. Allah Sizi qorusun. Allah Sizə yar olsun.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Beyləqan rayonunun inkişafı daim diqqət mərkəzindədir. Təsadüfi deyil ki, ilk pilot təsərrüfat Beyləqan və Ağcabədi rayonlarının ərazisində yaradılıb. Rayonun sosial problemləri öz həllini tapır. Mən bu gün məktəbin, uşaq bağçasının açılışında iştirak edəcəyəm. Bu gün Beyləqana içməli suyun verilməsini qeyd edəcəyik. Bu da çox önəmli sosial layihədir. Yaxşı bilirsiniz ki, bu problem rayonda həmişə olub. Su çatışmazlığı, suyun keyfiyyəti insanları narahat edirdi. İndi bu problem də aradan götürülür. Beyləqan şəhərinə fasiləsiz, təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su veriləcək.

Digər layihələr də icra edilir – kənd yolları layihələri, elektrik enerjisi ilə bağlı layihələr. Qazlaşdırmanın səviyyəsi də kifayət qədər yüksəkdir, təqribən 80 faizə yaxındır. Ancaq işlər davam edir. Yeni yaşayış məntəqələrinin qazlaşdırılması nəticəsində bu göstərici Beyləqanda təqribən 95 faizə çatmalıdır. Yəni əsas infrastruktur layihələri icra edilir və bu gün real iqtisadiyyatın artımı ölkəmizi daha da gücləndirir.

Şadam ki, artıq 30-dan çox iri fermer taxılçılıq təsərrüfatı vardır. Amma birinci təsərrüfat «Qarabağ Taxıl»dır. Ona görə siz birinci təsərrüfat kimi, tarixdə artıq varsınız. Gərək nəticələrə, məhsuldarlığa və ümumi işimizə verdiyiniz töhfəyə görə həmişə birinci olasınız. Sağ olun.

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 240 şagird yerlik 8 saylı tam orta məktəb binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 240 şagird yerlik Beyləqan şəhər 8 saylı tam orta məktəb binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısının təhsil sahəsinə göstərdiyi diqqət bu istiqamətdə tamamilə yeni və keyfiyyətli mərhələnin başlanması ilə nəticələnib. Azərbaycan dövlətinin təhsilin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq, son illər müasir məktəb binaları tikilib, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunub, mövcud məktəblər isə günün tələbləri səviyyəsində əsaslı təmir edilib. Təqdirəlayiq haldır ki, bu proses təkcə paytaxtla məhdudlaşmayıb, bütün bölgələri əhatə edib. Yeni məktəblərin inşası və onların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən mühüm işlər, şübhəsiz ki, müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından vacib addımlardandır. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir.*

*Azərbaycan Prezidenti məktəb binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, tikintisinə ötən il başlanılan məktəb binasında inşaat işləri yüksək səviyyədə yerinə yetirilib. Ümumi*

*sahəsi 2900 kvadratmetrədək olan məktəbin foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına göstərdikləri diqqət və qayğını, həmçinin bu rayona səfərlərini əks etdirən fotolardan ibarət guşələr qurulub.*

*Müasir sinif otaqlarının olduğu məktəbdə təlim-tədris prosesinin yüksək səviyyədə aparılması üçün hər cür şərait yaradılıb. Məktəbdə əyani vəsaitlə təchiz olunan fənn laboratoriyaları qurulub. Xarici dil otaqlarının, kimya, fizika və biologiya üzrə fənn laboratoriyalarının olduğu məktəbdə informatika kabineti də kompüter avadanlığı ilə təchiz edilib. Məktəbin kitabxanası dərsliklər və dərs vəsaitləri ilə təmin olunaraq, şagirdlərin istifadəsinə verilib. İdman zalında da müasir qurğular quraşdırılıb. Akt zalında isə məktəbin həyatı ilə bağlı müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait var. Məktəbin ətrafında geniş yaşıllıq zolağı salınıb, abadlıq işləri görülüb.*

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 8 saylı Körpələr evi-uşaq bağçasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Beyləqanda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 8 saylı Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.*

*Azərbaycanda bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə yüksək diqqət və qayğı göstərilir. Müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu xüsusi töhfələr verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun «Məktəbəqədər*

*təhsil müəssisələrinin inkişafı» proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Fondun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Həyata keçirilən bütün bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir.*

*Dövlətimizin başçısı Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, 120 yerlik Körpələr evi-uşaq bağçasının ümumi sahəsi 896 kvadratmetrdir. İkimərtəbəli binada ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın uşaqlara diqqət və qayğılarını əks etdirən fotolardan ibarət guşələr yaradılıb. 6 qrup otağının olduğu bağçada uşaqların təlim-tərbiyəsi və onların ilkin biliklərə yiyələnməsi üçün hər cür şərait vardır. Burada balacalar üçün musiqi və gimnastika, yataq və yemək otaqları yaradılıb və zəruri avadanlıqlarla təchiz olunub.*

*Körpələr evi-uşaq bağçasının ərazisində balacaların əylənmələri üçün meydança da qurulub. Bu məktəbəqədər təhsil müəssisəsində 32 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.*

## «Beyləqan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi çərçivəsində görülən işlərlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də «Beyləqan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi çərçivəsində görülən işlərlə tanış olmuşdur.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, «Beyləqan şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi artıq yekunlaşıb. Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi «Su təchizatı və kanalizasiya investisiya*

*proqramı» çərçivəsində həyata keçirilən layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, Beyləqan şəhərində 24,3 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində Beyləqan şəhəri ilə yanaşı, rayonun 7 min nəfər əhalinin yaşadığı Aşıqlı, Şəfəq və Əlinəzərli kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə, layihədən 31300 sakin faydalanacaq.*

*Bildirildi ki, layihənin icrasına 2012-ci ildə başlanılıb və mərhələlərlə həyata keçirilib. İlkin mərhələdə Beyləqan şəhərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün rayonun Əlinəzərli kəndi yaxınlığında ümumi məhsuldarlığı saniyədə 95 litr olan 5 subartezian quyusu qazılıb. Quyu ərazisində 2 su anbarı, xlorator binası və nasos stansiyası tikilib. Su mənbəyindən Beyləqan şəhərinə 8,6 kilometr uzunluğunda magistral kəmər çəkilib, şəhərdə mövcud olmuş və ümumi tutumu 4000 kubmetr olan 2 su anbarı da təmir edilib.*

*Qeyd edildi ki, layihənin ikinci mərhələsində Beyləqan şəhərində içməli su və kanalizasiya şəbəkələri yenidən qurulub. Bu məqsədlə 91,5 kilometr uzunluğunda içməli su şəbəkəsi yaradılıb, 5846 ünvana birləşmə verilib və abunəçilər sayğacla təmin olunub. Şəhərdə 413 yanğın hidrantı quraşdırılıb. Yeni yaradılmış su təchizatı sistemləri vasitəsilə şəhərə sutkaboyu fasiləsiz içməli suyun verilməsi təmin edilib. Layihə çərçivəsində Beyləqan şəhərində 75 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi, 1,7 kilometr uzunluğunda kollektor inşa edilib. Şəhərin kanalizasiya şəbəkəsinə 5120 ünvanın qoşulması təmin olunub. Bununla da Beyləqan şəhərinin içməli su və kanalizasiya şəbəkələrinin tikintisi başa çatdırılıb.*

*Bildirildi ki, layihəyə uyğun olaraq, Beyləqan Sukanal İdarəsi üçün müasir standartlara cavab verən yeni inzibati bina da tikilib. 700 kvadratmetr ərazisi olan binada Heydər Əliyev guşəsi qurulub, ulu öndərin büstü qoyulub. Binada müasir standartlara cavab verən laboratoriya, konfrans zalı, işçi otaqları və kafe yaradılıb. Bundan başqa, burada mühasibatlıq, dispetçer, müş-*

*təri xidmətləri fəaliyyət göstərəcək. Layihənin növbəti mərhələsində şəhərdə yaranacaq tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan təmizləyici qurğunun inşası nəzərdə tutulur.*

*Qeyd olundu ki, yeni layihənin icrasına qədər Beyləqanda mövcud infrastruktur istehlakçıların tələbatını ödəməyə imkan vermirdi. Çünki şəhərin içməli su və kanalizasiya sistemləri keçən əsrin 60–70-ci illərində yaradılıb. 50 kilometr uzunluğunda içməli su şəbəkəsi şəhərin bir hissəsini əhatə edib və istismar müddəti başa çatıb. Yeni layihənin icrasına qədər Beyləqan şəhərində yaşayan 15 min sakinin 8 minə qədəri və ya təqribən 53 faizi mərkəzləşdirilmiş qaydada qrafikli rejimlə su ilə təmin olunub.*

*Bildirildi ki, Azərbaycan hökuməti və Asiya İnkişaf Bankının birgə maliyyələşdirdiyi «Su təchizatı və kanalizasiya investisiya proqramı» Göyçay, Ağdaş, Beyləqan və Ağcabədi şəhərlərində içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını nəzərdə tutur. Bu layihə çərçivəsində 2015-ci ildə Göyçay şəhərində su və kanalizasiya şəbəkələrinin tikintisi başa çatdırılıb, tullantı sutəmizləyici qurğunun inşası davam etdirilir. Ağdaş şəhərində içməli su və kanalizasiya şəbəkələrinin inşası başa çatmaq üzrədir. Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə isə tender keçirilib, podrat müqaviləsi imzalanıb və tikinti işlərinə hazırlıq görülür.*

*Sonra prezident İlham Əliyev Beyləqan şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

## ASİYA İNKİŞAF BANKININ VİTSE-PREZİDENTİ VENÇAY JANQ İLƏ GÖRÜŞ

*14 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqı qəbul etmişdir.*

*Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında əməkdaşlığın səviyyəsinin razılıq doğurduğunu qeyd edən dövlətimizin başçısı qurumun prezidenti Takehiko Nakao ilə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının ötən il Bakıda keçirilən 48-ci illik toplantısı zamanı görüşünü məmnunluqla xatırlatdı. Ölkəmizin ev sahibliyi etdiyi bu tədbirin uğurla keçirildiyini, quruma üzv olan ölkələrdən çoxlu sayda nümayəndələrin burada iştirak etdiyini deyən prezident İlham Əliyev bu tədbirdən sonra Azərbaycanın Asiya İnkişaf Bankı ilə əməkdaşlığında yeni dinamikanın müşahidə olunduğunu bildirdi. Ölkəmizin maliyyə qabiliyyətli etibarlı tərəfdaş olduğunu, üzərinə götürdüyü öhdəlikləri daim yerinə yetirdiyini deyən dövlətimizin başçısı bank tərəfindən Azərbaycanda həyata keçirilən çox mühüm layihələrə, xüsusilə «Cənub Qaz Dəhlizi» layihəsinə verilən dəstəyə görə Vençay Janqa minnətdarlığını bildirdi. Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsinin nəinki Azərbaycan, o cümlədən Avropa da daxil olmaqla, geniş bir coğrafiyanı əhatə edən region üçün mühüm əhəmiyyət daşıdığını vurğuladı. Ölkəmizin Asiya İnkişaf Bankı ilə bir sıra digər sahələrdə də əməkdaşlığına toxunan dövlətimizin başçısı birgə həyata keçirilən infrastruktur layihələrinin əksəriyyətinin artıq başa çatdırıldığını bildirdi. Qurumla əməkdaşlığın davam etdiriləcəyinə əminliyini ifadə edən prezident İlham Əliyev Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqın ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivləri, həmçinin son illərdə*

*görülən işlərlə bağlı fikir mübadiləsinin aparılması üçün yaxşı fürsət yaratdığını qeyd etdi.*

*Vençay Janq Asiya İnkişaf Bankının prezidenti Takehiko Nakaonun salamlarını dövlətimizin başçısına çatdırdı. O, 2015-ci ildə Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının Bakıda keçirilən 48-ci illik toplantısına verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Asiya İnkişaf Bankı ilə Azərbaycan arasında çox yaxşı əməkdaşlıq əlaqələrinin olmasından məmnunluğunu ifadə edən Vençay Janq ölkəmizin Asiya İnkişaf Bankına qoşulduğu 1999-cu ildən ötən dövr ərzində qurum tərəfindən Azərbaycana 2,8 milyard dollar məbləğində vəsaitin ayrıldığını qeyd etdi. Təmsil etdiyi qurumun ölkəmizdə həyata keçirilən bir sıra layihələrlə yanaşı, «Cənub Qaz Dəhlizi» və «Şahdəniz» kimi mühüm layihələrə də dəstək və önəm verdiyini xatırladan Vençay Janq layihələrlə bağlı məsələləri müzakirə etmək üçün bank daxilində xüsusi Şuranın yaradıldığını vurğuladı.*

*Görüşdə Asiya İnkişaf Bankının dəstəyi ilə Azərbaycanda həyata keçirilən infrastruktur layihələrinin, o cümlədən Şimal–Cənub dəmir yolu dəhlizi, su təchizatı, yol şəbəkəsinin genişləndirilməsi və digər layihələrin önəmi vurğulandı, 2017–2019-cu illərdə ölkəmizdə belə layihələrin həyata keçirilməsinin bankın kreditləşmə proqramına daxil edilməsindən məmnunluq ifadə edildi.*

## MOLDOVA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İQOR DODONA

Hörmətli cənab Dodon!

Moldova Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın inkişaf etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Moldova xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2016-cı il*

## BOLQARISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RUMEN RADEVƏ

Hörmətli cənab Radev!

Bolqarıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan və Bolqarıstan arasındakı ikitərəfli münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, birgə səylərimizlə siyasi, iqtisadi və mədəni əlaqələrimizin daha da möhkəmlənməsinə, qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafına töhfə verəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Bolqarıstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2016-cı il*

**OMANIN SULTANI**
**ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Oman xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2016-cı il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAYMONDS VEYONİSƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

İnanıram ki, Azərbaycan–Latviya münasibətlərinin inkişafı, ənənəvi dostluq əlaqələrimizin möhkəmlənməsi, əməkdaşlığımızın bütün sahələrdə genişlənməsi istiqamətində birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 noyabr 2016-cı il*

## DÜNYA XƏBƏR AGENTLİKLƏRİNİN V KONQRESİNİN, ASİYA VƏ SAKİT OKEAN ÖLKƏLƏRİ İNFORMASİYA AGENTLİKLƏRİ TƏŞKİLATININ XVI BAŞ ASSAMBLEYASININ BİRGƏ AÇILIŞI MƏRASİMİ

*Heydər Əliyev Mərkəzi*

*16 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Heydər Əliyev Fondunun və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə Dünya Xəbər Agentliklərinin V Konqresinin, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasının birgə açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan noyabrın 16-dan etibarən 3 gün ərzində nüfuzlu beynəlxalq media qurumlarının toplantılarına – Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) XVI Baş Assambleyasına və MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının (İnformşura) XXII iclasına ev sahibliyi edəcək. Tədbirlərdə 80 ölkədən 100-ə yaxın xəbər agentliyinin dünyanın informasiya siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən 190-dək rəhbəri və təmsilçisi, media üzrə beynəlxalq ekspertlər, BMT–YUNESKO-nun rəsmi nümayəndəsi, həmçinin regional media qurumlarının əməkdaşları iştirak edirlər. Konqresdə dünyanın bütün qitələrindən xəbər agentlikləri təmsil olunur. Belə ki, Bakıya Asiyanın 31 ölkəsindən 39 agentliyin 77 nümayəndəsi, Avropanın 23 ölkəsindən 30 agentliyin 51 təmsilçisi, Afrika qitəsinin 16 ölkəsindən 16 agentliyin 25 nümayəndəsi, Amerika qitəsinin 7 ölkəsindən 9 agentliyin 17*

*əməkdaşı, habelə Avstraliyanın 3 agentliyini təmsil edən nümayəndə gəlib.* 4

*Dövlətimizin başçısı açılış mərasimində nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Xanımlar və cənablar, sabahınız xeyir!

Əvvəlcə bütün qonaqlarımızı salamlayıram. 5 qitəni, 80 ölkəni və dünyanın 100-dən artıq aparıcı xəbər agentliyini təmsil edən 200 nəfər qonağımız Bakıda Dünya Xəbər Agentliklərinin V Konqresində toplaşıbdır.

Belə bir vacib, qlobal və beynəlxalq tədbirə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Əminəm ki, qonaqlarımız gündəlikdəki vacib məsələlərin müzakirəsi ilə yanaşı, Azərbaycan haqqında daha dolğun məlumat əldə edəcək, ölkənin inkişafının şahidi olacaqlar. Bu ölkə müasirdir, dinamikdir və gələcək üçün nəhəng potensiala malikdir. Biz bu tədbirin Bakıda keçirilməsini həm də müstəqil medianın inkişafı sahəsində Azərbaycanın fəaliyyətinin və nailiyyətlərinin yüksək qiymətləndirilməsinin göstəricisi hesab edirik. Bu, hökumətimiz üçün prioritetlərdən biridir və düşünürəm ki, müstəqilliyimizin 25 ili ərzindəki nailiyyətlərimiz bizim media azadlığı ilə yanaşı, bütün digər fundamental azadlıqların təmin edilməsinə müvəffəq olduğumuzu nümayiş etdirir.

Bu gün Azərbaycanda 40-dan artıq gündəlik, 200-dən artıq həftəlik və aylıq qəzetlər fəaliyyət göstərir. Ölkə ərazisində 10 milli, 1 peyk, 13 regional və 17 kabel televiziyası yayımlanır. Azərbaycan internetin tam azad olduğu ölkədir və əhalimizin 75 faizindən çoxu fəal internet istifadəçisidir. Ölkə əhalisinin sayı təqribən 10 milyon nəfərdir və Azərbaycanda sosial mediadan istifadə edənlərin sayı 2 milyondur. Bu rəqəm onu nümayiş etdirir ki, Azərbaycanda azad medianın inkişafı çox uğurlu olub. Biz məqsədimizə nail olmuşuq və bu 25 il ərzində siyasi və iqtisadi islahatlarla yanaşı, transformasiya keçmiş sahələrdən biri olan demokratik inkişaf istiqamətindəki islahatlar olub.

Ötən ay biz müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etdik. Nəyə görə bərpası deyirəm? Çünki ilk Azərbaycan Demokratik Respublikası təqribən 100 il bundan öncə – 1918-ci ildə yaradılıb. Təəssüf ki, ilk demokratik respublikanın ömrü yalnız 2 il olub. Lakin bu 2 il vacib illər olub. O dönəmdə ölkəmizin demokratik inkişafının təməli qoyulub. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman aləmində ilk demokratik respublika idi. Onun əhəmiyyətli nailiyyətlərindən biri Avropanın bir çox dövlətindən əvvəl qadınlara səsvermə hüququnun verilməsi olub.

Müstəqilliyimiz 1991-ci ildə bərpa edildi və biz öz həyatımızı yaşamağa başladıq. Biz ölkəni yenidən qurmalı, siyasi təsisatları yaratmalı, iqtisadiyyatımızı müasirləşdirməli və dünya xəritəsində yerimizi müəyyən etməli idik. Bu illər Azərbaycan xalqının əsas hədəflərə nail olduğunu nümayiş etdirir. Bu gün Azərbaycan beynəlxalq arenada böyük nüfuza malik dövlətdir. Burada bir faktı qeyd etmək kifayət edər. Bir neçə il əvvəl Azərbaycan dünyanın ən mötəbər beynəlxalq qurumu – BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib. Biz bu üzvlüyü 155 dövlətin dəstəyi sayəsində əldə etmişik. Yəni beynəlxalq ictimaiyyətin mütləq əksəriyyəti, hətta Azərbaycan ilə fəal siyasi təmaslara malik olmayan ölkələr belə, bizim namizədliyimizi dəstəkləyibdir.

Bu, məsuliyyətli və məntiqlə davranan tərəfdaş ölkəyə – Azərbaycana dəstəyin, bizim beynəlxalq müstəvidə davranışımıza və fəaliyyətimizə verilmiş yüksək qiymətin göstəricisi idi. Belə geniş beynəlxalq dəstəyin əldə olunması onu nümayiş etdirir ki, Azərbaycan müstəqil xarici siyasət aparan ölkədir və bu siyasət regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə yönəldilir. Bizim xarici siyasətimiz milli maraqlarımız üzərində qurulub və heç kəsə qarşı yönəlməyib. Azərbaycan ləyaqətli ölkədir və bizim gələcəyimiz öz əlimizdədir. Bu baxımdan həmin amillərlə yanaşı, Azərbaycanın sürətli siyasi və iqtisadi inkişafı bu geniş beynəlxalq dəstəyin əldə olunmasında mühüm rol oynayıb. Biz müxtəlif

beynəlxalq təşkilatlar çərçivəsində fəalıq və bütün bu təşkilatlarda ədalət dəyərini və beynəlxalq hüququ təşviq edirik.

Azərbaycan dünyada nadir ölkələrdən biridir ki, eyni zamanda həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzv dövlətdir və hər iki təşkilatda yüksək səviyyəli dəstəyə malikdir. Dünyada ilk dəfə 2008-ci ildə məhz bizim təşəbbüsümüz nəticəsində İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin Mədəniyyət nazirlərinin birgə toplantısı təşkil edilib. Bu iki təsisat arasında yaranmış əməkdaşlıq və daha geniş hərəkat «Bakı prosesi» adı alıb və biz bununla fəxr edirik. Hesab edirik ki, bu sahədəki nailiyyətimiz dünyada yüksək qiymətləndirilir.

Həmin təşəbbüsün irəli sürülməsinə səbəb yalnız bizim hər iki təşkilata üzv olmağımız deyildi. Bizim tariximiz, ənənələrimiz və ölkəmizin multikultural inkişafı müxtəlif dövlətlər, sivilizasiyalar və dinlər arasında münasibətlərin necə düzgün planlaşdırılıb, təşkil edilə biləcəyinin nümunəsidir. Azərbaycan isə multikulturalizmin yaxşı nümunəsidir. Yeri gəlmişkən, bu il ölkəmizdə «Multikulturalizm ili» elan edilib. Bu bizim dövlət siyasətimizdir və cəmiyyətimizdə hökm sürən ümumi ab-havanın göstəricisidir.

Biz çoxsaylı beynəlxalq tədbirlər təşkil edirik. Onların sırasında hər il keçirilən Bakı Beynəlxalq Humanitar Forumu və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da vardır. Bu il biz BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etdik. Nailiyyətlərimizin mühüm göstəricisi bu ilin oktyabr ayında Katolik kilsəsinin rəhbəri, Roma Papası Fransiskin Azərbaycana səfəri və çıxışında multikulturalizm və bizim nailiyyətlərimiz haqqında söylədiyi fikirlər olub. O burada Katolik kilsəsini, Azərbaycan məscidini ziyarət etmiş, Azərbaycanın bütün dini icmalarının rəhbərləri ilə görüş keçirmiş və Bakıdan, bu zaldan dünyaya mədəniyyətlərarası və dinlərarası dialoqun dəyərləri ilə bağlı mesaj vermişdir.

Biz bunu, xüsusilə də bugünkü dünyada etnik və dini zəmində qarşıdurmaların mövcud olduğu şəraitdə bir nailiyyət

kimi qəbul edirik. Biz faciələrin, milli və ya dini mənsubiyyətinə görə insanların əzabının şahidi oluruq. Bunlar dərin narahatlıq doğuran hadisələrdir. Bu səbəbdən biz öz gündəliyimizi təklif edirik. Bu, multikulturalizm gündəliyidir. Multikulturalizm iflasa uğramayıb və hesab edirəm ki, Azərbaycan nümunəsi bunu sübut edir.

Biz əməkdaşlıq və qarşılıqlı anlaşma gündəliyini təklif edirik. Bunlar müsbət meyillərdir. Bu baxımdan bizim rolumuz əsasən ənənələrimiz və ölkəmizin ehtiyacları üzərində qurulub. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Azərbaycanda əmin-amanlıq hökm sürür, müxtəlif etnik və dini qrupların nümayəndələri sülh və ləyaqət şəraitində yaşayırlar. Eyni zamanda, bu, dünyaya bir mesajdır. Biz tənha bir ada deyilik, qonşuluğumuzda digər ölkələr var və bizim qanunauyğun marağımızdadır ki, bu sahədə regionda və dünyada müsbət inkişaf mövcud olsun.

Müstəqilliyin bərpa olunmasından sonra uzun illərdir üzləşdiyimiz problemlər sırasında istər tarixi, istərsə də hüquqi baxımdan Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı dayanır. Dağlıq Qarabağ Azərbaycanın tarixi torpağıdır. «Qarabağ» sözünün özü Azərbaycan mənşəlidir. Bu gün təkcə sovet dönəmində Azərbaycanın tərkibində muxtar vilayət olmuş Dağlıq Qarabağ deyil, ölkənin 7 digər rayonu da erməni işğalı altındadır.

Bu işğal 20 ildən artıqdır ki, davam edir. İşğal nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan xalqımıza qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bu gün Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilib. Bütün aparıcı beynəlxalq təşkilatlar müvafiq qətnamə və qərarlar qəbul ediblər. Keçən əsrin 90-cı illərinin əvvəllərində BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, orada Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Ancaq onlar icra olunmamış qalır. Ermənistan həmin qətnamələrə məhəl qoymur,

beynəlxalq ictimaiyyətə saymazlıq edir. Burada ciddi müzakirələr aparılmalı və addımlar atılmalıdır ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmləri yaradılsın. Eyni zamanda, qətnamələrin icrası ilə bağlı vahid icra üsulu olmalıdır. Çünki bəzi hallarda biz BMT Təhlükəsizlik Şurasının qətnamələrinin bir neçə gün içərisində icra edildiyinin şahidi oluruq. Bizə gəldikdə isə, artıq 20 ildən çox vaxt keçir. Bu qəbuledilməzdir. Bu, Azərbaycana qarşı ikili standartların göstəricisidir. Biz işğala son qoymalıyıq.

Digər beynəlxalq təşkilatlar, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurasının Parlament Assambleyası, Avropa Parlamenti, «Qoşulmama Hərəkatı» bənzər qərar və qətnamələr qəbul ediblər, ancaq onlar da kağız üzərində qalmaqdadır.

Bizim bütün tarixi abidələrimiz, məscidlərimiz, məzarlıqlarımız ermənilər tərəfindən dağıdılıb. ATƏT-in 2 faktaraşdırıcı missiyası da bu faktları təsdiq edib. Burada, Bakıda siz dövlətin himayəsi altında olan, təmir edilmiş erməni kilsəsini ziyarət edə bilərsiniz. Ancaq işğal edilmiş Dağlıq Qarabağda və digər rayonlarda bizim bütün məscidlərimiz Ermənistan tərəfindən dağıdılıb.

Münaqişə ən qısa zamanda öz həllini tapmalıdır. Bu həll beynəlxalq hüquqa və Azərbaycanın ərazi bütövlüyünə əsaslanmalıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər dövlətin ərazi bütövlüyü qədər dəyərlidir. Biz tez-tez eşidirik ki, postsovet məkanında olan digər münaqişələr dövlətlərin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Həmin prinsip Azərbaycana da şamil olunmalıdır.

Bu nəhəng siyasi, iqtisadi və sosial yükə baxmayaraq, Azərbaycan inkişaf edir. Biz bu inkişafa sadiqik. Biz daha güclü dövlət yaratmalıyıq, bütün sosial vədlərimizə əməl etməliyik, iqtisadiyyatımızı şaxələndirməliyik və daha güclü olmalıyıq. Təəssüf ki, bu gün dünyada bir çox hallarda beynəlxalq hüquq pozulur və təcavüzkarı işğala son qoymağa məcbur edəcək siyasi mexanizmlər yoxdur. Bu səbəbdən biz əsas diqqəti

ölkənin iqtisadi inkişafına yönəltmişik. Hesab edirəm ki, nailiyyətlərimiz olduqca böyükdür.

Bu gün Azərbaycan müasir, inkişafda olan, özünü təmin edən ölkədir, güclü və şaxələndirilmiş iqtisadiyyata malikdir. Sosial təminat yüksək səviyyədə təmin edilir, bütün iqtisadi proqramlarımız həyata keçirilib, onların bəziləri hətta vaxtından əvvəl icra olunub. Son 13 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb. Biz yoxsulluğun öhdəsindən gələ bilmişik və bu gün bu göstərici 5 faiz səviyyəsindədir. İşsizlik də təqribən həmin səviyyədədir.

Mötəbər beynəlxalq təşkilatlar Azərbaycanı inkişaf baxımından yüksək mövqelərə layiq görürlər. Məsələn, Davos Dünya İqtisadi Forumu Azərbaycanı iqtisadi rəqabətliliyinə görə 37-ci yerə layiq görüb. Bu isə dünya miqyasında aparıcı mövqelərdən biridir. Öz növbəsində, bu onu nümayiş etdirir ki, bizim iqtisadiyyatımız rəqabətlidir, şaxələndirilmişdir və yalnız bir mənbədən – enerji mənbəyindən asılı deyil. Gələcəkdə iqtisadiyyatın daha da şaxələndirilməsi, iqtisadi islahatların davam etdirilməsi ölkəmizin davamlı inkişafı üçün əlavə imkanlar yaradacaq və əminəm ki, Azərbaycan qarşıdan gələn illərdə daha da güclü olacaqdır.

Qarşılıqlı maraq üzərində qurulmuş geniş regional əməkdaşlığın yaradılması istiqamətində tərəfimizdən böyük səylər göstərilir. Xüsusilə də enerji və nəqliyyat sahələrində. Bizim təşəbbüslərimiz artıq öz bəhrəsini verir. Ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycan tərəfindən irəli sürülmüş enerji layihələri regionumuza firavanlıq gətirib. Biz Xəzərin nəhəng enerji ehtiyatlarını dünya bazarlarına çıxaran ilk ölkə olmuşuq. Xəzər dənizinin şaxələndirilmiş boru kəmərləri sistemi vasitəsilə Qara və Aralıq dənizləri ilə birləşdirilməsi Azərbaycanın ən mühüm nailiyyətlərindəndir.

Bu gün biz «Cənub Qaz Dəhlizi» adlanan qlobal enerji layihəsi üzərində çalışırıq. Onun icrası nəticəsində biz bir sıra ölkələr üçün etibarlı qaz ixracatçısına çevriləcəyik. Layihənin dəyəri təqribən 45 milyard dollardır və Azərbaycan onun həyata

keçirilməsində aparıcı rol oynayır. Bu gün biz «Cənub Qaz Dəhlizi» layihəsinin iştirakçısı olan 7 dövlətlə artıq sıx əməkdaşlıq yaratmışıq. Gələcəkdə isə yeni ölkələr layihəyə qoşulacaq ki, bu da bizə öz ehtiyaclarımızı təmin etməyə, böyük qaz ixracatçısına çevrilməyə, tranzit və istehlakçı dövlətlərə isə yeni enerji mənbəyi əldə etməyə imkan yaradacaq. Hər bir dövlətin öz iqtisadiyyatını və sənayesini inkişaf etdirmək üçün buna ehtiyacı vardır.

Bizim enerji siyasətimiz milli maraqlarımıza və əməkdaşlığa əsaslanır. Hesab edirəm ki, Azərbaycan, qeyd etdiyim kimi, bu sahədə də qarşılıqlı marağa söykənən çox məsuliyyətli yanaşma nümayiş etdirir. Biz yalnız belə olan halda məqsədimizə nail ola bilərik. Layihənin bütün iştirakçıları gəlir paylarını əldə etməlidir və biz enerji əməkdaşlığını ölkələri yadlaşdıran deyil, birləşdirən sahə hesab edirik. Düşünürəm ki, bu sahədəki nailiyyətlərimiz artıq nəzərdən keçirilə bilər.

Eyni sözləri bizim etibarlı nəqliyyat dəhlizinin yaradılması təşəbbüsümüz haqqında da demək olar. Biz üstün coğrafi mövqeyə malikik. Ancaq müvafiq infrastruktur olmadan bu coğrafiya o qədər də böyük əhəmiyyət kəsb etmir. Bu səbəbdən bizim səylərimiz nəqliyyat sahəsində regional əməkdaşlığın yaradılmasına yönəldilib. Xüsusilə də Şərq–Qərb nəqliyyat dəhlizi çərçivəsində. Bu layihə yekunlaşmaq üzrədir və artıq ilk sınaq yük qatarı Asiyadan Avropaya Azərbaycan ərazisindən hərəkət edib. Bundan başqa, icra edilməkdə olan digər layihə Şimal–Cənub nəqliyyat dəhlizi layihəsidir. Azərbaycan bu layihənin icrası çərçivəsində vacib tədbirlər görmüş və mühüm addımlar atmışdır. Xəritəyə nəzər salsanız aydın olar ki, hər iki dəhliz əlavə fəaliyyət sahəsi yaradacaq, artımı və sənayenin inkişafını stimullaşdıracaq, müxtəlif dövlətlərə və şirkətlərə vaxta qənaət etməklə, yüklərini ixrac etmək imkanı verəcək. Şərq–Qərb və Şimal–Cənub dəhlizləri vasitəsilə yük nəql edən şirkətlər 2 həftəyədək vaxta qənaət etmiş olacaqlar.

Təbii ki, burada sərmayəyə ehtiyac var. Biz həm sərmayə yatırır, həm də bu layihələrin icrası üçün digər tərəfdaşlarımıza

maliyyə dəstəyi veririk. Bunun məqsədi isə yenə də regional əməkdaşlıq, proqnozlaşdırılma, iqtisadi mənfəət və təhlükəsizlikdir. Çünki təhlükəsizlik olmasa, qeyd etdiyim heç bir layihənin icrası mümkün olmaz. Təhlükəsizliklə bağlı narahatlıq artmaqdadır. Ətrafımızda vəziyyət getdikcə gərginləşir, yeni narahatlıq mənbələri, qarşıdurma, qan tökülməsi, müharibələr meydana gəlir və bu da bizi dərindən narahat edir.

Bizim siyasətimiz hər zaman risklərin azaldılmasına hesablanır. Bu gün Azərbaycanda olan vəziyyət onu nümayiş etdirir ki, bu, təkcə bizim ölkə üçün deyil, bütün region üçün düzgün siyasətdir.

Müstəqilliyimizin 25 illiyindən bəhs edərkən, sosial təminatın gücləndirilməsi və sosial infrastrukturun yaradılması sahəsində görülən işləri qeyd etmək lazımdır. Sosial layihələrin icrası sırasında ən vaciblərindən biri qaçqınların və məcburi köçkünlərin yerləşdirilməsi idi. Bu qəbildən olan 250 min nəfər yeni evlərlə və mənzillərlə təmin edilib. Təhsil infrastrukturuna böyük vəsait yatırılıb, Azərbaycanda 3000-dən artıq yeni məktəb inşa edilib. Biz fəxr edə bilərik ki, Azərbaycanda savadlılıq 100 faiz səviyyəsindədir. Bu isə bizə inkişaf etmək imkanı yaradır. Çünki hazırda dünyada inkişaf təbii sərvət üzərində deyil, bilik, müasir texnologiya və təhsil üzərində qurulur. Bu səbəbdən biz təbii sərvətlərin insan kapitalına çevrilməsinə çalışırıq və hesab edirəm ki, buna müvəffəq olmuşuq. Təhsil bizim əsas prioritetlərimizdən olub, bu gün də prioritetdir və gələcəkdə də prioritet olaraq qalacaq.

Azərbaycan haqqında danışarkən, tərəfimizdən təşkil olunmuş, tərəfdaşlığa və dostluğa yönəlmiş beynəlxalq tədbirləri qeyd etmək istərdim. Azərbaycan bir çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir. Onlardan 2 idman tədbirini qeyd etmək istərdim. O tədbirlər ki, onun mahiyyəti yalnız idmanla məhdudlaşmır. Birincisi, ilk Avropa oyunlarıdır. Oyunlar ötən il Bakıda təşkil edilmişdi və onlar 2 nöqteyi-nəzərdən rəmzi xarakter daşıyırdı. Birincisi, ona görə ki, bu günədək digər qitə oyunlarından fərqli olaraq, Avropa oyunları təşkil edilməmişdi.

İkinci isə, ilk Avropa oyunlarının müsəlman ölkəsində keçirilməsidir. Bu, qarşılıqlı anlaşmanın çox mühüm göstəricisi idi və mən avropalı tərəfdaşlarımıza oyunlara ev sahibliyi etmiş Azərbaycanı dəstəklədiklərinə görə minnətdarlığımı bildirirəm. Bu oyunlar Yay Olimpiya oyunları səviyyəsində təşkil olunmuşdur və həqiqətən də birlik və dostluq festivalına çevrilmişdir.

Gələn il biz IV İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Yəni 2 il ərzində bir şəhərdə həm Avropa, həm də İslam Həmrəyliyi oyunları təşkil edilmiş olacaq. Bir az əvvəl qeyd etdiyim fikrə qayıtmaq istəyirəm – əlaqə, multikulturalizm, qarşılıqlı anlaşma və qarşılıqlı hörmət. Budur bizim təşviq etmək istədiklərimiz. Təbii ki, güclü media dəstəyi olmasa, biz bu sahədə uğur əldə edə bilmərik. Əlbəttə, medianın hansı formada fəaliyyət göstərməli olduğu haqda danışmayacağam, çünki bu mənim işim deyil.

Bir dövlət başçısı və siyasətçi kimi, əminəm ki, medianın beynəlxalq hadisələrdəki rolu dəqiqliklə təhlil edilməlidir. Çünki medianın rolu gündən-günə artır və bununla yanaşı, məsuliyyət də artır. Biz bir çox hallarda media tərəfindən işıqlandırılan hadisələrin gərginlik, qan tökülməsi və qarşıdurma yaratdığının şahidi oluruq. Bu səbəbdən əməkdaşlıq dəyərlərinin təşviqi baxımından xəbər agentliklərinin və medianın dəstəyi olduqca əhəmiyyətlidir. Bununla siyasətçilər ümumbəşəri dəyərlərin müdafiəsi üçün yeni imkanlar əldə etmiş olurlar. Bununla dəyərlərin təşviqində bizə daha ardıcıl və fəal olmaq fürsəti verilmiş olur. Bəzən mediada gördüklərimiz və oxuduqlarımız reallıqdan fərqlənir. Bunu şəxsi təcrübəmdən deyə bilərəm. Əlbəttə, istənilən dövlətin Prezidenti kifayət qədər dəqiq məlumat mənbələrinə malikdir. Ancaq beynəlxalq media vasitəsilə izlədiyimiz bu və ya digər eyni hadisə onun kim tərəfindən təqdim edilməsindən asılı olaraq, bəzən fərqli şəkildə çatdırılır. Bu səbəbdən biz eyni hadisənin siyasi motivlərə əsaslanan fərqli təqdimatının şahidi oluruq. Yaxın Şərq, müharibələr, Avropa, postsovet məkanı – burada eyni hadisə fərqli şəkildə təqdim edilir. Yəni biz burada siyasi

motivlər və müəyyən mənada müxtəlif siyasi dairələrin müdaxiləsinin şahidi oluruq. Hadisələrin gedişi müəyyən çərçivəyə salınır, təqdim edilməli olan məsələlər müəyyənləşdirilir, digər mövzular isə qadağan edilir.

Bu səbəbdən sizin bugünkü toplantınız və Konqresiniz bu mühüm məsələləri nəzərdən keçirəcək. Hamımız azad medianın tərəfdarıyıq. Hamımızın, xüsusilə də 70 il Sovet İttifaqının tərkibində yaşamış Azərbaycan kimi dövlətlərin doğru məlumata ehtiyacı vardır. O dönəmdə yalnız vahid rəsmi siyasət və vahid ideologiya mövcud idi və bizim heç bir məlumata çıxışımız yox idi. Təkcə bizim deyil, bütün ölkələrin və xalqların həqiqətən, nələrin baş verdiyi ilə bağlı məlumat əldə etmək hüququ var. Əminəm ki, siz bu məsələləri müzakirə edəcəksiniz və Bakı Konqresi fəaliyyətinizdə mühüm addım olacaq.

Sizi ölkəmizdə bir daha salamlayıram. Şadam və fərəhlənirəm ki, biz belə mötəbər qlobal tədbirə ev sahibliyi edirik. Konqresə uğurlar arzu edirəm.

Bir daha təşəkkür edirəm.

* * *

*Sonra YUNESKO-nun baş direktoru xanım İrina Bokovanın videomüraciəti nümayiş etdirildi. Müraciətdə deyilir:*

«Möhtərəm Azərbaycan Respublikasının Prezidenti!

Xanımlar və cənablar!

Dünya Xəbər Agentliklərinin V Konqresinin və Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyasının iştirakçılarına ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Dünyanın 100-dək ölkəsindən nüfuzlu media xadimləri rəqəmsal inqilab və jurnalistlərin qarşılaşdığı təhdidlər də daxil olmaqla, jurnalistikanın aktual problemlərini müzakirə etmək üçün bu tədbirə toplaşıblar.

Hesab edirəm ki, bu, gələcək fəaliyyətimizin uğurunun başlanğıc nöqtəsidir. Biz insan hüquqları və ləyaqəti, qanunun aliliyi və yaxşı idarəetmə, demokratiya və davamlı inkişaf naminə müstəqil, etik və plüralist medianın vacibliyinə inanırıq.

Keyfiyyətli jurnalistika cəmiyyət üçün heç vaxt olmadığı qədər vacibdir və onun başlıca vəzifəsi əsasən böhran və münaqişələr zamanı cəmiyyətin etibarlı informasiyaya tələbatını ödəməkdən, onun maraqlarını təmin etməkdən, söz azadlığı üçün əlverişli zəmin yaratmaqdan ibarətdir.

Bu kontekstdə mən Azərbaycan Prezidentinə bu təşəbbüsü irəli sürdüyünə görə minnətdarlığımı bildirirəm.

Konqresin bütün iştirakçılarına, xüsusən də YUNESKO-nun təşəbbüsü ilə 1961-ci ildə yaradılan Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının nümayəndələrinə təşəkkürümü bildirirəm. Tədbirin işinə uğurlar arzulayıram və ümid edirəm ki, biz ifadə azadlığının möhkəmləndirilməsi, azad informasiya axınının təmin edilməsi və keyfiyyətli jurnalistikanın hər yerdə dəstəklənməsi yolunda birgə işləyəcəyik. Çox sağ olun.

**İrina Bokova**
**YUNESKO-nun baş direktoru»**

**Q e t a ç y u  E n q i d a** *(YUNESKO-nun baş direktorunun müavini):* Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Siz burada YUNESKO-nun baş direktorunun müraciətini dinlədiniz. Təbii ki, mən videomüraciətdə söylənilənləri təkrarlamayacağam.

Dünya Xəbər Agentliklərinin V Konqresi, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyası 100-dək xəbər agentliyinin rəhbərlərini, media peşəkarlarını bir araya gətirərək, dünyada milyardlarla insanın xidmətində duran agentlik rəhbərlərini, baş redaktorları, reportyorları və guşə yazarlarını buradan salamlayır. YUNESKO Rusiyanın TASS agentliyinin təşəbbüsü ilə təsis edilən Dünya Xəbər Agentlikləri Konqresinin, o cümlədən YUNESKO-nun təşəbbüsü ilə 1961-ci ildə qurulmuş Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının yaradıcılarından biridir.

Siz 3 gün ərzində Bakıda dünya mediasının durumunu, xəbər agentliklərinin rolunu müzakirə edəcək və ifadə azadlığını təmin edən şərait barədə diskussiyalar aparacaqsınız.

Xəbər agentlikləri informasiya mübadiləsinin və media plüralizminin aparıcı qüvvəsi olaraq qalır və bu öz növbəsində, mədəni və intellektual müxtəlifliyi təmin edir. Media müxtəlifliyi və plüralizm fərdi idealları zənginləşdirmək, ümumi mədəni təcrübəni müxtəlif rəylər, hekayətlər və informasiya ilə dərinləşdirmək imkanı yaradır. Belə vasitələrlə sərhədlər aşılaraq, ölkələr arasında mədəniyyətlərarası dialoq təşviq edilir, azad mətbuat və fərqli rəylərin təmin olunmasını mümkün edən ifadə azadlığı möhkəmlənir. Biz həmçinin bilməliyik ki, xəbər agentlikləri məlumatın əldə edilməsi və mübadiləsində əsas iştirakçı olaraq qalır. Faktiki surətdə, xəbər agentliyi olmadan məlumatı əldəetmə hüququnu təmin edən qanunvericilik informasiya azadlığı prinsipinin təmin edilməsi və həyata keçirilməsində güclü vasitə ola bilməz.

İnternet inqilabı baş verdikdən sonra keyfiyyətli jurnalistika heç vaxt görünmədiyi kimi, mühüm məsələ olaraq qalır. Medianın rolu etibarlı məlumat verərək, azad düşüncəni ifadə etməklə, ictimai maraqlara xidmət göstərməkdən və xüsusən də böhran, münaqişə zamanı cəmiyyətin maraqlarının keşiyində durmaqdan ibarətdir. Reportajların verilməsi zamanı etikanın gözlənilməsi xəbərlərin toxunduğu sosial dinamikaya bələd olaraq, münaqişəli məqamların nəzərə alınmasını, eləcə də bəsit və qızışdırıcı hekayətlərin arxasınca qaçmaq istəyinin kənara qoyulmasını tələb edir. Bu, faktların və rəqəmlərin araşdırılmasını, səbəblərin bildirilməsini, antoqonizmi qızışdırmağa çalışan şəxslərin motivasiyasını, eləcə də ahəngdarlıq və birgəyaşama naminə çalışan şəxslərin işini nəzərdə tutur.

Xanımlar və cənablar, belə çoxşaxəli və plüralist medianın təhlükəsiz mühitə ehtiyac duyması ilə əlaqədar hətta YUNESKO-nun üzv dövlətləri bizə güclü dəstək versə də, media azadlığı və ifadə azadlığı təzyiqlər altında qalmaqdadır. Son onillik ərzində ümumən 827 jurnalist məlumatı ictimaiyyətə çatdırdığına görə həyatından məhrum olub. Orta hesabla desək,

bu hər 5 gündə bir ölüm halı deməkdir. Ümumiyyətlə, media peşəkarları və xəbər agentliklərinin reportyorları nəinki verdikləri reportaja görə hədəfə, o cümlədən ekstremistlərin təbliğatına qarşı fəaliyyətlərinə görə qurbanlara çevrilirlər.

Media icması üzv dövlətlərlə yanaşı, hamı üçün keçmiş və yeni media, reportyorlar və azad yazarlar, jurnalist və sosial media yaradıcıları üçün daha təhlükəsiz mühit yaratmaq məqsədilə birləşməlidir. Bu, jurnalistlərin təhlükəsizliyi və cəzasızlıq təhlükəsizliyi ilə bağlı baş direktorun noyabrın 17-də üzv dövlətlərə rəsmən təqdim edəcəyi hesabatın əsas mesajıdır.

Mən müzakirələrinizdə sizə uğurlar arzulayıram. Qoy media plüralizminin və redaktor müstəqilliyinin dəstəklənməsi və gücləndirilməsi, eləcə də xəbərlərin azad axınının möhkəmləndirilməsi, jurnalistika üçün təhlükəsiz mühitin qurulması sahəsində aparılan iş müzakirə və qərarlarınızın mərkəzində olsun. Diqqətinizə görə çox sağ olun.

## DUBAY TİCARƏT VƏ SƏNAYE PALATASININ SƏDRİ MƏCİD SAİF ƏL-QURAİR İLƏ GÖRÜŞ

*16 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Dubay Ticarət və Sənaye Palatasının sədri Məcid Saif əl-Qurairi qəbul etmişdir.*

*Ölkələrimiz arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu ilin əvvəlində Birləşmiş Ərəb Əmirliklərinə səfərini və səfər zamanı ölkə rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. Turizm sahəsində əməkdaşlığın önəminə toxunan prezident İlham Əliyev artıq Birləşmiş Ərəb Əmirliklərindən çoxlu sayda turistlərin ölkəmizə səfər etdiyini vurğuladı. İqtisadi sahədə əlaqələrimizin daha da genişləndirilməsinin vacib olduğunu qeyd edən prezident İlham Əliyev bu baxımdan idxal-ixrac imkanlarının araşdırılmasının önəmli olduğunu, Azərbaycanın müvafiq qurumları tərəfindən bu sahədə fəal iş aparıldığını dedi.*

*Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycan ilə münasibətlərə böyük önəm verdiyini vurğulayan Dubay Ticarət və Sənaye Palatasının sədri Məcid Saif əl-Qurair qeyd etdi ki, Azərbaycan çox gözəl bir diyardır və buraya gələn turistlər insanların qonaqpərvərliyinin və xoş əhval-ruhiyyəsinin şahidi olduqlarını deyirlər. O hazırda Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artmasını məmnunluqla qeyd etdi və turizm sahəsində əlaqələrin inkişafına verdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Görüşdə biznes, turizm, Azərbaycanın kənd təsərrüfatı məhsullarının Birləşmiş Ərəb Əmirliklərinə ixrac imkanları, viza rejiminin daha da sadələşdirilməsi, sərmayə qoyuluşu ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÜNYA XƏBƏR AGENTLİKLƏRİNİN V KONQRESİNİN İŞTİRAKÇILARININ BİR QRUPU İLƏ GÖRÜŞ

*17 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Dünya Xəbər Agentliklərinin V Konqresinin iştirakçılarının bir qrupunu qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v**: Dünən biz görüşmüşdük. Dünənki çıxışımda qeyd etdiyim kimi, bu qlobal tədbirə ev sahibliyi etmək böyük şərəfdir. Dünyanın bu qədər çoxlu sayda aparıcı xəbər agentlikləri nümayəndələrinin Bakıda toplaşması çox əlamətdar haldır. Bu, ölkəmizin təqdimatı üçün yaxşı imkan yaradır. Dünən qeyd etdiyim kimi, müstəqil, gənc dövlət olmasına baxmayaraq, Azərbaycan zəngin tarixə, ənənələrə, mədəniyyətə malik bir ölkədir. Ümidvaram ki, sizin Azərbaycanın bir sıra tarixi yerlərini görmək və Azərbaycan haqqında daha çox məlumat əldə etmək imkanınız olacaq. Çünki özümüzü təqdim etmək üçün biz hələ çox işlər görməliyik. 25 illik dövr bunun üçün kifayət deyil. Bu baxımdan biz dünya miqyasında müxtəlif tədbirlər, o cümlədən mədəniyyət sahəsində, iqtisadi potensialımızın təqdim edilməsi ilə bağlı tədbirlər keçiririk. Lakin təqdimatın ən yaxşı yolu qonaqlara burada ev sahibliyi etməkdir. Xüsusilə o qonaqlara ki, onlar gündəlik işlərində beynəlxalq ictimaiyyəti dünyada gedən proseslərlə məlumatlandırırlar. Bu baxımdan fikrimcə, Bakıda bu Konqresin keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

**K l a y v M a r ş a l** (*Dünya Xəbər Agentlikləri Konqresi Şurasının (NACO) prezidenti, Böyük Britaniyanın «Press Association» agentliyinin baş icraçı direktoru):* Çox sağ olun, cənab Prezident. Bizim bugünkü görüşümüzdə dünyanın hər yerindən xəbər agentliklərini təmsil edən insanlar toplaşıb və onların bir qismi Sizə suallar vermək istəyindədir. Mən burada bütün

Konqres iştirakçıları adından danışmaq istərdim. Biz Konqresdə Sizin dünənki nitqinizin təəssüratları altındayıq və fikrimcə, hər bir iştirakçı xüsusilə Sizin ingiliscənizə valeh olub. Yəqin buradakı həmkarlarım üçün də maraqlıdır ki, Sizin ingiliscəniz necə olur ki, bu səviyyədədir?! Bu, bir möcüzədir.

Buradakı iştirakçıların bir çoxu son 3 ildə bir neçə dəfə ölkənizə səfər edib. Biz Bakıdakı inkişaf proseslərini görməkdən çox məmnunuq və Siz dünənki nitqinizdə bu barədə danışdınız. Bizim həmkarlarımızın bir hissəsi Azərbaycanın müxtəlif yerlərində, kiçik kəndlərdə, o cümlədən Qafqaz dağlarında yerləşən, əgər düz tələffüz edirəmsə, Xınalıq kəndində olub. Bizi orada qonaqpərvərliklə qarşıladılar, səhər yeməyi verdilər və bu bizdə sizin ölkənizlə bağlı dolğun təəssürat yaratdı. Biz hər şeyi öz gözümüzlə gördük. Son günlər ərzində bizə çox xoş münasibət göstərilib və ölkələrimizdə media peşəsi ilə bağlı bir çox məsələləri müzakirə etmək imkanımız olub.

**Abdullah bin Fəhd əl-Hüseyn** *(Dünya Xəbər Agentlikləri Konqresinin və Səudiyyə Ərəbistanının «Saudi Press» agentliyinin (SPA) prezidenti):* Cənab Prezident, bu mühüm tədbirin təşkilinə verdiyiniz dəstəyə görə minnətdarlığımızı bildiririk. Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında münasibətlər yüksək səviyyədədir. Biz dost ölkələrimiz arasında ikitərəfli əlaqələri daha da möhkəmləndirməliyik.

**İlham Əliyev:** Çox sağ olun. Sizinlə razıyam. Ölkələrimiz arasında çox yaxşı münasibətlər var. Mən ötən il sizin ölkənizdə rəsmi səfərdə olmuşam və zati-aliləri Kral tərəfindən bizə çox böyük qonaqpərvərlik göstərildi. Ölkələrimiz arasında münasibətlər çox yaxşıdır. Biz çox yaxşı tərəfdaş və dostuq.

**Yonas Olof Erikson** *(Avropa Xəbər Agentlikləri Alyansının prezidenti, İsveçin «TT» agentliyinin baş icraçı direktoru):* Cənab Prezident, bizi qəbul etdiyinizə görə çox sağ olun. Bura çox gözəldir. Azərbaycana, Bakıya ilk səfərimdir. Bakı çox təsirləndirici şəhər, Azərbaycan isə çox təsirləndirici ölkədir. «TT» agentliyinin baş icraçı direktoru və Avropa Xəbər Agentlikləri Alyansının prezidenti olmağımla yanaşı, mən həm

də atayam. Mənim iki uşağım var – 14 və 12 yaşlarında. Onlar Stokholmda yaşayırlar. Mənim Sizə sualım var, cənab Prezident, əgər mənim uşaqlarım mənim yolumu davam etdirsəydilər və jurnalist peşəsini seçsəydilər, bu mənim üçün çox sevindirici hal olardı. Sizin uşaqlarınıza gəldikdə, cənab Prezident, Siz uşaqlarınızın siyasətlə məşğul olacaqlarını, Sizin və atanızın davamçısı olacaqlarını gözləyirsinizmi?

**İ l h a m  Ə l i y e v:** Bu onların istək və planlarından asılıdır. Düşünürəm ki, hələ öz fəaliyyətlərindən razıdırlar. Onlar mədəni və sosial məsələlərdə çox fəaldırlar. Yeri gəlmişkən, onların ikisi, həmçinin media ilə də bağlıdır. Mənim böyük qızım uzun illərdir ki, Azərbaycanı Rusiya və beynəlxalq auditoriyaya təqdim edən «Baku» jurnalının baş redaktorudur. Jurnal iki dildə – ingilis və rus dillərində çap olunur. Siz bu jurnalı internetdə görə bilərsiniz. Mənim ikinci qızım da jurnalistika ilə bağlı məsələlərlə məşğuldur. O, jurnalist təhsili alıb. O, Azərbaycanın zəngin tarixə malik olan müasir ölkə kimi tanınması istiqamətində sənədli filmlər üzərində çalışır və digər tədbirlərdə iştirak edir. Mənim oğlum tələbədir. Gələcək seçimi onun özündən asılıdır. O, Bakıda universitetdə iqtisadiyyat üzrə təhsil alır. Beləliklə, bu onların qərarı olacaq. Azərbaycan hər kəs üçün bərabər imkan yaradan ölkədir. Əgər onlar gələcəklərini siyasətlə bağlamaq istəsələr, bu onların seçimi olacaq.

**P a r k  N o-H v a n q** *(Koreya Respublikasının «Yonhap» agentliyinin prezidenti və baş icraçı direktoru):* Burada olmaq mənim üçün həqiqətən də şərəfdir. Düşünürəm ki, ola bilsin, mən Sizinlə görüşən və burada olan ilk Koreya jurnalistiyəm. Azərbaycan vətəndaşlarının Koreya məhsullarını, məsələn, elektrik avadanlıqları və Koreya avtomobilləri kimi məhsulları çox bəyənməsini eşitmək mənə qürur hissi verir. Eşitmişəm ki, linqvistik nöqteyi-nəzərdən Azərbaycan və Koreya dilləri bir-birinə oxşardır. Beləliklə, mən Azərbaycan dilini mümkün qədər tez öyrənməyi də qərara ala bilərəm. Sualım isə Sizin Koreya barədə təsəvvürünüzün nədən ibarət olması ilə bağlıdır

və Koreya ilə daha dərindən əməkdaşlıq etmək üçün hər hansı bir planlarınız varmı?

**İ l h a m Ə l i y e v:** Bizim çox yaxşı münasibətlərimiz var. Bir neçə il bundan əvvəl mən sizin ölkənizə rəsmi səfər etmişəm. Koreyanın Prezidenti və Baş naziri də Azərbaycana səfər edib. Bizim çox yaxşı siyasi əlaqələrimiz var. Bir çox Koreya şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Bakıda olan bəzi yeni binalar və göydələnlər Koreya memarları tərəfindən layihələndirilib. Həmçinin Koreya şirkətləri Azərbaycanda dövlətin maliyyələşdirdiyi yeni sənaye ərazilərinin icrası üzərində çalışır və çox fəaldırlar. Bizim çox yaxşı mədəni əlaqələrimiz var. Biz Azərbaycanın Koreyada, Koreyanın isə ölkəmizdə mədəniyyət günlərini təşkil etmişik. Xalqlarımız bir-birinə çox böyük rəğbət bəsləyirlər. Buna görə də biz bu tərəfdaşlığın daha da genişləndirilməsini səbirsizliklə gözləyirik.

**B r ü s A l a n D a v i d s o n** *(Avstraliyanın «AAP» agentliyinin baş direktoru):* Cənab Prezident, bizi burada qəbul etdiyiniz üçün Sizə təşəkkür edirəm. Bəli, Avstraliya Azərbaycandan böyük məsafədə yerləşir. Həmkarlarıma və dostlarıma Azərbaycana səfər edəcəyimi deyəndə, maraqlısı o oldu ki, onların bir çoxu ölkəniz haqqında eşitsələr də, Azərbaycanın harada yerləşməsi barədə məlumatları yoxdur. Beləliklə, Sizin ölkənizə səfər etməklə, mən Azərbaycan haqqında daha çox məlumat əldə etdim. Nəzərimdən qaçmayan məqamlardan biri də yeni binaların müasir memarlığıdır. Bu da, əlbəttə ki, müasir Bakının bir xüsusiyyətidir. Sidneydən gələn bir şəxs kimi, deyə bilərəm ki, sizin yeni tikilən Əyləncə Mərkəzinizlə Sidney Opera Evinin bəzi elementləri arasında oxşarlıq var. Bilmirəm bu, bilərəkdən olub, ya yox. Mən həmin binanın elementlərini nəzərdə tuturam. Sizdən soruşmaq istəyirəm: Bakıda bu çox müasir və innovasiyalı memarlıq üslubunun tətbiq edilməsi strategiyası sizə hansı faydaları verir?

**İ l h a m Ə l i y e v:** Şərhləriniz üçün Sizə təşəkkürümü bildirirəm. Bakı tarixi şəhərdir, qədim şəhərdir. Tarixi Bakı bu gün görə biləcəyiniz qədim şəhər divarı ilə əhatə olunub. Yeri gəl-

mişkən, İçərişəhər dünya irsi kimi, YUNESKO tərəfindən qorunur. Əlbəttə, bizi narahat edən məsələ öz tarixi irsimizi qorumaqdır. Bakının çoxsaylı tarixi binaları XIX əsrdə Azərbaycanda ilk neft bumu yaşananda inşa olunub. Bu binalar dövlət tərəfindən də qorunur. Lakin şəhər inkişaf edir və biz vətəndaşlarımız üçün yaxşı şərait yaratmalıyıq. Buna görə də yeni infrastrukturun, müasir müəssisələrin və yeni binaların yaradılması Bakının tarixi görünüşü ilə ahəngdarlıq təşkil etməlidir. Düşünürəm ki, biz bunun öhdəsindən gəlmişik. Hesab edirəm ki, müasir və tarixi binalar arasında heç bir ziddiyyət yoxdur. Əksinə, siz İçərişəhərdən çıxıb yolu keçərək, özünüzü 16 kilometrlik ən uzun bulvarda və müasir mühitdə tapa bilərsiniz. Biz tikintinin inkişafını diqqətlə izləyirik və ona nəzarət edirik ki, yeni binalar müasir memarlığa uyğunlaşsın. Onlardan biri sizin dünən olduğunuz Heydər Əliyev Mərkəzidir. Heydər Əliyev Mərkəzi bir çox beynəlxalq mükafatlara layiq görülüb və mən şəxsən hesab edirəm ki, o, məşhur memar Zaha Hadidin ən yaxşı incəsənət əsəridir və Mərkəz dünya kataloqlarındadır. Bakının digər yeni bir rəmzi «Alov qüllələri»dir. Bu da şah əsərdir. Sizin istinad etdiyiniz və Sidney Opera Evinə oxşayan bina isə yeni tikinti kimi görünə bilər. O, Xəzər dənizində yerləşir, eləcə də «Marriott» hotelinin yanında yeni inşa edilmiş hoteldir. Yeri gəlmişkən, o, Koreya memarları tərəfindən layihələndirilib. Beləliklə, bu, inkişafın göstəricisidir və çox şadam ki, sizin Bakıda gördüyünüz yeni inşa olunmuş binaların mütləq əksəriyyəti özəl sektor – yerli və xarici şirkətlər tərəfindən maliyyələşdirilib. Bu onu göstərir ki, şirkətlərin burada çalışmağa çox böyük marağı var. Bunun üçün potensial və dinamika var. Bilirəm ki, sakinlərimiz Bakının dünyanın ən gözəl şəhərlərindən biri olması ilə fəxr edirlər.

*Sonra görüş sual-cavab şəklində davam etdirildi.*

**Cüzeppe Serbone** *(İtaliyanın «ANSA» agentliyinin baş icraçı direktoru):* **Mənim sualım Azərbaycanda həyata keçirilən TANAP layihəsi ilə bağlıdır. Sizin TANAP layihəsi**

**ilə Rusiyanın Avropaya qaz axını layihəsi arasında ziddiyyət varmı? Bu məsələ Aralıq dənizi bölgəsi ölkələri üçün vacibdir.**

**İ l h a m  Ə l i y e v:** Neft böyük resursdur. Lakin hər şey bu resursdan necə yararlanmaqdan asılıdır. Biz neftdən yararlana bilməyən bir çox neft ölkələrinin nümunələrini görürük və neft sahəsinin inkişafı onlar üçün bir lənətə çevrilib. Beynəlxalq neft şirkətləri ilə layihələrə başlayanda əsas məqsədimiz maliyyə ehtiyatlarımızın toplanılması və sərf olunmasına dair maksimum şəffaflığın təmin edilməsi ilə bağlı idi. Bu məqsədlə biz Dövlət Neft Fondunu təsis etdik. Bu da dünyada ən şəffaf, müstəqil ehtiyat fondlarından biri hesab olunur. Neft satışından əldə olunan bütün vəsaitlər və həmçinin xərclər də şəffafdır və beynəlxalq səviyyədə audit olunur. Biz Neft Fondundan vəsaitləri yalnız parlament tərəfindən təsdiq olunan büdcə məsrəfləri çərçivəsində xərcləyə bilərik. Ona görə də Azərbaycanda indi ümumi daxili məhsulumuza çox yaxın olan əsaslı maliyyə ehtiyatlarını yarada bildik. Dövlət Neft Fondu və bizim şəffaflıq siyasətimiz bu məsələdə çox önəmli rol oynadı. Neft satışlarından əldə olunan çoxlu həcmdə vəsaiti biz infrastruktura sərmayə kimi yatırdıq. Biz regionlarda infrastrukturu – yolları, elektrik enerjisinin generasiyasını, qazlaşdırmanı, su və kanalizasiya sistemlərini, suyun təchizatını tamamilə yenidən qurduq. Bu gün biz təkcə neft və qazı ixrac etmirik, eyni zamanda, uzun illər bundan əvvəl idxal etdiyimiz elektrik enerjisini ixrac edirik. İndi isə bizim təşəbbüsümüzlə «Cənub Qaz Dəhlizi» layihəsi icra edilir. Dünənki çıxışımda mən bu barədə qısaca danışdım. «Cənub Qaz Dəhlizi» 4 ayrıca layihədən ibarətdir. Birincisi, dünyada ən böyük qaz yataqlarından biri sayılan «Şahdəniz-2» layihəsinin işlənilməsidir. İkincisi, Azərbaycandan Gürcüstana mövcud qaz xəttinin genişləndirilməsidir. Bunun adı «Cənubi Qafqaz» boru kəməridir. Üçüncüsü, Türkiyənin şərq sərhədindən qərb sərhədinə qədər uzanan Trans–Anadolu boru kəməridir. Əlbəttə ki, sonuncusu Trans–Adriatik boru kəməri TAP-dır. Bu boru kəməri Türkiyənin Yunanıstanla sərhədindən başlayaraq,

Yunanıstanın, Albaniyanın ərazisindən və suyun altından keçərək, İtaliyaya gedib çıxır. Birləşdirilmiş boru kəmərinin uzunluğu 3000 kilometrdən çoxdur və hazırda 7 ölkə Azərbaycanın rəhbərliyi altında bu layihənin fəal üzvüdür. Bu da bu ilin fevral ayında keçirilən «Cənub Qaz Dəhlizi» layihəsinin Məşvərət Şurasının ikinci iclasında öz təsdiqini tapmışdır. Avropa Komissiyasının vitse-prezidentləri, ABŞ Prezidentinin xüsusi nümayəndəsi, habelə «Cənub Qaz Dəhlizi» layihəsinə üzv olan ölkələr tərəfindən imzalanmış bəyannamələr açıq-aydın göstərir ki, bu layihə Azərbaycanın rəhbərliyi altında həyata keçirilir. Bu layihə bizə təbii qazımızı ən böyük bazar olan Avropaya ixrac etmək üçün lazımdır. Avropaya isə bu layihə ona görə lazımdır ki, Avropanın əlavə qaz mənbəyinə ehtiyacı var. Çünki Avropanın inkişafına əlavə enerji ehtiyatları lazımdır və Avropaya enerjini təchiz edən mövcud ehtiyatların bəziləri artıq tükənməkdədir. Onlara yeni ehtiyat lazımdır. Burada, Xəzər regionunda, Azərbaycanda təsdiqlənmiş yeni qaz ehtiyatlarının həcmi 2,6 trilyon kubmetrdir. Beləliklə, bu, Avropa istehlakçılarını onillərlə qazla təmin etməyə kifayət edəcək. Biz bu layihəni heç vaxt regionda icra olunan hər hansı bir digər qaz layihəsinə alternativ və ya rəqib kimi saymamışıq. Bizim layihəmiz artıq mənim qeyd etdiyim hədəfə doğru yönəlib: istehsal etmək, təchiz etmək, istehlakçıların ehtiyaclarını ödəmək, tranzit ölkələrini sevindirmək və həm də ölkəmiz üçün qazanc əldə etmək. Beləliklə, layihənin icrası cədvəl üzrə gedir. Avropada bəzi ekoloji narahatlıqlarla bağlı gecikmələr var idi. Lakin məndə olan məlumata görə, artıq bu məsələlər öz həllini tapıb. 2018-ci ildə TANAP layihəsi vaxtında istismara veriləcək. Ümid edirik ki, 2020-ci ilə qədər «Cənub Qaz Dəhlizi» layihəsinin digər hissələri də icra olunacaq. Lakin yenə də qeyd etmək istəyirəm ki, biz, layihənin iştirakçısı olan 7 ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya və son mərhələdə layihəyə qoşulmaq arzusunu ifadə etmiş iki Balkan ölkəsi – Xorvatiya və Monteneqro arasında bu beynəlxalq əməkdaşlığı çox sıx şəkildə davam etdirməliyik.

**C o n D a n i ş e v s k i**(*«Associated Press» agentliyinin vitse-prezidenti*): **Cənab Prezident, bildiyimizə görə, ölkənizdə bir neçə jurnalist həbsdə qalmaqdadır. Bizə Əli Həsənov bildirdi ki, onların həbsdə olmaları məhz jurnalistlik fəaliyyətləri ilə bağlı deyil. Onlar xuliqanlıq, vergi pozuntuları və digər bu cür məsələlərlə bağlı həbs olunublar. Bildiyimizə görə, Xədicə İsmayılova həbs olunduqdan sonra «Azad Avropa» radiostansiyası bürosunun fəaliyyətinin bərpa edilməsinə icazə verilməyib. Ölkə xaricində bəzi jurnalistlər var ki, təqiblərə məruz qaldıqlarını bildirirlər. Siz dünənki çıxışınızda aydın şəkildə qeyd etdiniz ki, Azərbaycanın dünyada dolğun şəkildə tanınmasını istəyirsiniz. Siz dünyada Azərbaycanla və mətbuat azadlığı ilə bağlı yenidən əminlik yaratmaq üçün atıla bilinəcək bəzi addımlar barədə nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Siz dünya deyəndə kimi nəzərdə tutursunuz? Siz həmişə dünyanın adından danışmağı xoşlayırsınız. Mən 13 illik prezidentlik fəaliyyətim dövründə bunun şahidiyəm. Dünya hər hansı bir ayrılıqda götürülmüş ölkədən böyük məfhumdur. Biz çox zaman belə bir ifadəyə rast gəlirik ki, beynəlxalq birlik hansısa bir məsələdən narahatdır. O zaman müəyyənləşdirmək lazımdır, beynəlxalq birlik dedikdə nə nəzərdə tutulmalıdır? Beynəlxalq birlik BMT-yə üzv olan 200 ölkə deməkdir. Dünən mən öz çıxışımda da qeyd etdim ki, bu ölkələrin üçdə ikisi Azərbaycanı BMT Təhlükəsizlik Şurasına üzvlük məsələsində dəstəkləmişdir. Mən dünənki çıxışımda onu da qeyd etdim ki, Azərbaycanda mətbuat azadlığı tam şəkildə təmin olunub. Bu məsələnin mahiyyətinə diqqət yetirmək kifayət edir. Ölkəmizdə əgər azad internet fəaliyyət göstərirsə, senzura yoxdursa, əhalinin 75 faizi internet istifadəçisidirsə, mətbuat azadlığının məhdudlaşdırılmasından necə danışmaq olar?! Əgər sosial şəbəkədə – «Feysbuk»da və «Tvitter»də 2 milyon insanımız varsa, mətbuat azadlığını necə məhdudlaşdırmaq olar?! Biz qarşımıza belə siyasi məqsəd qoymamışıq. Bizim məqsədimiz bütün azadlıqların təmin olunduğu, müasir,

inkişaf edən, demokratik cəmiyyət quruluşunu davam etdirməkdən ibarətdir. Bu, bütün digər azadlıqlara da şamil olunur. Məsələn, sərbəst toplaşma hüququ. Bəzən Azərbaycanı tənqid edirlər ki, bizdə sərbəst toplaşma hüququ yoxdur. Bu yanlışdır. Bunun üçün bu yay müxalifətin keçirdiyi mitinqlərə nəzər salmaq kifayətdir. Qeyd edim ki, onlar mitinqlərə çox adam yığa bilmirlər, onların sayı dünən Heydər Əliyev Mərkəzində keçirilən tədbir iştirakçılarının sayından az olur. Lakin onlar azad şəkildə toplaşırlar, heç bir məhdudiyyət yoxdur. Bir daha qeyd edirəm ki, Azərbaycanda mətbuat azadlığı tam şəkildə təmin olunub. Ayrı-ayrı jurnalistlərlə bağlı olan məsələlərə kontekstdən kənar baxılmamalıdır. Ölkələrin çoxunda jurnalistlərin cinayət törətməsi halları baş verir və onlar istintaqa cəlb olunurlar. Biz bu məsələdə obyektiv olmalıyıq, məsələlərə obyektivlik mövqeyindən yanaşmalıyıq. Mən də sizə belə bir sual vermək istərdim: Azərbaycanı qeyd etdiyim məsələlərlə bağlı tez-tez tənqid edirlər, bəs siz mənə deyə bilərsinizmi ki, nəyə görə Culian Asanj hələ də Ekvadorun Londondakı səfirliyindədir? Culian Asanj bir neçə il bundan qabaq hansısa qadınla hansısa əlaqələrə görə ekstradisiya və ölüm cəzası təhlükəsi ilə üzləşib. O, 2 ildən artıqdır ki, səfirlikdədir və çölə çıxmaqdan qorxur. Bunu necə izah edə bilərsiniz? Jurnalistlə bu cür rəftar etmək demokratikdirmi? Bu rəftara nə ad vermək olar?

**C o n D a n i ş e v s k i:** Bilirsiniz, mən bu məsələ ilə bağlı ekspert deyiləm. Mənim fikrimcə, o, İsveçə geri qayıda, orada prokurorlarla təmasda ola və bu məsələlərlə məşğul ola bilər.

**İ l h a m Ə l i y e v:** Onda o, həbs olunacaq, ekstradisiya ediləcək və yəqin ki, ömürlük həbs cəzası alacaq.

**C o n D a n i ş e v s k i:** Mən əmin deyiləm... Bəlkə isveçli həmkarım....

**İ l h a m Ə l i y e v:** Mən demək istəyirəm ki, belə hallar baş verir. Hansısa ayrı bir ölkə hücumlara hədəf seçilməməlidir. Heç kim mükəmməl deyil və bütün bu məsələlərə reallıq kontekstində baxılmalıdır.

**M a k s i m  M i n ç e v** *(Bolqarıstanın «BTA» agentliyinin baş direktoru):* **Cənab Prezident, keçən il ilk Avropa oyunlarından əvvəl Bakıda olmuşam. Bir saat bundan əvvəl yola çıxanda çoxlu binalar gördük. Lakin onlar indi boşdur. Gələcəkdə bu böyük idman infrastrukturu ilə nə baş verəcək?**

**İ l h a m  Ə l i y e v:** Hansılarını deyirsiniz?

**M a k s i m  M i n ç e v:** Bir çox binalar var, onlar boşdur.

**İ l h a m  Ə l i y e v:** Xeyr, mən belə hesab etmirəm. Çünki mən bilmirəm Siz hansı binaları nəzərdə tutursunuz. Lakin onların əksəriyyəti fəaliyyət göstərir. Qeyd etdiyim kimi, Bakıda gördüyünüz yeni binaların əksəriyyəti özəl sərmayə hesabına tikilib. Buna görə onlar boş ola bilməz və hotellər, ofis mərkəzləri, yaşayış binaları kimi fəaliyyət göstərir. Avropa oyunları ərəfəsində yenidən qurduğumuz və inşa etdiyimiz idman qurğularına gəldikdə isə onlar fəaliyyət göstərir. Məsələn, bizim Olimpiya stadionumuz fəaliyyət göstərir və orada futbol oyunları keçirilir. Avropa oyunları ərəfəsində inşa olunmuş Su İdmanı Sarayı və başqaları da fəaliyyətdədir. Azərbaycan çox məşhur idman ölkəsidir. Bizim çox yaxşı nəticələrimiz var. Yeri gəlmişkən, Avropa oyunlarında Azərbaycan yığmasının medal sayına görə 2-ci yerə çıxması ölkəmizin oyunlara ev sahibliyi etməsi ilə bağlı deyildi. Düşünürəm ki, Rio Yay Olimpiya oyunları bunu bir daha göstərdi. Biz Olimpiya oyunlarında 18 medal qazandıq və Olimpiya oyunlarında iştirak edən bütün ölkələr sırasında medal sayına görə 14-cü yerdə qərarlaşmışdıq. Avropa ölkələri arasında 7-ci, keçmiş Sovet İttifaqı ölkələri arasında Rusiyadan sonra 2-ci, müsəlman dünyasında 1-ci yerdə idik. Sizin Bakıda gördüyünüz bütün bu idman qurğuları fəaliyyətdədir, eləcə də digərləri. Mən hər bir konkret bina haqqında danışa bilmərəm, çünki Sizin hansı binanı nəzərdə tutduğunuzu bilmirəm. Lakin onların əksəriyyəti fəaliyyətdədir. Onların bəziləri inşa olunmaqdadır.

**M a k s i m  M i n ç e v: «Formula-1»dən sonra gələcəkdə Siz Azərbaycanda Olimpiya oyunlarına ev sahibliyi etməyə hazırsınızmı?**

**İ l h a m  Ə l i y e v:** Əslində növbəti Olimpiya oyunlarına ev sahibliyi etmək üçün namizədlik irəli sürmək fürsəti bizdə var idi. Lakin düşündük ki, hazırda biz bunu etməyək. Çünki Avropa oyunları, demək olar ki, Yay Olimpiya oyunları səviyyəsində keçirilmişdi. Gələn il bizdə İslam Həmrəyliyi oyunları və böyük uğur qazanmış, çoxlu diqqət cəlb edən «Formula-1» Qran-prisi keçiriləcək. «Formula-1»in 500 milyonluq auditoriyası var. Ola bilsin, burada Olimpiya oyunları ilə paralellik aparmaq olar. Olimpiya oyunları 2-3 həftə ərzində keçirilir, sonra isə yekunlaşır. «Formula-1» yarışları isə hər il keçirilir və davam edir. «Formula-1» və Avropa oyunlarından sonra biz Azərbaycana gələn turistlərin sayında artımı müşahidə edirik. Xüsusilə məhz ona görə ki, «Formula-1» şəhər halqasında keçirilmişdi. Beləliklə, insanlar təkcə yarışı deyil, şəhəri də izləmək imkanı qazandılar və onlar yeni məkanları görmək və kəşf etmək istəyirlər.

**M a k s i m  M i n ç e v: «Formula-1» yarışlarına gələcək 10 il ərzində ev sahibliyi edəcəksinizmi?**

**İ l h a m  Ə l i y e v**: Müddətlə bağlı məndə heç bir əminlik yoxdur. Lakin bilirəm ki, 5 illik müqavilə bağlanmışdır və sonradan o, uzadıla bilər. Yalnız 3 şəhər halqası var. Bunlar Bakı, Sinqapur və Monakodur. Yalnız 3.

**Muhannad Sulaiman Mohsen Alnoaimi** *(Bəhreynin «BNA» agentliyinin baş direktoru):* Mən Bakı haqqında uzun illər bundan qabaq xəbərlərdə eşitmişəm. Bura gəlməzdən öncə fərqli təəssüratlarım vardı. Lakin burada olduğum 3-4 gün ərzində həmkarlarıma da dediyim kimi, şoka düşdüm. Şəhər çox müasir və gözəldir. Siz böyük işlər görürsünüz, viza rejiminin sadələşdirilməsi çox yaxşı haldır. Biz çox şadıq ki, bizim hökumətimizin, bizim Kralımızın zati-alilərinizlə çox gözəl münasibətləri var.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, xoş sözlərinizə görə təşəkkür edirəm. Qeyd etdiyiniz kimi, körfəz ölkələri üçün viza rejiminin sadələşdirilməsindən sonra bu ölkələrdən olan turistlərin sayı 10 dəfə, bəlkə də 20 dəfə artıb. Xüsusilə yay vaxtı burada çox sayda

qardaşımız var idi. Ümumiyyətlə, biz yeni viza rejimi təqdim edirik. Bir neçə gün ərzində elektron viza alıb Bakıya gəlmək çox asandır. Təhlükəsizlik, yaxşı iqlim, qonaqpərvər insanlar, yaxşı hotellər, infrastruktur, yaxşı mətbəx – siz özünüzü evinizdəki kimi hiss edirsiniz. Bakı çoxlu tarixi abidələri olan, rahatlıq verən şəhərdir. Siz qeyd etdiniz ki, rayonlardan birində səfərdə olmusunuz. Biz regionların inkişafına xüsusi diqqət yetiririk. Bakının da rayonları sürətlə inkişaf edir, sosial infrastruktur, avtomagistrallar, respublikada 6 beynəlxalq aeroport və xeyli hotellər var. Nisbətən kiçik ərazisi olan Azərbaycanda 9 iqlim qurşağı mövcuddur. 2-3 saatın ərzində maşınla subtropik əraziyə, Alp dağlarına bənzər yerlərə, yarımsəhraya, Xəzərin sahilinə, xizək kurortuna gedə bilərsiniz. Azərbaycan həqiqətən də daha çox tanınmaq istəyən ölkədir və düşünürəm ki, ən yaxşı vasitə sizin Konqresdir. Biz müxtəlif təqdimatlar zamanı Azərbaycan haqqında çox danışa bilərik. Lakin siz buradasınız, görürsünüz, hiss edirsiniz və siz bir gün deyil, bir neçə gündür buradasınız. Yəqin ki, sizin insanlarla görüşmək, onlardan Azərbaycanda və dünyada baş verənlər barədə nə düşündüklərini soruşmaq imkanınız olub. Mən bilirəm ki, ilk dəfə gələnlərin çoxu bir də gəlmək istəyir.

**K l a y v  M a r ş a l: Cənab Prezident, iclasa yekun vurmaq üçün TASS agentliyinin baş direktoru Sergey Mixaylova söz verməzdən əvvəl mən Sizə imkan yaratmaq istəyirəm. Burada dünyanın hər yerindən insanlar var – Cibuti, Meksika, Koreya, Avstraliya, ABŞ, Kanada və Rumıniyadan. Sizin bizə vermək istədiyiniz sual varmı?**

**İ l h a m  Ə l i y e v:** Fikirləşirəm ki, verəcəyim sual hamımız, xüsusilə də jurnalistlər üçündür. Bu sual ABŞ-dakı son prezident seçkiləri ilə bağlıdır. ABŞ-ın bütün aparıcı qəzetləri, o cümlədən «Vaşinqton Post», «Nyu York Tayms», xəbər agentlikləri və başqaları xanım Klintonun qələbəsini proqnozlaşdırırdılar və ümumiyyətlə, mətbuatın bu məsələni necə işıqlandırması bizə məlumdur. Lakin nə baş verdi? Onların hamısı yanlışlığa yol verdi, yoxsa onların qiymətləndirməsi

siyasi motivasiya daşıyırdı? Seçkilərin mətbuatda işıqlandırılmasına müəyyən göstərişlər verilməsi ilə bağlı siyasi müdaxilə var idimi? Yoxsa həmin mətbu orqanlar proqnozda çox böyük yanlışlığa yol verdilər və müəyyən mənada onlara olan etimadı itirdilər? Təbii ki, ABŞ-ın burada iştirak edən nümayəndəsi bu sualı birinci cavablandıra bilər.

**C o n  D a n i ş e v s k i** *(«Associated Press» agentliyinin vitse-prezidenti):* Fikrimcə, bu, müəyyən dərəcədə sübut edir ki, bu demokratiyadır və insanlar seçki məntəqəsinə gedərək öz seçimlərini edirlər. Bəzi ölkələrdən fərqli olaraq, ABŞ-da bilmirsən ki, seçki nə ilə nəticələnəcək. ABŞ-da doğrudan da seçkilər keçirilərkən, bilmirsən kim qalib gələcək və seçkilərin nəticələri bəzi xəbər agentliklərini çaşbaş saldı. Bir çox agentliklərin xəbərləri diqqəti latın amerikalılarının, afroamerikalıların səs verdiyi bəzi ştatlara yönəltmişdi və onlar görmədilər ki, Tramp qalib gələcək. Onlar görmürdülər ki, iqtisadi cəhətdən çətinlik çəkən təbəqələr Trampa səs verəcək. Lakin deyə bilərəm ki, hər hansı bir namizədi dəstəkləmək və ya ona ziyan vurmaqla bağlı heç bir xüsusi səbəb yox idi. Tam əksinə, ədalətli qaydada, mübahisəli bir mühitdə işıqlandırmağa çalışırdılar. Misal üçün, bir gün «Associated Press» Klinton haqqında tənqidi yazı dərc etmişdi və biz Trampı dəstəkləyənlərdən xeyli cavablar almışdıq. Ertəsi gün Tramp haqqında tənqidi yazı yazdıqda, eyni axın Klintonun tərəfdarlarından daxil olmuşdu. Fikrimcə, bu hamı üçün gözlənilməz oldu. Bəlkə də sorğu məlumatlarına həddindən artıq etibar edirdik və onların etibarsız olduğu ortaya çıxdı. Lakin siyasi nəzarət yox idi.

**J o s e  A n t o n i o  V e r a  G i l: Cənab Prezident, mən İspaniyanın «EFE» xəbər agentliyinin prezidentiyəm. Sizin Tramp haqqındakı şəxsi fikrinizi öyrənmək istərdim.**

**İ l h a m  Ə l i y e v:** Şəxsi fikrim çox müsbətdir. Keçirilən sorğulara və Amerikanın aparıcı media qurumlarının gözləntilərinə baxmayaraq, ona qarşı aparılan aqressiv kampaniyaya baxmayaraq, Amerika xalqı ona böyük dəstək göstərdi, o,

seçkilərdə qalib gəldi. Bu seçkilərə görə o ancaq özünə borcludur. O, böyük hörmətə layiqdir. Ümid edirik ki, əvvəlki illərdə ABŞ ilə Azərbaycan arasında inkişaf edən əlaqələr onun prezidentliyi dövründə uğurla davam edəcək. Əməkdaşlıq üçün bir çox sahə, o cümlədən siyasi, iqtisadi, enerji və başqa sahələr var. Dünyada da onun siyasəti üçün çox böyük gözləntilər var. Bunun üçün də Azərbaycan olaraq ona uğurlar arzulayırıq və düşünürəm ki, Azərbaycan xalqı seçkilərdə baş verənləri qiymətləndirir.

**Sergey Mixaylov** *(Rusiyanın TASS agentliyinin baş direktoru):* Cənab Prezident, Sizə xüsusi sualım yoxdur. Çünki birinci müavinim Azərbaycan haqqında hər bir kiçik şeyi belə, hər gün mənə danışıb. Artıq hər şeyi bilirəm. Cənab Prezident, qonaqpərvərliyinizə görə bir daha təşəkkür edirəm. 3 gündür ki, buradayıq və Sizinlə iki dəfə görüşmüşük. Bir daha təşəkkür edirəm. Cənab Prezidentin ingilis dilində gözəl danışmağının sirrini bilirəm. Çünki biz eyni institutun – Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunuyuq. Buna görə cənab Prezidentin ingiliscəsi çox yaxşıdır. Burada olmaq imkanı yaratdığınız üçün təşəkkür edirəm.

**İlham Əliyev**: Buraya gəldiyiniz üçün təşəkkür edirəm. Bir daha deyim ki, bu əhəmiyyətli tədbiri təşkil etmək bizim üçün qürurvericidir. Əminəm ki, Azərbaycandan xoş təəssüratlarla qayıdacaqsınız.

*Sonda xatirə şəkli çəkdirildi.*

## XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN YENİ GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*18 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin «Rəşid Behbudov» sürətli sərnişin gəmisi, «Gəncə» tankeri və «Qafur Məmmədov» quru yük gəmisinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev prezident İlham Əliyevə yeni gəmilər barədə məlumat verdi.*

*Dövlətimizin başçısı əvvəlcə «Gəncə» tankeri ilə tanış oldu. Bu tanker «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC və «Caspian Marine Services» Alyansı tərəfindən sifariş olunan 2 yeni tankerdən biridir. Tanker 7 min ton yükgötürmə qabiliyyətinə malikdir. Uzunluğu 140,9, eni 16,7, saya oturumu isə 4,2 metr olan bu tanker «Volqa–Don Maks» tipli, yəni dayaz sularda üzməklə, maksimum yükgötürmə qabiliyyətinə malikdir.*

*«Gəncə» tankerinin texniki göstəriciləri onun gələcəkdə Xəzər hövzəsində dayaz limanlara daxil olmasına, eyni zamanda, Volqa–Don, Volqa–Balt kanallarında üzməsinə imkan yaradır. Bu tanker ən müasir avadanlıqlarla təchiz olunub. Hazırda Xəzər dənizində yükgötürmə qabiliyyətinə görə ən böyük tankerlər Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsusdur və onlar 13 min ton dedveytə malikdir. Bu tankerlərin saya oturumu çox olduğundan onlar Xəzər dənizini xarici sularla əlaqələndirən Rusiyanın daxili su kanallarına, o cümlədən İran limanlarına yüklə daxil ola bilmirlər. Həcminin artması proqnozlaşdırılan maye yüklərin daşınmasını təmin etmək üçün «Gəncə» tipli tankerlərin böyük iqtisadi əhəmiyyəti vardır.*

*Dövlətimizin başçısı «Gəncə» tankerinin istismara verilməsini bildirən düyməni basdı.*

*Prezident İlham Əliyevə bu günlərdə Bakı Gəmiqayırma zavodunda tikintisinə dair müqavilə imzalanmış nadir Ro-Pax/Bərə tipli 2 gəmi barədə məlumat verildi. Yeni nəsildən olan bu tipli gəminin konsepsiyasının hazırlanması üçün «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC son 1 ildən artıq müddətdə Odessa Dəniz Mühəndisliyi Bürosunun təcrübəli mütəxəssisləri ilə uzunmüddətli texniki müzakirələr aparıb və Xəzər dənizində suyun səviyyəsi, yanalma körpülərinin maksimal imkanları nəzərə alınaraq, 100 sərnişin, 56 vaqon və ya 50 yük maşını tutumlu gəminin eskiz və texniki layihəsi hazırlanıb. Belə nadir konsepsiyaya malik və yeni nəsildən olan ilk bərə tipli gəmilərin tikintisi müasir infrastruktura və potensiala malik Bakı Gəmiqayırma zavodunda aparılacaq.*

*Sonra Bakı Gəmiqayırma zavodunda «Gəncə» tipli daha 2 tankerin tikintisi üzrə sifarişlə bağlı «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC ilə Bakı Gəmiqayırma zavodu arasında müqavilə imzalandı.*

*Yeni tankerlər Xəzərdə suyun mövcud səviyyəsində, az saya oturumla maksimum çox yük götürə bilən nadir gəmilər olacaq. Belə ki, tankerin digər texniki xarakteristikaları eyni saxlanılmaqla, yükgötürmə qabiliyyətinin 8 min tonadək artırılmasına nail olunacaq. Yeni nəsil tanker ilk dəfə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin donanması üçün məhz Bakı Gəmiqayırma zavodunda inşa ediləcək.*

*Daha sonra prezident İlham Əliyev burada Rəşid Behbudovun ailə üzvləri ilə görüşdü və onlarla xatirə şəkli çəkdirdi.*

*«Rəşid Behbudov» gəmisinin istismara verilməsini bildirən rəmzi lent kəsildi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, tutumu 150 nəfər olan «Rəşid Behbudov» sürətli sərnişin gəmisi «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC və «Caspian Marine Services» Alyansının sifarişinə əsasən tikilib. Gəmidə ulu öndər Heydər Əliyev ilə Rəşid Behbudovun görüşləri və dövlətimizin başçısı*

*İlham Əliyevin iştirakı ilə dünya şöhrətli müğənninin Bakıda abidəsinin açılışı zamanı çəkilən fotolardan ibarət stend yaradılıb. Xəzərdə neft və qaz layihələrində rəqabətqabliyyətli, beynəlxalq standartlara uyğun yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində mühüm rol oynayacaq bu gəmi alüminium gövdəli sürətli sərnişin gəmilərinin tikintisi ilə dünyada məşhur olan Avstraliyanın «Austal» Gəmiqayırma zavodunda inşa edilib və sərnişinlərin, eləcə də kiçikhəcmli yüklərin dəniz platformalarına təhlükəsiz çatdırılması üçün nəzərdə tutulub.*

*Gəmidə sərnişinlərin rahatlığı üçün yüksək şərait yaradılıb, ən son beynəlxalq konvensiya tələblərinə uyğun səs və titrəmə izolyasiyası təmin edilib, istirahət sahələri quraşdırılıb. «Rəşid Behbudov» sürətli sərnişin gəmisi eyni tipli «Müslüm Maqomayev» gəmisi ilə bərabər, bp şirkətinin sifarişlərini yerinə yetirəcək. Bütövlükdə alüminium təbəqələrdən yığılmış katamaran tipli gəmi saatda 60 kilometr sürət yığmaq imkanına malikdir. Onun uzunluğu 70, eni isə 16 metrdir. Gəmi ən müasir avadanlıqlarla, o cümlədən DP-2 dayanıqlı mövqelandirmə sistemi, sərnişinlərin platformalara təhlükəsiz keçidi üçün xüsusi teleskopik körpü ilə təchiz olunub. Bu isə onun Beynəlxalq Dənizçilik konvensiyalarının tələblərinə tam səviyyədə cavab verməsini təsdiqləyir. Belə gəmilərdə xüsusi teleskopik körpünün istifadəsi dünyada ilk dəfə tətbiq olunur. Hazırda irimiqyaslı neft və qaz layihələrinə xidmət edən bir sıra digər gəmiçilik şirkətləri teleskopik körpü texnologiyasının tətbiqini Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin təcrübəsi əsasında öyrənir. Bu texnologiya platformaya yan almadan, heyətin gəmidən platformaya qalxma-enmə əməliyyatlarında təhlükəsizliyə etibarlı zəmin yaradır.*

*Dünya şöhrətli müğənninin nəvəsi Rəşid Behbudov gəminin istismara verilməsini bildirən düyməni basdı.*

*Görkəmli sənətkar Rəşid Behbudovun ailə üzvlərinə gəminin maketi hədiyyə olundu.*

*Dövlətimizin başçısı İlham Əliyevə yeni alınmış «Qafur Məmmədov» quru yük gəmisi barədə də məlumat verildi. Bu gəminin dedveyti 5,500 ton, uzunluğu 108,3, eni 16,5, saya oturumu isə 4,79 metrdir. Gəmi Xəzərdəki quru yük donanmasının yenilənməsi, hazırda balansda olan, maksimum yükgötürmə qabiliyyəti 3000 ton təşkil edən və istismar müddətini başa vurmuş gəmiləri yeniləməyə və növbəti illər ərzində Gəmiçiliyin quru yükdaşımaları bazarında mövqeyinin sabitləşməsinə imkan yaradır. Belə gəmilərin istismara verilməsi strateji əhəmiyyətə malik Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin işə salınması nəticəsində ölkəmizin ərazisindən keçməklə, daşınacaq tranzit yüklərin və konteyner həcmlərinin mənzil başına vaxtında çatdırılmasında da mühüm əhəmiyyət daşıyır. Ümumilikdə, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 2014–2016-cı illər ərzində donanması üçün 5,500 ton yükgötürmə qabiliyyətinə malik 8 yeni quru yük gəmisi alıb. Hazırda Gəmiçiliyin Xəzərdən kənarda Azərbaycan bayrağı altında üzən gəmilərinin sayı 10-a çatıb.*

## RUSİYA DÖVLƏT DUMASININ BEYNƏLXALQ MƏSƏLƏLƏR KOMİTƏSİNİN SƏDRİ LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*18 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 18-də Rusiya Federasiyası Dövlət Dumasının Beynəlxalq Məsələlər Komitəsinin sədri Leonid Slutskini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Leonid Slutskini Rusiya Federasiyası Dövlət Dumasının deputatı və Beynəlxalq Məsələlər Komitəsinin sədri seçilməsi münasibətilə təbrik etdi və Dövlət Dumasının mühüm komitələrindən birinə rəhbər təyin olunmasını ona göstərilən böyük etimad kimi dəyərləndirdi. Leonid Slutskinin Dövlət Dumasının MDB məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə İş üzrə Komitəsinin sədri kimi, əvvəllər Azərbaycanda dəfələrlə olduğunu vurğulayan prezident İlham Əliyev onun həmin vəzifədə fəaliyyətinin MDB məkanında parlamentlərarası əməkdaşlığın fəal inkişafı işinə xidmət etdiyini bildirdi. Dövlətimizin başçısı əminliyini ifadə etdi ki, indiki vəzifəsində də Leonid Slutski öz işinin öhdəsindən layiqincə gələcək və Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsinə bundan sonra da töhfəsini verəcək. Prezident İlham Əliyev Leonid Slutskiyə gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Xoş sözlərə və təbriklərə görə dövlətimizin başçısına minnətdarlığını bildirən Leonid Slutski dedi:* «Dövlət Dumasının Beynəlxalq Məsələlər üzrə Komitəsinin sədri qismində ilk xarici səfərimi Azərbaycana etməyim mənim üçün böyük önəm daşıyır. Azərbaycan bütün istiqamətlər üzrə Rusiya Federasiyası üçün həmişə mühüm strateji tərəfdaş olub və olacaq. Bu strateji tərəfdaşlıq ildən-ilə möhkəmlənir. Sizin müdrik rəhbərliyiniz ilə

ölkəniz son illər MDB məkanından daha geniş miqyasda ən çox inkişaf edən iqtisadiyyatlardan birinə çevrilib».

*Leonid Slutski bildirdi ki, ölkəsi Azərbaycanın Rusiya ilə strateji, konstruktiv və effektiv tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə yönələn xarici siyasət kursunu yüksək qiymətləndirir. Heç bir xarici və daxili opponent ildən-ilə möhkəmlənən münasibətlərimizə xələl gətirə bilməz.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin, o cümlədən parlamentlərarası əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB PRANAB MUKHERCİYƏ**

Hörmətli cənab Prezident!

Uttar-Pradeş ştatında sərnişin qatarının qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Hindistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 noyabr 2016-cı il*

## TOTAL ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU PATRİK PUYANNE İLƏ GÖRÜŞ

*21 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Total şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Patrik Puyanne ilə Davosda keçirdikləri görüşü məmnunluqla xatırladaraq, Total şirkəti ilə əməkdaşlığımızın yaxşı tarixə malik olduğunu vurğuladı. «Abşeron» qaz yatağının işlənilməsi ilə bağlı layihənin yaxşı perspektivlərinin mövcudluğunu bildirən dövlətimizin başçısı bu yatağın böyük potensiala malik olduğunu dedi, layihənin mərhələli şəkildə işlənilməsinin önəmini qeyd etdi.*

*Total şirkətinin artıq 20 ildir ki, Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayan Patrik Puyanne bu dövrdə uğurlu əməkdaşlığın qurulduğunu bildirdi. «Abşeron» yatağının Azərbaycanda qaza olan tələbatın ödənilməsi üçün mühüm əhəmiyyət daşıyacağını deyən Patrik Puyanne bu yatağın işlənilməsinə dair Dövlət Neft Şirkəti ilə qarşılıqlı səmərəli razılığa gəlindiyini qeyd etdi. Bu gün SOCAR ilə Total arasında «Abşeron» qaz yatağı üzrə Memorandumun imzalanacağını bildirən şirkətin baş icraçı direktoru səfərin bu layihənin işlənilməsi ilə bağlı ətraflı müzakirələrin aparılması üçün yaxşı fürsət yaratdığını vurğuladı.*

*Qonaq Total şirkətinin Azərbaycandakı fəaliyyətinin 20 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edəcəyini məmnunluqla qeyd etdi.*

*Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MLADEN İVANİÇƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan ilə Bosniya və Herseqovina arasındakı əlaqələrin bütün sahələrdə genişləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bosniya və Herseqovinanın dost xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2016-cı il*

## ABŞ DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ BRİDCET BRİNK İLƏ GÖRÜŞ

*22 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 22-də Amerika Birləşmiş Ştatlarının Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Bridcet Brinki qəbul etmişdir.*

*Dövlətimizin başçısı xanım Bridcet Brinklə bu ilin yayında ikitərəfli münasibətlər, regional məsələlərlə bağlı apardıqları geniş müzakirələri xatırladaraq, ölkələrimiz arasında uğurlu əməkdaşlığın ABŞ-ın yeni administrasiyası ilə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*ABŞ Dövlət katibinin köməkçisinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Bridcet Brink ölkəsinin Azərbaycana, bütövlükdə regiona olan güclü dəstəyini qeyd edərək, Birləşmiş Ştatların bu istiqamətdə uzun müddət ardıcıl siyasət həyata keçirdiyini vurğuladı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## AVROPA VOLEYBOL KONFEDERASİYASININ PREZİDENTİ ALEKSANDAR BORİÇİÇ İLƏ GÖRÜŞ

*23 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Avropa Voleybol Konfederasiyasının prezidenti Aleksandar Boriçiçi qəbul etmişdir.*

*Bakıya I Avropa oyunları zamanı səfərini xatırladan qonaq oyunların hətta Olimpiya oyunlarından da yüksək səviyyədə keçirildiyini, ölkəmizə gələn xarici qonaqların buradan çox gözəl xatirələrlə ayrıldığını qeyd edərək, belə tədbirlərin keçirilməsinin Azərbaycanın gələcək inkişafı üçün gözəl bir investisiya olduğunu vurğuladı. 2017-ci ildə Bakıda qadınlar arasında voleybol üzrə Avropa çempionatının final mərhələsinin keçirilməsi barədə qərarın önəmini diqqətə çatdıran Aleksandar Boriçiç tədbirin ölkəmizdə uğurla təşkil ediləcəyinə ümidvar olduğunu dedi və bu işlərə verdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Azərbaycanda idmanın inkişafına böyük önəm verildiyini deyən prezident İlham Əliyev bütün idman tədbirlərinin yüksək səviyyədə təşkili üçün ölkəmizin böyük səylər göstərdiyini vurğuladı. Bakıda keçirilən I Avropa oyunlarının əhəmiyyətindən danışan dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz bu oyunların Yay Olimpiya oyunlarından da yüksək səviyyədə təşkilini qarşısına məqsəd qoymuşdu və buna nail oldu. Azərbaycan komandasının 2016-cı il Rio Olimpiya oyunlarında medalların sayına görə dünya ölkələri arasında 15-ci yeri tutduğunu deyən dövlətimizin başçısı bunun böyük uğur olduğunu qeyd etdi.*

*Ölkəmizdə idmanın təbliğinə, həmçinin müxtəlif beynəlxalq tədbirlərin təşkilinə böyük diqqət yetirildiyini vurğulayan*

*prezident İlham Əliyev qadınlar arasında voleybol üzrə Avropa çempionatının final mərhələsinin də Azərbaycanda uğurla keçiriləcəyinə, tədbirin mühüm beynəlxalq idman hadisəsinə çevriləcəyinə əminliyini ifadə etdi.*

## AZƏRBAYCAN BEYNƏLXALQ DAŞINMAZ ƏMLAK VƏ İNVESTİSİYA SƏRGİSİ İLƏ TANIŞLIQ

*Bakı Ekspo Mərkəzi*

*23 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 23-də Bakı Ekspo Mərkəzində Azərbaycan Beynəlxalq daşınmaz əmlak və investisiya sərgisi ilə tanış olmuşlar.*

*Əmlak Məsələləri Dövlət Komitəsi, «Elan Expo» və «Atılım Fuarcılık» şirkətlərinin təşkilatçılığı ilə keçirilən Beynəlxalq daşınmaz əmlak və investisiya sərgisində Azərbaycan ilə yanaşı, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, Kipr, Ukrayna, İspaniya, Rusiya, Portuqaliya, Macarıstan və Lüksemburqdan 100-ə yaxın brend tikinti və inşaat layihələri nümayiş olunur.*

*Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov dövlətimizin başçısına komitənin stendi haqqında məlumat verdi. Burada son illərdə Azərbaycanda əmlak-torpaq idarəçiliyi və özəlləşdirmə sahəsində əldə olunan nailiyyətlər nümayiş etdirilir. Dövlətimizin başçısına Əmlak Məsələləri Dövlət Komitəsinin məhsulu olan Ünvan Reyestri İnformasiya Sisteminin məlumatları əsasında hazırlanmış ilk milli naviqasiya sistemi – AzNav barədə məlumat verildi. Naviqasiya sistemi 2 komponentdən – Naviqasiya Proqramı və Naviqasiya Xəritəsindən ibarətdir. Həm onlayn, həm də oflayn rejimdə işləmək imkanlarına malik bu sistem Android, iOS, Windows CE əməliyyat sistemlərində olan bütün növ mobil cihazlarda, eyni zamanda, telefon və planşetlərdə çalışır. Naviqasiya sistemi Azərbaycan dili ilə yanaşı, ingilis, rus, alman, ərəb, türk, fransız, italyan və digər xarici dilləri də dəstəkləməklə, çoxfunksiyalı imkanlara malikdir. Stenddə özəlləşdirmə prosesi, yaradılmış investisiya mühiti, daşınmaz əmlakın dövlət reyestri*

*sahəsində innovasiyalar, əmlak xidmətləri üzrə elektron və onlayn imkanlar, ünvan-naviqasiya sistemi və digər iri layihələr barədə əyani məlumatlar çatdırılır. Həmçinin özəlləşdirmə prosesini daha optimal, rahat şəkildə həyata keçirmək üçün yaradılmış özəlləşdirmə portalında hərraca çıxarılan əmlaklar və onlara sifariş qaydaları, eləcə də hərrac prosedurları barədə məlumat verilir.*

*Sərgidə İspaniyanın CHG şirkəti də təmsil olunur. 1972-ci ildən fəaliyyət göstərən şirkət burada «OLİVA NOVA Beach and Golf Resort» layihəsini təqdim edir.Sərgidə Portuqaliyanın «Mare Asset» şirkəti də öz layihələrini nümayiş etdirir.*

*Azərbaycan prezidenti İlham Əliyev şirkətin stendi ilə tanış oldu. Bildirildi ki, şirkət daşınmaz əmlakın idarə olunması ilə bağlı Avropa bazarında uğurla fəaliyyət göstərir. Şirkət, həmçinin Portuqaliyada daşınmaz əmlaka sahib olmaq istəyənlərin istiqamətləndirilməsi, sənədləşmə işinin təşkili və daşınmaz əmlakla bağlı digər məsələlər sahəsində də müştərilərə xidmətlər təklif edir.*

*Dövlətimizin başçısı «Onur Park Life» layihəsi ilə də tanış oldu.Prezident İlham Əliyev «Bakı Ağ şəhər» pavilyonuna da baxdı. Bu pavilyon maraq göstərilən stendlər sırasındadır. Bu, «Bakı Ağ şəhər» layihəsinin 2011-ci ildə «Oil and Gas» sərgisindən sonra Azərbaycanda iştirak etdiyi ikinci sərgidir. «Ağ şəhər»in 10 rayonundan 8-i tamamilə təmizlənərək, şəhər təsərrüfatında istifadə üçün yararlı vəziyyətə gətirilib. 5 il ərzində buradan 700 min kubmetr çirkli torpaq daşınaraq, ərazi tamamilə təmizlənib. «Fransız məhəlləsi» adı ilə tanınmış «Yaşıl ada» rayonu ilk sakinlərini qəbul etməyə hazırlaşır. «Yaşıl ada»da layihələndirilmiş Paris evlərinin tikintisi, habelə yol və kommunikasiya infrastrukturlarının inşası başa çatmaq üzrədir. Rayonun eksklüziv yaşayış kompleksi sayılan «Knightsbridge Residence»in tikintisinə də start verilib. 5 yaşayış binası, biznes mərkəzi və məktəbdən ibarət kompleksdə yaşıl zonalar da nəzərdə tutulub. Bu, son illərdə Bakıda şəhərsalma ilə bağlı həyata keçirilən ən mühüm və genişmiqyaslı layihədir. Layihənin*

*reallaşdırılması nəticəsində dünyanın ən gözəl şəhərlərindən biri olan Bakının siması daha da müasirləşəcək.*

*Azərbaycanın daşınmaz əmlak sektorunun nəhənglərindən olan «Yeni Həyat» Şirkətlər Qrupu da sərgidə uğurla təmsil olunur. 2002-ci ildə yaradılan, öz ideyaları və novatorluğu ilə fərqlənən «Yeni Həyat» Azərbaycanın tikinti bazarında ən qabaqcıl şirkətlərdəndir. Şirkət Avropanın bir çox qurumları ilə əməkdaşlıq etməklə, ən müasir texnologiyaların tətbiqində zəngin təcrübə qazanıb.*

*Dövlətimizin başçısı burada «Azinko Holdinq» MMC şirkətinin stendi ilə tanış oldu. 2006-cı ildən fəaliyyətə başlayan şirkətin tərkibinə əsasən tikinti üzrə fəaliyyət göstərən firmalar daxildir. Yarandığı vaxtdan «Azinko Holdinq» MMC hotel və çoxmərtəbəli yaşayış binalarının, komplekslərin, ticarət və biznes mərkəzlərinin, xəstəxanaların, villaların və digər mülki obyektlərin tikintisi ilə məşğuldur.*

*Prezident İlham Əliyevə şirkət tərəfindən Bakıda inşa olunan 50 mərtəbəli iş mərkəzi barədə məlumat verildi. Bildirildi ki, binanın inşasına 2013-cü ildə başlanılıb. Hazırda 49-cu mərtəbənin inşası davam etdirilir. Binanın gələn il istifadəyə verilməsi nəzərdə tutulur.*

*Regionda nümunəvi şəhərsalma layihəsi olan «AAAF Park» yaşayış kompleksi də sərgidə yeni layihələrini təqdim edir. Burada «Astara AAAF Park» və «Gənclər şəhərciyi» layihələri maraqla qarşılanır. Çoxfunksiyalı, müasir yaşayış binaları, ailəvi istirahət və uşaq əyləncə mərkəzləri, o cümlədən idman komplekslərinin birgə harmoniyasından ibarət «AAAF Park» yaşayış kompleksi ölkəmizin daşınmaz əmlak bazarının nəhənglərindən biri hesab edilir. Kompleksdə sakinlərin işlə təmini də nəzərdə tutulur. Şirkətin layihələri əsasən regionlarda inşa edilir və ilk layihə Xırdalan şəhərində reallaşdırılıb. Bu layihələrin bölgələrdə icra olunması ümumilikdə regionların sosial-iqtisadi inkişafına töhfələr verir.*

*«Asteco» şirkətinin stendi ilə tanış olan dövlət başçımızın diqqətinə çatdırıldı ki, əsası Dubayda qoyulan şirkət 30 ildən*

*artıqdır fəaliyyət göstərir. Şirkətin Böyük Britaniyada, Fransada, Almaniyada, Türkiyədə, Rusiyada, Çində, Avstraliyada və digər ölkələrdə ofisləri fəaliyyət göstərir. Şirkət Azərbaycanda da fəaliyyətə başlamağı planlaşdırır. Yaşayış binalarının, iqamətgahların və ofislərin satışı ilə məşğul olan şirkət sərgidə 4 layihəsini təqdim edir. Bu layihələrin 3-ü Dubayda, 1-i Abu-Dabidə icra olunur. Şirkət beynəlxalq səviyyədə daşınmaz əmlak əldə etmək istəyənlərə xidmətlərini təklif edir.*

*Türkiyə sərgidə 5 şirkətlə təmsil olunur. Bunlar «Dövlət Daşınmaz Əmlak-Mənzil Müştərək İnvestisiya» MMC, həmçinin əmlak layihələrinin satışı şirkəti, «Tahincioğlu», «Ağaoğlu» və «Özak» özəl şirkətlərdir. Şirkətlər yaşayış və inzibati binaların tikintisi ilə məşğuldur. Bu şirkətlər sərgiyə Türkiyə Nazirlər Kabineti yanında Sosial Mənzil Baş İdarəsi tərəfindən cəlb olunub. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 330 hektarlıq ərazini əhatə edən «Dreamland»–«Xəyal Adası» yaşayış kompleksinin stendi ilə də tanış oldular.*

*«Xəyal Adası» yaşayış kompleksi şəhərkənarı sakitlik ilə müasir həyat tərzini özündə cəmləşdirir. Burada 394 müasir ev və fərqli zövqlərə uyğun olaraq inşa edilmiş 7 üslubda 234 villa mövcuddur. 11 süni gölün yaradıldığı və hektarlarla yaşıllıq zolağının salındığı «Xəyal Adası» yaşayış kompleksi artıq növbəti ilin fevral ayında ilk sakinlərini qəbul edəcək. Burada həm də müasir «SABİS Sun» beynəlxalq məktəbi və müasir tələblərə cavab verən qolf sahəsi fəaliyyət göstərir. 3 yaşdan yuxarı uşaqlara ingilis dilində təhsil verən bu məktəb «Xəyal Adası» daxilində 67 min kvadratmetr sahəyə malik şəhərcikdə yerləşir. Şəhərciyin birinci mərhələsinə uşaq bağçaları və ibtidai məktəblər üçün akademik binalar, mini-gimnaziya və oyun meydançası daxildir.*

*Noyabrın 24-dək davam edəcək bu mühüm sərgi həm yerli, həm də beynəlxalq müstəvidə daşınmaz əmlak sektoruna aid nüfuzlu şirkətləri, brend layihələri, potensial əmlak investorlarını Azərbaycanda vahid platformada toplayıb.*

## BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ XOSE PERURENA LOPEZ VƏ AVROPA KANOE FEDERASİYASININ PREZİDENTİ ALBERT VUDS İLƏ GÖRÜŞ

*23 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Beynəlxalq Kanoe Federasiyasının Prezidenti Xose Perurena Lopezi və Avropa Kanoe Federasiyasının Prezidenti Albert Vudsu qəbul etmişdir.*

*Beynəlxalq Kanoe Federasiyasının Prezidenti Xose Perurena Lopez rəhbərlik etdiyi qurumun Konqresinin Azərbaycanda keçirilməsinin önəmini qeyd edərək, bu tədbirə 90-a yaxın ölkədən nümayəndələrin qatılacağını bildirdi. Xose Perurena Lopez yaradılan şəraitin və bütün idman obyektlərinin yüksək səviyyədə olduğunu məmnunluqla vurğuladı. Qonaq, ümumiyyətlə, Azərbaycanda beynəlxalq tədbirlərin, o cümlədən «Formula-1» yarışının çox yaxşı təşkilinin dünyada maraqla izlənildiyini dedi.*

*Prezident İlham Əliyev ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsində kifayət qədər təcrübəyə malik olduğunu qeyd etdi. Dövlətimizin başçısı bu il Braziliyanın Rio de Janeyro şəhərində keçirilmiş Yay Olimpiya oyunlarında idmançılarımızın kanoe idman növündə ilk dəfə medallar qazandıqlarını məmnunluqla qeyd etdi və bildirdi ki, bu nailiyyət gələcəkdə idmanın bu növünə marağın artmasına gətirib çıxaracaq.*

*Görüşdə Azərbaycanın idman sahəsində beynəlxalq əməkdaşlığa böyük töhfə verdiyi qeyd olundu.*

## RAMANA QƏSƏBƏSİNDƏ SAKİNLƏR ÜÇÜN TİKİLMİŞ YENİ YAŞAYIŞ BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Sabunçu rayonunun Ramana qəsəbəsində sakinlər üçün tikilmiş yeni binanın açılışı mərasimində iştirak etmişdir.*

*Bakı şəhərinin və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı dövlətin əsas prioritetlərindən biri olaraq daim diqqət mərkəzindədir. Əhalinin həyat şəraitinin yaxşılaşdırılması, sosial infrastrukturun müasir tələblər səviyyəsində yenidən qurulması istiqamətində son illər ardıcıl tədbirlər həyata keçirilir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı çərçivəsində görülən işlər yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və digər sosial məsələlərin həlli istiqamətində atılan mühüm addımlardan biri oldu. Yararsız vəziyyətdə olan yaşayış binalarının yerində prezident İlham Əliyevin təşəbbüsü ilə yeni layihələr əsasında ən müasir standartlara uyğun yeni binaların tikilməsi paytaxtımızda növbəti sosial layihələrin uğurlu icrasına start verəcək.*

*Qeyd edək ki, Ramana qəsəbəsi, Bünyadzadə küçəsi, 23 ünvanında yerləşən yaşayış binası 1901-ci ildə neftçilər üçün inşa edilmiş və uzun illər istismar olunduğundan qəzalı vəziyyətə düşmüşdü.*

*Azərbaycan Respublikasının Prezidentinin göstərişinə əsasən, Nazirlər Kabineti «Bakı şəhəri Sabunçu rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə» 2015-ci il 8 oktyabr tarixli Qərar qəbul edib. Həmin qərara əsasən, rayon ərazisində qəzalı vəziyyətdə olan binaların sökülərək, yerində müasir tələblərə cavab verən yenilərinin ti-*

*kilməsi ilə əlaqədar, qeyd olunan qəzalı binada yaşayan 34 ailə – 147 sakin kirayə haqları ödənilərək, binadan köçürülüb. 2015-ci il dekabrın 24-də onun yerində «Pilot layihə» formatında 10 mərtəbəli, 2 və 3 otaqlı 80 mənzilli yeni yaşayış binasının inşasına başlanılıb.*

*Dövlətimizin başçısı binadakı mənzillərdə yaradılmış şəraitlə tanış oldu.*

*Bildirildi ki, yeni binanın tikintisi noyabrın 9-da – Dövlət Bayrağı Günündə başa çatdırılıb. Ümumi sahəsi 5768 kvadratmetr olan binadan 34 ailəyə tam təmirli, bütün şəraiti olan, müvafiq avadanlıqlarla təchiz edilmiş və sahələri əvvəlkindən 35–45 faizdən çox olan mənzillər verilib.*

**İlham Əliyev:** Bu gün Sabunçu rayonunda yeni yaşayış binasının açılışını qeyd edirik. Son illər ərzində Bakıda və Bakıətrafı qəsəbələrdə yüzlərlə, bəlkə də minlərlə yaşayış binası tikilib. Ancaq bu binanın xüsusi əhəmiyyəti vardır. Bu, 1901-ci ildə tikilmiş və çoxdan qəzalı vəziyyətdə olan binanın yerində inşa edilib. Bu, pilot layihədir. Şadam ki, artıq şəhərimizin müxtəlif yerlərində buna bənzər layihələr icra edilir. Bu layihələrin icrası həm sosial məsələdir, həm də eyni zamanda, şəhərimizi gözəlləşdirir. Bununla bərabər, bu binaları tikən insanlar, şirkətlər də xeyir götürür. Burada hər bir iştirakçı xeyir götürür və beləliklə, bütün qəzalı vəziyyətdə olan binaların yerində tədricən belə gözəl, yaraşıqlı binalar tikiləcək.

Mənə verilən məlumata görə, bu binada 34 ailə yaşayıb. İndi binanın girişində binanın əvvəlki görüntüləri əks olunur. Siz, bu binada yaşayanlar bunu, əlbəttə ki, yaxşı bilirsiniz. 34 ailəyə 34 mənzil verilib. Üçotaqlı mənzil 105 kvadratmetrdir. Əvvəlki üçotaqlı mənzil isə 60 kvadratmetr idi. Yəni 2 dəfə çox sahəsi olan təmirli, yaraşıqlı, gözəl mənzillər verilib. Sakinlər bina tikilənə qədər kirayədə qalırdılar, onlara kirayə pulu da verilirdi. İndi isə siz gözəl mənzillərə köçürsünüz.

Bu çox gözəl təşəbbüsdür, qeyd etdiyim kimi, pilot layihədir. Hazırda şəhərimizin müxtəlif yerlərində buna bənzər 49 layihə icra edilir. Bu binaların tikintisi artıq gedir. Bəzi binaların tikintisi

ilə bağlı sakinlərlə danışıqlar aparılır. Ancaq ümid edirəm, sakinlər bu binanı görəndən sonra danışıqlarda daha da ürəklə iştirak edəcəklər, görəcəklər ki, onların maraqları tam təmin olunur.

Belə layihələrin icrasının əsas məqsədi insanları gözəl mənzillərlə təmin etməkdir, özü də pulsuz. Bax, burada yaşayan insanlar bu gün bundan 2 dəfə daha böyük mənzillərə sahib olurlar, köçəcəklər, yaxşı yaşayacaqlar. Digər məqsəd şəhərimizin abadlaşmasıdır. Çünki bu gün Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir. Şəhərimizin müxtəlif yerlərində gözəl binalar tikilir. Çox istərdim ki, şəhərimizin bütün yerlərində memarlıq baxımından gözəl binalar tikilsin. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı icra edilir və bu layihə eyni zamanda, memarlığa da verilən böyük töhfədir.

Əlbəttə ki, artıq 115 yaşı olan binada yaşamaq təhlükəlidir. Hələ ki, Bakıda belə binalar kifayət qədər çoxdur. Onların yerində gözəl binalar tikilməlidir və tikilir. Belə layihələrin ölkə iqtisadiyyatına, xüsusilə inşaat, tikinti materialları sektoruna da çox müsbət təsiri olacaq. Çünki bu il inşaat sektorunda tənəzzül yaşanır, inşaat sektoru təxminən 25–30 faiz aşağı düşür. Belə layihələrin icrası inşaat sektoruna da canlanma gətirəcək. Tikinti materialları ilə məşğul olan şirkətlər də xeyir götürəcək və beləliklə, ölkə iqtisadiyyatı daha sürətlə inkişaf edəcək. Hazırda 49 binanın tikintisində iştirak edən və iştirak edəcək işçilərin sayı 3-4 min nəfər olacaq. Bu da yeni iş yerlərinin yaradılması deməkdir.

Bu tipli layihələr ölkəmizdə geniş vüsət almalıdır. Həm Bakıda, həm bütün şəhər və rayonlarımızda, harada ki, qəzalı binalar var, biz bütün firmaları, iş adamlarını oraya dəvət edirik. Yerli icra orqanları onlara bütün şəraiti yaratmalıdır ki, bu işə daha da həvəslə qoşulsunlar. Beləliklə, qısa müddətdə, bir neçə il ərzində ölkəmizdə bir dənə də qəzalı vəziyyətdə bina olmamalıdır. Bu həm insanlar üçün lazımdır, həm də ölkə iqtisadiyyatı, iş adamları xeyir götürəcək. Yəni bu, bir

ümumxalq hərəkatı olmalıdır. Bu binanın xüsusiyyəti məhz bundadır. Buna görə mən bu binanın açılışına gəlmişəm. Qeyd etdiyim kimi, Bakıda son illər ərzində yüzlərlə, minlərlə bina tikilib, ancaq bu binanın xüsusi əhəmiyyəti var. Bu, pilot layihədir və bu layihənin çox gözəl gələcəyi olacaq.

Sizi, bu binada əvvəllər yaşayan və indi gözəl şəraitdə yaşayacaq insanları təbrik edirəm, sizə uğurlar arzulayıram. Burada rahat, xoşbəxt yaşayın.

**Namiq Abdullayev** *(binanın sakini):* Möhtərəm cənab Prezident!

Bütün sakinlər adından Sizi ürəkdən salamlayıram. Bundan əvvəl hansı şəraitdə yaşayırdıq, bunu bir Allah, bir də burada yaşayan sakinlər bilir. Şəxsən mən darısqal, heç bir şəraiti olmayan, cəmi 43 kvadratmetr sahəsi olan bir mənzildə yaşayırdım. Bu gün isə Sizin sayənizdə bizə ondan ikiqat böyük, belə gözəl, hər cür şəraiti – suyu, qazı, işığı, istiliyi olan mənzil verdilər. Buna görə Sizə ailəm adından minnətdarlığımı bildirirəm. Çox sağ olun, cənab Prezident.

**İlham Əliyev:** Sağ ol. İndi sizin mənzilinizin ölçüləri nə qədərdir?

**Namiq Abdullayev:** 73 kvadratmetr.

**İlham Əliyev:** Çox yaxşı.

**Namiq Abdullayev:** Allah razı olsun. Çox sağ olun.

**İlham Əliyev:** Sağ ol.

**Yevgeniya Yeromina** *(sakin):* Hörmətli cənab Prezident, xoş gəlmisiniz!

Mən Bakının bu kiçik qəsəbəsində doğulmuşam və burada yaşayıram. Əvvəllər bizim heç xəyalımıza da gəlməzdi ki, yaşadığımız köhnə, qəzalı vəziyyətdə olan binanın yerində bu cür qəşəng, keyfiyyətli bina tikiləcək və bizə yüksək təmirli mənzillər veriləcək. Bizə göstərdiyiniz qayğı və diqqətə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Sağ olun.

**Balacaxanım Həziyeva** *(sakin):* Möhtərəm cənab Prezident, mən ilk sözümü ulu öndərimizin müdrik kəlamı ilə demək istəyirəm: «Mən fəxr edirəm ki, azərbaycanlıyam».

Əziz Prezidentimiz, bu gün mənim ən xoşbəxt günümdür. Çünki iki arzuma çatmışam. Birincisi, Sizin sayənizdə mən qalan ömrümü bu gözəl binada yaşayacağam. İkincisi və ən başlıcası, Sizin nurlu simanızı yaxından gördüyüm üçün çox xoşbəxtəm. Əziz Prezidentimiz, Sizə və Sizin gözəl ailənizə bir ana kimi, cansağlığı, xoşbəxtlik arzulayıram. Allah Sizi qorusun.

**İlham Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm. Sizin ev şəraitiniz əvvəllər necə idi?

**Balacaxanım Həziyeva:** Dəhşətli vəziyyətdə idi. Mən 48 il o binada yaşamışam. İndiki mənzilimiz isə çox gözəldir – geniş, işıqlı, təmirli.

**İlham Əliyev:** İndi bu mənzillərdə hər cür şərait var – su, işıq, qaz.

**Balacaxanım Həziyeva:** Allah Sizə cansağlığı versin.

**İlham Əliyev:** Sağ olun. Bir daha qeyd etmək istəyirəm ki, bu, xüsusi bir layihədir. Belə layihələrin icra olunması vətəndaşların mənzil problemini birdəfəlik həll edəcək. İndi imkanlı insanlar özləri üçün mənzillər alırlar. O qədər də böyük imkanlara malik olmayanlar isə qəzalı vəziyyətdə olan binalarda yaşayırlar. Biz buna son qoyacağıq.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident, Allah Sizi bizə çox görməsin.

**İlham Əliyev:** Sağ olun. Bir daha təbrik edirəm. Xoşbəxt yaşayın.

**Sakinlər:** Çox minnətdarıq.

**MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ**

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mavritaniya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2016-cı il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BUYAR NİŞANİYƏ**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, Azərbaycan ilə Albaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 noyabr 2016-cı il*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının sabiq sədri, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim, qardaşınız Fidel Kastro Rusun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə, dost Kuba xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2016-cı il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Semnan vilayətində baş vermiş dəmir yolu qəzası nəticəsində insanların həlak olması xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 noyabr 2016-cı il*

## RUSİYA FEDERASİYASININ TƏHSİL VƏ ELM NAZİRİ OLQA VASİLYEVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 27-də Rusiya Federasiyasının Təhsil və Elm naziri Olqa Vasilyevanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rusiya Federasiyasının Təhsil və Elm naziri Olqa Vasilyevanın ölkəmizə səfərinin maraqlı keçəcəyinə ümidvar olduğunu bildirən dövlətimizin başçısı təhsil və elm sahələrində əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi üçün çoxlu mövzuların olduğunu dedi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin müxtəlif istiqamətlərdə, o cümlədən təhsil sahəsində uğurla inkişaf etdiyini vurğuladı.*

*Təhsil sahəsində əlaqələrin ənənəvi xarakter daşıdığına toxunan dövlətimizin başçısı bildirdi ki, çox mühüm olan odur ki, ötən 25 il ərzində ölkələrimiz bu ənənələri nəinki qorudu, hətta daha da möhkəmləndirdi. Prezident İlham Əliyev bunun həm orta, həm də ali təhsil sahələrini əhatə etdiyini dedi. Rusiya təhsil ocaqlarında azərbaycanlı tələbələrin təhsil aldıqlarını qeyd edən dövlətimizin başçısı artıq Azərbaycanda da Rusiya ali məktəblərinin təhsilini almaq imkanı olduğunu vurğuladı. Rusiyanın 2 ali təhsil müəssisəsinin filiallarının Azərbaycanda uğurla fəaliyyət göstərməsinin önəmini qeyd edən dövlətimizin başçısı nazirin ölkəmizdə olduğu müddətdə bu proseslərlə yaxından tanışlıq imkanı olacağını dedi. Prezident İlham Əliyev ikitərəfli əməkdaşlıq çərçivəsində əlaqələrin daha da möhkəmləndirilməsi ilə bağlı Təhsil nazirlikləri arasında səmərəli müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.*

*Rusiya Federasiyasının Təhsil və Elm naziri Olqa Vasilyeva dedi: «Gözəl ölkənizə, gözəl paytaxtınıza səfər etmək üçün yaratdığınız imkana görə minnətdarlığımı bildirirəm».*

*Prezident İlham Əliyevin fikirlərinin təsdiqi olaraq, Olqa Vasilyeva öz növbəsində, təhsil sahəsində ənənəvi əməkdaşlığımızın hazırda da inkişaf etdirilməsinin əhəmiyyətini vurğuladı. Ölkələrimiz arasında orta, ali və elmi təhsil sahəsində əlaqələrə toxunan rusiyalı nazir Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filiallarının uğurla fəaliyyət göstərdiyini dedi. Rus dilinin inkişafı məsələlərinə toxunan nazir bunu ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxınlaşdıran faktorlardan biri kimi dəyərləndirdi. Xanım Olqa Vasilyeva qeyd etdi ki, Azərbaycanda rus dilində təhsil aparılan məktəblərdə oxuyan xeyli sayda şagirdlərin olduqları nəzərə alınaraq, məsələn, Lomonosov adına Moskva Dövlət Universitetinin tərkibində filoloji qrupun açılması təklif olunur.*

*Görüşdə Azərbaycanda rus dilinin və Rusiya Federasiyasında azərbaycanlıların sıx yaşadıqları ərazilərdə Azərbaycan dilinin tədrisinə texniki dəstək göstərilməsinin vacibliyi qeyd olundu, Rusiya–Azərbaycan Universitetləri Assosiasiyasının Bakıda keçiriləcək konfransının əhəmiyyətindən danışıldı, universitetlərarası əməkdaşlığın genişləndirilməsinin önəmi qeyd olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında bir çox istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı sahəsində kadr hazırlığı ilə bağlı qarşılıqlı təcrübə mübadiləsinin zəruriliyi qeyd edildi.*

## «BAKUTEL–2016» XXII BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli sərgi və konfrans iştirakçıları!

Sizi – «Bakutel–2016» XXII Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransının iştirakçılarını Bakı şəhərində ürəkdən salamlayır, hər birinizə gələcək işlərinizdə uğurlar diləyirəm.

Xəzərətrafı regionda telekommunikasiya və informasiya texnologiyaları üzrə ən nüfuzlu tədbirə çevrilmiş bu ənənəvi sərgi və konfrans, bir qayda olaraq, ölkəmizin, eləcə də dünyanın bir sıra dövlətlərinin və aparıcı şirkətlərin yüksək texnologiyalar sahəsində ən son nailiyyətlərinin təqdim edildiyi məkan rolunu oynayır.

Bu gün davamlı tərəqqi dövrünü yaşayan Azərbaycanda yüksək texnologiyalar sahəsinin inkişafı prioritet istiqamət kimi müəyyənləşdirilmişdir. Müasir texnologiyalardan lazımınca yararlanmaq üçün ölkəmizdə əlverişli şərait yaradılmış, cəmiyyətin gündəlik həyat fəaliyyətinin tərkib hissəsi olan internetə yüksəksürətli çıxış və ondan sərbəst istifadə imkanı təmin edilmişdir. Hazırda rəqəmli televiziya yayımı həyata keçirilməkdədir. Dövlət idarəçiliyində müasir metodlar və texnoloji yeniliklər sayəsində «Elektron hökumət» sisteminin tətbiqi genişlənmişdir.

Texnologiya parklarının fəaliyyətə başlaması, qabaqcıl texnologiyaların bütün sahələrdə tətbiqi, istehsal və investisiyayönümlü innovativ layihələrə dövlət dəstəyi, o cümlədən güzəştli maliyyə təminatı respublikamızda təşəkkül tapmaqda olan startapların inkişafına, gənclərin təşəbbüskarlığının artmasına və nəticə etibarilə iqtisadiyyatımızın dinamik yüksəlişinə xidmət göstərir.

«Azərspace-1» və «Azərsky» peykləri dünya kosmik ailəsində ölkəmizin layiqli yer tutmasını təmin etmiş, eyni zamanda, regionun peyk xidmətləri ilə təchizatında onların mühüm rolu vardır. Ümidvaram ki, növbəti telekommunikasiya peykimiz «Azərspace-2»nin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında yeni mərhələnin təməlini qoyacaqdır.

İnanıram ki, sərgi və konfrans çərçivəsində keçirəcəyiniz səmərəli görüşlər, müzakirə edəcəyiniz aktual məsələlər yeni təşəbbüslərin meydana çıxmasına və gerçəkləşməsinə, qarşılıqlı əlaqələrin daha da dərinləşməsinə öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2016-cı il*

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun noyabrın 28-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Belarus Respublikasının Prezidentinə raport verdi.*

*Belarus Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Belarus Respublikasının Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri prezident Aleksandr Lukaşenkoya, Belarus Respublikasının nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

# BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun noyabrın 28-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Aleksandr Qriqoryeviç!

Sizi yenidən görməyimə çox şadam, Azərbaycana xoş gəlmisiniz!

Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Bu onu göstərir ki, dövlətlərimiz arasında münasibətlər son dərəcə yaxınlıq və dostluq xarakteri daşıyır. Biz Minskdə, Bakıda, başqa yerlərdə beynəlxalq tədbirlər çərçivəsində müntəzəm görüşürük. Həmişə Sizinlə fikir mübadilələri faydalı və xoş olur. Biz Sizinlə son illər ərzində ikitərəfli formatda xeyli məsələləri həll etmişik. Çox yaxşı nəticələr var. Hər dəfə yenidən görüşəndə biz görülən işlərə yekun vuraraq, belə qənaətə gəlirik ki, hətta qısa müddətdə ortada nəticə var. Biz Belarus ilə bütün istiqamətlərdə əməkdaşlığı fəal davam etdirmək niyyətindəyik. Bu gün ikitərəfli format, demək olar ki, həyatımızın bütün sahələrini əhatə edir. Ənənəvi sahələrdə əməkdaşlıq prosesləri getdikcə genişlənir. Biz həm də əməkdaşlığın yeni istiqamətlərini müəyyənləşdiririk. Biz dostuq, tərəfdaşıq. Bütün məsələlərdə həmişə bir-birimizi dəstəkləmişik və dəstəkləyirik. Sizi, Azərbaycanın yaxın dostunu, Azərbaycanda çox sevilən və hörmət bəslənilən bir insanı yenidən Bakıda görmək mənə çox xoşdur. Əminəm ki, Sizin bugünkü səfəriniz əməkdaşlığımıza yeni təkan verəcək. Münasibətlərimizin perspektiv inkişaf istiqamətlərini müəyyən edəcək xeyli sənədlər imzalanacaq. Əlbəttə ki, biz Sizinlə ikitərəfli, regional, hazırda

bütün dünya ictimaiyyətini narahat edən məsələlər barədə də söhbət edəcəyik. Biz dost və tərəfdaşıq. Bir daha səmimi-qəlbdən «Xoş gəlmisiniz!» – deyirəm. Dəvəti qəbul edib gəldiyinizə görə təşəkkür edirəm. Sizə uğurlu və xoş səfər arzulayıram.

**Aleksandr Lukaşenko:** Xoş sözlərə görə çox sağ olun, İlham Heydər oğlu. Dəvətə görə sağ olun. Təbii, bilirsiniz ki, bizim müzakirə ediləsi və Sizin düzgün qeyd etdiyiniz kimi, gələcək fəaliyyət yollarını müəyyənləşdirəsi problemlərimiz var. Düzünü desəm, hər dəfə Bakıya gələndə mən bu inkişafı görərkən, bütün bu əsas məsələlər ikinci plana keçir. Mən görürəm ki, Siz ilk növbədə, bu gözəl şəhərdə qədim məbədləri, qədim mədəniyyət abidələrini qoruyub saxlaya bilmisiniz. Əksər regionlarda həyat bunlardan başlanıb. Mən Sizin düşünülmüş, rasional tikililəri görəndə fikrim o qədər yayınır ki, həll edəcəyimiz əsas məsələləri unuduram. Bu həqiqətən, belədir. Fikrimcə, bu ovqat təkcə məndə yox, bütün qonaqlarda yaranır. Mən bunları görəndə nələrisə öyrənir və düşünürəm ki, gördüklərimi Belarus torpağında da tətbiq etmək olar. Buna görə də Sizə minnətdaram. İkincisi, İlham Heydər oğlu, Sizi Azərbaycan xalqının yüksək etimadı münasibətilə təbrik etmək istəyirəm. Mən bilirdim ki, Azərbaycanda Sizi sevirlər. Amma belə bir sevgiyə, düzünü desəm, yalnız həsəd aparmaq olar. Afərin Sizə, plebessiti çox gözəl keçirdiniz, Azərbaycan xalqının etimadını qazandınız. Əldə olunan uğurları davam etdirdiyinizə, xalq təsərrüfatının inkişafında belə nailiyyətlərə görə Azərbaycan xalqı təşəkkürə layiqdir.

Təbii ki, Siz bizə ən yaxın dostlarınız kimi, bel bağlaya bilərsiniz. Əgər Sizə Azərbaycanda nədəsə faydalı ola biləriksə, buna həmişə hazırıq. Siz bizim imkanlarımızı yaxşı bilirsiniz. Siz Belarusun böyük dostusunuz. Siz dəfələrlə bizdə olmusunuz. Sizdən əvvəl atanız da çox böyük işlər görüb. Onun haqqında, münasibətlərimiz barədə çox danışmışam. Bizim xalqımız o müdrik və xeyirxah insanı çox yaxşı xatırlayır. Atanızla birlikdə ölkələrimizin münasibətləri üçün gördüyünüz işlər həmişəlik

yadda qalacaq. Bizim qapalı mövzularımız yoxdur. Siz düzgün qeyd etdiniz ki, biz bütün istiqamətlərdə əməkdaşlıq edirik. Biz bütün istiqamətlərdə əməkdaşlığı davam etdirəcəyik. Bizim əməkdaşlığımız heç kəsə zərər vurmur. Belə demək mümkündürsə, biz gerçəkliyin ən aktual məsələlərinin müzakirəsində açıq fəaliyyət göstəririk və bundan sonra da belə olacaq.

Məni ölkənizə səfərə dəvət etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Aramızda yaranan qaydaya görə, mən də Sizi istənilən vaxt Belarusda gözləyirəm. Bizim yaxşı təcrübəmiz var. Düşünürəm ki, Sizin üçün münasib vaxtda təkcə qonaq kimi deyil, ölkəmiz üçün ən yaxın, ən doğma insan kimi bizə təşrif gətirəcəksiniz. Təşəkkür edirəm.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*28 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun noyabrın 28-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Aleksandr Qriqoryeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram!

Bu gün biz ikitərəfli gündəliyin bir sıra mühüm məsələləri – regional problemlər, regional təhlükəsizliklə, əməkdaşlıqla bağlı məsələlər barədə fikir mübadiləsi apardıq. İndi biz diskus-siyaları geniş tərkibdə davam etdirəcəyik. Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlamaq istərdim. Sizin səfəriniz, böyük nümayəndə heyəti ilə ölkəmizə gəlməyiniz bizi çox sevindirir. Əminəm ki, nümayəndə heyətinin üzvləri də öz istiqamətləri üzrə işləmək imkanına malik olacaqlar. Çünki bu gün bu masa arxasında bir sıra nazirliklərin, şirkətlərin, idarələrin rəhbərləri təmsil olunub. Onların öz aralarında münasibətləri var və əməkdaşlıq potensialını artırmaq niyyətindədirlər.

Ölkələrimiz arasında çox yaxın, etimada əsaslanan mü-nasibətlər formalaşıb. Biz həmişə bir-birimizi dəstəkləyirik, bizi maraqlandıran, narahat edən məsələləri səmimi müzakirə edirik. Biz bir-birimizi, necə deyərlər, dəfələrlə sınamışıq. Biz bir-birimiz, həmçinin bütün ölkələr üçün də etibarlı tərəfdaşlarıq. Zənnimcə, bu da Belarusu və Azərbaycanı yaxınlaşdırır. Çünki ölkələrimiz prinsipial siyasətə və sağlam münasibətlərə görə beynəlxalq aləmdə haqlı olaraq, nüfuz qazandılar.

Əlbəttə, münasibətlərimizin böyük bir bloku iqtisadi məsələlərlə bağlıdır. Münasibətlərin formalaşması, xüsusən Azərbaycanda yaradılmış birgə istehsalatlar bizi sevindirir. Lakin qarşılıqlı ticarətin səviyyəsi, əlbəttə, bizi sevindirə bilməz. Bu gün biz əməkdaşlığın diapazonunu, nomenklaturunu necə genişləndirmək, əmtəə dövriyyəsini necə artırmaq barədə Sizinlə fikir mübadiləsi apardıq. Bunun üçün çox yaxşı potensial var. Biz işi düzgün təşkil etməklə, çox qısa müddətdə qarşılıqlı ixracı artıra bilərik. Biz həm də hərbi-texniki kompleksiə bağlı məsələlərdə əməkdaşlıq edirik, burada da çox yaxşı təcrübə, nəticələr və gələcək planlar var.

Beynəlxalq təşkilatlarda biz həmişə bir-birimizi dəstəkləyirik və əminəm ki, bundan sonra da dəstəkləyəcəyik. Belarusun timsalında bizim çox etibarlı tərəfdaşımız və dostumuz var. Sizin uğurlarınıza həmişə sevinirik, sizi görməyə həmişə şadıq.

Mən bu görüşə hazırlaşarkən, tarixə nəzər saldım və gördüm ki, bu Sizin ölkəmizə 4-cü rəsmi səfərinizdir. Mən də Belarusda 4 dəfə rəsmi səfərdə olmuşam, işgüzar səfərləri saymasaq. Bu özü bir göstəricidir və çox şeydən xəbər verir. Hər görüşümüz bizim münasibətlərə yeni təkan verir. Əminəm ki, Sizin budəfəki səfəriniz də səmərəli olacaq və imzalanacaq sənədlər, əldə edəcəyimiz razılaşmalar praktikada reallaşacaqdır. Bir daha xoş gəlmisiniz!

**Aleksandr Lukaşenko:** İlham Heydər oğlu, dəvətə və indicə dediyiniz sözlərə görə çox sağ olun. Mən artıq Sizi cəsarətli siyasi qərarlarınız münasibətilə təbrik etmişəm. Sizin Azərbaycan xalqından aldığınız dəstəyə hər kəs qibtə edə bilər. Sizə «Afərin!» – deyirəm. Bu mürəkkəb dövrdə ölkənizdə belə birlik nümayiş etdirirsiniz. Bu bizim üçün də yaxşıdır. Çünki sənin dostların həmrəy olanda, onlar sıx birləşməyi, istənilən anda, ən mürəkkəb vaxtlarda toplaşmağı bacaranda, belə dostların olması yaxşıdır. Odur ki, Sizi bu münasibətlə, Azərbaycanda gördüyünüz işlərə görə bir daha təbrik etmək istəyirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə noyabrın 28-də geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikası Prezidentinin və Belarus Respublikası Prezidentinin Birgə Bəyanatını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko imzaladılar.*

*«Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında 2025-ci ilədək sosial-iqtisadi əməkdaşlıq Proqramının icrası üzrə Tədbirlər Planı»nı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Belarusun Baş nazirinin müavini Vladimir Semaşko imzaladılar.*

*«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti ilə Belarus Respublikasının Milli Dövlət Teleradio Kompaniyası arasında əməkdaşlıq haqqında Saziş»i «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanov və «Belteleradiokompaniya»nın sədri Gennadi Davıdko imzaladılar.*

*«Qəbələ Rayon İcra Hakimiyyəti (Azərbaycan Respublikası) və Qrodno şəhəri (Belarus Respublikası) arasında regionlararası əlaqələrin qurulması haqqında Saziş»i Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Belarusun ölkəmizdəki səfiri Gennadi Axramoviç imzaladılar.*

*«Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə Belarus Respublikasının Dövlət Əmlak Komitəsi arasında əməkdaşlığa dair Saziş»i Azərbaycanın Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov və Belarusun Dövlət Əmlak Komitəsinin sədri Andrey Qayev imzaladılar.*

*«2025-ci ilədək Azərbaycan və Belarus arasında aqrosənaye kompleksi sahəsində əməkdaşlıq üzrə Kompleks Proqramı»nı Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və Belarusun Kənd Təsərrüfatı və Qida naziri Leonid Zayats imzaladılar.*

*«Azərbaycan Respublikası və Belarus Respublikası arasında təhsil sahəsində 2016–2020-ci illər üzrə əməkdaşlığın inkişafı Proqramı»nı Azərbaycanın Təhsil naziri Mikayıl Cabbarov və Belarusun Təhsil naziri Mixail Juravkov imzaladılar.*

*«Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Belarus Respublikasının Dövlət Gömrük Komitəsi arasında malların hava nəqliyyatı ilə daşınmasında gömrük hüquq pozuntuları ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Protokol»u Azərbaycanın Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Belarus Respublikasının İnformasiya Nazirliyi arasında nəşriyyat və informasiya sahəsində əməkdaşlıq haqqında Sazişin həyata keçirilməsinə dair 2017–2020-ci illər üçün Tədbirlər Planı»nı Azərbaycanın Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində əməkdaşlıq haqqında 2013-cü il 21 noyabr tarixli Sazişin tətbiqinə dair Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında Saziş»i Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

*«Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Belarus Respublikası İdman və Turizm Nazirliyi arasında bədən tərbiyəsi və idman sahəsində 2017–2018-ci illər üçün əməkdaşlıq Proqramı»nı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarusun Xarici İşlər naziri Vladimir Makey imzaladılar.*

# BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*28 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko noyabrın 28-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Aleksandr Qriqoryeviç!

Əziz dostlar!

Aleksandr Qriqoryeviç, icazə verin, bir daha Sizi səmimiqəlbdən ölkəmizdə salamlayaq. Azərbaycana xoş gəlmisiniz! Mən Sizin səfərinizə çox şadam. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz həm dəfələrlə keçirilmiş rəsmi, həm də işgüzar görüşlər çərçivəsində çox tez-tez görüşürük. Bizim əlaqələrimiz həmişə çox səmimi, açıq, dostluq xarakteri daşıyır.

Əlbəttə ki, Sizin bugünkü səfəriniz ölkələrimiz arasında münasibətlərin inkişafı və möhkəmləndirilməsi istiqamətində mühüm hadisədir. İndicə bir çox istiqamətlər üzrə gələcək əlaqələrimizi müəyyənləşdirəcək xeyli sənədlər imzalandı. Bu gün biz təkbətək və geniş tərkibdə görüşlər çərçivəsində münasibətlərimizin geniş spektrini müzakirə etdik və əməkdaşlıq potensialının gücləndirilməsi arzusunu bildirdik. İndicə imzalanan hər bir sənəd böyük əhəmiyyət kəsb edir. Sənədlər arasında prezidentlərin imzaladığı və əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirən, eləcə də münasibətlərimizin ruhunu və xarakterini əks etdirən Birgə Bəyanat xüsusi yer tutur.

Biz Belarus tərəfinə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində tutduğu mövqeyə görə çox minnətdarıq. Belarus həmişə qanunun aliliyinin, beynəlxalq hüququn və beynəlxalq təşkilatların qərar və qətnamələrinin yerinə yetirilməsinin tərəfdarıdır. Biz qətiyyətlə əməkdaşlıq potensialının gücləndirilməsi niyyətindəyik. Biz beynəlxalq qurumlarda bir-birimizi fəal dəstəkləyirik. Bizim ölkələrimiz arasında qarşılıqlı dəstək artıq reallıqdır və sanki avtomatik rejimdə həyata keçirilir. Bizim ya Belarusun, ya da Azərbaycanın üzv olmadığı təşkilatlarda həmişə bir-birimizi dəstəkləməyimiz, söz deməyimiz xüsusilə dəyərlidir. Bu, xüsusilə əhəmiyyətlidir. Çünki əgər sən hər hansı təşkilatın üzvüsənsə, iclaslarında iştirak edirsənsə, həmişə yalana, böhtana, ədalətsizliyə cavab verə bilərsən. Lakin Belarus Azərbaycanın iştirak etmədiyi bəzi təşkilatların üzvüdür, həmçinin biz Belarusun iştirak etmədiyi bəzi təşkilatların üzvüyük. Ancaq bilirik ki, əgər bu qurumlar çərçivəsində ölkələrimizə qarşı əsassız hücum cəhdləri olarsa, biz həmişə öz prinsipial mövqemizi bildirəcəyik. Bu çox dəyərlidir. Düşünürəm ki, burada iştirak edənlər mənim nə barədə danışdığımı bilirlər. Biz əməkdaşlığın bu səviyyəsini qiymətləndiririk. Bizim aramızda qarşılıqlı hörmətə, rəğbətə, əməkdaşlığa və dəstəyə əsaslanan nadir münasibətlər yaranıb. Bugünkü danışıqlar və fikir mübadilələri bir daha bizim münasibətlərin əsas dəyərini sübut etdi.

Əlbəttə ki, biz bu gün artıq əldə olunmuş razılaşmaların təcrübədə gerçəkləşdirilməsini müzakirə etdik, bir çox məsələlər üzrə nümayəndə heyəti üzvlərinin məlumatları dinlənildi, eləcə də müvafiq nazirlərə, həmçinin hökumətlərarası komissiyanın həmsədrlərinə tapşırıqlar verildi ki, qısa müddətdə – bir ay ərzində ölkələrimiz arasında əmtəə dövriyyəsinin xeyli və sürətlə artırılması barədə yeni fəaliyyət planı hazırlasınlar.

Biz yaxşı qarşılıqlı fəaliyyət, birgə layihələrin reallaşdırılması tarixinə malikik. Bunların arasında, əlbəttə ki, traktorların istehsalı üzrə zavod xüsusi yer tutur. Qısa müddət ərzində prezidentlərin

təkcə xoş arzuları və tövsiyələri ilə Gəncədə yaradılan «MAZ» avtomobilləri zavodu buna nümunədir. Qısa vaxtda Belarus tərəfi bizə Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunmasına imkan verən müasir super istehsal sahəsi yaratmağa böyük kömək göstərib. Biz texnika idxalından asılılığı xeyli dərəcədə azaltmışıq. Eləcə də bu gün deyildiyi kimi, istehsal olunan maşınların, mexanizmlərin, traktorların başqa ölkələrə ixracına başlamışıq.

Elm, təhsil sahəsində də böyük potensial var. Biz bu sahələrə həmişə böyük diqqətlə yanaşırıq. Elmin və təhsilin yüksək səviyyəsi olmadan heç bir ölkənin gələcəyi mümkün deyil.

Biz aqrosənaye kompleksləri sahəsində əməkdaşlıqla bağlı hərtərəfli müzakirə apardıq. Şadam ki, kənd təsərrüfatının bu sahəsində də Belarus mütəxəssisləri tərəfindən iri layihə reallaşdırılacaq. Belarus tərəfinin bu sahədə çox yaxşı təcrübəsi var.

Biz əməkdaşlıq potensialını genişləndirməyi nəzərdə tuturuq. Bu gün Azərbaycanın Belarusda, Belarusun isə Azərbaycanda ticarət evlərinin yaradılması barədə qərar qəbul olunub. Biz bu məsələdə Belarusdan geri qalırıq. Belə ki, Belarusun artıq Azərbaycanda ticarət nöqtələri, obyektləri var. Biz isə hələlik buna yeni hazırlaşırıq. Düşünürəm ki, yaxın vaxtlarda bu istiqamətdə mövqelərimizi bərabərləşdirəcəyik.

Biz münasibətlərimizin dəyərini bir daha geniş müzakirə etdik. Qərara gəldik ki, biz rəqib deyilik. Biz Belarusda olmayan meyvə-tərəvəzləri, digər kənd təsərrüfatı məhsullarını, Belarus isə bizim idxal etdiklərimizi istehsal edir. Buna görə razılaşdıq ki, nəzarəti məqsədyönlü şəkildə həyata keçirək və təəssüf ki, hələlik aşağı səviyyədə olan qarşılıqlı əmtəə dövriyyəsini gücləndirməyə rəvac verək.

Bizim qarşılıqlı fəaliyyətimizin mühüm hissəsini hərbi sənaye sahəsi təşkil edir. Biz bu sahədə də çoxdan tərəfdaşlıq edirik və bir-birimizi sınaqdan keçirmişik. Biz hərbi sənaye kompleksi sahəsində əməkdaşlıq səviyyəsindən çox razıyıq və əməkdaşlığı gücləndirmək niyyətindəyik.

Bizim qarşılıqlı fəaliyyətimizin yeni istiqamətinə gəlincə, energetika sahəsini qeyd edə bilərəm. Bu əməkdaşlığın uzun-

müddətli və möhkəm olması barədə də müvafiq göstərişlər verilib. Çünki neft əməliyyatları və neft ixracatı sahəsində, əlbəttə ki, uzunmüddətli tədarüklər lazımdır. Mən həm də belə bir məsələ qaldırdım ki, biz nəqliyyat sahəsində əməkdaşlıq barədə məsləhətləşmələrə başlamalıyıq. Bildiyiniz kimi, biz regionumuzda yeni nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı iri layihələr həyata keçiririk. Azərbaycanın və Belarusun coğrafi mövqeyi bizə bu istiqamətdə çox fəal əməkdaşlıq etməyə imkan verir. Biz imkanlarımızdan və müxtəlif ölkələrlə əlaqələrdən istifadə edərək, öz ölkələrimizin ərazisindən yükdaşımalarının həcmini artırmalıyıq.

Əlbəttə ki, Prezidentin rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafı üçün həmişə böyük əhəmiyyət daşıyır. Əminəm ki, bu səfər də bizim qarşılıqlı dostluq münasibətlərimizin inkişafına təkan verəcək. Biz bu əlaqələri çox yüksək qiymətləndiririk. Bu əlaqələr yaxşı tarixə malikdir və dediyim kimi, biz bir-birimizi artıq bir çox tarixi məqamlarda sınamışıq. Həmişə yalnız etibar, düzgünlük və qarşılıqlı dəstək görmüşük.

Aleksandr Qriqoryeviç, bir daha xoş gəlmisiniz! Sizə ölkəmizdə xoş vaxt keçirməyinizi arzulayıram.

**Belarus prezidenti Aleksandr Lukaşenkonun bəyanatı**

Hörmətli İlham Heydər oğlu, dediyiniz xoş sözlərə görə Sizə bir daha təşəkkür edirəm. Bilirəm ki, onlar ürəkdən gələn sözlərdir. Biz Sizin mövqenizi həmişə çox yüksək qiymətləndiririk. Bizim münasibətlərin həqiqətən, müəyyən böyük tarixi var. Belarus–Azərbaycan münasibətlərinin yaranmasından 20 ildən çox vaxt keçir. Belə münasibətlər qurmaq asan məsələ deyil. Buna görə biz onları qiymətləndiririk, onları qorumalıyıq. Bizim münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Bizim kimi münasibətləri olan dövlətlər çox deyil. İlham Heydər oğlu yaxşı bilir ki, dövlətlər arasında, xüsusən dövlət başçıları arasında münasibətlər müxtəlif cür formalaşır. Biz seçim etməli olmuruq. Biz prezidentlər olaraq, nə qədər mürəkkəb olsa da, ən

xoş münasibətlər yaratmağa borcluyuq. Bəzən bu, çətin başa gəlir, insan çox gərginlik hiss edir. Amma dostumla Belarusda, Minskdə və ya burada, Bakıda görüşəndə həmişə xoş ümidlər, xoş arzular yaranır. Praktiki olaraq, bütün məsələlər üzrə bizim mövqelərimiz tamamilə üst-üstə düşür. Biz çox səmimiyik və bunu gizlətmirik. Artıq dediyim kimi, beynəlxalq gündəliklə bağlı praktiki olaraq, fikir ayrılığımız yoxdur. Biz bütün beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlıq edir, bir-birimizi dəstəkləyirik. Burada çox düzgün deyildi ki, Azərbaycanın olmadığı, lakin Belarusun olduğu yerdə, yaxud Belarusun olmadığı, lakin Azərbaycanın olduğu yerdə biz həmişə bir-birimizi dəstəkləyir və müdafiə edirik.

Əlbəttə, hər şeyin əsası ticari-iqtisadi əməkdaşlıqdır. Biz gizlətmirik ki, son 1 ildə dünya böhranı ilə əlaqədar bizim ticari-iqtisadi əməkdaşlığımızda geriləmə olub. Bu gün razılığa gəldik ki – hətta rəqəmlər göstərildi, mən onları təxmini təkrarlayım – gələn il biz əmtəə dövriyyəsinin həcmini 700 milyon dollara çatdıra bilərik. Bu isə ən əlverişli ildəkindən, demək olar ki, 2 dəfə çoxdur. Məlum oldu ki, bizdə hələ istifadə edilməyən ehtiyatlar çoxdur. İlham Heydər oğlu indicə dedi ki, biz kənd təsərrüfatında sadəcə, malgöndərmələr, qarşılıqlı mübadilə layihəsi üzərində işləməyə hazır olmaqla kifayətlənməyib, burada bəzi kənd təsərrüfatı müəssisələrini tam təhvil verməyə hazırıq. Biz burada ən müasir müəssisə tikməyə hazırıq ki, Azərbaycandakı həmkarlarımız bu müəssisənin nə demək olduğunu öz gözləri ilə görə bilsinlər. Ola bilsin ki, bu təcrübə Azərbaycanda təkrarlanmaq üçün yarayar. Biz qarşılıqlı surətdə hazırıq ki, Azərbaycan öz mallarını Belarus bazarında daha geniş təqdim etsin. Özü də təkcə Belarus bazarında yox – hər halda bu, Avropanın mərkəzidir – biz Azərbaycan mallarının həm Avropada, həm də Avrasiya İqtisadi İttifaqında satışına kömək göstərməyə hazırıq. İlham Heydər oğlunun haqqında danışdığı ticarət evləri bu əməkdaşlığın inkişafı üçün yaxşı vasitə olacaq.

Biz yeni kooperativ layihələr barədə də danışdıq. Mənim fikrimcə, Azərbaycan çox düzgün olaraq, pambıqçılığı inkişaf etdirmək, tütün əkini sahələrini artırmaq və gələcəkdə onu satmaq xətti götürüb. Tütün sahəsində biz artıq əməkdaşlıq edirik. Belarusda siqaret istehsalı üzrə bizim çox güclü 2 şirkətimiz işləyir. Bu, ikrah doğuran istehsalatdır, lakin insanlar nədənsə siqaret çəkir və biz onlara bu cür xidmətlər göstərməyə və bu tələbatı təmin etməyə məcburuq. Biz Azərbaycana istiqamətlənmişik. Biz buradan tütün alırıq, əvəzində isə buraya siqaret göndəririk. Bu halda biz həmin siqaretin yüksəkkeyfiyyətli olmasına cavabdehik. Ən başlıcası, bu siqaretlər yerli tütündən hazırlanır. Əgər hansısa narazılıq yaransa deyəcəyik ki, bu sizin tütündür. Ona görə bu, yaxşı əməkdaşlıq istiqamətidir. Pambıq istehsalının həcminin artımı elə olacaq ki, biz 25–30 min ton, bəlkə də 40 min ton pambıq lifi ala bilərik. Mən İlham Heydər oğluna təklif etdim ki, o bizim Baranoviçi Pambıq Parça kombinatı ilə kooperasiyanın mümkünlüyü məsələsini nəzərdən keçirsin. Bu hələ sovet dövründən qalmış çox böyük kombinatdır. Bizim orada əməkdaşlıq etmək imkanımız var. Əgər Azərbaycan da bu müəssisənin kapitalına daxil olmaq istəsə, biz bunun əleyhinə deyilik. Biz buna da hazırıq. Şərabçılıq sənayesi fəal inkişaf edir. Mən Prezidentə demişəm, bizim vətəndaşlar Azərbaycan şərablarını tanıyırlar, sizin konyak Belarusda məşhurdur. Buyurun gəlin, biz sizin üçün bazar açarıq. Siz öz məhsullarınızı satın. Sizdə üzüm sahələrinin genişləndirilməsi də çox şeydən xəbər verir. Bizim bazar elədir ki, siz gəlib bu bazarda öz evinizdə, Azərbaycanda olduğu kimi işləyə bilərsiniz.

Burada meyvələr barədə danışdıq. Biz cənub meyvələrini praktiki olaraq, başqa ölkələrdən alırıq. Azərbaycandan az alırıq. Bunu qaydaya salmaq lazımdır. Prezident düzgün irad tutdu. Bu, yaxşı deyil ki, Azərbaycanda ən yaxşı meyvələr yetişdiyi halda, biz onları Afrikadan və başqa yerlərdən alırıq. Zənnimcə, bu meyvələrin Belarusda rəqibləri olmayacaq. Neft-kimya sahəsi barədə bu gün çox danışdıq. Bu, yeni istiqamətdir. Siz çoxlu neft-kimya müəssisəsi tikirsiniz. Bizdə bu müəssisələrin

məhsullarına böyük maraq var. Çünki bizdə müvafiq zavodlar, kombinatlar var, bu gün onları modernləşdiririk. Mən çox istərdim ki, xammal alışını şaxələndirərkən, biz Azərbaycandan olan dostlarımızla işləyək.

Biz gözlənilmədən Belarusda Azərbaycan xalçaları istehsalı mövzusuna toxunduq. Bunlar gözəl, yüksəkkeyfiyyətli xalçalardır. Mən şəxsi təcrübəmdən bunu bilirəm. Prezidentə də dedim ki, nə üçün Belarusda xalça istehsal edilməsin? Prezident dedi ki, biz yun satmağa da hazırıq, Belarusda yun yoxdur. Biz iqlim şəraitinə görə Belarusda bu cür yun istehsal edə bilmirik. Bütün dünyadan yun aldığımız halda, Azərbaycandan nə üçün almayaq? Gəlin bu istehsalatı birlikdə yaradaq və siz Belarus bazarı ilə yanaşı, bu cür keyfiyyətli xalça məmulatı istehsal etməyən qonşu dövlətlərin bazarına da çıxış əldə edəcəksiniz.

Bir sözlə, bu görüş bizim əməkdaşlığımızın yeni konkret istiqamətlərini müəyyənləşdirməyə imkan verdi. Kənd təsərrüfatı üzrə çox maraqlı layihə olacaq. İlham Heydər oğlu bu layihəni dəstəklədi. Mən artıq dediyim kimi, biz öz müəssisələrimizdən birini sizin üçün tam hazır vəziyyətə gətirməyə, həmçinin əczaçılıq sahəsində əməkdaşlıq etməyə hazırıq. Sizin indi üzləşdiyiniz bir problemi – dərman təhlükəsizliyi problemini vaxtilə biz həll etmişik. Bu bəlkə ərzaq təhlükəsizliyindən də vacib məsələdir. Ölkənin öz dərmanları olmalıdır. Bizdə bu sahədə problem var idi. Vaxtilə dərmanların 13–16 faizini özümüz istehsal edirdik, indi isə bu göstərici 53 faizə çatıb. Düşünürəm ki, siz də bu problemi həll edəcəksiniz. Bu, birdən-birə həll edilmir, bunun üçün vaxt lazımdır. Biz bu gün Azərbaycanın müvafiq şirkətləri ilə, o cümlədən aramızda mövcud olan böyük dostluq və etimad əsasında əməkdaşlıq etməyə hazırıq.

İdman barədə mən hələ o vaxt demişdim, bir daha təkrar edirəm, siz Avropa oyunlarını parlaq səviyyədə keçirdiniz, heç kəs həmin turniri təkrar edə bilməz. Siz elə bir səviyyə müəyyən etdiniz ki, ümumiyyətlə, əsas Olimpiada, dünya Olimpiadası bu dərəcədə hazırlanmır, keçirilmir. Siz təkcə Bakının deyil, bütün ölkənin simasını dəyişmisiniz. Bunu təkrarlamaq asan məsələ

deyil. Bunu dərhal demişdim, II Avropa oyunlarınının bizdə, Belarusda keçiriləcəyini nəzərdə tuturdum. Əlbəttə, biz sizi üstələyə bilmərik, lakin belaruslulara xas olan səmimiyyətlə dedim, biz çalışacağıq ki, bu oyunların açılışında, bağlanışında və keçirilməsində Azərbaycandan geri qalmayaq. Buna görə, İlham Heydər oğlu, vaxtilə Siz məni dəvət etdiyiniz kimi, indi mən həm Sizi, həm də azərbaycanlı qardaşlarımızı 2019-cu ildə keçiriləcək həmin oyunlara dəvət edirəm. Biz estafeti sizdən qəbul edirik. Əlbəttə, biz sizin topladığınız o qiymətli təcrübəni mənimsəmək istərdik ki, həmin oyunları ləyaqətlə, yüksək səviyyədə keçirək. İdmanda konkret əməkdaşlığın başqa istiqamətləri üzrə də sizin təcrübənizi öyrənməyə hazırıq. Kimin fikrinə gələrdi ki, vaxtilə idmanın çox növlərini Azərbaycan Belarusdan öyrəndiyi halda, bu gün biz idmanın çox növləri üzrə Azərbaycandan öyrənməli olacağıq. Ümumiyyətlə, biz qoçaq adamlarıq. Rioda siz çox ləyaqətlə çıxış etdiniz və bu, çox cəhətdən sizin keçirdiyiniz Avropa oyunları sayəsində mümkün oldu. Bildiyiniz kimi, həm sizin Prezident, həm də mən eyni zamanda, Milli Olimpiya komitələrinin prezidentləriyik. Bu gün idman həm Azərbaycan Prezidentinin həyatında, həm də mənim həyatımda mühüm yer tutur və xüsusi rol oynayır. Biz öz vətəndaşlarımıza idmana həm maraq, həm də sevgi aşılayırıq.

Prezidentin dediyi kimi, bizim münasibətlərimizdə, ümumiyyətlə, qapalı mövzu yoxdur və biz kiminsə əleyhinə dostluq etmirik, bizim buna ehtiyacımız yoxdur. Biz öz dövlətlərimizin və xalqlarımızın inkişafı naminə dostluq edirik. Biz istəyirik ki, gördüyümüz işlərin müqabilində bizim insanların təşəkkürünə layiq olan iz qoyaq. Biz bunu da gizlətmirik. Odur ki, kənd təsərrüfatından başlamış, hərbi-sənaye kompleksinə qədər heç bir qapalı mövzu yoxdur. Biz bu sahələrdə həmişə əməkdaşlıq etmişik və hər hansı maneələrə, əngəllərə və rəqabətə baxmadan əməkdaşlıq edəcəyik. Mən dostum, həmkarım Azərbaycan Prezidentini onun üçün münasib olan istənilən vaxtda bizə, Belarusa rəsmi səfərə dəvət edirəm. İlham Heydər oğlu, biz Sizi Belarusda ən yaxın, bizə doğma insan kimi gözləyəcəyik. Siz

həmişə, nə qədər çətin olsa da ən mürəkkəb məqamlarda bizə nəinki kömək etməyə hazır olmusunuz, həm də kömək etmisiniz. Mən fəxr edirəm ki, bizim aramızda belə xeyirxah dostluq münasibətləri yaranıb.

Bizim nümayəndə heyətini bu gözəl şəhərə – son vaxtlar praktiki olaraq, ən müasir səviyyəyə çatdırdığınız şəhərə dəvət etdiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Mən artıq demişəm ki, buraya gələrkən gördüyüm hər şeyə həsəd aparıram. Sizin yaratdıqlarınıza həsəd aparıram və bu çox vaxt məni bizim həll etməli olduğumuz problemlərdən yayındırır. Afərin Sizə! Sizin gördüyünüz bütün işlər ciddi şəkildə öyrənilməyə və bizim Vətənimizdə həyata keçirilməyə layiqdir. Bunlar ömürlük qalan abidələrdir. Xırda şeyləri xalqlar unudur, amma bunlar hamısı qalır. Sizin etdiklərinizi biz məmnuniyyətlə Sizdən öyrənəcəyik. Yeri gəlmişkən, biz uçuş-enmə zolağı tikirik. O vaxt razılaşdığımız kimi, bizim mütəxəssislər buraya gəliblər. Sağ olun ki, siz bu təcrübəni gizlətmədiniz. Siz bir sıra idman obyektləri üzrə öz layihələrinizi bizə göstərirsiniz və biz onları Belarus şəraitinə uyğunlaşdırır, onlara oxşar obyektlər yaradırıq. Bunu təkrar etmək, əlbəttə, çətindir. Burada Şərq koloriti, Qafqaz koloriti var. Qadınların xətrinə dəyməsin, Qafqazda əsl kişi koloriti var.

Sağ olun, İlham Heydər oğlu, biz bu istiqamətdə irəliləyəcəyik və əminəm ki, nazirlərimiz bizi dəstəkləyəcəklər.

* * *

**İ l h a m  Ə l i y e v:** İcazə verin, Aleksandr Qriqoryeviçə xalqımız, ölkəmiz haqqında dediyi xoş sözlərə görə bir daha minnətdarlığımı bildirim. Bunu dostdan eşitmək həmişə xoşdur, xüsusilə də bunun səmimi olduğunu bildikdə. Bunu müasir, dinamik, özünü təmin edən, effektiv dövlət quran, çoxlarının qibtə etdiyi və etməli olduğu ölkənin başçısından eşitmək ikiqat xoşdur. Belarusun indi gözəl ölkə olmasında Aleksandr Qriqoryeviçin xüsusi rolunu qeyd etmək istərdim. Mən Azərbaycanın bütün vətəndaşlarına Minskə və Belarusun digər şəhərlərinə getməyi, əvvəla, Belarus xalqının səmimiyyətini

görməyi tövsiyə edirəm. Bu münasibəti görən hər kəs bu xalqın saflığından, alicənablığından və mehribanlığından heyrətə gəlir. İstərdim ki, hamı bu gün həm memarlıq, həm infrastruktur, həm təmizlik, həm də abadlıq baxımından Avropanın ən yaxşı paytaxtlarından biri olan gözəl Minsk şəhərini görsün, yaradılan müəssisələrə baş çəksin.

Siz Sovet İttifaqında mövcud olan ən yaxşını qoruyub saxlamısınız və artırmısınız, buna yeni təkan vermisiniz. Əlbəttə ki, Belarusu bu ölkədə II Avropa oyunlarının keçiriləcəyi münasibətilə təbrik etmək istərdim. Fikrimcə, bu da rəmzidir. Çünki Aleksandr Qriqoryeviç qeyd etdi ki, biz Olimpiya komitələrinin prezidentləriyik. Ancaq yəqin ki, bilmir, ya da buna əhəmiyyət verməyib, biz onunla Olimpiya komitələrinə eyni ildə başçılıq etməyə başlamışıq – 1997-ci ildə. Düşünürəm ki, bu da həm Belarus, həm də Azərbaycan üçün idmanın inkişafı baxımından dönüş ili oldu. Bu gün Belarus iri idman məmləkətidir. Biz də belaruslulardan geri qalmamağa çalışırıq, həmçinin idman sahəsində əlaqələrimizin möhkəmləndirilməsində əməkdaşlıq edirik. Əlbəttə, həm I, həm II Avropa oyunlarının keçmiş Sovet İttifaqı ölkələrində – keçmiş SSRİ-nin ən uğurlu ölkələrində keçirilməsi də yəqin ki, rəmzi xarakter daşıyır. Düşünürəm ki, bu bizim ölkələrimizin xidmətlərinin tanınmasıdır. Çünki ölkələrimiz müstəqil dövlət kimi, gəncdir – cəmi 25 il. Bu illər ərzində biz ən yüksək zirvələr fəth etmişik və istənilən səviyyədə tədbirlər keçirmək qabiliyyətinə malik olduğumuzu göstərmişik. Əminəm ki, II Avropa oyunları birincidən pis keçməyəcək. Çünki təcrübə, apardığınız təşkilati işlər, bu cür tədbirlərin təşkilinə göstərdiyiniz cəhdlər qarşıdakı oyunların unikal olacağını deməyə imkan verir. Siz təkcə Belarus xalqının qəlbini deyil, həm də müasir Belarusun güclü, müstəqil, layiqli dövlət olduğunu bütün Avropaya nümayiş etdirəcəksiniz.

Çox sağ olun.

## BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKOYA «HEYDƏR ƏLİYEV» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*28 noyabr 2016-cı il*

*Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya noyabrın 28-də «Heydər Əliyev» ordeninin təqdim edilməsi mərasimi keçirilmişdir.*

*Mərasimdə çıxış edən Azərbaycan prezidenti İlham Əliyev Belarus prezidenti Aleksandr Lukaşenkonun «Heydər Əliyev» ordeni ilə təltif olunması barədə sərəncam imzaladığını bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, müasir Azərbaycanın banisi olan ulu öndərin adını daşıyan «Heydər Əliyev» ordeni ali dövlət mükafatıdır və Azərbaycan xalqı qarşısında xüsusi xidmətlərə görə həm Azərbaycan vətəndaşlarına, həm də xarici ölkə vətəndaşlarına təqdim olunur.*

*Prezident İlham Əliyev Azərbaycan və Belarus dövlətləri arasında münasibətlərin əsasının qoyulmasında ulu öndər Heydər Əliyev və Aleksandr Lukaşenkonun xidmətlərini məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı İlham Əliyev prezident Aleksandr Lukaşenkonun müasir Belarus dövlətçiliyinin inkişafında və ölkənin əldə etdiyi nailiyyətlərdə rolunu xüsusi vurğuladı, bu gün Belarusun müasir dinamik inkişaf edən dövlətə çevrildiyini dedi. Məhz buna görə də Belarus xalqının prezident Aleksandr Lukaşenkonun bu fəaliyyətini yüksək qiymətləndirdiyini bildirdi.*

*İkitərəfli əlaqələrə toxunan prezident İlham Əliyev uğurla inkişaf edən bu münasibətlərin qarşılıqlı etimada, hörmətə və dostluq prinsiplərinə söykəndiyini qeyd etdi. Belarus Prezidentinin ölkəmizə bu səfərinin əhəmiyyətindən danışan dövlətimizin başçısı səfər zamanı ikitərəfli münasibətlərə dair səmərəli müzakirələrin aparıldığını bildirdi.*

*Prezident İlham Əliyev Aleksandr Lukaşenkonu təbrik etdi, Belarusun tərəqqisi və Azərbaycan–Belarus münasibətlərinin inkişafı yolundakı fəaliyyətində ona yeni uğurlar arzuladı.*

*Prezident İlham Əliyev «Heydər Əliyev» ordenini Aleksandr Lukaşenkoya təqdim etdi.*

*Azərbaycanın ən ali mükafatı ilə təltif olunduğuna görə dövlətimizin başçısına minnətdarlığını bildirən Aleksandr Lukaşenko ulu öndərlə bağlı xatirələrini dərin ehtiramla bölüşdü. Qeyd etdi ki, Azərbaycan xalqının ümummilli lideri həm onun üçün, həm də Belarus xalqı üçün çox mötəbər insandır. Vurğuladı ki, ulu öndər Sovet İttifaqının rəhbərliyində çalışdığı dövrdə ən ədalətli və prinsipial şəxsiyyətlərdən biri kimi tanınırdı.*

*Aleksandr Lukaşenko dedi ki, Heydər Əliyev şərəfli, cəmiyyətdə mənfi hallarla barışmaz mübarizə aparan bir rəhbər və gənc nəsil üçün nümunə idi. Prezidentlik fəaliyyəti dövründə ümummilli lider Heydər Əliyevlə beynəlxalq tədbirlərdə təmaslarının onda dərin təəssürat yaratdığını məmnunluqla xatırladan Belarus Prezidenti vurğuladı ki, ölkələrimiz arasında bugünkü münasibətlərin yüksək səviyyədə olmasının əsasını məhz Heydər Əliyev qoyub.*

*Prezident Aleksandr Lukaşenko Belarus xalqının tarixdə bir çox sınaqlarla üzləşdiyini, İkinci dünya müharibəsindən sonra ölkənin quruculuq işlərində Belarus xalqı ilə birlikdə digər xalqların nümayəndələrinin, o cümlədən azərbaycanlıların fəal iştirak etdiklərini bildirdi. Aleksandr Lukaşenko İkinci dünya müharibəsində Qələbənin əldə edilməsində Azərbaycan neftinin həlledici əhəmiyyətə malik olduğunu qeyd etdi.*

*Belarus Prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsinin vacibliyini vurğuladı və münaqişənin həlli istiqamətində prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti yüksək qiymətləndirdi.*

*Prezident Aleksandr Lukaşenko son illərdə Azərbaycanda bütün sahələrdə çox böyük inkişafın əldə edildiyini və ulu öndərin işini uğurla davam etdirən prezident İlham Əliyevin rəhbər-*

*liyi altında gedən bu inkişaf prosesinin Azərbaycanın nadir təcrübəsi olduğunu vurğuladı. Belarus Prezidenti neftdən əldə olunan gəlirlərin dövlət başçısının həyata keçirdiyi müdrik siyasət nəticəsində səmərəli və xalqımızın firavanlığı naminə istifadə olunduğunu xüsusi qeyd etdi.*

*Sonda Aleksandr Lukaşenko prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirdi.*

## CİSCO ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ MAYKL QANSERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Cisco şirkətinin baş vitse-prezidenti Maykl Qanserin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Cisco şirkətinin prezidenti Con Çembers ilə Bakıda və Davosda keçirdiyi görüşləri məmnunluqla xatırladan dövlətimizin başçısı bu şirkətin ölkəmizdə fəal işləməsinin önəmini vurğuladı və Azərbaycanda həyata keçirdikləri fəaliyyəti yüksək qiymətləndirdi. Dövlətimizin başçısı ölkəmizin inkişaf etdiyini, Azərbaycanda çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyini qeyd edərək, Cisco şirkəti ilə reallaşdırılan uzunmüddətli əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev informasiya-kommunikasiya texnologiyaları sektorunun ölkə iqtisadiyyatının həmişə prioritet sahələrindən biri olduğunu diqqətə çatdıraraq, bu sahədə yaxşı nəticələr əldə edildiyini dedi və bildirdi ki, məqsədimiz bu sektorda regionda qabaqcıl yer tutmaqdır.*

*Cisco şirkətinin baş vitse-prezidenti Maykl Qanser «Bakutel–2016» sərgisində iştirak etmək üçün ölkəmizə səfərə gəldiyini bildirərək, təmsil etdiyi şirkətin Azərbaycanda nümayəndəliyinin fəaliyyət göstərdiyini məmnunluqla qeyd etdi. Maykl Qanser tərəfdaşlıq əlaqələrinə verdiyi dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Bakıda keçirilmiş I Avropa oyunları və «Formula-1» yarışları, eləcə də ölkəmizin müvafiq qurumları ilə bəzi nüfuzlu layihələrdə uğurla iştirak etdiklərini, o cümlədən Qafqaz regionunda ilk «Tier-3» səviyyəli Data Mərkəzinin Azərbaycanda tikintisi ilə bağlı avadanlıq,*

*proqram təminatı, texniki həll yolları məsələlərinin Cisco şirkətinə də həvalə olunmasını məmnunluqla qeyd etdi.*

*Cisco şirkətinin baş vitse-prezidenti Maykl Qanser iqtisadiyyatların, sənaye sahələrinin rəqəmsal sistemə keçdiyini vurğulayaraq, bu baxımdan ölkəmizin həmin sahədə əldə etdiyi nəticələrin onda dərin təəssürat yaratdığını dedi.*

# BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA NİKOLSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Nikolsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Nikolson ilə sonuncu görüşünü məmnunluqla xatırlatdı. Ölkələrimiz arasında əməkdaşlığın genişləndiyini razılıqla qeyd edən prezident İlham Əliyev iqtisadi əməkdaşlığımızın enerji sektorundan tutmuş, iqtisadiyyatın digər müxtəlif sahələrinədək şaxələndirilməsinin önəmini vurğuladı. İqtisadiyyatın şaxələndirilməsini ölkəmizin əsas məqsədlərindən biri kimi dəyərləndirən dövlətimizin başçısı xüsusilə neftin qiyməti ilə bağlı yaranmış vəziyyətlə əlaqədar bunun mühüm əhəmiyyət daşıdığını bildirdi. Prezident İlham Əliyev gələcəkdə dayanıqlı inkişafa yardım edə biləcək sahələrdə ənənəvi tərəfdaşlarımızla daha möhkəm əlaqələrin qurulmasının önəmini qeyd etdi.*

*Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Nikolson öz növbəsində, prezident İlham Əliyev ilə son görüşünün uğurlu keçdiyini vurğuladı. Azərbaycan ilə əməkdaşlığa toxunan qonaq ölkəmizin müvafiq maliyyə qurumları, o cümlədən bankları və fond birjası ilə əlaqələrin qurulduğunu məmnunluqla qeyd edərək, London Fond Birjasının Azərbaycan ilə tam tərəfdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduğunu bildirdi. Baronessa Nikolson gələn ilin ya-*

*zında Londonda Azərbaycanın maliyyə strukturları ilə birgə konfransın keçirilməsini təklif edərək, dövlət başçımızın orada iştirakının əhəmiyyətli ola biləcəyini dedi. Dünya şöhrətli memar Zaha Hadidin ölkəmizdə həyata keçirdiyi layihənin uğurlu olduğunu məmnunluqla xatırladan qonaq gələcəkdə digər layihələrlə bağlı bu əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS İOHANNİSƏ**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Rumıniyanı dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, strateji xarakter daşıyan tərəfdaşlığımız, ikitərəfli və çoxtərəfli qaydada səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Rumıniya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2016-cı il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2016-cı il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2016-cı il*

## LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VOLAÇİTƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Laos xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2016-cı il*

## BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HOULİN JAO İLƏ GÖRÜŞ

*29 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Jaonu qəbul etmişdir.*

*Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Jao Bakıda keçirilən XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları («Bakutel–2016») sərgi və konfransının əhəmiyyətini vurğulayaraq, builki tədbirdə daha çox ölkənin öz stendləri ilə təmsil olunduğunu və yeni şirkətlərin iştirak etdiyini bildirdi və bunu ölkəmizə olan marağın göstəricisi kimi dəyərləndirdi. Houlin Jao prezident İlham Əliyevin informasiya-kommunikasiya texnologiyaları sahəsinə verdiyi böyük dəstəyi vurğulayaraq, bu sahədə Azərbaycanın çoxsaylı tərəfdaşlarının olduğunu dedi.*

*Prezident İlham Əliyev informasiya-kommunikasiya texnologiyaları sahəsində artıq yaxşı nəticələrin əldə edildiyini bildirdi, ölkəmizdə keçirilən Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransının artıq yaxşı bir ənənəyə çevrildiyini və regionda bu tipli yeganə sərgi və konfrans olduğunu məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransında 100-dən artıq şirkətin təmsil olunduğunu və ölkəmizin bu sahədə çoxsaylı aparıcı şirkətlərlə tərəfdaşlıq əlaqələri qurduğunu dedi.*

*Prezident İlham Əliyev İKT sahəsinə verdiyi dəstəyə görə Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Jaoya təşəkkürünü bildirdi.*

## İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri, İran–Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri, İran–Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Mahmud Vaezinin Bakıda keçirilən XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları («Bakutel–2016») sərgi və konfransında iştirakının önəmini qeyd etdi və səfərin ikitərəfli münasibətlərimizin müzakirəsi üçün də yaxşı fürsət yaratdığını vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə İran arasında əlaqələrin bütün sahələrdə çox uğurla inkişaf etməsindən məmnunluğunu ifadə edərək, bu işdə hökumətlərarası Komissiyanın həmsədri kimi, Mahmud Vaezinin rolunu xüsusi vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin həyata keçirdiyi birgə layihələrin qlobal xarakter daşıdığını dedi. Son vaxtlar ikitərəfli əlaqələrimizlə bağlı bir çox məsələlərin həllini tapdığını və uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayan prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, gündəlikdə hələ çox məsələlər var və onlar da öz həllini ardıcıllıqla tapacaq, ölkələrimiz istədikləri məqsədlərə nail olacaqlar.*

*Mahmud Vaezi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin səmimi salamlarını dövlətimizin başçısına çatdırdı.*

**M a h m u d  V a e z i:** Cənab prezident Həsən Ruhani İranda baş vermiş dəmir yolu qəzası nəticəsində insanların həlak olması ilə bağlı ölkəmizə və İran Prezidentinə verdiyiniz başsağlığına görə Sizə minnətdarlığını çatdırmağı məndən xahiş etdi.

*İki ölkə prezidenti arasında çox yaxşı qarşılıqlı etimadın yaranmasından məmnun olduqlarını deyən Mahmud Vaezi bildirdi ki, əgər bu gün biz ölkələrimizin mənafeyinə uyğun lazım olan addımlar ata biliriksə, bu hər iki Prezidentin dəstəyi sayəsində mümkün olub. Mahmud Vaezi İran–Azərbaycan Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının gördüyü işlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## CƏNUBİ AFRİKA RESPUBLİKASININ BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ MAİTE NKOANA-MAŞABANENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq naziri xanım Maite Nkoana-Maşabanenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq naziri xanım Maite Nkoana-Maşabane, Cənubi Afrika Respublikasının Prezidenti Ceykob Zumanın salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Xanım Maite Nkoana-Maşabane ölkəsinin Azərbaycan ilə əlaqələri genişləndirməkdə maraqlı olduğunu deyərək, bunun üçün böyük potensialın mövcudluğunu qeyd etdi. O, Azərbaycanda ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı müzakirələr aparacağını dedi. Xanım Maite Nkoana-Maşabane bildirdi ki, Cənubi Afrika Respublikasında insanlar Azərbaycan haqqında çox müsbət fikirdədir. Qonaq, həmçinin bir sıra həmvətənlərinin ölkəmizdə yüksək texnologiya sahələrində təhsil almalarını məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikasının Cənubi Afrika Respublikası ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olduğunu bildirdi. Dövlətimizin başçısı Cənubi Afrika Respublikasının Beynəlxalq Əlaqələr və Əməkdaşlıq nazirinin Azərbaycana səfərinin iki ölkə arasında əməkdaşlığın prioritet sahələrinin müəyyənləşdirilməsi baxımından önəmini vurğuladı. Prezident İlham Əliyev prezident Ceykob Zumanın salamlarına*

*görə minnətdarlığını bildirdi, onun da salamlarını Cənubi Afrika Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL TEMERƏ**

Hörmətli cənab Prezident!

Kolumbiyada sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Braziliya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 noyabr 2016-cı il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Adana vilayətinin Aladağ rayonunda şagird yataqxanasında baş vermiş yanğın nəticəsində insan tələfatı və yaralananlar barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 noyabr 2016-cı il*

## «BAKUTEL–2016» SƏRGİSİ İLƏ TANIŞLIQ

*«Baku Ekspo Mərkəzi»*

*30 noyabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 30-da XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi «Bakutel–2016» ilə tanış olmuşlar.*

*Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına və xanımına sərgi barədə məlumat verdi.*

*Bildirildi ki, sərgidə dünyanın 18 ölkəsindən 200 şirkət iştirak edir. Builki sərgidə 9 ölkə – Avstriya, Belarus, İran, İtaliya, Fransa, Niderland, Sloveniya, Türkiyə və Xorvatiya milli stendlərdə öz ölkələrinin aparıcı şirkətləri ilə yanaşı, həm Azərbaycan, həm də bütün Xəzəryanı region üçün innovativ layihələr, eləcə də İKT sahəsində məhsul və xidmətlərini təqdim edir. Sərgidə bu il debütantların sayı iştirakçıların ümumi sayının 30 faizini təşkil edir.*

*Dövlətimizin başçısına Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki qurumların və müəssisələrin stendlərinin cəmləşdiyi ümumi pavilyon barədə məlumat verildi. Qeyd edildi ki, 2012-ci ildən fəaliyyətə başlayan «Elektron hökumət» portalı artıq özündə 89 qurumun elektron xidmətlərini birləşdirir. Hazırda portal vasitəsilə 418 növ elektron xidmət göstərilir. İndiyə qədər «Elektron hökumət» portalı vasitəsilə müraciət edənlərin sayı 34 milyonu ötüb. Ümumi xidmətlərə müraciət sayının 46 faizi bu ilin 11 ayında qeydə alınıb. Gündəlik müraciətlərin sayı isə 50 mindən çoxdur. Artıq mobil telefon vasitəsilə də portalda olan xidmətlərdən istifadə etmək mümkündür. Portalın elektron ödəmə sistemi də yaradılıb. Bu günədək 100 mindən artıq «Elektron imza» istifadəyə verilib və yaxın müddətdə hər bir vətəndaşa təqdim ediləcək yeni nəsil*

*şəxsiyyət vəsiqəsi «Elektron imza» sertifikatı ilə təmin olunacaq.*

*Sonra prezident İlham Əliyevə ölkəmizə məxsus ilk regional Data Mərkəzi barədə məlumat verildi.*

*Bildirildi ki, «Tier-3» beynəlxalq sertifikatlı müasir dünya standartlarına cavab verən yeni yaradılmış «bulud» texnologiyası əsasında regionda ilk olan Data Mərkəzi artıq istismara tam hazırdır. Mərkəzin istifadəyə verilməsini şərtləndirən sertifikatlaşdırma prosesi uğurla tamamlanıb. Data Mərkəzi Azərbaycanda İKT sahəsinin inkişafını, həm də ölkənin informasiya sistemlərinin qlobal informasiya məkanına inteqrasiyasını sürətləndirəcək, innovasiyaya şərait yaradacaq və dövrümüzün ən müasir texnologiyası hesab olunan «bulud» texnologiyalarının dövlət və özəl sektora inteqrasiyasına təkan verəcək.*

*Burada rabitə və telekommunikasiya sahəsində həyata keçirilən işlər barədə də geniş məlumat verilir.*

*Qeyd olundu ki, respublika üzrə magistral və lokal şəbəkənin müasir standartlarla yenidən qurulması üçün «Milli genişzolaqlı şəbəkə» layihəsinin icrasına başlanılıb. Layihə çərçivəsində 8150 kilometr magistral və 70 min kilometrə qədər abunə xətlərinin çəkilməsi və nəticədə 1600-dək yaşayış məntəqəsinin yeni nəsil İP şəbəkəsinə qoşulması planlaşdırılır ki, bu da hər kəsin genişzolaqlı internet xidmətlərindən istifadə edə bilməsinə və xidmət keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaq.*

*Yeni yaradılan «Şəbəkə» xidmət mərkəzlərinin stendində məlumat verildi ki, rabitə xidmətlərinin bir mərkəzdən göstərilməsi məqsədilə ilk olaraq, Bakı şəhərində çoxfunksiyalı xidmət mərkəzlərinin qurulması üzrə işlərə başlanılıb. Bu şəbəkə vasitəsilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən həyata keçirilən bütün xidmətlərin vahid mərkəzdən göstərilməsi planlaşdırılır ki, bununla da əhalinin telekommunikasiya, internet, poçt və digər rabitə xidmətlərindən istifadəsinə geniş imkanlar yaradılacaq, həmin xidmətlərdən istifadə zamanı vaxt itkisinin qarşısı alınacaqdır.*

*Sonra dövlətimizin başçısına innovativ ideyalara, intellektual sahibkarlıq subyektlərinə və startapçılara göstərilən dəstək və yaradılan şərait barədə məlumat verildi. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun keçirdiyi qrant müsabiqələrinə ümumilikdə 600-ə yaxın innovativ və tətbiqi elmi-texniki layihə təqdim olunub ki, onlardan da 100-nə qrant ayrılıb. Qrant alan startapçıların bir çoxu sərgidə öz məhsul və xidmətlərini təqdim edir.*

*«Azərkosmos» ASC-nin stendi ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, ölkəmizin ilk telekommunikasiya peyki olan «Azərspace-1» üzərindən 44 televiziya və 14 radio kanalı yayımlanır. 2013-cü ilin iyunundan etibarən kommersiya fəaliyyətinə başlayan «Azərspace-1» vasitəsilə dünyanın 18 ölkəsindəki müştəri bazası ilə peykin tutumlarının 75 faizinin ödənişli əsaslarla satışına nail olunub. Yer səthinin məsafədən müşahidə peyki olan «Azərsky»ın yerüstü avadanlığı Əsas Yerüstü Peyk İdarəetmə Mərkəzində quraşdırılıb. Yeni yerüstü stansiya peykdən təsvirlərin daha sürətli və etibarlı şəkildə birbaşa alınmasını mümkün edib. Bu ilin sentyabrından «Azərspace-1» peyki ilə yanaşı, «Azərsky» peyki də tamamilə yerli mütəxəssislər tərəfindən idarə olunur. Artıq ölkəmizdəki bir sıra dövlət orqanları və özəl qurumlar ilə peyk təsvirlərinin satışına dair müqavilələr imzalanıb, yerli bazarla yanaşı, xaricdə satışların artırılması məqsədilə intensiv danışıqlar aparılır. Bildirildi ki, ikinci telekommunikasiya peyki «Azərspace-2»nin SSL şirkəti tərəfindən istehsalı və «Ariannespace» şirkəti tərəfindən orbitə çıxarılması üzrə müqavilələr imzalanıb.*

*Prezident İlham Əliyev «Azərpoçt»un stendinə baxdı. Bu qurumun 2 ofisi «Şəbəkə» üçün rekonstruksiya edilib və bu mərkəzlərdə istifadə olunan bütün proqram təminatı yerli mütəxəssislər tərəfindən hazırlanıb. Telekommunikasiya və poçt xidmətlərindən başqa, aviabiletlərin satışının təşkilinin də nəzərdə tutulduğu bu mərkəzlərdə vətəndaşlara yüksək xidmət göstərilir.*

*Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Yüksək Texnologiyalar üzrə Tədqiqat və İnkişaf Mərkəzi ilə tanışlıq zamanı dövlətimizin başçısına daxili və xarici işıqlandırma üçün texnologiya əsasında LED lampalarının yandırılması, pilot layihələrin həyata keçirilməsi, işıq parametrlərinin, həmçinin marketinq parametrlərinin təyin edilməsi, ayda 1500–2000 LED lampası hazırlamağa imkan verən istehsal sahəsinin yaradılması, Azərbaycanda və xüsusən Bakı şəhərində işıqlandırma sistemlərində istifadə olunan mövcud lampaların işıq korpuslarını dəyişmədən daha qənaətcil və ekoloji təmiz LED işıqlandırma sistemləri ilə əvəzlənməsi istiqamətində görüləcək işlər barədə məlumat verildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yerli startapçılar tərəfindən hazırlanan məhsullara da baxdılar. «Made in Azerbaijan» brendi altında İnformasiya Texnologiyaları İnkişafı Dövlət Fondundan qrant almış, Yüksək Texnologiyalar Parkının İnkubasiya Mərkəzində fəaliyyət göstərən startapçıların yaratdıqları oyunlar ölkəmizdə və xaricdə uğur qazanan yüksəkkeyfiyyətli qrafik oyunlardır. Bu məhsullar arasında Bakı Treki və müxtəlifsəviyyəli innovativ oyunlar maraqla qarşılanır.*

*Dövlətimizin başçısı sərgidə İranın stendi ilə də tanış oldu. İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezi prezident İlham Əliyevə sərgidə iştirak edən şirkətlər və onların məhsulları barədə məlumat verdi. Bildirildi ki, burada İranın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin dəstəyi ilə 8 şirkət iştirak edir. Bu şirkətlər mobil və stasionar telefonlar, internet xidmətləri, həmçinin İKT avadanlıqları üçün müxtəlif qurğular təqdim edir. Stenddə, həmçinin İKT ilə bağlı digər məhsullar da nümayiş olunur.*

*Sərginin iştirakçıları arasında Fransa da var. Fransanın stendində 3 şirkətlə yanaşı, Bakı Fransız liseyi, Azərbaycanda Fransız İnstitutu, Azərbaycan–Fransız Universiteti təmsil olunur. Fransanın şirkətləri əsasən bir çox sahələrdə, o cümlədən*

*biznes sahəsində kompleks təhlükəsizlik həlləri təklif edir. Bundan başqa, burada wi-fi modem və rominq aparatları, bu qurğularda tətbiq edilən zənglərin şifrələnməsi sistemi nümayiş olunur. Fransız şirkətləri arasında dünya miqyasında enerjinin idarəolunması üzrə ixtisaslaşan şirkətlər də var.*

*Türkiyə «Bakutel–2016»da geniş təmsil olunur. Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Kommunikasiya Nazirliyinin dəstəyi ilə burada ümumilikdə 4 şirkət öz məhsullarını təqdim edir. Onların arasında mobil rabitə sahəsində ixtisaslaşmış Türkcell və Vodafone, sabit şəbəkə və fiberoptik sahədə ixtisaslaşmış Türk Telekom və peyk xidmətləri sahəsində ixtisaslaşmış «Türksat» var. Qardaş ölkənin şirkətlərinin təqdim etdiyi məhsullar və xidmətlər beynəlxalq tələblər səviyyəsində olmaqla, həmçinin İKT təhlükəsizliyinə də cavab verir. Sərgidə iştirak etməklə, Türkiyənin şirkətləri əldə olunan nailiyyətləri geniş auditoriyaya çatdırmaq imkanı qazanır.*

*Belarusun Rabitə və İnformasiyalaşdırma Nazirliyinin dəstəyi ilə bu ölkədən 7 şirkət sərgiyə qatılıb. Belarusun Rabitə və İnformasiyalaşdırma naziri Sergey Popkov bildirdi ki, bu şirkətlər ölkəsinin telekommunikasiya bazarında lider olmaqla, telekommunikasiya avadanlıqlarının istehsalı, rabitə şəbəkələrinin layihələndirilməsi, poçt, elektron rabitə və informasiya texnologiyalarını təqdim etməklə məşğuldur. Belarus bu sərgiyə böyük maraq göstərir.*

*Niderland sərgidə 5 şirkətlə təmsil olunur. Burada kənd təsərrüfatının idarəedilməsi sistemləri, «ASAN xidmət» və digər Azərbaycan şirkətləri ilə həyata keçirilən elektron sağlamlıq layihəsi, texnopark, nəqliyyat, daşımalar, logistika xidmətləri nümayiş olunur. Bundan başqa, Krallığın stendində Azərbaycan–Niderland «Biznes şəbəkəsi» də təqdim edilir.*

*Dövlətimizin başçısı sərgidə İtaliyanın stendinə də baxdı. Burada «İT Azərcom» Azərbaycan–İtaliya Ticarət Palatasının dəstəyi ilə 3 şirkət iştirak edir. Onlar İKT sahəsində innovativ məhsullarını və xidmətlərini təklif edirlər. Onların arasında İT, memarlıq, dizayn, işıqlandırma, lazer kartric xidmətləri var.*

*İtaliyanın sərgidə iştirak edən şirkətləri öz sahələrində tam ixtisaslaşmış nüfuzlu qurumlardır.*

*Sloveniya isə sərgidə 2 şirkətlə təmsil olunur. Burada İKT vasitələri, ölçmə avadanlıqları, o cümlədən «İskratel» şirkətinin təqdim etdiyi proqram təminatı, optik genişzolaqlı kabel, şəhərlərarası və şəhərdaxili kommutasiya xidmətləri nümayiş olunur.*

*«Bakutel–2016»da Avstriyanın 4 şirkəti iştirak edir. Bu ölkənin stendində şirkətlərin müxtəlif məhsulları və xidmətləri, o cümlədən avtodayanacaq avadanlıqları, avtonəqliyyat vasitələrinin qeydiyyat nömrələrini oxuyan sistemlər, habelə rabitə texnologiyaları nümayiş etdirilir.*

*Sərgiyə maraq göstərən ölkələrdən biri də Xorvatiyadır. Bu ölkə sərgiyə 5 şirkətlə qatılıb. Şirkətlər burada öz innovativ məhsullarını təqdim edir. Onların arasında İKT təhlükəsizliyi ilə bağlı həllər, həmçinin korporativ xidmətlərin yaradılması və dəstəklənməsi var.*

*Dövlətimizin başçısı Çinin «Huawei» şirkətinin stendinə də baxdı. Çinin Sənaye və İnformasiya Texnologiyaları nazirinin müavini Zin Şubo dövlətimizin başçısına şirkətin fəaliyyəti və məhsulları barədə məlumat verdi. «Huawei» hər il olduğu kimi, budəfəki sərgidə də geniş təmsil olunur. Yüksək texnoloji məhsullar istehsal edən «Huawei» dünyanın ən böyük 100 şirkətindən biridir. Şirkətin bir çox ölkələrdə, o cümlədən Azərbaycanda nümayəndəliyi fəaliyyət göstərir. «Huawei» artıq 15 ildir ki, Azərbaycanda öz xidmətlərini təklif edir. Onlar əsasən internet operatoru və korporativ xidmətlərdir. Şirkət ölkəmizin aparıcı mobil operatorları ilə əməkdaşlıq edir. «Huawei»in məhsulları arasında planşet, mobil telefon, şəbəkə, informasiya-kommunikasiya texnologiyaları avadanlığı və stasionar kameralar da sərgilənir. Ölkəmizdə «Huawei–Azərbaycan» adı ilə fəaliyyət göstərən şirkət sərgidə «Mənim gözəl Azərbaycanım» layihəsini də təqdim edir.*

*Sərgidə «Microsoft»un Azərbaycan üzrə Milli Planı da təqdim olunur. Şirkətin burada iştirakının əsas məqsədi korpora-*

*siyanın «Azərbaycan–2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasına əsasən hazırladığı Azərbaycan üzrə Milli Planını geniş kütləyə nümayiş etdirməkdən ibarətdir. «Microsoft»un Milli Planının əsas komponentlərinə ölkədə innovasiya sahəsinin inkişafı, müəssisələrin iqtisadi səmərəliliyinin artırılması və təhsil sisteminin transformasiyası daxildir.*

*Sərgidə ilk dəfə iştirak edənlər arasında Rusiyanın Baltik Enerji Şirkəti də var. Şirkətin stendində baza stansiyalarının elektrik təminatı üçün qurğular, akkumulyatorlar, dizel-generator avadanlıqları nümayiş olunur. Şirkətin məhsulları arasında, həmçinin neft-qaz və metallurgiya sənayelərində istifadə olunan qurğular, alternativ və bərpaolunan enerji əldə edilməsi üçün panellər də var.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Baku Ekspo Mərkəzi»nin foyesində ölkədə rabitə və poçt sahəsinin ayrı-ayrı dövrlərini əks etdirən fotoqalereyaya baxdılar. Builki sərgi Azərbaycanda telefon rabitəsinin yaradılmasının 135 illik yubileyi ilə eyni vaxta təsadüf edir. Sərgidə Azərbaycanın rabitə və poçt işçilərinin fəaliyyətini əks etdirən fotolar maraqla qarşılanır.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ İQOR ÇRNADAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Bosniya və Herseqovinanın Xarici İşlər naziri İqor Çrnadakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İkitərəfli münasibətlərimizin inkişafının və tərəfdaşlığımızın səviyyəsinin razılıq doğurduğunu vurğulayan prezident İlham Əliyev ölkələrimiz arasında güclü siyasi əlaqələrin region üçün də əhəmiyyətli amil olduğunu dedi. Dövlətimizin başçısı Bosniya və Herseqovinanın rəhbərləri ilə son illər çoxlu sayda səmimi, konstruktiv və dostluq ruhunda görüşlər keçirdiyini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Xarici İşlər naziri İqor Çrnadakın Azərbaycanda keçirəcəyi görüşlərdə siyasi əlaqələrin və beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası çərçivəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu bildirdi. Beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini həmişə dəstəklədiklərini qeyd edən prezident İlham Əliyev bu istiqamətdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı bütün təşəbbüslərdə daim qarşılıqlı dəstəyin zəruriliyini də vurğuladı. Azərbaycanla Bosniya və Herseqovina arasında iqtisadi tərəfdaşlıq və sərmayə qoyuluşu ilə bağlı məsələlərə toxunan dövlətimizin başçısı İlham Əliyev Bakir İzetbeqoviç Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri olarkən, onunla Azərbaycan sərmayəsinin Bosniya və Herseqovinaya yatırılmasına dair səmərəli müzakirələrin aparıldığını qeyd etdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında müvafiq sahələrdə idxal-ixrac imkanlarının müəyyənləşdirilməsi və qarşılıqlı*

*ticarətin həcminin artırılmasının vacibliyini diqqətə çatdırdı. Təkcə ölkəmiz və region üçün deyil, qlobal xarakter daşıyan enerji layihələrinə toxunan dövlətimizin başçısı Bosniya və Herseqovinanın Azərbaycanın həyata keçirdiyi bu layihələrdə fəal iştirak edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Bosniya və Herseqovinanın Xarici İşlər naziri İqor Çrnadak öz növbəsində, ölkələrimiz arasında çox yaxşı əlaqələrin olduğunu vurğulayaraq, münasibətlərimizin möhkəmləndirilməsində səmimi dostluq şəraitində keçən yüksək səviyyəli səfərlərin önəmini qeyd etdi. O bildirdi ki, qarşılıqlı səfərlərin əsas məqsədi əməkdaşlığın bütün əhəmiyyətli sahələrini əhatə etmək və ikitərəfli əlaqələri dərinləşdirməkdir.*

## ABŞ-ın TİCARƏT NAZİRLİYİNİN MÜŞAVİRİ MAYKL LALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də ABŞ-ın Ticarət nazirinin Avropa, Orta Şərq və Afrika üzrə müşavirinin müavini Maykl Lallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə iştirak edən ABŞ-ın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Robert Sekuta ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunaraq, enerji sahəsində uğurlu əməkdaşlıq həyata keçirildiyini vurğuladı. Səfir bu gün Bakıda keçirilən ilk Azərbaycan–ABŞ biznes-forumun əhəmiyyətini qeyd edərək, bu tədbirin ölkələrimiz arasında biznes əlaqələrinin qurulması üçün yaxşı imkanlar yaratdığını dedi. O bu forumda əsas məqsədlərdən birinin Azərbaycanın üzləşdiyi çağırışların həlli yollarının müzakirəsindən ibarət olduğunu bildirdi. Səfir dünyada neftin qiymətinin kəskin dəyişməsinin iqtisadi vəziyyətə təsir etdiyini vurğuladı. Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 25 il keçdiyini vurğulayan səfir bu illərdə Azərbaycanın ABŞ üçün güclü tərəfdaş ölkə olduğunu bildirdi və ölkəsinin Azərbaycanda baş verən bütün müsbət dəyişiklikləri yüksək qiymətləndirdiyini dedi.*

*Ölkələrimiz arasında iqtisadi əlaqələrə toxunan prezident İlham Əliyev energetika sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini, mühüm enerji layihələrinin sürətlə həyata keçirildiyini qeyd edərək, hazırkı şəraitdə əsas diqqətin qeyri-neft sahəsində də əməkdaşlığa yönəldilməsinin önəmini vurğuladı və ABŞ ilə ölkəmizin qeyri-neft sektorunda daha fəal əməkdaşlığının həyata keçirilməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı ABŞ-ın Azərbaycanın qeyri-neft sektoruna daha çox investisiya*

*qoymasında ölkəmizin maraqlı olduğunu dedi və daha çox praktiki nəticələrin əldə edilməsinin vacibliyini bildirdi. Bu baxımdan prezident İlham Əliyev ABŞ-ın orta və kiçik sahibkarlıqla məşğul olan şirkətlərinin Azərbaycanı daha çox tanımaları ilə bağlı təqdimatların keçirilməsinin önəmini qeyd etdi.*

*ABŞ Ticarət nazirinin Avropa, Orta Şərq və Afrika üzrə müşavirinin müavini Maykl Lalli ABŞ-ın Azərbaycandakı səfirliyində çalışdığı illəri məmnunluqla xatırlatdı. Maykl Lalli ABŞ-ın Ticarət naziri Penni Pritzkerin salamlarını dövlətimizin başçısına çatdıraraq, onun Azərbaycan–ABŞ biznes əlaqələrinə prezident İlham Əliyevin verdiyi dəstəyi yüksək qiymətləndirdiyini dedi. O həmçinin Penni Pritzkerlə prezident İlham Əliyev arasında görüşün çox konstruktiv şəkildə keçdiyini vurğuladı.*

## «QAFQAZDA DİNİ TOLERANTLIQ ƏNƏNƏLƏRİ VƏ AZƏRBAYCANIN MULTİKULTURALİZM MODELİ» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Qafqaz Xalqları Ali Dini Şurasının Beynəlxalq konfransının iştirakçılarını ürəkdən salamlayır, ən səmimi arzu və diləklərimi yetirirəm.

Bölgəmizdə tarixən müxtəlif xalqlar arasında möhkəm tolerant ənənələr, qarşılıqlı hörmət və etimada əsaslanan mehriban qonşuluq, dostluq və əməkdaşlıq mövcud olmuşdur. Belə münasibətlərin təşəkkülündə və inkişafında ümumbəşəri dəyərlərin daşıyıcısı kimi, islam dini müstəsna rol oynamışdır.

Hazırda qloballaşan dünyada mürəkkəb ictimai-siyasi proseslər yaşanır, etnik-dini zəmində münaqişələr, irqi ayrı-seçkilik, dini ekstremizm və islamofobiya kimi arzuolunmaz təzahürlər müşahidə edilir. Beynəlxalq təhlükəsizliyi və insanların əmin-amanlığını təhdid edən bu cür hallara qarşı səmavi dinlərin sülh, mərhəmət, şəfqət və həmrəylik çağırışlarına, sivilizasiyalararası dialoqa və əməkdaşlığa ciddi ehtiyac vardır. Bu baxımdan dünyada örnək model kimi qəbul edilən Azərbaycan multikulturalizmi və tolerantlıq ənənələri ilə bağlı mövzuların konfransda müzakirəsi böyük elmi, ictimai və siyasi məna daşıyır.

Biz Azərbaycanda tarixi-mənəvi irsin, etnik-mədəni müxtəlifliyin, multikulturalizmin qorunub saxlanılmasına və daha da inkişaf etdirilməsinə dövlət siyasəti səviyyəsində xüsusi önəm verir, dövlət–din münasibətlərinin tənzimlənməsində milli-tarixi ənənəyə və beynəlxalq hüquqi normalara əsaslanırıq. Sizlər də təmsil etdiyiniz respublikalarda eyni fəaliyyəti fədakarlıqla həyata keçirirsiniz. Ümumi və doğma evimiz olan Qafqazda

davamlı sülhün, əmin-amanlığın bərqərar olmasında, bəşəri dəyərlərin, islam dininin əsl mahiyyətinin təbliği və təşviqində, yad dini cərəyanların və zərərli təsirlərin vaxtında qarşısının alınmasında sizin kimi din xadimlərinin rolu böyükdür.

Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin ülvi məqsədlər naminə mənəvi tellərlə bir qurumda birləşməsinin günümüz üçün xüsusi əhəmiyyəti vardır. Bu işdə əməyi olan hər bir şəxsin, qurumun rəhbəri Qafqaz Müsəlmanları İdarəsi sədrinin fəaliyyətini təqdirəlayiq hesab etmək olar. Əmin olduğumu bildirirəm ki, zəruri və aktual bir mövzuya həsr olunmuş beynəlxalq toplantınız anlaşma və həmrəylik ruhunda keçəcək, xalqlarımız, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Bu nəcib işinizdə sizə uğurlar, cansağlığı və səadət arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 dekabr 2016-cı il*

**FİNLANDİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Finlandiya xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 dekabr 2016-cı il*

## QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*2 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də «Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın multikulturalizm modeli» mövzusunda Beynəlxalq konfransda iştirak edən Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Sizi Azərbaycanda yenidən görməkdən çox şadam, xoş gəlmisiniz! Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Mən elə bu gün əvvəlki görüşlərimizi xatırlayırdım. Biz hər il görüşürük və bu görüşlər həm bizim münasibətlərimiz üçün, həm də Rusiya–Azərbaycan münasibətləri, Qafqazda sabitlik, təhlükəsizlik üçün böyük əhəmiyyət daşıyır. Mənə bizim tarixi məscidlərimizin bərpadan sonra açılışında sizin iştirak etməyiniz çox xoşdur. Bu da həmrəyliyin, bizim dostluğumuzun göstəricisidir. Təbii ki, Şimali Qafqaz respublikalarını və Azərbaycanı böyük dostluq tarixi, qarşılıqlı hörmət, qarşılıqlı dəstək birləşdirir. Mən şadam ki, bu gün bu əlaqələr Qafqaz respublikaları arasında bütün səviyyələrdə, o cümlədən də dini liderlər arasında davam edir. Bu, Qafqaz müsəlmanlarının birliyini möhkəmləndirir və həmçinin dünya müsəlmanlarına bizim birlikdə olmağımızın vacibliyi üçün bir nümunədir. Biz müsəlman ölkələrində müsəlmanların bir-birini qırmasına, qardaş qanı axıdılmasına laqeyd baxa bilmərik. Düşünürəm ki, bizim praktiki işlərimizin və rəsmi bəyanatlarımızın nümunəsi hamı üçün yaxşı dərs olmalıdır. Biz öz fəaliyyətimizlə nəinki Qafqaz regionunda münasibətlərimiz çərçivəsində birliyi möhkəmləndiririk, həm də Azərbaycan dünyada bütün müsəlmanların həmrəyliyi üçün böyük işlər görür. Biz fəxr edirik ki, Bakıdan sonra artıq Azərbaycanın

ikinci şəhəri Naxçıvan 2018-ci il ərzində İSESKO tərəfindən ona təqdim edilən islam dünyasının «mədəniyyət paytaxtı» adını şərəflə daşıyacaq. Bu, əlbəttə ki, bizə, bizim fəaliyyətimizə olan hörmətin əlamətidir. Biz də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal işləyirik. Bu il İslam Əməkdaşlıq Təşkilatının Sammiti keçirildi. Tədbirdə Azərbaycanın islam həmrəyliyindəki roluna dəstək bir daha vurğulandı. Həmçinin dünyanın bütün müsəlmanları bu ilin aprelində erməni təcavüzünü pisləyiblər və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə kontakt qrupu yaradıblar.

Bu il sona yaxınlaşır. İlin əvvəlində biz 2016-cı ili «Multikulturalizm ili» elan etmişdik. Bugünkü konfransın mövzusu da Qafqazda multikulturalizmə, həmçinin Azərbaycanda bu sahədə əldə etdiyimiz nailiyyətlərə həsr olunub. Bu il bir çox mühüm tədbirlərin keçirilməsi ilə əlamətdar oldu. Onlardan ən əhəmiyyətlisi, əlbəttə ki, Bakıda keçirilən və bütün dünyanın görkəmli nümayəndələrini toplayan BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu oldu. Biz bir daha nümayiş etdirdik ki, multikulturalizm millətindən, dinindən asılı olmayaraq yaşayır və yaşamalıdır və bütün insanlar dinc yaşamaq hüququna malikdirlər.

Bu il ölkəmizdə daha bir mühüm hadisə baş verdi. Bu, dünya katoliklərinin rəhbəri Roma Papasının Azərbaycana rəsmi səfəri idi. O, Katolik kilsəsində ibadət etdi, sonra Heydər məscidini ziyarət etdi, mötəbər şeyxlə, eləcə də digər dini konfessiyaların rəhbərləri ilə görüşü oldu. Roma Papası buradan, Bakıdan bütün dünyaya yaxşı mesaj göndərdi. Yəni bizim multikulturalizm sahəsində əldə etdiyimiz nailiyyətlər bütün dini aləmdə layiqincə dəyərləndirilib.

Əlbəttə ki, şəxsən mənə ötən il möhtərəm şeyximizlə müqəddəs yerləri – Məkkəni, Mədinəni yenidən ziyarət etmək, bir daha müqəddəs Kəbədə ibadət etmək və Mədinədə peyğəmbərin məzarını ziyarət etmək xoşbəxtliyi qismət oldu. Bu hər bir müsəlman üçün xoşbəxtlikdir. Təbii ki, bu cür hadisələr bizim

doğru yolda olduğumuzu nümayiş etdirir. Mən sizin – Qafqazın nüfuzlu liderlərinin fəaliyyətini çox yüksək qiymətləndirirəm. Bu gün ağsaqqal sözü həmişəkindən daha əhəmiyyətlidir. Sizin fəaliyyətiniz də təhlükəsizliyə, Rusiyanın Qafqaz respublikalarının inkişafına doğru aparır. Həm də Rusiya–Azərbaycan birgə münasibətlərini möhkəmləndirir. Çünki artıq dəfələrlə qeyd etdiyim kimi, Rusiya və Azərbaycan Qafqaz ölkələridir, biz qonşuyuq, yaxşı qonşuyuq və dostluğumuzu da davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz, tez-tez gəlin.

**İsmayıl Berdiyev** *(Şimali Qafqaz Müftiləri Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi):* Mən ilk növbədə, istərdim ki, Sizə Rusiya ilə Türkiyə arasında münasibətlərin yaxşılaşdırılması üçün etdiklərinizə görə minnətdarlığımı bildirim. Bu münaqişə baş verəndə, inanın, mənim ürəyim ağrıyırdı. Müsəlman ölkəsi olan Türkiyə ruhən bizə doğmadır. Buna görə də çox ağır idi. Sizin bu məsələdə fəaliyyətiniz həlledici oldu. Atanızın müdrikliyi Sizə də keçib, inanın. Siz bu işi gördünüz, buna görə Sizə «Çox sağ ol» – deyirik. Ən başlıcası isə xidmətlərinizin qiymətini böyük Allahdan alacaqsınız. İnşallah, Sizin həyatdakı savabınız bu olacaq.

Atanızın vəfatının ildönümü yaxınlaşır. Biz həqiqətən, onunla fəxr edirdik. Sovet dövründə də onunla iftixar hissi keçirirdik. O vaxt Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunda müsəlmanın olması nadir hadisə idi. İnanın, biz bununla fəxr edirdik. Dünən biz Fəxri xiyabanda idik, dua edirdik. Biz bunu təkcə burada olanda deyil, həmişə, öz evimizdə olanda da edirik.

Möhtərəm şeyxülislam həmişə bizimlədir. O Sizin sayənizdə daim bizə baş çəkir. Bax, bu multikulturalizm bizdə də mövcuddur. Şeyxülislam vaxtilə də, demək olar, bütün respublikalarda müsəlmanların qurultayını keçirir, özü də iştirak edirdi, hamı da bu barədə danışırdı. Bu həqiqətən, çox dəyərli işlər idi. Elə alındı ki, Sovet İttifaqı dağıldı, dövlətlər arasında sərhədlər yarandı. Bizdə isə bu yoxdur. Bizim ağsaqqalımız

məhz odur. O isə bütün bunları Sizin sayənizdə edir. Kömək etdiyinizə görə çox sağ olun. Həqiqətən də çox mühüm məsələdir.

İnsan yaxşı iş görəndə qəlbində sözlə ifadə oluna bilməyən sevinc duyur. Bu, əsl cənnət sevincidir. Bu sevinci duyanlara görə Sizə təşəkkür edirəm. Atanızın fəaliyyəti, ümumiyyətlə, ölkəni xilas etdi. Biz Elçibəyin vaxtında da burada olmuşuq, baxmışıq. Müqayisə etməli çox şeylər var. İndi tamam başqa vaxtdır. Azərbaycan tamam başqa ölkədir. Siz ötən ilin yayında Avropa oyunlarını keçirdiniz. Bəli, şeyxülislam deyir ki, indi isə islam ölkələrinin oyunları keçiriləcək. Ümid edirəm ki, biz də iştirak edəcəyik.

**İlham Əliyev:** Əlbəttə, mütləq. Avropa oyunlarında olduğu kimi, siz mənim qonaqlarımsınız.

**İsmayıl Berdiyev:** Sağ olun, çox sağ olun! Dünən Qafqaz Xalqları Ali Dini Şurasının iclasını keçirdik. Şeyxülislam bizim ağsaqqalımız idi. Onun müdrikliyi həqiqətən də kömək edir. Bax, bu müdriklik ona Sizin atanızdan keçib. Çünki o, ulu öndərlə birlikdə çox olub.

**İlham Əliyev:** Çox sağ olun.

**İsmayıl Berdiyev:** Bizim iclasımızdan Sizə hədiyyə etmək istərdik. Mən eşitdim ki, tezliklə ad gününüz olacaq.

**İlham Əliyev:** Çox sağ olun.

**İsmayıl Berdiyev:** Əgər müsaidə edərsinizsə.

**İlham Əliyev:** Əlbəttə.

*Şimali Qafqaz Müftiləri Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyev prezident İlham Əliyevə hədiyyə təqdim etdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## ZƏRDAB RAYONUNA SƏFƏR

*2 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 2-də Zərdab rayonuna səfərə gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin Zərdab şəhərinin mərkəzi meydanında ucaldılmış abidəsi önünə gül dəstələri qoydular.*

*Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütfəli Babayev prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya son illərdə rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verdi.*

*Bildirildi ki, son illərdə Zərdabın sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb. Rayonda çoxlu sosial infrastruktur obyektləri tikilib, kənd təsərrüfatı sahəsində istehsal müəssisələri yaradılıb, yeni suvarma sistemləri qurulub.*

## MƏRKƏZİ RAYON XƏSTƏXANASINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI ZƏRDAB İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 2-də Zərdab Mərkəzi Rayon Xəstəxanasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşlar.*

*Zərdab Mərkəzi Rayon Xəstəxanasının binası 1988-ci ildə inşa edilib. Uzun müddət baxımsız vəziyyətdə qalan binada 2013-cü ildə əsaslı təmir işlərinə başlanılıb. Görülən işlər nəticəsində xəstəxananın binası müasir görkəm alıb, zəruri avadanlıqlarla təchiz olunub.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına və xanımına məlumat verdi ki, xəstəxana əsaslı təmir və yenidənqurmadan sonra 125 çarpayılıq tibb müəssisəsi kimi fəaliyyət göstərəcək. Hazırda xəstəxanada 530 işçi çalışır ki, onlardan 57-si həkim, qalanları isə orta tibb işçiləridir.*

*2 korpusdan və 9 yardımçı binadan ibarət olan xəstəxananın əsas korpusunda cərrahiyyə, ginekologiya, doğum, terapiya, dializ, şüa-diaqnostika, intensiv terapiya, poliklinika və başqa şöbələr, digər korpusda isə yoluxucu xəstəliklər bölməsi fəaliyyət göstərəcək.*

*Müasir tibbi avadanlıq və ləvazimatlarla təmin olunan Zərdab Mərkəzi Rayon Xəstəxanasında ətraf rayonlardan gələnlərə də tibbi xidmət göstəriləcək. Xəstəxananın laboratoriyası analizlərin dəqiq aparılması üçün zəruri avadanlıqlarla təchiz edilib.*

*Xəstəxananın müasir reanimasiya və kardioloji avadanlığı, həmçinin əməliyyatxana üçün səyyar rentgen aparatı vətəndaşlara yüksək səviyyədə tibbi xidmət göstərməyə imkan verir. Bütün bunlar bir daha göstərir ki, müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionlarda ilk dəfə açıq ürək əməliyyatı və qaraciyərin köçürülməsi kimi mühüm nailiyyətlərə imza atıb. Ötən illər ərzində regionlarda yüzlərlə tibb ocağının, Müalicə-Diaqnostika Mərkəzinin inşası və ya yenidən qurulması səhiyyə sisteminin köklü şəkildə inkişafından xəbər verir.*

*Zərdab Mərkəzi Rayon Xəstəxanasında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı və xanımı tibb ocağının kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.*

**İ l h a m Ə l i y e v:** Sizi ürəkdən salamlayıram. Zərdab rayonunda yenidən olmağıma çox məmnunam. Bu gün Zərdab rayonunun həyatında çox əlamətdar bir gündür. Uzun fasilədən sonra Mərkəzi Rayon Xəstəxanası artıq vətəndaşların sərəncamına verilir. Çox gözəl işlər görülüb, əsaslı təmir aparılıb. İndi bu xəstəxana ən yüksək standartlara cavab verir. Burada həm bütün abadlıq işləri görülüb, həm də xəstəxana gözəl, müasir avadanlıqlarla təmin edilib. Əminəm ki, burada göstəriləcək tibbi xidmət də yüksək səviyyədə olacaq.

Mərkəzi Rayon Xəstəxanasının istifadəyə verilməsi onu göstərir ki, biz sosial siyasətimizi bu gün də uğurla həyata keçiririk. Sosial siyasət bizim əsas istiqamətimizdir. İnsanların sağlamlığı, onların ömrünün uzunluğu, sağlam həyat tərzi – bütün bunlar bizim üçün prioritetdir. Azərbaycan vətəndaşları bu gün ən müasir tibbi xidmətə layiqdir və bunu görürlər. Son illərdə Azərbaycanda 600-dən çox müasir tibb ocağı tikilib və ya əsaslı təmir edilib. Ölkəmizdə pulsuz müayinədən keçmə siyasəti aparılır. Hər il milyonlarla insan yeni yaradılmış tibb ocaqlarında diaqnostikadan keçir, onlara lazımi xidmət

göstərilir və beləliklə, insanlarımız dövlət hesabına öz sağlamlıqlarını qoruyurlar.

Mən əvvəlki illərdə xəstəxanaların açılışlarında dəfələrlə bildirmişəm ki, hər bir insan hər il müayinədən keçməlidir. Artıq biz buna nail olmuşuq. Bu il ölkə üzrə 4 milyondan çox insan müasir xəstəxanalarda müayinədən keçib.

Zərdab rayonunda insanların sağlamlığı üçün digər tədbirlər də görülüb. 4 il bundan əvvəl mənim iştirakımla Zərdab şəhərinə içməli suyun verilməsini qeyd etmişik. Ondan əvvəlki dövrdə içməli su qrafik üzrə verilirdi – gündə 4-5 saat, keyfiyyət də o qədər yaxşı deyildi. Ancaq artıq 4 ildir ki, fasiləsiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Bu da çox böyük infrastruktur və sosial layihə idi. Bu layihənin məqsədi insanlara xidmət etmək, insanların sağlamlığını qorumaqdır. Burada iştirak edən həkimlər yaxşı bilirlər ki, su insan orqanizmi üçün çox əhəmiyyətlidir və təmiz içməli su insanların sağlamlığına bilavasitə müsbət təsir göstərir.

Zərdab rayonunda digər layihələr də icra edilib – kənd yolları layihələri, bir çox məktəblər tikilib, sosial obyektlər yaradılır, iş yerləri açılır. Biz indiki şəraitdə sahibkarlığın inkişafına xüsusi diqqət göstəririk. Kənd təsərrüfatının inkişafı uğurla gedir. Bu il bu istiqamətdə dövlət proqramlarının icrası ilə bağlı çox önəmli addımlar atılıb. Hazırda kənd təsərrüfatının müxtəlif sahələri – pambıqçılıq, baramaçılıq inkişaf edir. İl ərzində bu istiqamətlərdə çox böyük irəliləyiş var. İnsanlar yaxşı pul qazanırlar.

Bizim gələn il üçün çox böyük proqramlarımız var. Mənə verilən məlumata görə, uzun fasilədən sonra bu il Zərdabda 6 tona yaxın barama tədarük edilib, gələn il ən azı 3 dəfə artmalıdır. Uzun fasilədən sonra 1000 hektara yaxın pambıq əkilib və yığım hələ davam edir. Gələn il 3000 hektarda pambıq əkiləcək. Hazırda Zərdab rayonunda yeni əkin sahələrinin suvarılması üçün çox böyük layihə icra edilir. Bu, respublika üzrə hazırda ən mühüm layihələrdən biridir. Biz gələn il on minlərlə, bəlkə də 100 min, 150 min hektardan çox yeni əkin sahələrini su ilə təmin

edəcəyik. Onların arasında birinci layihə Zərdab rayonunda icra edilir. Bu da öz növbəsində, yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq, insanlar işlə təmin olunacaqlar, yaxşı pul qazanacaqlar və daha da yaxşı yaşayacaqlar.

Azərbaycanda iş yerlərinin yaradılması daimi prosesdir. Çünki bəzi başqa ölkələrdən fərqli olaraq, bizdə əhali artır. Bu da iqtisadi inkişafın təzahürüdür. Hər il Azərbaycanda əhalinin sayı 100 mindən çox artır. Buna görə də iş yerlərinin yaradılması daimi proses olmalıdır. Bax, bu xəstəxanada 500-dən çox iş yeri yaradılıb. Biz bundan sonra da çalışacağıq ki, işsizliyi ən aşağı səviyyədə saxlayaq.

Ölkəmizin hərtərəfli inkişafı davam edir. Son illərlə müqayisədə 2016-cı il ölkə iqtisadiyyatı üçün obyektiv səbəblər üzündən ən ağır il olmuşdur. Buna baxmayaraq, biz çox ciddi tədbirlər görərək, dünya böhranının mənfi fəsadlarını azaltmağa çalışmışıq və buna nail ola bilmişik. Biz ili yaxşı göstəricilərlə başa vururuq. Qeyri-neft sənayesinin, kənd təsərrüfatının artımı, əlbəttə ki, görülmüş işlərin nəticəsidir. Biz valyuta ehtiyatlarımızı qoruya bilmişik. Bu da çox vacib məsələdir. Çünki neftlə zəngin olan ölkələrin əksəriyyətində valyuta ehtiyatları tükənir, ya da azalır. Biz isə qoruyuruq, çünki bu, dövlətimiz, xalqımız üçün lazımdır. Bu bizə əminlik və imkan verir ki, gələcəyə nikbinliklə baxaq.

Sosial məsələlərin həlli bundan sonra da prioritet olacaq. Neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, Azərbaycanda belə gözəl tibb ocaqları yaradılır. Ehtiyac meyarı artırılacaq, digər sosial proqramlar gələn il də artıqlaması ilə icra ediləcək.

Yeni iş yerlərinin yaradılması istiqamətində çox ciddi tədbirlər görülür. Bu gün bütün bölgələrimizdə çox böyük canlanma gedir. İnsanlar kənd təsərrüfatı ilə çox həvəslə məşğul olurlar, dövlət öz dəstəyini göstərir, subsidiyalar, güzəştli şərtlərlə gübrələr, yanacaq, texnika verilir. Yəni hər şeyi etməyə çalışırıq ki, insanlar daha da rahat yaşasınlar və dünya böhranının mənfi təsirindən özlərini qoruya bilsinlər.

Bizim atdığımız bütün addımlar sosial xarakter daşıyır və sosial ədaləti tərənnüm edir. Çünki yaxşı yaşayan vətəndaşlar dövlətə

daha çox töhfə verməlidir, daha çox vergi ödəməlidir, daha çox kommunal xərcləri olmalıdır. Ancaq aztəminatlı təbəqə, orta təbəqə dövlət tərəfindən qorunmalıdır və qorunur. Bu, sosial ədalət prinsipidir. Biz bu yolla gedirik. Biz bazar iqtisadiyyatı prinsipi əsasında yaşayırıq, eyni zamanda, vətəndaşların sosial təminatı da daim diqqət mərkəzindədir. Beləliklə, biz həm sosial məsələlərin həlli, həm də iqtisadi inkişaf ilə bağlı siyasətimizi gələn illərdə də davam etdirəcəyik.

Zərdab rayonunun uğurlu inkişafı ilə bağlı bundan sonra da addımlar atılacaq. Burada yeni kənd yolları layihələri icra ediləcək, binaların, xüsusilə çoxmərtəbəli binaların təmiri ilə bağlı addımlar atılacaq, qeyd etdiyim kimi, kənd təsərrüfatını, sahibkarlığı stimullaşdırmaq üçün çox ciddi tədbirlər görüləcək.

Sizi bir daha salamlayıram və bu gözəl hadisə münasibətilə təbrik edirəm.

**E s m i r a  T a ğ ı y e v a** *(xəstəxananın həkimi):* Möhtərəm cənab Prezident, Sizi rayonun tibb işçiləri adından salamlayıram. Zərdaba xoş gəlmisiniz!

Bizim xəstəxananın binası ötən əsrin 80-ci illərində inşa edilib. Öz dövrünə görə ən gözəl binalardan biri hesab olunurdu. Ancaq illər ötdükcə fiziki aşınmaya məruz qaldığı üçün ciddi təmirə ehtiyac yarandı. Sizin sayənizdə xəstəxanamız belə gözəl, yüksək səviyyədə təmir edildi və ən müasir tibbi avadanlıqlarla təchiz olundu. Bütün bunlara görə rayon ictimaiyyəti adından Sizə dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, bundan sonra bu gözəl şəraitdə daha yaxşı işləyəcək, insanların etimadını doğrultmağa çalışacağıq.

Hörmətli cənab Prezident, belə gözəl bir gündə belə gözəl xəstəxananı, belə gözəl hədiyyəni bizə bəxş etdiyiniz üçün Sizə və bu işlərdə Sizin ən yaxın köməkçiniz olan Mehriban xanıma dərin minnətdarlığımızı bildiririk. Sağ olun, var olun, Allah sizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Mehriban xanım da sizin həmkarınızdır.

**E s m i r a  T a ğ ı y e v a:** Bəli, mən də oftalmoloqam, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı.

**F i q u r ə  A b b a s o v a** *(rayon sakini):* Cənab Prezident, Sizin Zərdaba gəlişiniz rayonumuzun bütün əhalisinə hədsiz dərəcədə sevinc bəxş edib. Yaxşı yadımdadır, 1978-ci ildə ulu öndər bizim rayona gəlmişdi. O vaxt mən komsomolçu idim. Ulu öndəri qarşılayanlar arasında mən də var idim. Mən bu gün bizim Zərdab əhalisinin keçirdiyi sevinc hissini görəndə, sanki həmin günləri yaşadım. Bizə belə sevincli günlər bəxş etdiyinizə görə Sizə minnətdaram.

Bizim Zərdab camaatı ta qədimdən əkinçidir. Kənd təsərrüfatını inkişaf etdirmək barədə Sizin verdiyiniz sərəncamlar camaatımızı çox ruhlandırıb. Onlar həvəslə işə girişiblər. Bu mənə həmin dövrü xatırladır. Şəxsən biz kənd adamları elə bilirdik ki, kənarda qalmışıq. Kənd təsərrüfatının inkişafı ilə bağlı verdiyiniz sərəncamlar sayəsində indi bizim üçün iş yerləri açılıb. İndi bizim öz zəhmətimizlə qazanmaq, dolanmaq imkanımız var. Eyni zamanda, Siz kənd adamlarını torpağı əkib-becərməyə qaytarmısınız. Bunun üçün çox sağ olun. Rayonumuzun camaatında belə əhval-ruhiyyə yarandığına görə Sizə təşəkkür edirik.

Zərdabın kənd təsərrüfatı sahəsində çox böyük ənənələri olub. Biz barama, pambıq istehsalı sahəsində ənənələrimizi davam etdirməliyik. Biz gələn il məhsul istehsalını 2-3 dəfə artırmağı qarşımıza məqsəd qoymuşuq. Bizim nəyimiz yoxdur ki?! Sizin sayənizdə bizim ən ucqar kəndlərimizə qaz çəkilir, yollar abadlaşır, hər cür imkanımız var. İndi insanlar xəyallarında qurduqları, arzuladıqları həyatı yaşayırlar. Buna görə Sizə minnətdarıq. Sizin zəhmətiniz çoxdur, cənab Prezident.

Biz televizora, internetə baxır, xəbərlərdən görürük ki, dünyada fəlakətlər artır, qaçqınlar, ölümlər çoxalır. Biz isə çox sabit dövlətdə yaşayırıq. Bizi göydə Tanrımız, yerdə isə qayğımıza qalan Sizin kimi möhtərəm insan qoruyur. Çox sağ olun, cənab Prezident. Allah Sizi, Mehriban xanımı, ailə üzvlərinizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Siz bayaq düz qeyd etdiniz, Zərdab rayon sakinləri zəhmətkeşdirlər və çox fəaldırlar. Təsadüfi deyil ki, sizin böyük həmyerliniz Həsən bəy Zərdabi təsis etdiyi, qurduğu qəzetə də «Əkinçi» adı vermişdi.

Əkinçiliyin burada çox böyük ənənələri var. Şadam ki, bu gün də Zərdab rayonunun sürətli inkişafı üçün çox ciddi addımlar atılır. Siz rayonun qazlaşdırılmasını qeyd etdiniz. Yaxşı xatırlayırsınız ki, əvvəlki illərdə burada heç rayon mərkəzində qaz yox idi. Ancaq bu gün Zərdab rayonunun qazlaşdırılması 81 faizdir və daha bir neçə kəndə qaz çəkilir, artıq 92 faizə çatacaq və yəqin ki, yaxın gələcəkdə 100 faiz olacaqdır.

Nəinki Zərdabda, bütün ölkə üzrə su problemi həmişə ən kəskin problem idi. Bu gün Zərdab şəhərinin sakinlərinə təmiz içməli su verilir.

Digər layihələr də icra olunur. Bunun əsas məqsədi insanlara xidmət etməkdir. İnsanlara daha da yaxşı şərait yaratmalıyıq. Əvvəllər Zərdabda baramaçılığın böyük ənənələri olub. Sonra bu ənənələr itib. Nəyə görə? Çünki dövlət lazımi səviyyədə diqqət göstərmirdi. Bəziləri hesab edirdilər ki, bazar iqtisadiyyatı hər şeyi özü tənzimləyəcək. Amma belə deyil. Görəndə ki, biz bu sahəni itiririk, dərhal tədbirlər görüldü, 6 tona yaxın barama tədarük edildi, yüzlərlə insan yaxşı pul qazandı. Bəzi ailələr 30–40 gün ərzində böyük məbləğdə pul qazanırlar. Gələn il 15 ton barama tədarük ediləcək. İndi xaricdən tinglər gətirilir, biz onları alırıq. Yaxşı yarpaq verən xüsusi növ ağaclar gətirilir ki, baramaçılıq kütləvi xarakter alsın. Hər cür imkanı, həyətyanı sahəsi, torpağı olan vətəndaşa məsləhət görürəm ki, baramaçılıqla məşğul olsun. Çünki qısa müddət ərzində o qədər də böyük əziyyət çəkmədən yaxşı pul qazanacaqlar. Dövlət də onu alacaq. İndi Şəki İpək kombinatı işləyir, biz onu işə salmışıq. Artıq biz ipəkçiliyi də bərpa edirik.

Pambıqçılıq da həmçinin. Ulu öndərin dövründə burada böyük pambıq sahələri olub. Sonra bu sahə tənəzzülə uğrayıb. Statistikaya baxsaq görərik ki, keçən il ölkə üzrə cəmi 18 min

hektarda pambıq əkilmişdi. Biz bu il bu rəqəmi 52 min hektara çatdırmışıq. Gələn il 130 minə çatdıracağıq.

Gələn il ancaq Zərdab rayonunda ən azı 3000 hektarda pambıq əkiləcək. Yeni suvarılacaq 10 min hektar torpaqda rayon sakinləri işləyəcəklər, pul qazanacaqlar, həm öz həyatlarını yaxşılaşdıracaqlar, həm də ümumi işimizə töhfə verəcəklər. Bu proses artıq kütləvi xarakter alıb. Hər bir rayonda böyük canlanma, kənd təsərrüfatının inkişafı ilə bağlı nikbinlik, böyük ümidlər var. Kənd təsərrüfatı təkcə iqtisadi sahə deyil, həm də sosial sahədir. Çünki əhalimizin yarısı bölgələrdə yaşayır.

Mən sizi bir daha salamlayıram, uğurlar arzulayıram. Gələn il gərək hamımız fəal işləyək ki, ölkəmizi daha da gücləndirək.

**S a k i n l ə r:** Sağ olun, Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

# TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Mövlud Çavuşoğlu dedi:* «Mən buraya gəlməzdən əvvəl Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla danışdım, dedim ki, cənab Prezident bizi qəbul edəcək. O dedi ki, cənab Prezidentə çoxlu salamlarım var və İlham qardaşımdan soruş, onun bir tapşırığı varmı?»

*Türkiyə Prezidentinə möhkəm cansağlığı arzulayan dövlətimizin başçısı dedi:* «Bilirsiniz ki, hörmətli Prezidentlə biz çox yaxınıq. Bizi dostluq və qardaşlıq əlaqələri bağlayır».

*Prezident İlham Əliyev ölkələrimizin müxtəlif nazirliklərinin rəhbərləri arasında da sıx əlaqələrin mövcud olmasından məmnunluğunu ifadə etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## TƏRTƏR RAYONUNA SƏFƏR

*3 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Tərtər rayonuna səfərə gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.*

*Rayonun sosial-iqtisadi göstəriciləri və görülən abadlıq-quruculuq işləri barədə prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi.*

*Bildirildi ki, bu il rayonun kənd təsərrüfatının müxtəlif sahələrində mühüm dəyişikliklər olub. Pambıq, taxıl, barama, şəkər çuğunduru və digər məhsulların istehsalı xeyli artıb.*

*Dövlətimizin başçısına və xanımına rayonda tikintisi aparılan obyektlərin, inşası nəzərdə tutulan Heydər Əliyev seyrəngahının, üçulduzlu mehmanxananın layihələri təqdim olundu.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış məktəblərdəki təmir-bərpa işləri barədə məlumat verildi.*

### Tərtər çayı üzərində inşa edilmiş yeni körpünün açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Tərtər rayonunun Sarıcalı kəndində Tərtər çayı üzərində inşa edilmiş yeni körpünün açılışında iştirak etmişlər.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlətimizin başçısına və xanımına «Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Pro-*

*qramı»na əsasən, Bərdə–Kəlbəcər avtomobil yolunun 10-cu kilometrliyində inşa edilmiş körpü barədə məlumat verdi.*

*Bildirildi ki, körpünün inşası Tərtər rayonunun strateji əhəmiyyətli ərazidə yerləşməsi və bu ərazidə 1947-ci ildə tikilən mövcud körpünün istismar müddətini başa vurması nəzərə alınaraq, həyata keçirilib. Körpünün tikintisinə 2016-cı ilin iyununda başlanılıb və qısa müddətdə başa çatdırılıb. Üçaşırımlı körpünün uzunluğu 107, eni 12, çay məcrasından hündürlüyü isə 15 metrdir. İkizolaqlı körpünün hərəkət hissəsinin eni 8,5 metrdir. Piyadaların körpüdə rahat və təhlükəsiz hərəkətinin təmin olunması məqsədilə hər bir istiqamət üzrə 1,75 metr enində səkilər də tikilib.*

*Layihə çərçivəsində 110 metr uzunluğunda beton mühafizə bəndi, 400 metr uzunluğunda yanaşma yolları və ümumi uzunluğu 56 metr olan 5 dairəvi borunun tikintisi aparılıb.*

*Diqqətə çatdırıldı ki, Sarıcalı və Zolgəran kəndləri arasında inşa edilən körpü 11 yaşayış məntəqəsinin 25,6 min sakininin mənzil başına rahat çatması üçün məsafəni qısaltmaqla, avtonəqliyyat vasitələrinin hərəkətini xeyli yaxşılaşdıracaq. Bundan əvvəl isə sakinlər rayon mərkəzinə və ətraf yaşayış məntəqələrinə getmək üçün təqribən 15 kilometrdən artıq əlavə yol qət etməli olurdular.*

*Dövlətimizin başçısı körpünün rəmzi açılışını bildirən lenti kəsdi.*

## «TƏRTƏR ŞƏHƏRİNİN İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏN QURULMASI» LAYİHƏSİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏDBİRDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də «Tərtər şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin başa çatması münasibətilə keçirilən tədbirdə iştirak etmişlər.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına və xanımına layihə haqqında məlumat verdi.*

*Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində icra edilən bu layihə Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən «Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı» layihəsi çərçivəsində həyata keçirilib. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, Tərtər şəhərində 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Gələcəkdə rayonun 21 min sakinin yaşadığı 11 kəndinə də içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə, bu layihədən 47 min sakin faydalanacaq.*

*Qeyd olundu ki, layihənin icrasına 2015-ci ilin mayında başlanılıb. Şəhəri və ətraf kəndləri içməli su ilə təmin etmək üçün ümumi məhsuldarlığı saniyədə 200 litr olan 9 subartezian quyusu qazılıb, 3,6 kilometr uzunluğunda quyulararası xətt inşa edilib. Şəhərin dayanıqlı su təchizatını təmin etmək üçün hər birinin həcmi 5 min kubmetr olan 2 su anbarı, nasos stansiyası*

*və 2,4 kilometr uzunluğunda magistral su kəməri inşa edilib. Layihəyə əsasən, Tərtər şəhərində 91 kilometr paylayıcı su şəbəkəsi yaradılıb, 4700 ünvana birləşmə verilib və bu ünvanlar sayğacla təmin edilib. Yanğın təhlükəsizliyi məqsədilə şəhərin müxtəlif yerlərində 360 yanğın hidrantı, suyun optimal idarə edilməsi üçün 185 siyirtmə quraşdırılıb. Yeni yaradılmış su təchizatı sistemləri vasitəsilə şəhərə 24 saat fasiləsiz içməli suyun verilməsi təmin edilib.*

*Diqqətə çatdırıldı ki, layihə çərçivəsində Tərtər şəhərində ilk dəfə kanalizasiya sistemi də yaradılıb. Bu məqsədlə 75 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi, 3,5 kilometrlik kollektor inşa edilib. Şəbəkəyə 4700 ünvanın qoşulması təmin olunub. Beləliklə, Tərtər şəhərinin içməli su və kanalizasiya şəbəkələrinin tikintisi başa çatdırılıb. Layihənin növbəti mərhələsində şəhərdə yaranacaq tullantı sularının zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 7500 kubmetr olan təmizləyici qurğunun inşası nəzərdə tutulur. Eyni zamanda, Tərtər Sukanal İdarəsi üçün müasir standartlara cavab verən yeni inzibati binanın tikintisi də layihələndirilib və bu mərhələdə icra olunacaq. Tullantı sutəmizləyici qurğu və inzibati bina da nəzərə alınmaqla, layihə üzrə tikinti işləri 2018-ci ildə tam yekunlaşacaq.*

*Tərtər şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemləri keçən əsrin 60-cı illərində yaradılıb. Həcmi 500 kubmetr olan 2 su anbarı və 47 kilometr uzunluğunda şəhərdaxili şəbəkə istismara yararsız vəziyyətdə olub. Tərtər şəhərində kanalizasiya sistemi isə, ümumiyyətlə, mövcud olmayıb. Yeni layihənin icrasına qədər «Azərsu» ASC 20 min şəhər sakinindən 11 mininə və ya təqribən 55 faizinə xidmət göstərib və şəhərə su qrafik üzrə verilib.*

*Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən «Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı» layihəsi çərçivəsində Tərtər şəhəri ilə yanaşı, Gədəbəy, Daşkəsən və Astara şəhərlərində də su və kanalizasiya şəbəkəsinin yenidən qurulmasına*

*başlanılıb. 2017-ci ildə Gədəbəy və Daşkəsən şəhərlərində su və kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşacaq, Qazax şəhərində isə layihənin icrasına başlanılacaq.*

*Sonra dövlətimizin başçısı və xanımı Tərtər rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Mən sizi salamlayıram, yenidən Tərtərdə olmağımdan çox məmnunam. Bu gün Tərtər rayonunun həyatında çox əlamətdar bir gündür. Tərtər şəhərinin su və kanalizasiya problemi artıq həll olunur. Çox gözəl, böyük layihədir. Bilirəm ki, əvvəlki illərdə su problemi insanları narahat edirdi. Artıq bu məsələ öz həllini tapıb. Tərtər şəhərinin sakinlərinə təmiz içməli su veriləcək və kanalizasiya xətləri də tam istismara hazırdır. Gələcək mərhələdə ətraf kəndlərə də içməli su veriləcək.

Bu, böyük infrastruktur və sosial layihədir. Bu layihənin icrası üçün biz xarici kreditlərdən istifadə etdik, eyni zamanda, Azərbaycan dövləti də büdcə vəsaiti ayırdı. Çünki su layihələrinin icrası böyük vəsait tələb edir. Ancaq bu vəsaitin büdcəyə qayıtması məsələsi uzun illər çəkir. Layihənin icrası sırf sosial məna daşıyır ki, Tərtərə keyfiyyətli su verilsin, insanlar təmiz içməli su ilə təmin olunsunlar. Su insanın sağlamlığı üçün başlıca amildir.

Tərtər rayonunun uğurlu inkişafı məni çox sevindirir. Şəhərin abadlaşması, şəhərdə və rayonda infrastruktur layihələrinin icrası göstərir ki, Azərbaycanın bütün bölgələri uğurla inkişaf edir və bizim vaxtilə qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqramı həyatda öz əksini tapır. Biz son illər ərzində bunu Tərtər rayonunun timsalında görürük. Tərtər şəhəri abadlaşıb, gözəlləşib. Mən 10 il bundan əvvəl Prezident kimi, birinci dəfə Tərtər rayonunda olmuşam, bu yerdə vətəndaşlarla görüşmüşəm. O vaxt Tərtərin siması tam başqa idi. Bu gün Tərtər müasir, abad şəhərdir, rayon inkişaf edir,

vətəndaşlar daha da yaxşı yaşayırlar. Magistral yolların, kənd yollarının çəkilişi, qazlaşdırma ilə bağlı böyük infrastruktur layihələri icra edilir. Tərtər rayonunda qazlaşdırma 90 faizdən çoxdur, 100 faizə çatmalıdır. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Bu gün içməli su məsələsi də öz həllini tapır. Yəni əsas infrastruktur məsələləri bunlardır. Bu, birinci mərhələdə görüləsi işlər idi.

Bununla bərabər, rayonun sosial-iqtisadi inkişafına da böyük diqqət göstərilib. Burada çoxlu məktəblər, uşaq bağçaları, sosial obyektlər tikilib. Yəni rayonun iqtisadiyyatına və sosial inkişafına dövlət tərəfindən çox böyük vəsait ayrılıb.

Növbəti mərhələdə iş yerlərinin yaradılması istiqamətində əlavə tədbirlər görüləcək. Xüsusilə kənd təsərrüfatının inkişafı ilə bağlı bizim böyük planlarımız var. Bizim kənd təsərrüfatı ilə bağlı son təşəbbüslərimiz üzrə Tərtərdə görülən işlər buradakı təqdimatda əksini tapıb.

Baramaçılıq, pambıqçılıq inkişaf edir. Gələn il 3000 hektarda pambıq əkiləcək, minlərlə insan bu işlərə cəlb olunacaq. Baramaçılığın da həm dövlətə, həm də insanlara çox böyük xeyri var. Yəni qısa müddətdə – 30–40 gün ərzində insanlar yaxşı pul qazanırlar. Xüsusilə nəzərə alınmalıdır ki, dövlət bu sahəyə öz dəstəyini əsirgəmir. İndi xaricdən tinglər gətirilir, təsərrüfatlara verilir.

Kənd təsərrüfatının daha sürətlə inkişaf etdirilməsi üçün digər tədbirlər də görülür. Siz yaxşı bilirsiniz ki, subsidiyalar, yanacağa, gübrəyə dotasiyalar, güzəştli şərtlərlə texnika verilir. Bütün bunları dövlət öz üzərinə götürüb ki, insanlara daha da yaxşı şərait yaratsın. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Hesab edirəm ki, Azərbaycan bu istiqamətdə də dünya miqyasında nümunəvi ölkədir. Çünki mən öz fermerlərinə bu qədər diqqət göstərən ikinci ölkə tanımıram və bunun nəticəsində – baxmayaraq ki, indi dünyada və bizim bölgəmizdə böhran yaşanır – Azərbaycanda kənd təsərrüfatı inkişaf edir. Bu il də artım var, gələn ildə də olacaq. Bir sözlə,

qarşıdakı mərhələdə sahibkarlığın inkişafı, investisiyaların cəlb edilməsi ilə bağlı növbəti addımlar atılacaq.

Tərtər rayonunda işlər düzgün qurulub. Mən rayonda dəfələrlə olmuşam. Xüsusilə son vaxtlar burada gedən quruculuq-abadlıq işləri məni çox sevindirir. Əminəm ki, sizi də sevindirir. Keçən dəfə biz may ayında görüşmüşdük. O vaxt mən dağılmış evlərə baş çəkdim və bir daha əmin oldum ki, Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada – döyüş bölgəsində, düşmənlə üz-üzə möhkəm dayanıblar və atılan, evlərinə dəyən mərmilər onların iradəsinə zərrə qədər təsir etməyib.

Aprel döyüşləri, ümumiyyətlə, bizim şanlı tariximizdir. Azərbaycan Ordusu da, Azərbaycan vətəndaşı da qəhrəmanlıq göstərdi. Ordumuz düşmənin hücumuna cavab olaraq, hərbi qələbə qazandı. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı keçirərək, həm bu istiqamətdə, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində – indiki Ağdərə rayonunda, eyni zamanda, Cəbrayıl, Füzuli istiqamətlərində böyük ərazini işğalçılardan azad etdi. Ermənilərin uzun illər öz ordusu haqqında yaydıqları mif darmadağın edildi. Azərbaycan əsgəri, zabiti göstərdi ki, kim nəyə qadirdir. Ermənilər əlverişli mövqelərini tərk edərək, qorxudan qaçıb gizlənmişdilər. Onların kəndlərində yaşayan insanların sayı getdikcə azalır. Ancaq Tərtərdə, Ağdamda bir nəfər belə, yerindən tərpənmədi. Bu, böyük qəhrəmanlıqdır. Bu bir daha xalqımızın ucalığını göstərir. Xüsusilə Tərtər sakinlərinin belə davranışı, hərəkəti hər bir vətəndaş üçün nümunə olmalıdır. İndi siz burada, düşmənlə üz-üzə, ön cəbhədə nəinki yaşayırsınız, eyni zamanda, yaradırsınız, qurursunuz və əminsiniz ki, Azərbaycan dövləti və Azərbaycan Ordusu sizin təhlükəsizliyinizi təmin edir.

Bir daha demək istəyirəm ki, aprel döyüşləri tarixi hadisədir. Azərbaycan bu döyüşlərdə nəinki öz gücünü göstərdi, düşmənə və dünyaya bir daha sübut etdi ki, biz indiki vəziyyətlə heç vaxt barışmayacağıq. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Şuşa da, Xankəndi də, hələ ki, işğal altında qalan digər bütün

torpaqlar da. Bizim tarixi coğrafiyamız çox geniş olub. Tarixçilər son vaxtlar bu barədə yaxşı elmi əsərlər, kitablar yazırlar. Onu da qeyd etməliyəm ki, bu məsələlər mənim tövsiyəmlə öz həllini tapır. Misal üçün, İrəvan xanlığı haqqında çox böyük elmi əsər yaradılıb. Bu əsər bir neçə dilə tərcümə edilib ki, həm Azərbaycan vətəndaşları bunu bir daha bilsinlər, həm də dünya bilsin ki, İrəvan bizim tarixi torpağımızdır. XIX əsrin əvvəllərində İrəvanın əhalisinin 70 faizi azərbaycanlılar idi. Göyçə, Zəngəzur bizim tarixi torpaqlarımızdır.

Bunu artıq XX əsrin tarixi də göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin, demək olar ki, birinci qərarı – əfsuslar olsun ki, belə bir qərar verildi – ondan ibarət idi ki, İrəvanı Ermənistana hədiyyə edək. Bu çox böyük səhv, böyük cinayət idi. Bilirsiniz, Xalq Cümhuriyyətinin mövcudluğu bizim qürur mənbəyimizdir. Müsəlman aləmində ilk dəfə demokratik respublika yaranmışdır və yaxşı da işlər görülmüşdür. Amma biz gərək tarixi olduğu kimi bilək və insanlar da bilsinlər. İrəvanı Ermənistana vermək tarixi cinayət idi. Çünki öz doğma torpaqlarını verdilər.

Bu gün bizim indiki Ermənistan Respublikasının torpağında gözümüz yoxdur. Biz nə İrəvanı, nə Mehrini, nə Gorusu hərbi yolla qaytarmaq fikrində deyilik. Amma mən əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq. Biz bunu ardıcıl siyasətlə, sülh yolu ilə edəcəyik. Bütün obyektiv səbəblər onu göstərir ki, o gün gələcək. Sadəcə olaraq, bizim hər birimiz o günü yaxınlaşdırmalıyıq. Necə yaxınlaşdırmalıyıq? Daha da güclü olmalıyıq. Bu gün dünyada artıq beynəlxalq hüquq anlayışı, demək olar ki, iflasa uğrayıb. İndi güc əsas amildir. Bu belədir. Biz də real dünyada yaşayırıq. Ona görə daha da güclü olmalıyıq, daha güclü ordu qurmalıyıq. İqtisadiyyat daha da güclü olmalıdır, inkişaf daha da sürətlə getməlidir. Baxın, hətta böhranlı illərdə ölkə əhalisinin sayı getdikcə artır və artacaq. İndi 1-2 ilə Azərbaycan əhalisi 10 milyona çatacaq. Bu meyil davam edir. İndi əhali nə qədər çox artırsa, sonrakı illərdə də artım daha yüksək olacaq.

Ermənistanda isə əhali azalır. Bu həm təbii səbəblər, həm miqrasiya, həm də ümidsizlik, çarəsizlik, özbaşınalıq üzündən baş verir. Ermənistanın indiki faşist rejimi faktiki olaraq, ölkədə dözülməz şərait yaradıb. Ona görə də orada əhali daha da azalacaq, çıxıb gedəcək, necə ki, indi çıxıb gedir. Biz torpaqlarımıza qayıdacağıq. Qayıtmaq üçün düşünülmüş strategiya, konsepsiya olmalıdır. Bu var. Strateji xəttimiz müəyyən olunub və biz hər il taktiki addımları atacağıq. Birincisi, bu, tarixi məsələdir. İkincisi isə bu, ədalətli məsələdir. Biz ədalətin tərəfdarıyıq və ərazi bütövlüyümüzü bərpa etməliyik. Heç vaxt imkan vermərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Əksinə, çalışmalıyıq və çalışacağıq ki, ölkəmizin gücünü artıraq, möhkəmləndirək və istəyimizə nail olaq.

Cəmiyyətdə bu məsələ ilə və bütün başqa məsələlərlə bağlı birlik, həmrəylik var. Bizim uğurlu inkişafımız reallıqdır. Hətta böhranlı illərdə də bu inkişafa nail oluruq. Bizim inkişafımız bölgələrin inkişafından asılıdır. Biz bu inkişafı Tərtər rayonunun timsalında görürük. Bu gözəl nəticələr münasibətilə sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

**G ü l a r ə Ə k b ə r o v a** *(rayon sakini):* Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Tərtərə xoş gəlmisiniz! Su həyatdır, su sağlamlıqdır. Biz tərtərlilər bu günü çoxdan gözləyirdik. Siz bu layihəni təsdiq etməklə, həyata keçirməklə, Tərtərə fasiləsiz içməli su, sağlam həyat bəxş etdiniz.

Möhtərəm cənab Prezident, Sizinlə bərabər, fədakarcasına çalışan xanımınızla may ayında Tərtərdə, cəbhə xəttinin 200 metrliyində yerləşən Qapanlı kəndində oldunuz. Siz həyatınızı, xanımınızın həyatını riskə ataraq, orada yaşayan insanlarla görüşdünüz, onlara ürək-dirək verdiniz, yeni həyat bəxş etdiniz. Siz bu gün də Tərtərdəsiniz, şəhərə suyun verilməsi mərasimində iştirak edirsiniz.

Cənab Prezident, mən bu münasibətlə bütün tərtərlilər adından Sizə təşəkkürümü, minnətdarlığımı bildirirəm. Onu demək istəyirəm ki, Tərtər cəbhə bölgəsi olmasına baxmayaraq, biz heç nədən qorxmuruq. Biz həmişə, hətta aprel döyüşlərində də öz ev-eşiyimizdə olduq, evlərimizi tərk etmədik. İnsanlar heç yerə getmədilər. Tərtərdə həyat qaynayırdı, abadlıq-quruculuq işləri davam edirdi. Bununla da Tərtər camaatı öz Vətənini, torpaqlarını necə sevdiklərini, dövlətə sədaqətlərini nümayiş etdirdilər. Biz bilirdik ki, arxamızda Sizin kimi Prezidentimiz, güclü ordumuz var.

Cənab Prezident, baxmayaraq ki, biz cəbhə bölgəsində yaşayırıq, çox rahat yaşayırıq, güzəranımız yaxşıdır. Bütün bunları bizə Siz bəxş etmisiniz. Sizə təşəkkürümüzü, dərin minnətdarlığımızı bildiririk.

Ataların gözəl bir misalı var: deyərlər ki, ömrünüz su qədər uzun olsun. Həyatınız, yolunuz, işiniz, bax, bu su kimi, aydın olsun, cənab Prezident. Allah sizləri qorusun. Xoş gəlmisiniz!

**Rauf Həsənzadə** *(təqaüdçü):* Möhtərəm cənab Prezident!

Mən də Sizi salamlayıram. Tərtərə xoş gəlmisiniz! Cənab Prezident, mənim bir fikrim var, onu demək istəyirəm. Keçən əsrin 70-ci illərində ulu öndərimiz Heydər Əliyevin səyi ilə Tərtərdə Elektromexanika zavodu yaradıldı. Mən o zaman həmin zavoda direktor təyin olunmuşdum. Ulu öndər həmin zavodu burada yaradanda, irəlini çox gözəl görürdü və bilirdi ki, gələcəkdə o zavod bizə çox lazım olacaq. Çünki ötən əsrin 90-cı illərinin əvvəllərində qonşularımız Azərbaycan torpaqlarına hücum edəndə, biz həmin zavodda silah və sursat istehsalına başladıq. Həmin silah-sursatı biz döyüşən bütün bölgələrə göndərirdik.

Sizin bilavasitə rəhbərliyinizlə yaradılan qüdrətli və rəşadətli Azərbaycan Ordusu aprel döyüşlərində qısa müddət ərzində erməni qoşunlarını darmadağın etdi. Onların yüzlərlə canlı qüvvəsini və texnikasını sıradan çıxardı. Bizim ürəyimizdə olan sözləri Siz deyirsiniz, cənab Prezident. Biz öz torpağımızdayıq, biz Azərbaycandayıq. Lələtəpə də Azərbaycandır, Şuşa da

Azərbaycandır, Xankəndi də Azərbaycandır. Bunu inkar etmək qeyri-mümkündür. Biz tərtərlilər inanırıq ki, Siz torpaqlarımızı işğaldan azad edəcəksiniz, cənab Prezident. Sizi əmin edirik ki, bütün Azərbaycan xalqı kimi, tərtərlilər də Sizinlədir. Çox sağ olun, cənab Prezident. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

* * *

*Azərbaycan Prezidenti Tərtər şəhərinə suyun rəmzi olaraq verilməsini bildirən düyməni basdı.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## Yeni inşa olunmuş «N» saylı hərbi hissə ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dekabrın 3-də Tərtərdə yeni inşa olunmuş «N» saylı hərbi hissədə olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Məlumat verildi ki, hərbi hissənin ərazisində qərargah, 2 kazarma, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana yaradılıb. Hərbçilərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün burada idman şəhərciyi salınıb. Bundan başqa, hərbi hissənin ərazisində müxtəlif növ texnika və avtomobillərin saxlanıldığı park da var.*

*Qərargah binasında ulu öndər Heydər Əliyevin və prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğılarını, hərbçilərlə görüşlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb.*

*Burada hərbi hissənin növbətçi otağı, istirahət və çay otaqları, rabitə qovşağı və digər zəruri otaqlar vardır, Hərbi hissədəki kazarmaların girişində Azərbaycanın Milli qəhrəmanlarının fotolarından ibarət guşə də var. Burada müasir idman avadanlığı ilə təchiz edilmiş idman otağı zabit və əsgərlərin ixtiyarındadır. Kazarmada dəftərxana, məişət otağı, ideoloji*

*otaq yaradılıb. İdeoloji otaq Azərbaycan Silahlı Qüvvələrinin şərəfli tarixini, şanlı ordumuzun əldə etdiyi qələbələri və dövlətimizin Azərbaycan hərbçilərinə göstərdiyi diqqəti əks etdirən əyani vəsaitlərlə təchiz olunub.*

*Bu hərbi hissədə yaradılan şərait bir daha sübut edir ki, prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri haqlı olaraq, dünyanın ən qüdrətli ordularından biri kimi tanınır. Aprel döyüşləri bir daha sübut etdi ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə istənilən anda düşmənə sarsıdıcı zərbə vurmaqla, torpaqlarımızı işğaldan azad etməyə qadirdir.*

*Ali Baş Komandan İlham Əliyev hərbi hissənin döyüş texnikasına baxdı, döyüş maşınlarından birini idarə etdi.*

*Əsgər və zabit heyətinin dolğun və keyfiyyətli qidalanması üçün hərbi hissənin yeməkxanası müasir səviyyədə qurulub.*

*Dövlətimizin başçısı burada yaradılmış şəraitlə tanış oldu, yeməkxananın xidmət heyəti ilə söhbət etdi.*

**İlham Əliyev:** Əvvəllər bu işləri əsgərlər görürdülər, yemək bişirirdilər. Bu onları əsas işindən ayırırdı. İndi bu işə mülki vətəndaşlar cəlb olunub, onlara yaxşı maaş verilir, qadınlar da işləyir. Həm də çox yaxşı yemək bişirirsiniz.

**Aşpaz qadın:** Çox sağ olun. Gələn ayaqlarınız var olsun. Həmişə Sizinlə fəxr etmişik. Sizin sayənizdə Tərtər rayonumuz gözəlləşir, su-kanalizasiya xətləri çəkilir.

**İlham Əliyev:** Bəli, bu gün açılışını etdik.

**Aşpaz qadın:** Dağılan evlərimizin, müəssisələrimizin hamısı Sizin sayənizdə bərpa olunub, düzəlib. Uşaqlarımıza, ordumuza, əsgər balalarımıza, bax, bu cür şərait yaradılıb, dadlı milli xörəklər bişirilir.

**İlham Əliyev:** Siz də uşaqlara, əsgərlərə yaxşı baxırsınız. Daha da yaxşı baxın ki, onlar razı qalsınlar.

**Aşpaz qadın:** Allah Sizdən razı olsun. Allah Sizi qorusun. Biz həmişə Sizinlə fəxr etmişik.

## Aprel döyüşlərində ziyan dəymiş evlərdə aparılan təmir-bərpa işlərinin gedişi ilə tanışlıq

*Bu il aprelin əvvəllərində Ermənistan silahlı qüvvələri Ağdam və Tərtər rayonlarında qoşunların təmas xəttinə yaxın olan yaşayış məntəqələrini iriçaplı silahlardan və artilleriya qurğularından intensiv atəşə tutmaları nəticəsində mülki əhalinin həlak olması və yaralanması ilə yanaşı, bir çox evlərə də ciddi ziyan dəymişdir.*

*Hadisədən dərhal sonra prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xanımı Mehriban Əliyeva ilə birlikdə təmas xəttinə gələrək, cəbhəboyu zonada vəziyyətlə yerində tanış olmuş, sakinlərlə görüşmüş, dağıdılmış evlərə baxmışdı. Prezident İlham Əliyev tamamilə dağıdılmış evlərin yerində yeni evlərin inşası, həmçinin ziyan dəymiş evlərin və sosial obyektlərin təmiri ilə bağlı konkret tapşırıqlar vermiş və sərəncam imzalamışdır. Rayon icra hakimiyyətləri və müvafiq dövlət qurumları həmin sərəncamın icrası ilə bağlı bütün lazımi tədbirləri görmüşlər.*

*Dekabrın 3-də Tərtərə səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva apreldə ziyan dəymiş evlərdə aparılan tikinti, bərpa və təmir işləri ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısı və xanımı həyətləri gəzdilər, tikilmiş və bərpa olunmuş evlərə baxdılar. Əvvəlcə Xasay İbrahimovun evinə gəldilər. Burada onlara görülmüş işləri əks etdirən fotostend təqdim olundu.*

*Azərbaycan prezidenti İlham Əliyevin «Erməni silahlı qüvvələrinin Ağdam və Tərtər rayonlarını intensiv atəşə tutması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında» 2016-cı ilin mayında imzaladığı sərəncama əsasən Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ayrılmış 3 milyon manat vəsait hesabına, ümumilikdə rayonda*

*ciddi dağıntıya məruz qalmış 4 ev yenidən tikilib və 8 ev bərpa olunub. Həmçinin 19 evdə əsaslı, 231 evdə isə cari təmir işləri aparılıb. Bundan başqa, Tərtər şəhər 6 saylı tam orta və 120 şagird yerlik Qazyan kənd ümumi orta məktəblərində əsaslı təmir işləri görülüb.*

*Dövlətimizin başçısı və xanımı evdə yaradılmış şəraitlə tanış oldular, sakinlərlə görüşdülər.*

**M a y a  S ə f ə r o v a** *(ev sahibinin yaxın qohumu):* Xoş gəlmisiniz! Ən əziz qonağımız həmişə Siz olasınız. Allah Sizdən razı olsun. Allah Sizi başımızın üstündən əskik etməsin.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Biz may ayında görüşmüşdük.

**E l m i r a  İ b r a h i m o v a** *(evin xanımı):* Allah canınızı sağ eləsin. Gəldiniz, ürək-dirək verdiniz. Sonra da vəsait ayırdınız. Həmin vəsaitin hesabına görülən işlər bu gün göz qabağındadır. Allah Sizi ailənizlə birlikdə qorusun. Biz bir daha əmin olduq ki, Siz həqiqətən, hər bir azərbaycanlının Prezidentisiniz. Siz bunu öz işinizlə bir daha sübut etdiniz.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. O hadisələrdən sonra biz bütün evləri bərpa etdik. Tərtər rayonunda 250-yə yaxın evə ziyan dəymişdi. Bir hissəsi tam dağıdılmışdı. Onlar yenidən tikildi, bir hissəsi əsaslı təmir edildi, bir hissəsində cari təmir aparıldı. Yəni 6-7 ay ərzində biz ancaq Tərtər rayonunda 250-yə yaxın evi bərpa etmişik.

**E l m i r a  İ b r a h i m o v a:** Allah Sizi qorusun, başımızın üstündən əskik olmayasınız.

*Çay süfrəsi arxasında davam etdirilən söhbət zamanı ailə üzvləri çətin anlarda onlara göstərdiyi diqqət və qayğıya görə prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.*

*Azərbaycan Prezidenti aprel hadisələri zamanı tərtərlilərin nümayiş etdirdiyi mərdliyi və şücaəti bir daha yüksək qiymətləndirdi.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mübariz Həsənovun düşmənin şiddətli artilleriya atəşi zamanı ciddi ziyan dəymiş və əsaslı təmir edilmiş evində oldular.*

*Burada da ailə üzvləri Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılmış evlərini tamamilə yeni və daha rahat, gözəl şəkildə sakinlərə bəxş etdiyinə görə prezident İlham Əliyevə sonsuz minnətdarlıqlarını bildirdilər.*

*Sonda xatirə şəkli çəkdirildi.*

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş Uşaq-Gənclər Şahmat məktəbinin yeni binasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə dekabrın 3-də Tərtərdə inşa edilmiş Uşaq-Gənclər Şahmat məktəbinin yeni binasının açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.Şahmat idmanının Azərbaycanda sürətli inkişafı və kütləviləşməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə respublikamızın əksər şəhər və rayonlarında şahmat məktəbləri inşa edildi. Bu gün beynəlxalq şahmat yarışlarının Azərbaycanda yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait var. Bu ilin sentyabrında 42-ci Ümumdünya Şahmat Olimpiadasının Bakıda yüksək səviyyədə keçirilməsi bunu bir daha sübut etdi. Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində respublikamızın müxtəlif bölgələrində yeni şahmat məktəbləri inşa edilib. Bu məktəblər bütün zəruri avadanlıqlarla təchiz edilib. Tərtərdə yüksək zövqlə inşa edilən Uşaq-Gənclər Şahmat məktəbinin binası da bu qəbildəndir.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Tərtərə səfərlərini, həmçinin rayon ictimaiyyətinin nümayəndələri ilə görüşlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Bundan başqa, foyedə «Rəşadətli Azər-*

*baycan Ordusu» fotostendi də quraşdırılıb. Stenddə bu ilin aprelində işğalçı Ermənistan ordusunun Tərtəri atəşə tutması nəticəsində mülki vətəndaşlara dəyən ziyan, Azərbaycan Silahlı Qüvvələrinin düşmənə layiqli cavab verməsi, həmçinin dövlətimizin başçısı İlham Əliyevin və xanımı Mehriban Əliyevanın aprel hadisələri zamanı rayona dəyən ziyanla yerində tanış olmaları, cəbhəyanı kəndlərin sakinləri və yaralılarla görüşlərini əks etdirən fotolar yer alıb.*

*Ümumi sahəsi 1300 kvadratmetr olan üçmərtəbəli binada inzibati otaqlar, kabinetlər, iclas və oyun zalları var. Məktəbdə yaradılan 8 sinif otağı zəruri avadanlıqlarla təchiz edilib. Burada yarışların canlı izlənilməsi üçün monitor da quraşdırılıb. Hazırda məktəbdə 15 nəfər çalışır. Məktəbdə yeniyetmə və gənclərin şahmat kompozisiyalarını daha dərindən öyrənmələri üçün müxtəlif əyani vəsaitlərdən və informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunacaq. Belə şahmat məktəblərində şagirdlər zəngin təcrübə toplayaraq, ölkəmizi müxtəlif səviyyəli yarışlarda layiqincə təmsil edirlər.*

*Dövlətimizin başçısı və xanımı gənc şahmatçılara uğurlar arzuladılar.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 100 yerlik Körpələr evi-uşaq bağçasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Tərtər şəhərində inşa edilmiş 100 yerlik Körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişlər.*

*Hazırda ölkəmizdə uşaqların təlim-tərbiyəsinin təşkili və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm layihələr icra olunur. Azərbaycan dövlətinin uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların sağlam və xoşbəxt böyümələri naminə gördüyü işlər çərçivəsində mövcud körpələr evi-uşaq bağçalarının əsaslı təmiri ilə yanaşı, çoxlu sayda yeni müəssisələrin yaradılması geniş vüsət alıb. Müasir körpələr evi-*

*uşaq bağçalarının istifadəyə verilməsi işinə dövlətimizlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı çərçivəsində həyata keçirilən layihələr bu baxımdan çox mühüm rol oynayır. Uğurla icra edilən bu mühüm layihələr uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin məntiqi nəticəsidir.*

*Prezident İlham Əliyev Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına və xanımına məlumat verildi ki, Körpələr evi-uşaq bağçasının inşasına 2014-cü ilin iyulunda başlanılıb. Binanın ümumi sahəsi 1200 kvadratmetrdir. İkimərtəbəli binada ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın həyat və fəaliyyətlərini əks etdirən fotolardan ibarət guşələr yaradılıb.Binada 4 oyun və 4 yataq otağı, mətbəx, tibb otağı, akt zalı, metodist, kompüter və digər texniki otaqlar var. Burada uşaqların istirahəti və əyləncəsi üçün yaradılan hərtərəfli şərait balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyət qurmaları məsələlərində də mühüm rol oynayacaq.*

*Bağçanın ərazisi dekorativ daş hasara alınıb, həyətdə su anbarı, qazanxana tikilib, transformator yarımstansiyası quraşdırılıb, əyləncə meydançası yaradılıb.*

*Körpələr evi-uşaq bağçasında 31 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.*

## Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Yeni Azərbaycan*

*Partiyası (YAP) Tərtər rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişlər.*

*Azərbaycan Prezidenti rəmzi açılışı bildirən lenti kəsdi və bina ilə tanış oldu.Məlumat verildi ki, binanın inşasına 2014-cü ildə başlanılıb və bu ilin avqustunda başa çatdırılıb. Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin həyat və fəaliyyətlərini, həmçinin YAP-ın müxtəlif tədbirlərində iştiraklarını əks etdirən fotolardan ibarət guşələr yaradılıb.*

*Binanın foyesində «Rəşadətli Azərbaycan Ordusu» fotostendi quraşdırılıb. Fotostenddə erməni işğalçılarının təxribatları zamanı dinc əhaliyə, onların əmlakına, həmçinin təsərrüfatlarına dəyən ziyanı əks etdirən fotolar var. Stenddəki fotolar aprel döyüşlərində düşmənə layiqli cavab verən Azərbaycan Ordusunun qüdrətini, həmçinin prezident, Ali Baş Komandan İlham Əliyevin bu hadisələr zamanı xalqın və ordunun yanında olduğunu, onlara dəstəyini nümayiş etdirir.*

*Məlumat verildi ki, binanın ümumi sahəsi 510 kvadratmetrdir. İkimərtəbəli binada 50 yerlik iclas zalı, iş və texniki otaqlar yaradılıb. Təşkilatın qadınlar şurasının və gənclər birliyinin fəaliyyəti üçün binada hər cür şərait var.Yeni Azərbaycan Partiyası Tərtər rayon təşkilatının 5875 üzvü var. Partiyanın üzvləri rayonun ictimai-siyasi həyatında fəal iştirak edərək, Tərtərin sosial-iqtisadi inkişafı istiqamətində icra olunan layihələrin reallaşmasına töhfə verirlər.*

*YAP-ın proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsidir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq, mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirmiş olur.*

## AĞDAM RAYONUNA SƏFƏR

*3 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Tərtərə səfəri başa çatdırdıqdan sonra Ağdam rayonuna gəlmişlər.*

*Dövlətimizin başçısı və xanımı xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağdam rayonunun Quzanlı qəsəbəsində ucaldılmış abidəsinin önünə gül dəstələri qoydular.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya son vaxtlar rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verildi.*

*Bildirildi ki, Ağdam rayonunda geniş bərpa və yenidənqurma işləri davam etdirilir. Sosialtəyinatlı layihələrin icrası diqqət mərkəzində saxlanılır, yol infrastrukturunun yaradılması ilə bağlı tədbirlər görülür. Bundan əlavə, rayonun müxtəlif kəndlərində həm məktəb, həm də uşaq bağçalarının tikintisi və yenidən qurulması həyata keçirilir.*

*Dövlətimizin başçısına və xanımına gələcəkdə Ağdamda inşası nəzərdə tutulan istehsaltəyinatlı müəssisələr barədə də məlumat verildi.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Ağdam rayonunun Quzanlı qəsəbəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişlər.*

*Xalqımızın tarixində müstəsna xidmətləri olan ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizdə silsilə tədbirlər həyata keçirilir. Ağdam rayonunun Quzanlı qəsəbəsində yeni inşa olunan Heydər Əliyev Mərkəzi də bu tədbirlərin ardıcıl xarakter aldığını nümayiş etdirir. Bu,*

*Ağdam sakinlərinin dahi rəhbərin xatirəsinə dərin ehtiramının əlamətidir.*

*Yeni Mərkəzin yaradılması həm də ulu öndər Heydər Əliyevin zəngin və çoxşaxəli siyasi və dövlətçilik irsinin təbliğində mühüm rol oynayır. Mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Burada dünyanın nüfuzlu siyasi xadimlərindən biri olan Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, ağır böhran keçirən ölkə iqtisadiyyatının inkişaf yoluna çıxarılması və ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolar və sənədlər nümayiş olunur. Belə mərkəzlər əsası Heydər Əliyev tərəfindən qoyulan və hazırda uğurla davam etdirilən inkişaf strategiyasının mahiyyətinin öyrənilməsinə real zəmin yaradır.*

*Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mərkəzlə tanışlıq zamanı dövlətimizin başçısına və xanımına məlumat verildi ki, ümumi sahəsi 1900 kvadratmetr olan binanın inşası yüksək səviyyədə həyata keçirilib. Mərkəzdə ulu öndərin mənalı həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar nümayiş olunur. Burada ulu öndərin həyat və fəaliyyətinə dair tarixi sənədlərə də geniş yer verilib. Ümummilli liderin uşaqlıq, gənclik və tələbəlik illəri, həmçinin sovet dövrünə və müstəqillik illərinə aid müxtəlif fotoları maraqla qarşılanır. Bu fotolarda ümummilli lider Heydər Əliyevin istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik edərkən ölkəmizin inkişafına xüsusi diqqət göstərməsi dolğun əksini tapıb. Dahi şəxsiyyətin hakimiyyətdə olduğu illərdə bölgələrimizə, o cümlədən Ağdama səfərləri bunun bariz nümunəsidir.*

*Ulu öndərin ölkədəki müxtəlif obyektlərin açılışında iştirakı, ictimaiyyətin nümayəndələri, ziyalılar və zəhmətkeşlərlə görüşlərinin əks olunduğu fotolar da maraq doğurur. Rəqs zalı-*

*nın, kompüter otağının, xalçaçılıq dərnəyinin, elektron kitabxananın yaradıldığı Heydər Əliyev Mərkəzində müxtəlif tədbirlərin keçirilməsi üçün 130 yerlik iclas zalı vardır. Bundan əlavə, mərkəzdə 3D kinozalı, 20 nəfərlik konfrans zalı, rəsm otağı, kompüterlərlə və ən müasir avadanlıqlarla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərir.*

*Mərkəzdə şanlı ordumuzun aprel döyüşləri zamanı qəhrəmanlığını əks etdirən fotoguşə də yaradılıb. Fotoşəkillərdə Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatları zamanı göstərdiyi şücaət və mərdlik əks olunub.*

*Son vaxtlar Heydər Əliyev mərkəzlərində yeni ailə quran gənclərin nikah mərasimlərinin təşkili kimi xoşməramlı tədbirlər də keçirilir. Ağdamdakı Heydər Əliyev Mərkəzində də bu məqsədlə vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı otağı yaradılıb. Burada nikah bağlayan gənclərin qanunvericiliklə müəyyən edilmiş qaydada tibbi müayinəsi və onlara tibbi arayışın verilməsi həyata keçiriləcək.*

*Sonda xatirə şəkli çəkdirildi.*

## Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Ağdam rayonunun Quzanlı qəsəbəsində yeni inşa edilmiş Bayraq Muzeyinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı muzeyin binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Ötən əsrin əvvəllərində Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağın yenidən Azərbaycanın müstəqillik rəmzinə çevrilməsi ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində mümkün olub. Azərbaycanın müstəqilliyinin bərpasından sonra milli bayrağımız ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qaldırılıb. İndi bu bayraq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında, mötəbər mərasimlərdə dalğalanır və hər bir azərbaycanlı Dövlət*

*bayrağını özünün qürur mənbəyi hesab edir. Bu mühüm amili şərtləndirən əsas səbəblərdən biri də prezident İlham Əliyevin dövlət atributlarımıza xüsusi ehtiramla yanaşmasıdır. Fərəhli haldır ki, paytaxt Bakıdan sonra əksər bölgələrimizdə də üç-rəngli bayrağımızın şərəfinə muzeylər yaradılır, xüsusi layihələr həyata keçirilir.*

*Muzeylə tanışlıq zamanı prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, inşaat işləri cari il ərzində həyata keçirilib. Muzeyin ümumi sahəsi 300 kvadratmetr olan binasında 146 eksponatın sərgilənməsi üçün hər cür şərait yaradılıb. Bayraq Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraqları, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur.*

*Muzeydə müstəqillik dövrümüzün tarixi hadisələrinə də geniş yer verilib. Bütün bunlar Ağdam gənclərində və rayona gələn qonaqlarda şanlı tariximiz haqqında geniş təsəvvür yaratmağa imkan verir. Bu həm də cəbhə bölgəsində yaşayan soydaşlarımızda, xüsusilə də gənc nəsildə vətənpərvərlik hisslərinin daha da güclənməsinə xidmət edir.*

## Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə tikiləcək Muğam Mərkəzinin təməlqoyma mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 3-də Ağdam Muğam Mərkəzinin təməlqoyma mərasimində iştirak etmişlər.*

*Ağdam Muğam Mərkəzi Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə tikiləcək.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, mərkəzin tikintisi üçün Ağdam Rayon İcra Hakimiyyəti tərəfindən Xındırıstan–Quzanlı avtomobil yolunun kənarında böyük torpaq sahəsi ayrılıb. Mərkəzin binasının ümumi sahəsi 1800, ümumi daxili sahəsi isə 1580 kvadratmetr olacaq. Ərazidə 60 avtomobil*

*üçün dayanacaq tikiləcək. Binada 328 yerlik zal, foye, qalereya, dekorasiya, qrim, gözləmə və dərs otaqları yaradılacaq.*

*Xalqımızın zəngin milli-mənəvi sərvəti olan muğamın təbliğinə və onun yaşadılmasına xidmət edəcək bu mühüm layihə ölkəmizdə musiqi mədəniyyətinin inkişafına öz töhfəsini verəcək.*

*Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin təməlini qoydu və mərkəzin inşasının keyfiyyətlə və vaxtında başa çatdırılması ilə bağlı tapşırıqlarını verdi.*

## ZİYAN DƏYMİŞ EVLƏRİN TİKİNTİSİ VƏ BƏRPASI İŞLƏRİ İLƏ TANIŞLIQ ZAMANI AĞDAM RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Ağdamın Mahrızlı kəndində mövcud vəziyyətlə maraqlanmışlar.*

*Bu ilin aprelində Ermənistan silahlı qüvvələrinin cəbhənin təmas xəttində törətdiyi təxribat nəticəsində mülki obyektlərə, evlərə ciddi ziyan dəymişdi. Dövlətimizin başçısı əhaliyə dəyən ziyanın aradan qaldırılması, evlərin bərpası və yenidən qurulması ilə bağlı tapşırıqlarını verdi. Ordumuzun aprel döyüşlərində qazandığı parlaq qələbə insanlarda böyük ruh yüksəkliyi yaratmış, onlar da Ali Baş Komandanın rəhbərliyi altında hər an doğma torpaqlar uğrunda mübarizəyə qalxmağa hazır olduqlarını bildirmişlər. Sakinlərin hərbi əməliyyatlar zamanı dağıdılmış evləri artıq qısa vaxtda yenidən tikilib və bərpa olunub.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Mahrızlı kəndində Bakir Hüseynovun yeni tikilmiş evinə baş çəkdilər.*

*Hərbi əməliyyatlar zamanı Ağdam rayonunda ümumilikdə 743 ev dağıdılıb. Ermənistan silahlı qüvvələrinin Ağdam və Tərtər rayonlarını intensiv atəşə tutması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında dövlət başçımızın müvafiq sərəncamı və Prezidentin ehtiyat fondundan ayrılan vəsait hesabına görülən tədbirlər nəticəsində 5-i üçotaqlı, 3-ü dördotaqlı olmaqla, 8 ev yenidən tikilib, 15 ev tamamilə bərpa olunub, 27 ev əsaslı təmir edilib, 693 evdə cari tə-*

*mir işləri görülüb. Bundan əlavə, 1 məktəb və 2 uşaq bağçasında əsaslı təmir işləri həyata keçirilib.*

*Sonra Azərbaycan Prezidenti və xanımı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan prezidenti İlham Əliyevin çıxışı**

Biz elə bu həyətdə may ayının 1-də görüşmüşdük. O vaxt burada evlər dağıdılmışdı, mənzərə çox acınacaqlı idi. Bu gün isə, 7 ay keçəndən sonra, artıq yeni tikilmiş evə baxırıq. Azərbaycan dövləti qısa müddət ərzində lazım olan bütün tədbirləri görüb. Təkcə Ağdam rayonunda 700-dən çox ev yenidən tikilib, əsaslı bərpa edilib və cari təmir işləri aparılıb.

Mən mayın 1-də burada olarkən demişdim ki, vətəndaşlar narahat olmasınlar, Azərbaycan dövləti bütün lazımi işləri görəcək. Belə də oldu, yararsız vəziyyətdə olan bütün evlər, binalar 6-7 ay ərzində bərpa edildi. Ağdam rayonunda 700-dən çox, Tərtər rayonunda 250-yə yaxın ev təmir edildi və tikildi. Cəmi 6-7 ay ərzində. Bu, ilk növbədə, dövlətimizin gücünü göstərir ki, biz bunu etməyə qadirik. Digər tərəfdən, apardığımız siyasətin nəticəsidir, onun təzahürüdür. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və dövlət həmişə öz vətəndaşını qoruyur, onun problemlərini həll etməyə çalışır. Bir neçə ay ərzində belə geniş quruculuq işlərinin aparılması bir daha bizim siyasətimizi göstərir.

O vaxt biz burada olarkən, aprel döyüşlərindən cəmi 1 ay keçmişdi. Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir. Azərbaycan dövləti, Azərbaycan xalqı, Azərbaycan Ordusu bir daha öz gücünü göstərdi – həm vətəndaşlar, həm hərbçilər. Hərbçilər döyüş meydanlarında qəhrəmanlıq, şücaət göstərdilər, düşmənə layiqli cavab verdilər, işğal edilmiş ərazilərimizin bir hissəsini azad etdilər. Vətəndaşlar isə burada, bu yerdə, o vaxt dağılmış bu evin önündə möhkəm dayanaraq, düşmənə Azərbaycan xalqının iradəsini göstərdi. Göstərdi ki, Azərbaycan

xalqı heç nədən qorxmur. Azərbaycan xalqı öz vətənində yaşayır və yaşayacaq. Cəbhəyanı bölgələrdə yaşayan vətəndaşların bir nəfəri yerindən tərpənmədi. Ermənilər işğal edilmiş torpaqlarımızın bir hissəsindən qaçıb getdilər, amma biz dayandıq, çünki biz öz torpağımızdayıq. Onlar isə başa düşürlər ki, öz torpaqlarında yaşamırlar.

Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Bizim tarixi torpaqlarımız təkcə Dağlıq Qarabağın ərazisi deyil, İrəvan, Göyçə, Zəngəzur bizim tarixi coğrafiyamızdır, tarixi torpaqlarımızdır. Ermənistan vaxtilə bizim o torpaqlarda qanunsuz olaraq dövlət qurub, indi də bizim torpağımızda ikinci dövlət qurmaq istəyir. Azərbaycan xalqı heç vaxt buna imkan verməyəcək, aprel döyüşləri bir daha bunu göstərdi. Onu göstərdi ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, biz güclü dövlətik, güclü ordu yaratmışıq. Azərbaycan bu gün dünya miqyasında böyük hörmətə malik olan ölkələrdən biridir və Azərbaycan vətəndaşları öz torpaqlarını qorumağa qadirdirlər.

Ona görə bir daha demək istəyirəm ki, aprel döyüşlərində qələbəmiz bizim – həm dövlətimiz, həm dövlətin bir qolu olan ordumuz, həm də vətəndaşlarımız üçün qəhrəmanlıq səhifəsidir. Bax, bu birlik bizdə var və əgər vətəndaşlar o vaxt bu qədər cəsarət göstərməsəydilər, əlbəttə, bu, işimizə də mənfi təsir göstərə bilərdi. Vətəndaşlar öz cəsarəti ilə hərbçilərimizə əlavə güc, inam verdilər. Hərbçilərimiz də bilirdilər ki, arxada Azərbaycan vətəndaşları yaşayır, onlar vətəndaşları qorumalıdırlar.

Ermənistanın siyasi rəhbərliyi növbəti dəfə öz çirkin və eybəcər sifətini göstərdi. Necə ki, keçən əsrin 90-cı illərinin əvvəllərində onlar mülki əhaliyə qarşı qəddarlıq, cinayət törətmişdilərsə, bu dəfə də döyüş meydanlarından qorxaraq qaçan, öz məğlubiyyətini etiraf edən Ermənistan rəhbərliyi göstəriş verdi ki, mülki əhaliyə qarşı cinayət törədilsin. Biz heç vaxt mülki əhaliyə qarşı heç bir əməliyyat aparmamışıq. Bizim problemimiz işğalçı qüvvələrlədir. Onlar isə görəndə ki, artıq

duruş gətirə bilmirlər, başladılar bizim kəndləri bombalamağa. Ümid edirdilər ki, bizim vətəndaşlar bundan narahat olaraq, bu bölgələri tərk edəcəklər. Alınmadı. Çünki Azərbaycan xalqı qəhrəman xalqdır. Siz – bax, burada yaşayan, aprel hadisələrində buradan tərpənməyən vətəndaşlar bizim qürur mənbəyimizsiniz, biz sizinlə fəxr edirik.

Ağdamlılar birinci Qarabağ müharibəsində böyük fədakarlıq, rəşadət göstərmişlər. Ən çox şəhid verən Ağdam rayonu olmuşdur. Siz bu dəfə də – aprel hadisələrində də böyük qəhrəmanlıq, rəşadət göstərmisiniz. Bütün Azərbaycan xalqı bunu bilir və sizinlə fəxr edir.

Bu gün isə tarixi bir gündür. Ona görə ki, o vaxt dağıdılmış evin yerində yenidən bu gözəl evin tikilməsi, digər evlərin tikilməsi, bərpası çox rəmzi məna daşıyır. Bu bizim növbəti qələbəmizdir. Ermənilər Dağlıq Qarabağda zəbt etdikləri torpaqlardan qaçaraq, orada nəinki binaları təmir edə, heç cürət edib o yerlərə qayıda bilmirlər. Biz isə bütün bu işləri qısa müddət ərzində gördük. Nəyə görə? Çünki biz xalqımızın rifah halının yaxşılaşması üçün əlimizdən gələni edirik. Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır. Azərbaycan dövləti həmişə, bütün zamanlarda xalqın yanındadır, onun arxasındadır. Əvvəlki illərdə də təbii fəlakətlər olub, zəlzələlər, daşqınlar baş verib. O hadisələr vaxtı da Azərbaycan dövləti vəsait ayırırdı. Həmin vəsait hesabına bütün evlər – minlərlə, bəlkə də on minlərlə ev bərpa edildi, yenidən tikildi. Bu dəfə də təkcə Tərtər və Ağdam rayonlarında 1000-dən çox ev təmir edildi və tikildi.

Ağdam rayonunun uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Çünki Ağdam rayonunun böyük hissəsi işğal altındadır və bizim nəzarətimizdə olan ərazilərdə quruculuq, abadlıq işləri aparılmalıdır. Son illər ərzində Ağdamda 18 köçkün qəsəbəsi tikilib. Artıq 10 ilə yaxındır ki, Azərbaycanda qaçqın-köçkün şəhərciyi anlayışı yoxdur. Bu gün Ağdamda 90 mindən çox əhali yaşayır. Bu da çox yaxşı, sevindirici haldır. Digər bölgələrdə məskunlaşmış vətəndaşlar

qayıdır. Onlar üçün şərait yaradılır. İstərdim ki, daha çox ağdamlı qayıtsın. Dövlət öz dəstəyini göstərəcək.

Burada iqtisadi inkişafla bağlı addımlar atılır. Xüsusilə kənd təsərrüfatı ilə bağlı. İnfrastruktur layihələri icra edilir. Bir neçə böyük kənd yolu layihəsi artıq icra olunub. Növbəti mərhələdə qalan layihələr icra ediləcək. Qazlaşdırma Ağdamda təxminən 100 faiz səviyyəsindədir. Ağdam rayonu bu göstəriciyə görə respublika üzrə bəlkə də ilk sıralardadır. Ağdam üçün xüsusi proqram nəzərdə tutulmuşdu və şadam ki, bu, icra edildi.

Digər infrastruktur layihələrinin icrası da gündəlikdədir. Növbəti mərhələdə suvarma ilə bağlı addımlar atılacaq. Yeni əkin sahələrini dövriyyəyə cəlb etmək üçün praktiki addımlar atılır. Siz bilirsiniz ki, indi kənd təsərrüfatının inkişafı bizim üçün ən prioritet məsələlərdən biridir. Pambıqçılıq, baramaçılıq, taxılçılıq istiqamətində çox ciddi addımlar atılır. Gözəl də nəticələr var. Növbəti illərdə nəticələr daha da yaxşı olacaq. Çünki gələn il Ağdam rayonunda 3000 hektarda pambıq əkiləcək. Baramaçılıq üçün tut tingləri dövlət tərəfindən alınıb gətirilir və insanlara verilir. İş yerlərinin, yeni istehsalat sahələrinin yaradılması təmin ediləcək. Kənd təsərrüfatı texnikası, gübrələr, yanacaq verilir. Bütün lazımi addımlar atılır. Sahibkarlara kreditlər verilir ki, bu istiqamətdə inkişaf daha da sürətli olsun. Biz nəinki öz tələbatımızı daxili istehsal hesabına təmin etməliyik, həmçinin böyük ixracla xarici bazarlara da çıxmalıyıq. Biz buna nail olacağıq.

Yenə də deyirəm, bu gün çox əlamətdar, tarixi bir gündür. Çünki biz bu evin timsalında güclənən Azərbaycanı və onun mətin vətəndaşını görürük.

Mən bir daha sizə minnətdarlığımı bildirmək istəyirəm ki, siz o ağır günlərdə xalqa, dövlətə olan sədaqətinizi göstərmisiniz, qəhrəmanlıq göstərmisiniz. Bilin ki, Ağdam rayonunun inkişafı daim diqqət mərkəzindədir. Sizi bir daha salamlayır və təbrik edirəm.

* * *

**N ə z a k ə t M ə m m ə d o v a** *(139 saylı Ağdam məktəbinin direktoru):* Möhtərəm cənab Prezident, xoş gəlmisiniz! Sizi Qarabağ torpağında, Ağdam torpağında görməkdən sonsuz qürur hissi duyuruq. İnanın səmimiyyətimizə, bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Çünki Siz yenidən vaxt tapıb rayonumuza təşrif buyurmusunuz.

Cənab Prezident, bir Ali Baş Komandan kimi, aprel hadisələri zamanı cəbhə bölgəsinə ömür-gün yoldaşınız Mehriban xanımla səfərinizlə bir daha sübut etdiniz ki, Siz bizim arxamız, dayağımızsınız. Həmin səfər insanlarda inam, dəyanət hissini, əsgərlərimizdə isə döyüş əzmini qat-qat artırdı. Bunun nəticəsində düşmən öz layiqli cavabını aldı. Xalqımız, millətimiz bildi ki, onun önündə məhz Prezidenti, dövləti durur. Elə buna görə də heç kəs öz doğma yurd-yuvasından, ev-eşiyindən bir an olsun belə, ayrılmadı.

Cənab Prezident, biz Sizə və Mehriban xanıma sonsuz təşəkkürümüzü bildiririk. Çünki aprel döyüşləri zamanı dağıdılmış evlərimiz, obyektlərimiz Sizin sayənizdə yenidən bərpa olundu. Mən üzümü Mehriban xanıma tutaraq deyirəm: gərək öz ölkəni, Vətənini nə qədər çox sevəsən, tanıyasan ki, onun tarixi-mədəni irsini, mədəniyyətini dünyada bu qədər yüksək səviyyədə tanıda biləsən. Heydər Əliyev Fondunun prezidenti kimi, Sizin təşəbbüsünüzlə muğamın beşiyi olan Ağdamda bu gün Muğam Mərkəzinin təməlinin qoyulması da bu istiqamətdə atdığınız vacib addımlardan biridir.

Cənab Prezident, bizim müqəddəs bir arzumuz var – işğal olunmuş torpaqlarımıza tezliklə qayıtmaq! Biz əminik ki, o gün heç də uzaqda deyil.

Mən bir daha ağdamlılar adından Sizə, əzizimiz Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun ki, gəldiniz, bizə, ağdamlılara bu cür isti münasibət göstərdiniz. Qoy bütün qələbələr və qalibiyyətlər Sizin olsun! Allah sizləri qorusun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

**ÖZBƏKİSTAN RESPUBLİKASININ**
**YENİ SEÇİLMİŞ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ**

Hörmətli Şavkat Miromonoviç!

Özbəkistan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, birgə səylərimiz xalqlarımızın mənafeləri, regionda sülh, sabitlik və təhlükəsizlik naminə Azərbaycan ilə Özbəkistan arasında strateji tərəfdaşlığın, hərtərəfli əməkdaşlığın və çoxsahəli qarşılıqlı fəaliyyətin daha da inkişaf etdirilməsinə və möhkəmlənməsinə yönələcəkdir.

Hörmətli Şavkat Miromonoviç, Sizə möhkəm cansağlığı, firavanlıq və qardaş Özbəkistan xalqının rifahı naminə dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2016-cı il*

## SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, DAXİLİ İŞLƏR NAZİRİ NEBOYŞA STEFANOVİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Serbiya Respublikası Baş nazirinin müavini, Daxili İşlər naziri Neboyşa Stefanoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Serbiyanın Baş nazirinin müavini, Daxili İşlər naziri Neboyşa Stefanoviçin Azərbaycana səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın müzakirəsi və ikitərəfli əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlərin nəzərdən keçirilməsi üçün səmərəli olacağına əminliyini bildirdi. Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev yüksək səviyyəli qarşılıqlı səfərləri və digər təmasları ölkələrimiz arasında dostluq əlaqələrinin yaxşı göstəricisi kimi dəyərləndirdi. Azərbaycan ilə Serbiyanın bir çox sahələrdə əməkdaşlıq etdiyini bildirən dövlətimizin başçısı bu əməkdaşlığın inkişafında ölkəmizin maraqlı olduğunu dedi. Ölkələrimizin beynəlxalq təşkilatlarda da bir-birinə daim dəstək verdiklərini vurğulayan prezident İlham Əliyev tərəfdaşlıq əlaqələrimizin gücləndirilməsi baxımından bunun əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan və Serbiya arasında ikitərəfli əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Serbiya Respublikası Baş nazirinin müavini, Daxili İşlər naziri Neboyşa Stefanoviç Azərbaycanda onlara göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirərək, ölkəmizin və Bakının xüsusilə son illərdəki inkişafının onlarda böyük təəssürat yarat-*

*dığını dedi. Ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın zəruriliyini vurğulayan qonaq bu səfərin əlaqələrimizin inkişafı ilə bağlı konkret işlər görmək üçün yaxşı imkan yaratdığını dedi. Hazırda dünyada terrorizmin geniş yayıldığını təəssüflə qeyd edən Serbiyanın Baş nazirinin müavini, Daxili İşlər naziri Neboyşa Stefanoviç terrorizmə və mütəşəkkil cinayətkarlığa qarşı birgə mübarizənin əhəmiyyətindən danışaraq, ölkələrimizin müvafiq qurumları arasında qarşılıqlı informasiya mübadiləsinin və treninqlərin keçirilməsinin əməkdaşlığımızın gücləndirilməsi baxımından önəmini vurğuladı.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ TİCARƏT NAZİRİ XÜRRƏM DASTGİR XAN İLƏ GÖRÜŞ

*5 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Pakistan İslam Respublikasının Ticarət naziri Xürrəm Dastgir Xanı qəbul etmişdir.*

*Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseynin və Baş nazir Məhəmməd Nəvaz Şərifin ölkəmizə səfərlərini məmnunluqla xatırladan dövlətimizin başçısı hər iki səfərin uğurlu və məhsuldar olduğunu vurğulayaraq, bu səfərlərin ölkələrimiz arasında mövcud qardaşlıq əlaqələrinin gücləndirilməsi baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev qarşılıqlı ticarətin səviyyəsinin inkişaf etdirilməsi, sərmayə qoyuluşu və biznes imkanlarının müəyyənləşdirilməsi üçün ölkələrimizin müvafiq nazirliklərinin praktik səviyyədə görüşlər keçirməsi üçün də yaxşı fürsət yarandığını dedi.*

*Ölkəsinin Baş naziri Məhəmməd Nəvaz Şərifin Azərbaycana səfərindən məmnun olduğunu vurğulayan Pakistan İslam Respublikasının Ticarət naziri Xürrəm Dastgir Xan Baş nazirin Azərbaycanda ona göstərilən qonaqpərvərliyə görə prezident İlham Əliyevə minnətdarlığını çatdırmağı xahiş etdiyini dedi. Pakistanlı nazir ölkəsinin Baş naziri Məhəmməd Nəvaz Şərifin ölkəmizə səfərindən dərhal sonra onun tapşırığı ilə Azərbaycana səfər etdiyini və ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı üzərində işləməli əhəmiyyətli məsələlərin olduğunu vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında enerji, ticarət əlaqələrinin genişləndirilməsi, kənd təsərrüfatı, əczaçılıq və toxuculuq sənayesi sahələrində əməkdaşlığın önəmi qeyd olundu.*

# RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN REGİONAL DATA VƏ BEYNƏLXALQ KOMMUTASİYA MƏRKƏZLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*5 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 5-də Bakıda Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Regional Data və Beynəlxalq Kommutasiya mərkəzlərinin açılışı mərasimində iştirak etmişlər.*

*Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə dövlətimizin başçısına və xanımına məlumat verdi ki, Regional Data Mərkəzinin və İP əsaslı Beynəlxalq Kommutasiya Mərkəzinin operatoru 2015-ci ilin iyun ayında yenidən strukturlaşdırılaraq, adı dəyişdirilən «AzInTelecom» Məhdud Məsuliyyətli Cəmiyyətidir. Qurumun inzibati binası ən müasir standartlara uyğun şəkildə yenidən qurulub. Yeni binada əməkdaşların fəaliyyəti üçün lazımi şərait yaradılıb. Binanın yerləşdiyi ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb.*

*İnzibati binanın girişində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə rabitə və yüksək texnologiyalar sektoruna hərtərəfli qayğılarını əks etdirən fotoguşələr yaradılıb.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni yaradılan Data Mərkəzinin fəaliyyəti ilə tanış oldular.*

*Qeyd edək ki, müasir dünya standartlarına cavab verən Data Mərkəzi «Tier-3» beynəlxalq sertifikatına layiq görülüb. Mühafizə olunan obyekt statusuna malik Data Mərkəzi ölkə və region səviyyəsində kompleks İT xidmətləri göstərir və ən son texniki göstəricilərə malik baza əsasında müştərilərə fərdi həllər təklif edir. Fasiləsiz iş rejimində məlumatların təhlükəsiz-*

*liyinin nəzarətlə tam təmin olunması, şirkətlərin konkret tələblərinə cavab verən, ehtiyac yarandıqda onlara infrastruktur əldə etməyə imkan yaradan virtual və ayrılmış serverlərin, həmçinin optimallaşdırılmış şəbəkənin qurulması Data Mərkəzinin çoxsaylı üstünlüklərindəndir. Bu isə öz növbəsində, şirkətlərə kapital xərclərini sıfıra endirməyə, istismar xərclərini isə 30–40 faiz azaltmağa imkan yaratmaqla yanaşı, məhsuldarlığı artıraraq, biznesin dayanıqlılığına öz töhfəsini verəcək.*

*Data Mərkəzi «bulud» əsaslı İT həllər, eləcə də beynəlxalq trafik və sertifikatlaşdırma ilə bağlı digər xidmətlər də təqdim edir. Həmin mərkəz vasitəsilə şəbəkələrarası sərhəd qoşulma nöqtələrində siqnal protokollarının ötürülməsinə, media-kanalların keyfiyyətinə, paketlərin gecikməsi və itməsinə də nəzarət həyata keçirilir. Mərkəz mobil şəbəkə üzrə daşınan mobil nömrələrə daxil olan zəngləri daşınmanı həyata keçirən operatorun şəbəkəsinə terminasiya edir, eləcə də sifarişçilərin istəklərinə uyğun olaraq, müxtəlif tarif paketlərinin tətbiqi, silsilə servislərin idarə edilməsinə də təminat yaradır. Yeni Data Mərkəzi həm respublikamızda informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafını, həm də ölkənin informasiya sistemlərinin qlobal informasiya məkanına inteqrasiyasını sürətləndirəcək, innovasiyalara şərait yaradacaq və dövrümüzün ən müasir texnologiyası hesab olunan «bulud» texnologiyalarının dövlət və özəl sektorlarda tətbiqinə təkan verəcəkdir. Ən əsası, prezident İlham Əliyevin rabitə və yüksək texnologiyalar sektoruna hərtərəfli diqqət və qayğısının məntiqi nəticəsi olaraq, öz etibarlı və qüsursuz infrastrukturu ilə Data Mərkəzi regional informasiya mərkəzinə, Bakı isə regionun məlumat paytaxtına çevrilir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, yeni mərkəzlərin təhlükəsiz, etibarlı və səmərəli fəaliyyəti üçün ən müasir texnologiyalar və avadanlıqlar tətbiq edilib.*

*Dövlətimizin başçısı və xanımı Beynəlxalq Kommutasiya Mərkəzinin fəaliyyəti ilə də tanış oldular.*

*Azərbaycan Prezidentinə mərkəzin imkanları barədə məlumat verildi. Qeyd olundu ki, bu sahə üzrə əldə edilmiş uğurlar-*

*dan biri də trafik analizlərinin optimallaşdırılması məqsədilə İP əsaslı kommutasiya platformasında beynəlxalq kommutasiya stansiyasının yaradılmasıdır. Beynəlxalq Kommutasiya Mərkəzi giriş və çıxış zənglərinin monitorinqinin təkmilləşdirilməsini, analoq və ya rəqəmli kommunikasiya kanalında bir neçə siqnalın və ya sürət-bit axınının olduğu kimi verilməsini mümkün edir. Bu platformadan istifadə edərək, əhali və biznes sektoru üçün səs, video, data, SMS və digər müxtəlif telekommunikasiya və multimedia xidmətlərinin göstərilməsi təmin olunacaq. Burada çoxlu sayda istifadəçinin kommunikasiya əlaqəsi TDM adlandırılan cihaz vasitəsilə yüksəksürətli lif əlaqələr üzərindən qarşı stansiyaya ötürülür ki, bu da son müştərinin heç bir maneəsiz, kəsintisiz, yüksək etibarlı xidmətlər almasına və əməliyyatlar aparmasına zəmin yaradır.*

*Daha sonra dövlətimizin başçısı və xanımı Beynəlxalq Kommutasiya və Regional Data mərkəzlərinin yerləşdiyi «AzInTelecom» Məhdud Məsuliyyəti Cəmiyyətin inzibati binasındakı iş şəraiti və maddi-texniki baza ilə tanış oldular.*

*Prezident İlham Əliyev həyata keçirilən dövlət siyasətinin səmərəliliyinin artırılması üçün ölkəmizdəki bütün qurumlarda iş şəraitinin əsaslı surətdə yaxşılaşdırılmasını və ən müasir standartlara uyğunlaşdırılmasını prioritet vəzifələrdən biri kimi qarşıya məqsəd qoyub. Ən son elmi-texniki yeniliklərə əsaslanan informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə də xüsusi diqqət yetirilir.*

*«AzInTelecom» Məhdud Məsuliyyətli Cəmiyyətin iclas salonu da müasirliyi ilə diqqət çəkir. Burada ən son elmi-texniki yeniliklərə əsaslanan avadanlıqlar geniş tətbiq olunub.*

*İclas salonunda «AzInTelecom» Məhdud Məsuliyyətli Cəmiyyət və yeni yaradılan mərkəzlərlə bağlı təqdimat keçirildi. Prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycan ilə xarici ölkələr arasında mübadilə olunan beynəlxalq trafikin analizi, ölkəmizə idxal edilən telekommunikasiya vasitələrinin sertifikatlaşdırılması və yeni yaradılan Data Mərkəzi nəzdində kompleks informasiya texnologiyaları xidmətlərinin göstərilməsi*

*«AzInTelecom» MMC-nin başlıca fəaliyyət istiqamətləridir. Həmin qurum tərəfindən tətbiq edilən trafikin analizi xidməti Azərbaycan ilə dünya ölkələri arasında mübadilə olunan beynəlxalq telekommunikasiya xidmətlərinin yüksək keyfiyyətlə alternativliyinə təminat yaradır. Bundan başqa, həmin yenilik daha müasir xidmətlərin göstərilməsi və həcminin artırılmasına da imkan verir. Diqqətə çatdırıldı ki, informasiyaların idarə olunmasının düzgün şəkildə təmin edilməsi günün başlıca məsələlərindəndir. Bu prosesin təhlükəsiz və sərfəli qiymətlərlə həyata keçirilməsi də vacib şərtlərdəndir. Bu baxımdan lazımi xidmətlərin cəmləndiyi Data Mərkəzi mühüm əhəmiyyət kəsb edir. Təqdirəlayiq haldır ki, Cənubi Qafqaz regionunun «Tier-3» sertifikatlı yeganə Data Mərkəzi Azərbaycanda fəaliyyətə başlayıb. «Tier-3» kateqoriyasının əsas fərqləndirici xüsusiyyətlərinə mühəndis altsistemlərinin paralel fəaliyyəti, ehtiyat soyutma, ehtiyat enerji təminatı sistemləri və ehtiyat telekommunikasiya infrastrukturu daxildir. Ən başlıcası, «Tier-3» sertifikatlı Data Mərkəzinin bütün hallarda işləmə səviyyəsi 99,9 faizə bərabərdir. Müştərilər isə yalnız istifadə etdikləri resurslara görə ödəniş edəcəklər. Şirkətlər, digər iqtisadi qurumlar bu mərkəz vasitəsilə istədikləri infrastruktur tipli xidmətlərlə təmin olunacaqlar.*

*Respublikamızda bu xidmətlərin daha geniş tətbiqinin zəruriliyini vurğulayan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

*Sonda xatirə şəkli çəkdirildi.*

**TAİLAND KRALI ƏLAHƏZRƏT**
**MAHA VAÇİRALONQKORNA**

Əlahəzrət!

Tailandın Kralı kimi, taxta çıxmağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Tailand arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Tailand xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 dekabr 2016-cı il*

# RUSİYA FEDERASİYASININ DAXİLİ İŞLƏR NAZİRİ VLADİMİR KOLOKOLTSEV İLƏ GÖRÜŞ

*6 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Rusiya Federasiyasının Daxili İşlər naziri Vladimir Kolokoltsevi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları, Daxili İşlər nazirlikləri arasında uğurla inkişaf etdiyi bildirildi, bu sahədə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi qeyd olundu. Səfər zamanı Daxili İşlər nazirlikləri arasında qarşılıqlı fəaliyyət və əməkdaşlıqla bağlı məsələlərin müzakirə ediləcəyi vurğulandı, əlaqələrimizin gələcəkdə daha da möhkəmləndiriləcəyinə əminlik ifadə olundu.*

*Rusiya Federasiyasının Daxili İşlər naziri Vladimir Kolokoltsev ölkələrimizin daxili işlər orqanları arasında əməkdaşlığa göstərdiyi diqqətə görə prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. Azərbaycan–Rusiya–İran prezidentlərinin I Bakı Sammitinə toxunan Vladimir Kolokoltsev Sammitdə dövlət başçıları tərəfindən imzalanan Bəyannamənin qarşılıqlı faydalı əməkdaşlıq və birgə fəaliyyətlə bağlı məsələlərin müzakirəsi zamanı əlaqələrin inkişafı üçün əlavə stimul yaratdığını dedi.*

*Azərbaycan–Rusiya–İran prezidentlərinin I Bakı Sammitinin əhəmiyyətini yüksək qiymətləndirən prezident İlham Əliyev bu formatın artıq formalaşdığını və bunun eyni zamanda, regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi işinə istiqamətləndiyini dedi.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA**

Hörmətli cənab Prezident!

İndoneziyanın Açex vilayətində baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və irimiqyaslı dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 dekabr 2016-cı il*

## «EURONEWS» TELEKANALININ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN «BAKUTEL–2016» SƏRGİSİNDƏ İŞTİRAKI İLƏ BAĞLI REPORTAJI

*7 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da XXII Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları («Bakutel–2016») sərgisi ilə tanışlıq zamanı «Euronews» telekanalına ayaqüstü müsahibə vermişdir.*

*«Euronews» telekanalı dekabrın 7-də dövlətimizin başçısının müsahibəsi və «Bakutel–2016» sərgisi ilə bağlı reportaj yayımlayıb.*

*Reportajda «Bakutel–2016» sərgisinin əhəmiyyəti vurğulanır, Azərbaycan rabitəsinin yaranma tarixinə toxunulur. Qeyd edilir ki, regionda ən böyük sərgi olan «Bakutel» artıq 20 ildən çoxdur hər il öz meydançasına telekommunikasiya bazarının aparıcı şəxslərini və iştirakçılarını, həmçinin informasiya texnologiyaları istehsalçılarını toplayır. 135 il əvvəl Nobel qardaşları Bakıda ilk telefon xəttini çəkiblər. Azərbaycan rabitə sənayesinin yaranma tarixi o vaxtdan hesablanır.*

*Reportajda bildirilir ki, bu il artıq 22-ci dəfə keçirilən «Bakutel» sərgisində təxminən 20 ölkəni təmsil edən 200-dən çox şirkət, həmçinin 7 aparıcı korporasiya iştirak edir. Burada yalnız fikir deyil, eyni zamanda, ideya mübadiləsi aparılır.*

*Süjetdə prezident İlham Əliyevin sərgidə iştirakı xüsusi vurğulanır. Dövlətimizin başçısının sərginin iştirakçılarını, təşkilatçılarını və qonaqları salamladığı diqqətə çatdırılır.*

*Prezident İlham Əliyev «Euronews»a müsahibəsində vurğuladı ki, yaxın illərdə iqtisadiyyat neft və qazın hesabına yüksəlməyəcək. Ona görə yox ki, neft və qazın qiymətləri aşağı düşüb. Ona görə ki, iqtisadiyyatın digər sahələri – sənaye, turizm, xidmət, kənd təsərrüfatı və telekommunikasiya sənayesi, informasiya texnologiyaları sahəsi ilə bağlı digər sektorlar inkişaf edir. Artıq ənənəvi olaraq keçirilən bu sərgi Azərbaycanın regionda telekommunikasiya və informasiya texnologiyaları biznesi sahəsində liderlərdən biri olduğunu nümayiş etdirir.*

*Reportajda bildirilir ki, «Bakutel» sərgisində videooyunlar və virtual reallıqla bağlı sahələr üstünlük təşkil edir. Sərgi çərçivəsində «WorldShop» realiti market fəaliyyət göstərir. Burada ən populyar stendlərdən biri Azərbaycan paytaxtının küçələrində keçirilən «Formula-1» yarışlarına həsr olunmuş oyunun stendidir. Burada, həmçinin telekommunikasiya şəbəkəsi, simsiz rabitə, peyk rabitəsi və onunla bağlı texnologiyalar, informasiya texnologiyaları sahəsində ofis texnologiyaları, həmçinin 4G və 5G formatında mobil texnologiyaların ekspozisiyaları var.*

*Reportajın müəllifi sərginin beynəlxalq əhəmiyyətini xüsusi qeyd edərək dedi ki, informasiya texnologiyaları məhsullarının yeniliklərinin nümayişi üçün mühüm platforma olan «Bakutel» həm region, həm də bütün dünya üçün möhkəm işgüzar əlaqələrin qurulduğu əsas biznes meydançası statusunu qazanıb.*

## MƏRKƏZÇİ DEMOKRATLAR İNTERNASİONALININ PREZİDENTİ ANDRES PASTRANANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Mərkəzçi Demokratlar İnternasionalının prezidenti, Kolumbiyanın sabiq prezidenti Andres Pastrananın başçılıq etdiyi, Mərkəzçi Demokratlar İnternasionalının vitse-prezidenti Mario David və Mərkəzçi Demokratlar İnternasionalının Avrasiya, Asiya və Sakit okean regionu üzrə baş koordinatoru Sezar Rosellonun daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın Azərbaycana səfərinin səmərəli və maraqlı keçəcəyinə, bu səfərin əməkdaşlığa öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Mərkəzçi Demokratlar İnternasionalının prezidenti, Kolumbiyanın sabiq prezidenti Andres Pastrana qurumun həyata keçirdiyi işlər barədə məlumat verdi.*

*Görüşdə Mərkəzçi Demokratlar İnternasionalı ilə Azərbaycan, xüsusilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## KUBA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ALFREDO NİEVES PORTUONDO İLƏ GÖRÜŞ

*7 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Kuba Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Alfredo Nieves Portuondonun etimadnaməsini qəbul etmişdir.*

*Səfir Alfredo Nieves Portuondo Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Alfredo Nieves Portuondo etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlətimizin başçısı Kuba inqilabının rəhbəri Fidel Kastronun vəfatı ilə bağlı bir daha Azərbaycan xalqı adından başsağlığı verdi və bu hadisənin ölkəmizdə dərin kədər hissi ilə qarşılandığını bildirdi. Azərbaycanda Fidel Kastroya böyük rəğbət bəsləndiyini bildirən prezident İlham Əliyev Kuba xalqının bu dərin hüzn günlərində Kuba inqilabının rəhbərinin xatirəsinə göstərdiyi hörməti həmrəylik hissinin nümayişi kimi dəyərləndirdi.*

*Bu gün ölkələrimiz arasında siyasi, humanitar, idman sahələrində artıq yaxşı münasibətlərin formatının qurulduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanın Kuba ilə iqtisadi əlaqələrin və ticarət dövriyyəsinin artırılmasında və eləcə də səhiyyə sahəsində əməkdaşlıqda maraqlı olduğunu dedi. Prezident İlham Əliyev qeyd etdi ki, turizm sahəsində də əməkdaşlıq üçün yaxşı potensial mövcuddur. Kubada turizm biznesi çox fəal inkişaf edir və artıq bir çox Azərbaycan vətəndaşları Kubaya səfər edir, istirahətə gedir. Biz istəyirik ki, kubalılar da ölkəmizə gəlsin və Azərbaycanla yaxından tanış olsunlar.*

*Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.*

*Səfir Alfredo Nieves Portuondo Kuba inqilabının lideri Fidel Kastronun vəfatı ilə bağlı başsağlığına, onun xatirəsinə göstərilən ehtirama və Kuba xalqı haqqında deyilən xoş sözlərə görə minnətdarlığını bildirdi. Ölkələrimiz arasında iqtisadi, ticarət əlaqələrinin inkişaf etdirilməsinin önəminə toxunan səfir bunun üçün yaxşı imkanların olduğunu vurğuladı. O, dövlətimizin başçısını əmin etdi ki, diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərimizin inkişafı üçün səylərini əsirgəməyəcək.*

## MƏRAKEŞ KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MƏHƏMMƏD ADİL EMBARŞ İLƏ GÖRÜŞ

*7 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Mərakeş Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Məhəmməd Adil Embarşın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Məhəmməd Adil Embarş Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Məhəmməd Adil Embarş etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Prezident İlham Əliyev səfir Məhəmməd Adil Embarşın Azərbaycanda diplomatik fəaliyyəti müddətində ölkələrimiz arasında münasibətlərin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı ölkəmizin bu əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu vurğuladı. Azərbaycan və Mərakeşin beynəlxalq təşkilatlar çərçivəsində daim yaxından əməkdaşlıq etdiklərini, bir-birini dəstəklədiklərini bildirən prezident İlham Əliyev bunun artıq yaxşı bir ənənəyə çevrildiyini məmnunluqla qeyd etdi. Əməkdaşlığımıza dair digər sahələrin də müəyyənləşdirilməsinin zəruriliyini diqqətə çatdıran dövlətimizin başçısı xüsusilə qarşılıqlı ticarət səviyyəsinin çox aşağı olduğunu nəzərə çatdırdı, enerji, turizm və idxal-ixrac sahələrində də əməkdaşlığın önəmini vurğuladı. Prezident İlham Əliyev ölkələrimizin potensialı və ixrac imkanları nəzərə alınmaqla, ticarət dövriyyəsinin həcminin artırılmasının mümkünlüyünü bildirdi. Dövlətimizin başçısı ölkələrimiz arasında*

*dostluq münasibətlərinin möhkəmləndirilməsinin zəruriliyini qeyd etdi.*

*Səfir Məhəmməd Adil Embarş öz növbəsində, Mərakeşlə Azərbaycan arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu məmnunluqla qeyd etdi və ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə çatdırılması üçün əlindən gələni əsirgəməyəcəyini dedi. Məhəmməd Adil Embarş iqtisadi baxımdan bir çox istiqamətlərdə, xüsusilə enerji sahəsində əməkdaşlığın önəmindən bəhs etdi. Səfir ölkəsində Azərbaycana regionda əməkdaşlıq platforması kimi baxıldığını diqqətə çatdırdı, öz növbəsində, Mərakeşin də Afrika ölkələri ilə əlaqələrin qurulması üçün platforma rolu oynaya biləcəyini vurğuladı.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 dekabr 2016-cı il*

## YENİDƏN QURULMUŞ RAMANA–MAŞTAĞA AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*8 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Bakının Sabunçu rayonunda əsaslı şəkildə yenidən qurulmuş Ramana–Maştağa avtomobil yolunun açılışında iştirak etmişdir.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bu yol «Ramana–Maştağa avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında» prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, əsaslı şəkildə yenidən qurulub. Yolun asfalt-beton örtüyü uzun müddət yararsız vəziyyətdə olub. Ümumi uzunluğu 11 kilometr olan yolun texniki göstəriciləri görülən işlər nəticəsində müasir tələblər səviyyəsinə çatdırılıb. Yenidən qurulan yol Heydər Əliyev prospekti–Mərdəkan və Zabrat–Maştağa avtomobil yollarını birləşdirərək, bu ərazidə yeni bir yol infrastrukturu yaratmağa imkan verib.*

*Əvvəllər yolun hərəkət hissəsinin eni 6-7 metr idi. Tikinti işləri çərçivəsində yolun eni 10 metrə qədər genişləndirilib. 2 hərəkət zolaqlı yolun hər iki istiqamətində piyada səkiləri inşa olunub. Yolun 1,7 kilometrlik hissəsi isə yenidən layihələndirilərək, inşa edilib. Yenidənqurma işləri çərçivəsində yolboyu zəruri olan yerlərdə yeni yol yatağı salınıb. Yeni asfalt döşənən ərazinin ümumi sahəsi 90 min kvadratmetrə yaxındır. Bu avtomobil yolunun yenidən qurulması zamanı 2,5 min kvadratmetr istinad divarı və yeni piyada səkiləri inşa edilib, işıq dirəkləri qoyulub. Bunlardan əlavə, yolboyu kommunikasiya xətlərinin köçürülməsi, həmçinin köhnə xətlərin yeniləri ilə əvəzlənməsi işləri də görülüb. Avtonəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsi*

*məqsədilə zəruri yerlərdə yol nişanları və məlumatverici lövhələr quraşdırılıb. Ümumiyyətlə, 3 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun tikintisi ilə 85 mindən çox sakinin gediş-gəlişi xeyli asanlaşıb və avtonəqliyyat vasitələrinin Heydər Əliyev prospekti, həmçinin Zabrat–Maştağa avtomobil yoluna rahat çıxışı təmin olunub.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi, inşaatçılarla söhbət etdi.*

## ZIĞ–ƏMİRCAN–YENİ SURAXANI AVTOMOBİL YOLUNUN 5 KİLOMETRLİK HİSSƏSİNİN ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*8 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Bakının Suraxanı rayonunda Zığ–Əmircan–Yeni Suraxanı avtomobil yolunun 5 kilometrlik hissəsinin əsaslı yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Bu yolda əsaslı yenidənqurma işləri «Bakı şəhəri Suraxanı rayonunun Zığ–Əmircan–Yeni Suraxanı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında» Azərbaycan prezidenti İlham Əliyevin sərəncamına uyğun olaraq aparılıb.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, avtomobil yolunun hərəkət hissəsinin eni 10 metrə qədərdir. Yol uzun müddət idi ki, təmir olunmurdu və intensiv hərəkət nəticəsində asfalt-beton örtük yararsız vəziyyətə düşmüşdü. Bu isə avtonəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkətində problemlər yaradırdı. Görülən işlər nəticəsində artıq bu problem tam olaraq aradan qaldırılıb. Aparılan işlər zamanı burada da zəruri olan yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılıb. Yolboyu yeraltı kommunikasiya xətləri yeniləri ilə əvəzlənib. Yola yeni asfalt-beton örtüyü salınıb. Asfalt-beton örtüyündə xüsusi materialdan istifadə olunub ki, bu da səth sularının asfalt-beton örtüyünə daxil olmasının qarşısını almaqla, asfalt örtüyünün keyfiyyətini yaxşılaşdırır və uzunömürlülüyünü artırır. Layihə çərçivəsində yolboyu zəruri olan yerlərdə hər 2 istiqamət üzrə piyadalar üçün yeni səkilər tikilib. Yol boyunca xüsusi avtobus dayanacaqları quraşdırılıb, səth və qrunt sularının ötürülməsi üçün zəruri olan yerlərdə drenaj borular qoyulub. Diqqətə çatdırıldı ki, əsaslı*

*yenidənqurma işləri qrafikə uyğun texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə aparılıb. Zığ–Əmircan–Yeni Suraxanı avtomobil yolunun tikintisi ilə 3 yaşayış məntəqəsinin 63 min nəfər əhalisinin gediş-gəlişi xeyli rahatlaşıb.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB UHURU KENYATTAYA**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Keniya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 dekabr 2016-cı il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

İstanbulun Beşiktaş rayonunda törədilmiş terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri məni olduqca kədərləndirdi.

Biz bu terror aktını lənətləyir, terrorizmin bütün təzahürlərinə qarşı hamılıqla və qətiyyətlə mübarizə aparılmasını vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 dekabr 2016-cı il*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2016-cı il*

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 13 il keçir.*

*Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün ilboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.*

*Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 13-cü ildönümü günü – dekabrın 12-də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirdilər.*

*Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev əslində sosial-iqtisadi böhran keçirən Azərbaycanı keçən əsrin 70–80-ci illərində keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suveren-*

*liyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.*

*1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük qayıdış idi və ulu öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.*

*Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.*

*Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak etdilər.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ**

Hörmətli cənab Prezident!

Qahirə şəhərində törədilmiş amansız terror aktı nəticəsində çox sayda insanın həlak olması və yaralanması xəbəri bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı ən kəskin şəkildə mübarizəni zəruri hesab edirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Misir xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 dekabr 2016-cı il*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİ VƏ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*12 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri, Latviyanın sabiq prezidenti xanım Vayra Vike-Freyberqanın, Misirin İsgəndəriyyə kitabxanasının direktoru İsmail Serageldinin, mərkəzin İdarə Heyətinin üzvləri, Serbiyanın sabiq prezidenti Boris Tadiçin, Bolqarıstanın sabiq prezidenti Peter Stoyanovun, Albaniyanın sabiq prezidenti Recep Meydaninin, Latviyanın sabiq prezidenti Valdis Zatlersin və Moldovanın sabiq prezidenti Petru Luçinskinin daxil olduqları nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı qonaqları salamlayaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım tədbirində iştiraklarına görə onlara minnətdarlığını bildirdi.*

*İsgəndəriyyə kitabxanasının direktoru İsmail Serageldin dedi ki, bu bizim üçün böyük şərəfdir. Bu, böyük şəxsiyyət, sözün əsl mənasında, ümummilli lider Heydər Əliyevin xatirəsinə olan böyük ehtiramın təzahürüdür.*

*Latviyanın sabiq prezidenti xanım Vayra Vike-Freyberqa qeyd etdi ki, biz bu gün Azərbaycan xalqının ümummilli lideri və müasir Azərbaycanın banisi Heydər Əliyevin anım günündə Sizinlə və xalqınızla birlikdəyik. Ulu öndərin xatirəsinə dərin ehtiramını bildirən xanım Vayra Vike-Freyberqa Heydər Əliyevin böyük təcrübəyə malik lider olduğunu vurğuladı.*

*Bolqarıstanın sabiq prezidenti Peter Stoyanov Bakıya səfəri zamanı ulu öndərlə görüşlərini məmnunluqla xatırlatdı.*

*Ulu öndərlə bağlı dərin xatirələrə malik olduğunu deyən Moldovanın sabiq prezidenti Petru Luçinski onun böyük şəxsiy-*

*yət kimi, Azərbaycanın müstəqilliyinin təmin olunmasında müstəsna xidmətlər göstərdiyini vurğulayaraq, Azərbaycanın bugünkü inkişafının və firavanlığının əldə olunmasında prezident İlham Əliyevin rolunu xüsusi olaraq qeyd etdi.*

**İ l h a m Ə l i y e v:** Ulu öndər Heydər Əliyev daim Azərbaycanın müstəqilliyi uğrunda çalışıb. Məhz onun yorulmaz səyləri nəticəsində ölkəmiz əsl müstəqillik əldə edib. O, xalqımızın ümummilli lideri kimi, sovet sistemindən müstəqilliyə keçid dövrünü təmin etmişdir. Ulu öndər Heydər Əliyev sovet rəhbərliyində çalışan zaman ovaxtkı Kommunist Partiyasının rəhbərliyini açıq şəkildə ittiham edən ilk insanlardan biri olmuşdu. Bu hələ Sovet İttifaqı dağılmamışdan 2 il qabaq baş vermişdi. O hələ 1990-cı ildə Azərbaycanın müstəqilliyinin zəruriliyini bəyan edən ilk insanlardan idi. 1990-cı ilin yanvarında sovet ordusu Bakıda 100-dən artıq günahsız adamın həlak olması ilə nəticələnən Qanlı Yanvar hadisələrini törədən zaman O, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi və mən də onunla bir yerdə idim. Orada xeyli sayda azərbaycanlılar toplaşmışdılar və onlar Heydər Əliyevə böyük dəstək nümayiş etdirdilər. Heydər Əliyev orada Qanlı Yanvar hadisələrinə görə SSRİ-nin siyasi rəhbərliyini kəskin şəkildə ittiham etdi və bundan sonra Kommunist Partiyası sıralarından çıxdı. O zaman Heydər Əliyev işləmirdi, təqaüddə idi, sovet rəhbərliyi ona qarşı böyük təbliğat kampaniyasına başlamışdı, ona təzyiqlər edir, hətta həbs etmək istəyirdilər. Belə çətin şəraitdə Bakıya gəlmək qərarı verdi. Bakıda minlərlə insan onun ətrafına toplaşır və ona öz dəstəklərini göstərirdilər. Bundan narahat olan Azərbaycanın ovaxtkı rəhbərliyi ona Bakıda da ciddi təzyiqlər göstərməyə başladı. Heydər Əliyev doğulduğu Naxçıvan şəhərinə getdi.

*Ulu öndər Heydər Əliyevin Naxçıvandakı fəaliyyətinə toxunan dövlətimizin başçısı xalq tərəfindən Heydər Əliyevin Naxçıvanın Ali Sovetinin Sədri seçildiyini vurğuladı və hələ 1990-cı ildə Azərbaycanın ilk demokratik respublikasının bayrağını Dövlət bayrağı kimi qaldırdığını və bu bayrağın Azərbaycan*

*Respublikasının bayrağı kimi qəbul edilməsi ilə bağlı Azərbaycan parlamentinə müraciət etdiyini bildirdi. Dövlətimizin başçısı 1991-ci ildə Sovet İttifaqının saxlanılması ilə bağlı keçirilən referendumun o vaxt Naxçıvan tərəfindən boykot edildiyini də qeyd etdi. Prezident İlham Əliyev daha sonra bildirdi ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, sabitlik və əmin-amanlıq təmin edildi və yeni inkişafın başlanğıcı qoyuldu. Dövlətimizin başçısı ulu öndərin müasir Azərbaycanın dövlət quruculuğunda müstəsna xidmətlərinin xalq tərəfindən daim ehtiramla xatırlandığını vurğuladı.*

*Görüşdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə əməkdaşlığın perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## ATƏT-in MİNSK QRUPUNUN FRANSADAN OLAN YENİ HƏMSƏDRİ STEFAN VİSKONTİ İLƏ GÖRÜŞ

*12 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan yeni həmsədri Stefan Viskontini qəbul etmişdir.*

*ATƏT-in Minsk qrupunun yeni həmsədri Stefan Viskonti Fransa prezidenti Fransua Ollandın salamlarını dövlətimizin başçısına çatdırdı. 15 il bundan əvvəl Azərbaycana səfər etdiyini vurğulayan Stefan Viskonti ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin və əldə olunan nailiyyətlərin onda böyük təəssürat yaratdığını məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Fransanın Minsk qrupunun həmsədri kimi, bundan sonra da fəal iştirak edəcəyinə ümidvar olduğunu bildirdi. Münaqişənin artıq uzun illərdir ki, davam etdiyini vurğulayan dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə öz həllini tapmasında ölkəmizin maraqlı olduğunu bir daha vurğuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev prezident Fransua Ollandın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fransa Prezidentinə çatdırmağı xahiş etdi.*

## İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*13 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 13-də ölkəmizə səfərə gələn İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə təkbətək görüşü olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Baş nazir Benyamin Netanyahunu və xanımı Sara Netanyahunu qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev və İsrailin Baş naziri Benyamin Netanyahu rəsmi foto çəkdirdilər.*

*Daha sonra prezident İlham Əliyevin və Baş nazir Benyamin Netanyahunun təkbətək görüşü oldu.*

**İlham Əliyev:** Cənab Baş nazir, Azərbaycana xoş gəlmisiniz! Sizi görməyimə çox şadam. İkinci dəfədir Azərbaycandasınız. Biz yanvarda Davosda görüşdük, indi isə Bakıda görüşürük. Əminəm ki, səfər çox məhsuldar olacaq, münasibətlərimizi gücləndirəcək və yaxşı nəticələr əldə olunacaq.

**Benyamin Netanyahu:** İkinci dəfə burada olmağıma şadam. Azərbaycan ilə İsrail arasında, Azərbaycan xalqı ilə yəhudi xalqı arasında möhkəm münasibətlər, yaxın dostluq var. Siz tolerantlıq, inklüzivlik ənənəsini qoruyub saxlamısınız. Yəhudilər özlərini burada çox rahat hiss edirlər. Sizinlə bizim aramızda ortaq dəyərlər var. Azərbaycanda yaşayan minlərlə yəhudi xalqlarımız arasında körpü rolunu oynayır. Ona görə də bizim müzakirə ediləsi çox məsələlərimiz var.

**İlham Əliyev:** Yəhudi icması bizim cəmiyyətimizin çox fəal hissəsidir və ölkənin inkişafına çox böyük töhfələr verir. Bu həqiqətən də ikitərəfli münasibətlərimizdə çox mühüm amildir.

**Benyamin Netanyahu:** Mən xalqlarımızın rifahının artırılması, hökumətlərimiz arasında bir çox sahələrdə – ticarət, texnologiya sahələrində əməkdaşlığın genişləndirilməsinin müzakirə olunmasını səbirsizliklə gözləyirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 13-də İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə təkbətək görüşü başa çatdıqdan sonra Azərbaycan–İsrail sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi və metrologiya sahələrində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov və İsrailin Ətraf Mühitin Qorunması naziri Zeev Elkin imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı naziri Heydər Əsədov və İsrailin Ətraf Mühitin Qorunması naziri Zeev Elkin imzaladılar.*

*«Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya»nı Azərbaycanın Vergilər naziri Fazil Məmmədov və İsrailin Ətraf Mühitin Qorunması naziri Zeev Elkin imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinin Hökuməti arasında Birgə Komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İsrailin Ətraf Mühitin Qorunması naziri Zeev Elkin imzaladılar.*

## İSRAİLİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*13 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu dekabrın 13-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlar-la çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş nazir!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Cənab Baş nazir, Sizi Azərbaycanda bir daha salamlayıram. Sizi ölkəmizdə qəbul etməyə çox şadıq. Siz, demək olar ki, 20 il bundan əvvəl Azərbaycanda səfərdə olmusunuz və indi Sizin ikinci səfərinizdir. Qısa səfər olmasına baxmayaraq, çox məhsuldardır. Sözsüz ki, bu səfər ölkələrimiz arasında ikitərəfli əlaqələri genişləndirəcək.

Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Bu gün imzalanmış sənədlər əməkdaşlığımız üçün çox böyük potensialın olduğunu açıq-aydın göstərir. Sənədlərin hamısı çox vacibdir. Mən onların arasında ikitərəfli əməkdaşlığın çox səmərəli mexanizmi olan birgə iqtisadi Komissiyanı yaratmağa imkan verəcək sənədin əhəmiyyətini vurğulamaq istərdim. Əminəm ki, bu, ticarət dövriyyəsini artırmağa və onu şaxələndirməyə kömək edəcək. Ticarət dövriyyəsi yaxşı səviyyədə olsa da, bu əsasən Azərbaycandan İsrailə neft ixracına görədir. Biz bunu şaxələndirmək və artırmaq üçün işləməliyik.

Bu gün biz ikitərəfli əlaqələrimiz, regional inkişaf ilə bağlı çox geniş spektrli məsələləri müzakirə etdik. Müzakirələr çox açıq, dostluq şəraitində keçdi. Bu müzakirələr bizə ikitərəfli əlaqələrimizi gücləndirməyə kömək edəcək.

Bizim kənd təsərrüfatı sahəsində əməkdaşlıqda çox yaxşı perspektivlərimiz var. Biz bunu cənab Baş nazirlə müzakirə etdik. İsrail çox müasir texnologiyalara malikdir, biz onların bəzilərindən istifadə edirik, bəziləri, ola bilsin ki, Azərbaycana bir müddət sonra gətiriləcək. Bu sahədə əməkdaşlıq üçün yaxşı perspektivlər var.

Turizm potensial inkişaf üçün əsas sahələrdən biridir. Əminəm ki, İsrail ilə Azərbaycan arasında birbaşa uçuşlar hər iki istiqamətdə turistlərin sayının artmasına kömək edəcək. Təhsil sahəsində əməkdaşlığın da çox böyük potensialı vardır.

Biz həmçinin müdafiə sənayesi sahəsində fəal əməkdaşlıq edirik və bu əməkdaşlıq artıq bir neçə ildir davam edir. Bu əməkdaşlığın nə dərəcədə geniş olduğunu göstərmək üçün bir rəqəmi diqqətinizə çatdıracağam. İndiyədək Azərbaycan və İsrail şirkətləri tərəfindən müdafiə avadanlığının alınması ilə bağlı imzalanmış müqavilələrin dəyəri 5 milyard dollara yaxındır, daha dəqiq desək, 4 milyard 850 milyon dollardır. Bu müqavilələrin çox böyük hissəsi artıq həyata keçirilib. Biz hələ də bunun üzərində işləyirik və bu əməkdaşlığın səviyyəsindən çox razıyıq.

Biz xalqlarımız arasındakı əlaqələr barədə danışdıq. Bu bizim ikitərəfli əməkdaşlığımızın mühüm hissəsidir. Çünki Azərbaycandakı yəhudilər və İsraildə əsasən Azərbaycandan olan yəhudilərdən ibarət Azərbaycan diasporu ikitərəfli əlaqələrimizin mühüm amilidir. Əsrlərboyu Azərbaycanda yəhudilər ilə azərbaycanlılar sülh və dostluq şəraitində yaşayıblar və yaşamaqda davam edirlər. Azərbaycandakı yəhudi icması cəmiyyətimizin fəal hissəsidir. Onlar müasir Azərbaycanın inkişafına çox töhfələr verirlər. Xalqlarımız arasındakı sıx əlaqələr ikitərəfli əlaqələrimizdə çox mühüm amildir. Məlumat üçün bildirmək istərdim ki, Azərbaycanda 5-i Bakıda olmaqla, 7

sinaqoq, yəhudi məktəbləri var. Siz onlardan birinə, 2010-cu ildə açılmış «Xabad Or-Avner» Yəhudi Təhsil Mərkəzinə baş çəkəcəksiniz. Mən həmin mərkəzin açılışı gününü xatırlayıram, çünki mərasimdə iştirak edirdim. Mərhum prezident Şimon Peres bizə videomüraciət ünvanlamışdı. Mən şadam ki, cənab Baş nazir bu Təhsil Mərkəzinə baş çəkmək və yəhudi icmasının nümayəndələri ilə görüşmək üçün sıx qrafikində vaxt tapıb.

Yəhudilərlə azərbaycanlılar arasında əlaqələr hər zaman, tariximizin bütün dövrlərində çox yaxşı olub və yəhudilər əsrlərdir ki, Azərbaycanda yaşayırlar. Bu onların evidir, onlar burada özlərini evlərindəki kimi hiss edirlər və ölkəmizi gücləndirmək üçün çox işlər görürlər. Bu, çar Rusiyası dövründə – Azərbaycan Rusiya imperiyasının tərkib hissəsi olanda da, Sovet İttifaqı dövründə də belə olub, indi də – 25 illik müstəqillik dövründə də belədir. Azərbaycanda yaşayan bütün xalqlar arasındakı əlaqələr multikulturalizmin, qarşılıqlı hörmətin, bir-birinin ənənələrinə və dininə hörmətin bariz nümunəsidir. Mən hər zaman deyirəm ki, öz dininə və ənənələrinə hörmət qonşunun dininə və ənənələrinə olan hörmətdən başlanır. Yeri gəlmişkən, demək istərdim ki, bu il Azərbaycanda «Multikulturalizm ili» elan olunub və Azərbaycan dünyada multikulturalizmin beynəlxalq mərkəzlərindən biri kimi tanınır. Şadam ki, hazırda İsraildə yaşayan bizim keçmiş vətəndaşlarımız Azərbaycan ilə yaxın əlaqələrini qoruyub saxlayırlar. Onlar bizə kömək edir, bizi təbliğ edirlər. Bizim bir çox ölkələrdə diaspor təşkilatlarımız var. Lakin yalnız İsraildə bizim diaspor yəhudi əsilli insanlardan ibarətdir. Bu da yəhudilərlə azərbaycanlılar arasında olan birliyi nümayiş etdirir.

Bizim münasibətlərimiz çox geniş, şaxələnmiş münasibətlərdir, bir çox sahələri əhatə edir. Mən onlardan bəzilərini qeyd etdim. Əminəm ki, cənab Baş nazirin səfəri bizə yeni əməkdaşlıq sahələrini müəyyən etməyə imkan verəcək. Biz çox yaxın dostluq münasibətləri qurmuşuq və Baş nazirin səfəri bunun yaxşı göstəricisidir.

Cənab Baş nazir, Sizi Azərbaycanda bir daha salamlamaq və Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulamaq istərdim. Ümidvaram ki, növbəti səfəriniz 20 ildən tez baş tutacaq.

**Baş nazir Benyamin Netanyahunun bəyanatı**

Çox sağ olun, hörmətli prezident Əliyev. Siz haqlısınız, bunu 20, daha dəqiq desək 19 ildən bir yox, daha tez-tez etməliyik. Sizə dediyim kimi, buraya ilk ziyarətimi çox yaxşı xatırlayıram. Gecə yarısı idi, Sizin rəhmətlik atanız gəlib bizi qarşıladı. Bu, böyük dostluğun nişanəsi idi. Bu dostluq bu günə qədər davam və inkişaf edir. Deməliyəm ki, bu gün gündüz buraya gələrkən təyyarədən də Azərbaycandakı ötən 2 onillikdə baş verən inanılmaz dəyişikliyi, inanılmaz inkişafı görə bildim. Əlbəttə, aeroportda yerə endikdə, maşına mindikdə, şəhərdə, Bakı ətrafında bunu daha aydın görə bildik. Burada çox böyük irəliləyiş əldə edilib. Mən Sizin rəhbərliyinizi alqışlayıram. İsrail ilə Azərbaycan arasındakı tərəfdaşlığı və bunu gələcəyə doğru irəliləyişin bir parçası olaraq görməyinizə görə alqışlayıram.

Bu gün Sizin dediyiniz və imzaladığımız sənədlərdə xalqlarımızın mənafeləri naminə əməkdaşlıq etdiyimiz və əməkdaşlıq edə biləcəyimiz bir çox sahələr var. Aydındır ki, bizim energetika sahəsində möhkəm əlaqələrimiz var. Bu gün sadəcə, ölkəmizin neft idxalının ciddi bir hissəsi olan, Azərbaycanın İsraili təchiz etdiyi neftin satışı barədə yox, həm də təbii qazın ixracı üçün birgə müəssisələrimizdən istifadə haqqında danışırıq. Bu gün biz burada danışarkən, İsrailin qaz idxalının Azərbaycandan Türkiyəyə inşası davam edən böyük boru xəttinə calaşdırılmasından söhbət edirik. Şübhəsiz, bu hər 2 ölkənin iqtisadiyyatını gücləndirə biləcək bir istiqamətdir. Düşünürəm ki, bu daha böyük bir xidmət olacaq. Energetika bizim sıx şəkildə əməkdaşlıq etdiyimiz sahələrdən yalnız biridir.

Cənab Prezident, qeyd etdiyiniz bütün digər sahələr də mövcuddur. Kənd təsərrüfatı, təhsil, informasiya texnologiyaları və istənilən digər sahədə birlikdə möcüzələr yarada biləcəyimizə

inanırıq. Belə əməkdaşlığı alqışlayırıq. Çünki düşünürük ki, nəticə etibarilə malik olduğumuz ən böyük resurs budur. Bu, konseptual məhsul resursudur, bütün sənaye istiqamətlərini daha da səmərəli etmək bacarığıdır. Bir misal olaraq süd məhsullarını göstərə bilərəm. Ölkəmizin dünyada ən məhsuldar inəklərə sahib olması ilə öyünürəm. Bizim inəklər Fransa, Hollandiya, hətta Amerika inəklərindən daha məhsuldardır. Bu hal bir çox sahələrdə təkrarlanır. Bu əməkdaşlığı xalqlarımıza daha aydın bir gələcək bəxş etməsi üçün alqışlayırıq.

Lakin düşünürəm ki, əlaqələrimiz mövzusunda nadir olan xüsusiyyət başqa bir şeydir. İsrail bir yəhudi dövlətidir. Azərbaycan müsəlman ölkəsidir və əhalisinin əksəriyyəti müsəlmandır. Burada hər iki ölkənin daha parlaq gələcəyini təmin etmək üçün yəhudilərlə müsəlmanların birgə işləməsinin şahidi oluruq. Bu, indiki dövrdə tolerantlığın, qarşılıqlı hörmətin olmaması fonunda çox parlaq bir nümunədir. İllər boyunca Azərbaycanda yəhudilərə qarşı göstərmiş olduğunuz qarşılıqlı hörmət, gözəl yanaşma bu əlaqələri, Azərbaycana olan rəğbətimizi və heyranlığımızı daha da gücləndirir.

İsraildə Azərbaycandan olan 70 min yəhudi, «insan körpüsü» yaşayır. Bundan başqa, dünyaya göstərə biləcəyimiz başqa bir şey də var. Dünya çoxlu dözülməzlik, çoxlu zülmət görür. Burada isə müsəlmanlar ilə yəhudilərin arasında əlaqələrin necə ola biləcəyinin, necə qurulmasının bir nümunəsi var.

Cənab Prezident, Sizinlə təkbətək görüşdə ifadə etdiyim kimi, deməliyəm ki, müsəlman dünyasının bir çox hissəsində, xüsusi olaraq ərəb ölkələrində müşahidə etdiyimiz bir dəyişiklik var. Əgər gələcəyin necə ola biləcəyini görmək istəyirlərsə, Azərbaycana gəlib İsrail ilə Azərbaycan arasındakı dostluq və tərəfdaşlığın şahidi olsunlar. Bu sadəcə, hər iki ölkə və xalq üçün yaxşı əlaqələrlə bərabər, həm də bütün region və dünya üçün faydalıdır.

Bizi günorta vaxtı, axşam vaxtı, hətta gecə vaxtı xoş qarşıladığınız üçün Sizə yenə təşəkkür etmək istəyirəm.

Əlbəttə, mən də Sizi İsrailə dəvət edirəm. Sizin üçün uyğun və rahat vaxtda Sizi orada qəbul etməyə ümid edirəm. Bizə göstərdiyiniz dostluq və qonaqpərvərliyə görə təşəkkür etmək istəyirəm. Çox sağ olun.

**BƏHREYN KRALI ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan ilə Bəhreyn arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bəhreyn xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2016-cı il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişeviç!

Qazaxıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

Ötən 25 il ərzində Qazaxıstan dinamik inkişaf yolu keçərək, bütün sahələrdə, o cümlədən sosial sabitlik və vətəndaşlarının rifahının yüksəldilməsi, iqtisadiyyatın inkişafı sahələrində gözəl nailiyyətlər əldə etmişdir. Ölkəniz Sizin rəhbərliyiniz altında beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi ilə dünyada böyük nüfuz qazanmışdır.

Əminəm ki, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan Azərbaycan–Qazaxıstan münasibətlərinin xoş ənənələri, strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş sıx və səmərəli əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Nursultan Abişeviç, belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 dekabr 2016-cı il*

**İSVEÇRƏ KONFEDERASİYASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM DORİS LOYTHARDA**

Hörmətli xanım Loythard!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə İsveçrə arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələrin genişlənməsi, dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2016-cı il*

## AVSTRİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDER VAN DER BELLENƏ

Hörmətli cənab Van der Bellen!

Avstriya Respublikasının Federal Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Avstriya dostluğu və əməkdaşlığının daha da möhkəmlənməsi, əlaqələrimizin bütün sahələrdə dərinləşməsi yolunda birgə səylər göstərərək, ikitərəfli münasibətlərimizin inkişafına yeni töhfələr verəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2016-cı il*

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ**

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Qətər arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Qətər Dövlətinin qardaş xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 dekabr 2016-cı il*

## ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XÜSUSİ ELÇİSİ VƏ ƏLAQƏLƏNDİRİCİSİ AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokstaynın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu və uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# İTALİYANIN «DANİELİ & C.OFFİCİNE MECCANİCHE S.P.A» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN RƏHBƏRİ GİANPİETRO BENEDETTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də İtaliyanın «Danieli & C. Officine Meccaniche S.p.A» şirkətinin İdarə Heyətinin rəhbəri və baş icraçı direktoru Gianpietro Benedettini qəbul etmişdir.*

*İtaliyanın «Danieli & C. Officine Meccaniche S.p.A» şirkətinin İdarə Heyətinin rəhbəri və baş icraçı direktoru Gianpietro Benedetti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycanda metallurgiya sənayesinin inkişafına göstərdiyi böyük diqqəti məmnunluqla xatırlatdı. O, Bakıda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi. Gianpietro Benedetti Azərbaycanda metallurgiya sənayesi ilə bağlı planlaşdırılan birgə layihələr barədə prezident İlham Əliyevə məlumat verdi. Qonaq bildirdi ki, bu layihələrin həyata keçirilməsi nəticəsində Sumqayıt şəhərində 5 iri Metallurgiya zavodunu özündə birləşdirən nəhəng metallurgiya klasteri yaradılacaq. Bu klasterlərin yaradılması Daşkəsən filizsaflaşdırma müəssisəsinin də tam gücü ilə işləməsinə şərait yaradacaq və Azərbaycanda metallurgiyanın xammaldan tutmuş, müxtəlif çeşidli ən son məhsullara qədər vahid dəyər zəncirinin yaranmasını təmin edəcək.*

*Azərbaycanda sahibkarlar üçün gözəl şəraitin mövcud olduğunu deyən dövlətimizin başçısı ölkəmizin xarici investorların cəlb edilməsində maraqlı olduğunu bildirdi. Prezident İlham Əliyev investorların və bütün sahibkarların maraqlarının qorunması üçün zəruri tədbirlərin dövlət tərəfindən bundan sonra da görüləcəyini diqqətə çatdırdı.*

## ABŞ-ın NƏQLİYYAT KOMANDANI GENERAL DARREN MAKDYUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da ABŞ-ın nəqliyyat komandanı general Darren MakDyunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ABŞ-ın nəqliyyat komandanı general Darren MakDyunun Azərbaycana səfərinin ölkələrimiz arasında müdafiə sahəsində, xüsusilə nəqliyyat komandanlığı ilə yaxşı tarixə malik əməkdaşlığın möhkəmləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev ABŞ-ın nəqliyyat komandanlığı ilə sıx təmasların və əməkdaşlıq əlaqələrinin olduğunu qeyd etdi, general Darren MakDyunun səfəri zamanı görülmüş işlərin nəzərdən keçirilməsinin və gələcək planların müzakirəsinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın bütün istiqamətlərdə, o cümlədən nəqliyyat sahəsində etibarlı tərəfdaş olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan hərbçilərinin Əfqanıstanda sülhyaratma missiyasında ilk iştirak edənlərdən olduqlarını və 15 ildir orada fəaliyyət göstərdiklərini vurğulayaraq, bunun Azərbaycan–ABŞ və Azərbaycan–NATO əməkdaşlığının əhəmiyyətli hissəsi olduğunu dedi. Əfqanıstana həsr olunmuş NATO Sammitində iştirakına toxunan dövlətimizin başçısı bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev son illərdə Azərbaycan ilə Əfqanıstan arasında çox uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edərək, Əfqanıstan Prezidentinin 2 dəfə ölkəmizə səfər etdiyini, onunla görüşlər keçirdiyini və ölkələrimiz arasında çox yaxşı işgüzar əlaqələrin qurulduğunu bildirdi.*

*ABŞ-ın nəqliyyat komandanı general Darren MakDyu Azərbaycanın strateji baxımdan çox əhəmiyyətli bir ölkə olduğunu qeyd etdi. O, güclü əməkdaşlıq əlaqələrinə görə prezident İlham Əliyevə minnətdarlıq edərək, bunun təkcə öz ölkəsi üçün deyil, Əfqanıstana dəstək verən bütün ölkələr üçün mühüm əhəmiyyət daşıdığını dedi. General Darren MakDyu Əfqanıstana Qətiyyətli Dəstək Missiyasının komandanının prezident İlham Əliyevə Azərbaycan hərbçilərinin Əfqanıstanda iştirakına və eləcə də hərbçilərimizin peşəkar xidmət göstərdiklərinə görə təşəkkürünü çatdırdı.*

## RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə dövlətimizin başçısına Həştərxan Dövlət Universitetinin Fəxri professoru diplomu təqdim olundu.*

*Qubernator Aleksandr Jilkin Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə qurulmasına verdiyi dəstəyə görə dövlətimizin başçısı İlham Əliyevə minnətdarlığını bildirdi. Qonaq Həştərxandakı Azərbaycan diasporunun səmərəli fəaliyyət göstərdiyini dedi və vurğuladı ki, bir çox sahələrdə, o cümlədən iqtisadi və sosial sahələrdə Azərbaycan diasporu çox işgüzar və etibarlı fəaliyyət göstərir. O, gələn il Həştərxan quberniyasının 300 illik yubileyinin keçiriləcəyini bildirdi. Prezident İlham Əliyevi yubiley tədbirlərinə dəvət edən Aleksandr Jilkin Azərbaycan Prezidentinin həmin mərasimlərdə iştirakından şərəf duyacaqlarını söylədi.*

*Həştərxan sakinlərinin Azərbaycana xüsusi rəğbət bəslədiklərini deyən qonaq Azərbaycan tərəfinin dəstəyi ilə Həştərxanda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsinin ucaldılmasını və ətrafında parkın salınmasını Həştərxan üçün gözəl hədiyyə kimi qiymətləndirdi. Qeyd etdi ki, hazırda yeni ailə quran gənclərin həmin parka gələrək, Azərbaycan xalqının ümummilli liderinin abidəsi önünə gül dəstələri qoyması artıq ənənə halı alıbdır. Qubernator bildirdi ki,*

*Heydər Əliyev Fondunun dəstəyi ilə Həştərxanda inşa edilən məktəb, uşaq bağçası da dostluğun gözəl nümunələridir. Bu gün vilayətdə Azərbaycan biznesinin fəallaşdığını qeyd edən rusiyalı qonaq əməkdaşlığın təməlində yüksək etimad və hörmətin dayandığını dedi. Aleksandr Jilkin hazırda Azərbaycanın və Həştərxanın bir sıra şirkətləri arasında işgüzar əlaqələrin qurulduğunu vurğuladı, Həştərxanda Azərbaycanın biznes mərkəzinin inşa edilməsinin planlaşdırıldığını diqqətə çatdırdı.*

*Həştərxan ilə Bakı arasında tarixən yaxın əlaqələrin olduğunu bildirən dövlətimizin başçısı Həştərxanda olarkən, burada baş verən müsbət dəyişikliklərin, şəhərin abadlaşmasının, infrastruktur layihələrinin həyata keçirilməsinin, tarixi abidələrin qorunmasının xoş təəssürat bağışladığını söylədi və bu münasibətlə qubernatora təbriklərini çatdırdı. Həştərxanda yaşayan azərbaycanlılara göstərilən xoş münasibətə görə təşəkkürünü bildirən prezident İlham Əliyev soydaşlarımızın özlərini bu şəhərdə doğma evlərindəki kimi hiss etdiklərini vurğuladı. Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığa toxunan prezident İlham Əliyev yaxın zamanlarda Azərbaycanın xaricdə ilk ticarət nümayəndəliyinin Moskvada açılacağını, sonradan isə Rusiyanın digər regionlarında, o cümlədən Həştərxanda da ticarət-biznes nümayəndəliyinin fəaliyyətə başlamasının nəzərdə tutulduğunu bildirdi. Dövlətimizin başçısı bütün bunların ölkələrimiz arasında idxal-ixrac proseslərini sürətləndirəcəyinə əminliyini ifadə etdi.*

*Sonra Həştərxan Dövlət Universitetinin rektoru vəzifəsini icra edən Aleksandr Lunov təhsil sahəsində Rusiya–Azərbaycan münasibətlərinin inkişafına verdiyi böyük töhfəyə görə Azərbaycan prezidenti İlham Əliyevin universitetin Fəxri professoru adına layiq görülməsi barədə təmsil etdiyi ali təhsil ocağının Elmi Şurasının qərarını elan etdi.*

*Fəxri professor diplomu və mantiyası dövlətimizin başçısına təqdim olundu.*

*Universitetin Fəxri professoru adına layiq görülməsindən şərəf duyduğunu deyən prezident İlham Əliyev bu qərara görə min-*

*nətdarlığını bildirdi. Dövlətimizin başçısı təhsil sahəsində Rusiya ilə sıx əməkdaşlıqdan danışaraq qeyd etdi ki, bu gün onun təşəbbüsü ilə Bakıda Rusiyanın 2 nüfuzlu ali təhsil ocağı – Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları fəaliyyət göstərir. Təhsil sahəsinə ölkəmizdə böyük əhəmiyyət verildiyini vurğulayan dövlətimizin başçısı bu sahədə əməkdaşlığın xalqlarımızı daha da yaxınlaşdırdığını vurğuladı.*

## BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ MARQARİTA POPOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Bolqarıstan Respublikasının vitse-prezidenti Marqarita Popovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin çox yüksək səviyyədə – dostluq və tərəfdaşlıq səviyyəsində olduğunu vurğuladı. Bolqarıstanın vitse-prezidenti Marqarita Popovanın Azərbaycana səfərlərinin əhəmiyyətini qeyd edən prezident İlham Əliyev onunla keçirdiyi son görüşü məmnunluqla xatırlatdı. Dövlətimizin başçısı Bolqarıstanın vitse-prezidentinin Azərbaycana səfərinin uğurlu olacağına və ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən hüquq və mədəni sahələrdə əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu vurğulayan Bolqarıstanın vitse-prezidenti Marqarita Popova Azərbaycanda tətbiq edilən şəffaf idarəçiliyin, o cümlədən «ASAN xidmət»in Bolqarıstanda böyük maraq doğurduğunu bildirdi və bu sahədə əməkdaşlığa önəm verdiklərini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında əməkdaşlığın enerji, hüquq, mədəniyyət və digər sahələrdə genişləndirilməsi və qarşılıqlı təcrübə mübadiləsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ LEVAN İZORİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Gürcüstan Respublikasının Müdafiə naziri Levan İzorianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İlk rəsmi səfərini Azərbaycana etməsini ölkələrimiz arasında yaxın münasibətlərin təzahürü kimi dəyərləndirən Levan İzoria ikitərəfli əməkdaşlığımızın inkişafında mühüm rol oynamış ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi. Gürcüstanın Azərbaycanın ərazi bütövlüyünü bundan sonra da dəstəkləyəcəyini bildirən nazir Azərbaycanın da öz növbəsində, Gürcüstanın ərazi bütövlüyünə verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Gürcüstanın Müdafiə naziri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasının vacibliyini vurğulayaraq bildirdi ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi əsasında həll edilməlidir. Levan İzoria ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.*

*Gürcüstanın Müdafiə nazirinin ilk rəsmi səfərini Azərbaycana etməsinin ölkələrimiz arasında münasibətlərin yaxşı göstəricisi olduğunu deyən prezident İlham Əliyev strateji dostluq əlaqələrinin müxtəlif istiqamətlərdə, o cümlədən təhlükəsizlik sahəsində uğurlu inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyib. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan dövlətimi-*

*zin başçısı qeyd etdi ki, Minsk qrupunun həmsədr ölkələri dəfələrlə status-kvonun qəbuledilməzliyini və onun dəyişilməsinin vacibliyini bəyan ediblər və bu, münaqişənin nizama salınmasının əsasını təşkil etməlidir. Prezident İlham Əliyev ölkələrimizin Müdafiə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 16-da Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin daim yüksək səviyyədə əməkdaşlıq, dostluq, qarşılıqlı anlaşma prinsipləri ilə xarakterizə olunduğunu bildirərək, bu prinsiplərin əlaqələrimizin müxtəlif istiqamətləri, o cümlədən siyasi, iqtisadi, ticarət, energetika sahələrində sıx qarşılıqlı fəaliyyət ənənələri əsasında uğurla inkişaf etdiyini bildirdi. Hökumətlərarası Birgə İqtisadi Komissiyanın fəaliyyətinə toxunan prezident İlham Əliyev bu gün Komissiyanın Bakıda keçirilən iclası zamanı əməkdaşlıqla bağlı müxtəlif məsələlərin konstruktiv və uğurlu şəkildə müzakirə edildiyini vurğuladı. Azərbaycanın Rusiya ilə ikitərəfli əlaqələrin möhkəmləndirilməsində maraqlı olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, bu əlaqələr son dövrlərdə daha sürətlə inkişaf edir, Azərbaycan və Rusiya prezidentlərinin mütəmadi görüşləri bunun yaxşı göstəricisidir. Dövlətimizin başçısı qeyd etdi ki, bu baxımdan Rusiya Federasiyası Prezidentinin son 3 ildə Azərbaycana 3 dəfə səfər etməsi əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür.*

*Xoş sözlərə görə prezident İlham Əliyevə minnətdarlığını bildirən Rusiya Federasiyası Baş nazirinin müavini Dmitri Roqozin Hökumətlərarası Birgə İqtisadi Komissiya çərçivəsində mütəmadi iclasların keçirilməsinin önəmini qeyd etdi. Dmitri Roqozin bildirdi ki, bu Komissiya iqtisadi, ticarət, elmi-texniki,*

*mədəniyyət sahələrində əməkdaşlıqla yanaşı, həmin məsələlərin operativ şəkildə həll edilməsində bir orqana çevrilib. Rusiya Baş nazirinin müavini nəzərə çatdırdı ki, Rusiya–Azərbaycan əlaqələri artıq yeni istiqamətləri əhatə edərək, yüksək texnologiyalar sahəsində də əməkdaşlıq üçün yeni imkanlar açır.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Kayseridə törədilmiş amansız terror aktı nəticəsində türk əsgərlərinin şəhid olması və yaralanması xəbəri bizi son dərəcə kədərləndirdi.

Biz bu qanlı hadisəni lənətləyir, dəhşətli bəlaya çevrilmiş terrorizmə qarşı mübarizənizdə sizi dəstəkləyir və daim qardaş Türkiyənin yanındayıq.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 dekabr 2016-cı il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Rusiya Federasiyasının Türkiyə Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Andrey Gennadiyeviç Karlovun faciəli ölümü barədə xəbər məni dərindən sarsıtdı.

Biz bu qanlı terror cinayətini qətiyyətlə və qeyd-şərtsiz pisləyirik.

Sizə, həlak olmuş səfirin ailəsinə, doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 dekabr 2016-cı il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Berlində törədilmiş qanlı terror aktı nəticəsində həlak olanlar və yaralananlar barədə xəbər bizi olduqca sarsıtdı.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, dinc insanlara qarşı yönəlmiş bu qəddarlıq əməlini qətiyyətlə pisləyir, terrorizmə qarşı mübarizədə birgə səylər göstərilməsini vacib hesab edirik.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Almaniya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2016-cı il*

**YAPONİYANIN İMPERATORU
ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Yaponiya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2016-cı il*

## TÜRKİYƏ RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRİ NİHAT ZEYBƏKCİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Türkiyə Respublikasının İqtisadiyyat naziri Nihat Zeybəkcinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin İqtisadiyyat nazirlərinin Bakıda keçiriləcək görüşünün önəmini qeyd etdi. Dövlətimizin başçısı Türkiyə Respublikasının İqtisadiyyat naziri Nihat Zeybəkcinin Azərbaycana səfərinin həm Şuranın iclasında iştirakı, həm də ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğuladı.*

*Nazir Nihat Zeybəkci Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinə toxunan nazir Nihat Zeybəkci 15 iyul hadisələri zamanı Azərbaycanın Türkiyəyə ən böyük dəstək verən ölkə olduğunu dedi.*

*Azərbaycan ilə Türkiyənin ən yaxın qardaş ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin bir-birinə hər zaman dəstək verməlirini təbii hal kimi dəyərləndirdi.*

*Görüşdə Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclaslarının əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulandı, iqtisadi sahədə əməkdaşlığımızın inkişafına dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ, QAZAXISTAN VƏ QIRĞIZ RESPUBLİKALARI PARLAMENTLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞ

*22 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) Beynəlxalq Katibliyinin mənzil-qərargahının rəsmi açılışı mərasimində iştirak etmək üçün ölkəmizə səfərə gələn Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəmanı, Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulini və Qırğız Joqorku Keneşinin(parlamentinin) Sədri Çınıbay Tursunbekovu qəbul etmişdir.*

*Qonaqları salamlayan prezident İlham Əliyev türkdilli ölkələrin parlament rəhbərlərinin Bakıya səfərinin əhəmiyyətini vurğuladı, bu səfərin birliyimizi möhkəmləndirəcəyini və münasibətlərimizə yeni təkan verəcəyini qeyd etdi. Türkdilli ölkələrin parlamentləri arasında qarşılıqlı fəaliyyətdən məmnunluğunu ifadə edən prezident İlham Əliyev türkdilli ölkələrin əməkdaşlığına dövlət başçılarının da öz fəaliyyətləri ilə töhfə verdiklərini bildirdi və bu əməkdaşlığın həm region, həm də dünya üçün önəm daşıdığını dedi. Dövlətimizin başçısı Azərbaycanın bu əməkdaşlığa böyük əhəmiyyət verdiyini söylədi.*

*Prezident Nursultan Nazarbayevin salamlarını və Azərbaycan xalqına sülh və əmin-amanlıq arzularını çatdıran Qazaxıstan Parlamenti Məclisinin Sədri Nurlan Niqmatulin görüşdə iştirak edən həmkarları adından Azərbaycanda referendumun uğurlu keçməsi münasibətilə təbriklərini ifadə etdi. Nurlan Niqmatulin vurğuladı ki, bu referendumun nəticələri Azərbaycan xalqının prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstəyini və müstəqilliyimizin möhkəmləndirilməsini dünya ictimaiyyətinə bir daha nümayiş etdirdi. Bildirdi ki, bu gün müasir*

*Azərbaycanın lideri kimi, prezident İlham Əliyev həm də türkdilli dövlətlər arasında münasibətlərin inkişafına töhfə verir. TürkPA nümayəndə heyətinin hər səfərdə Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət etdiyini və dahi Heydər Əliyevin xatirəsinə dərin ehtiramını bildirən Nurlan Niqmatulin Qazaxıstan prezidenti Nursultan Nazarbayev ilə Heydər Əliyevin şəxsi dostluq münasibətlərindən danışdı. Bildirdi ki, Qazaxıstan dövlətinin başçısı ulu öndərin xatirəsini həmişə dərin hörmətlə anır və Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanın dövlətçiliyini və müstəqilliyini möhkəmləndirdiyini daim qeyd edir. Qazaxıstan Parlamenti Məclisinin Sədri Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının Beynəlxalq Katibliyinin mənzil-qərargahının inşasına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Vurğuladı ki, xalqlarımız ümumi türk mənşəyinə malikdir, ona görə də bu binanın Bakıda inşasının rəmzi mənası var.*

*«Bakı Azərbaycanın inkişafının parlaq nümunəsidir» – deyən Nurlan Niqmatulin qeyd etdi ki, Azərbaycanın və onun paytaxtının inkişafı böyük təəssürat yaradır. O, TürkPA ölkələrinin beynəlxalq təşkilatlar çərçivəsində də ümumi mövqeləri dəstəklədiklərini bildirdi və bu siyasətin davam edəcəyini söylədi, yeni qərargahda prezident İlham Əliyevin tövsiyələri ilə səmərəli təşəbbüslərin irəli sürüləcəyinə əmin olduğunu dedi. Nurlan Niqmatulin Azərbaycan prezidenti İlham Əliyevin TürkPA-nın inkişafında rolunu və töhfələrini qeyd etdi, qurumun fəaliyyətinə verdiyi dəstəyə görə həmkarları adından minnətdarlığını bildirdi. Vurğuladı ki, «TürkPA-nın inkişafındakı xüsusi xidmətlərə görə» medalı təsis edilib və yekdil qərara əsasən ilk medala türkdilli ölkələrin həmrəyliyinin və birliyinin möhkəmləndirilməsindəki xidmətlərinə görə Azərbaycan Prezidenti layiq görülüb.*

*Qazaxıstan Parlamenti Məclisinin Sədri medalı Azərbaycan prezidenti İlham Əliyevə təqdim etdi.*

*Söylədiyi xoş sözlər üçün Nurlan Niqmatulinə təşəkkür edən dövlətimizin başçısı İlham Əliyev Qazaxıstan prezidenti Nur-*

*sultan Nazarbayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qazaxıstan Prezidentinə çatdırmağı xahiş etdi.*

*Prezident İlham Əliyev TürkPA tərəfindən fəaliyyətinə verilən qiyməti yüksək dəyərləndirərək bildirdi ki, bu medalın təqdim olunmasının Türkdilli Ölkələrin Parlament Assambleyasının Beynəlxalq Katibliyinin mənzil-qərargahının açılışına, həmçinin Azərbaycan, Qazaxıstan və Qırğızıstanın müstəqilliklərinin 25 illiyinə təsadüf etməsi rəmzi məna daşıyır. Dövlətimizin başçısı bildirdi ki, türkdilli ölkələrlə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri kimi qəbul edilir. Prezident İlham Əliyev qeyd etdi ki, türkdilli ölkələr həm ikitərəfli, həm çoxtərəfli formatda, həm də BMT, İƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir, qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi üçün səylər göstərir, hansısa türkdilli ölkənin təmsil olunmadığı beynəlxalq təşkilatda digər türkdilli dövlət onun mövqeyini dəstəkləyir və həmrəylik nümayiş etdirir. Xalqlarımızın ümumi tarixə və köklərə malik olduğunu xatırladan prezident İlham Əliyev dedi ki, Azərbaycan gələcəkdə də türkdilli ölkələrin daha da yaxınlaşmasına, xalqlarımızın bir-birini dəstəkləməsinə töhfə verəcək. Dövlətimizin başçısı Türkiyə, Qazaxıstan və Qırğızıstanın dövlət başçılarına ən xoş arzularını çatdırmağı xahiş etdi.*

*Görüşdə Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəman Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini vurğuladı, Türkdilli Ölkələrin Parlament Assambleyasının fəaliyyətinə toxunaraq, ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində TürkPA-nın rolunu xüsusi qeyd etdi.*

*Qırğız Joqorku Keneşinin Sədri Çınıbay Tursunbekov da ölkələrimiz arasında əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini bildirərək, parlamentlərarası əməkdaşlığın bu əlaqələrin inkişafına töhfəsini verdiyini qeyd etdi.*

## *bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ İLƏ GÖRÜŞ

*22 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də bp şirkətinin baş icraçı direktoru Robert Dadlini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında uzun illər uğurlu və qarşılıqlı faydalı əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Görüş zamanı 2024-cü ildən sonra «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun işlənilməsi ilə bağlı məsələlər müzakirə edildi. Qeyd edildi ki, bu yatağın gələcəkdə işlənilməsində xarici şirkətlər maraqlıdırlar. Yatağın gələcəkdə uğurla işlənilməsi xarici şirkətlər tərəfindən çoxmilyardlı investisiyaların davam etdirilməsi, böyük həcmdə əlavə neft hasilatı, qarşıdakı illərdə də çoxsaylı yeni iş yerlərinin açılması üçün imkanlar yaradacaq.*

*Görüşdə, həmçinin «Cənub Qaz Dəhlizi»nin yaradılması və «Şahdəniz-2» layihəsi ilə bağlı aparılan işlərdə əldə edilmiş irəliləyiş, bp şirkətinin «Şəfəq–Asiman» blokunda, Abşeron yarımadasında həyata keçirdiyi işlər və bp-nin Azərbaycanın neft-qaz sənayesinin inkişafında iştirakının perspektivləri ilə bağlı məsələlər ətrafında da müzakirələr aparıldı.*

## 2016-cı İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏRASİM

*23 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev dekabrın 23-də Milli Olimpiya Komitəsində 2016-cı ilin yekunlarına görə, idmançılara və idman mütəxəssislərinə mükafatların təqdim edilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı tədbirdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz idmançılar!

Hörmətli xanımlar və cənablar!

Biz hər ilin sonunda ənənəvi olaraq, idmançılarla görüşürük. Bu ənənə artıq 20 ilə yaxındır ki, davam edir. Hər il idmançılarımızı mükafatlandırırıq, onları təbrik edirik və əlbəttə ki, biz bu il də bu ənənəyə sadiqik.

Artıq 20 ilə yaxındır ki, mən Milli Olimpiya Komitəsinin prezidenti kimi, bu görüşləri keçirirəm. Fürsətdən istifadə edərək, bu il də yenidən məni Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçən Milli Olimpiya Komitəsinin bütün üzvlərinə minnətdarlığımı bildirmək istəyirəm. Bir daha demək istəyirəm ki, bundan sonra da idmanın, olimpiya hərəkatının uğurlu inkişafı daim diqqət mərkəzində olacaq.

Son 19 il ərzində görülən işlər göz qabağındadır. Artıq bu gün Azərbaycan dünya miqyasında güclü idman dövləti kimi tanınır. Bizim idman uğurlarımız çox parlaqdır. Biz ildən-ilə idman nəticələrimizi, uğurlarımızı artırırıq. Əgər Yay Olimpiya oyunlarının nəticələrinə fikir versək görərik ki, hər oyundan-

oyuna Azərbaycanın qazandığı medalların sayı artır. Yəni bu, müsbət dinamikadır. Əslində dinamika hər bir məsələnin təhlili üçün əsas amildir. Biz daim inkişafdayıq. Əminəm ki, müsbət dinamika bundan sonra da davam edəcək, baxmayaraq ki, son Yay Olimpiya oyunlarında qazandığımız nəticəni təkrarlamaq çətin olacaq. Bununla bərabər, mən yaxşı xatırlayıram ki, 2000-ci ildən sonra hər dəfə Yay Olimpiya oyunlarına yekun vurarkən oxşar fikirlər səslənmişdir ki, böyük nəticə qazanılır, bunu təkrar etmək çətin olacaq. Biz nəinki bu nəticələri hər oyundan-oyuna təkrar etmişik, onları artırmışıq da.

Bu il bizim idmançılarımız beynəlxalq yarışlarda yüzlərlə medal qazanıblar. Bütün beynəlxalq yarışlarda Azərbaycan bayrağı dalğalanır. Həm böyüklər, həm gənclər, həm də yeniyetmələr arasında keçirilən bütün beynəlxalq idman tədbirlərində Azərbaycan ləyaqətlə təmsil olunur. Son illər ərzində çox güclü idmançılar nəsli yetişib. Gənclərimiz – müstəqillik dövründə doğulan, yetişən idmançılar bu gün şöhrətimizi yüksəklərə qaldırırlar. 2016-cı il ölkəmizin idman tarixində xüsusi yer tutacaq. İlk növbədə ona görə ki, biz bu il Rio Yay Olimpiya oyunlarında tarixi qələbə qazanmışıq. Bu oyunlarda 200-dən çox ölkə iştirak edirdi. Bu, böyük tarixi qələbədir. Bu həm idmançılarımızın gücünü, eyni zamanda, dövlətimizin gücünü göstərir. Çünki ancaq inkişaf etmiş güclü dövlətlərdə idman inkişaf edir və gözəl də idman nəticələri vardır. Əgər yüksək yerləri tutan ölkələrin siyahısına baxsaq görərik ki, onların mütləq əksəriyyəti zəngin və inkişaf etmiş ölkələrdir. O ölkələrdir ki, onlarda dövlətçilik ənənələri çox böyükdür. Bizim isə cəmi 25 yaşımız var. Biz bu il müstəqilliyimizin bərpasının 25 illiyini qeyd etmişik və idmançılarımızın qələbəsi bu bayram günlərinə gözəl bir hədiyyə olmuşdur.

Onu da qeyd etmək istəyirəm ki, bütün vətəndaşlar da bir daha bunu eşitsinlər, biz Avropa ölkələri arasında 7-ci yerdəyik, dünya miqyasında medalların sayına görə 14-cü yerdəyik, MDB və postsovet məkanında 2-ci və müsəlman aləmində 1-ci yerdəyik. Bu parlaq qələbə münasibətilə mən bir daha bütün

idmançılarımızı, məşqçiləri, bütün idman ictimaiyyətini təbrik etmək istəyirəm. Rioda qazandığımız böyük qələbə onu göstərir ki, ötən il Bakıda keçirilmiş Avropa oyunlarında əldə etdiyimiz uğurlar təsadüfi deyildi. Biz o oyunlarda da çox böyük nəticə göstərmişik, 56 medal qazanmışıq və komanda hesabında 2-ci yerə layiq görülmüşük. Rio Olimpiya oyunlarının bir göstəricisini də diqqətinizə çatdırmaq istəyirəm. Biz bu oyunlarda 56 idmançı ilə təmsil olunmuşuq və 18 medal qazanmışıq. Bu göstəriciyə görə biz iştirak etmiş bütün ölkələr arasında 1-ci yerdəyik.

Ötən il Bakıda keçirilmiş Avropa oyunları bir daha idmanımızın inkişaf səviyyəsini göstərdi. Bir daha göstərdi ki, biz güclü dövlətik. Çox gərgin mübarizədə bütün Avropa ölkələri arasında ikinci yeri tutmaq doğrudan da böyük qələbədir, böyük qəhrəmanlıqdır. Siz də yaxşı xatırlayırsınız, təbii ki, mən də. Bu oyunlar ərəfəsində, oyunlar zamanı və sonra Azərbaycana qarşı mərkəzləşmiş qaydada aparılan çirkin kampaniya çalışırdı ki, bu oyunlara ləkə vursun, bizim imkanlarımızı aşağılasın və idmançılarımızın qələbəsini təhrif etsin ki, Azərbaycan bu oyunların keçirilməsi ilə məşğul olan ölkədir, ev sahibliyi edir, ona görə də nəticələr yüksəkdir. Rio Yay Olimpiya oyunlarında əldə edilmiş qələbə, bax, bu çirkin şayiələrə növbəti bir tutarlı zərbədir. Biz keçən il də yüksək idman nəticələri göstərdik. I Avropa oyunlarının keçirilməsi isə bütün beynəlxalq idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib. Mən bir çox Yay Olimpiya oyunlarında olmuşam. Müqayisə edə bilərəm və bunu söyləyərkən, bir daha demək istəyirəm ki, bizim təşkil etdiyimiz oyunlar heç bir Yay Olimpiya oyunlarının səviyyəsindən aşağı deyildi. Bir çox parametrlər üzrə bu oyunlar Yay Olimpiya oyunları üçün də nümunə ola bilər. Bilirəm ki, indi bizim təcrübəmizi öyrənirlər.

Bax, idman nəticələrimiz bundan ibarətdir. Biz həm beynəlxalq yarışlarda, dünya çempionatlarında, Olimpiya oyunlarında böyük qələbələr qazanırıq, həm də istənilən böyükmiqyaslı beynəlxalq yarışı da təşkil edə bilirik. Onu da bir daha

xatırlatmaq istəyirəm ki, Avropa oyunlarının hazırlanması üçün bizim cəmi 2 il vaxtımız var idi. İllərlə, bəlkə də 7-8 il ərzində görülən işləri biz 2 il ərzində görə bildik. Bu oyunlarla bağlı Bakının ən müasir idman infrastrukturu yaradıldı və əsaslı şəkildə təmir edildi. Bu gün bizim idman qurğularımız xalqımıza, idmançılara xidmət göstərir. Yeni tikilmiş möhtəşəm Olimpiya stadionumuz, Su İdmanı Sarayı, Atıcılıq Mərkəzi, təmir edilmiş digər idman obyektlərimiz bu gün ən yüksək standartlara cavab verir və biz bundan sonra da istənilən beynəlxalq yarışı keçirə bilərik.

Avropa oyunları ölkəmizin təbliğinə də müsbət xidmət göstərib və biz bundan sonra da Bakıda beynəlxalq tədbirlərin keçirilməsi üçün lazımi addımlar atmışıq.

Bu il ilk dəfə olaraq, «Formula-1» yarışının keçirilməsi bir daha ölkəmizin qüdrətini göstərdi. Çünki «Formula-1» yarışının keçirilməsi hər bir ölkəyə nəsib olmur, hər bir ölkə bu məsuliyyəti öz üzərinə götürə bilmir və çətinlik çəkir. Ancaq biz bu yarışı da uğurla keçirə bildik. «Formula-1» yarışının Azərbaycanda keçirilməsinin ölkəmizin dünyada tanıdılması üçün müstəsna əhəmiyyəti vardır. 500 milyon tamaşaçı auditoriyası olan bu yarışa bütün qitələrdə baxmışlar və şəhərimizin gözəlliyini, insanlarımızın qonaqpərvərliyini bütün dünya görübdür. Təsadüfi deyil ki, biz də bunu nəzərdə tuturduq, planlaşdırırdıq ki, bu yarışdan sonra ölkəmizə gələn turistlərin sayı dəfələrlə artacaq və artıb. Elə ölkələr var ki, bu il o ölkələrdən Azərbaycana gələn turistlərin sayı 30–40 dəfə artıb və bu proses davam edir. Çünki bu gün Azərbaycan dünyada həm qüdrətli, həm də ən müasir infrastruktura, ən gözəl xidmət sahələrinə malik, təhlükəsizlik təmin olunan ölkə kimi tanınır. Bax, bütün bu amillərin sintezi Azərbaycanı xarici turistlər üçün çox cəlbedici ölkəyə çevirib. Əgər biz gözəl iqlimimizi, gözəl mətbəximizi, tarixi abidələrimizi, 9 iqlim qurşağını əlavə etsək, bir daha görərik ki, biz doğrudan da xoşbəxt insanlarıq, belə gözəl ölkədə yaşayırıq və belə gözəl ölkəni daha da gözəlləşdiririk.

Ona görə «Formula-1» yarışının əhəmiyyəti bundan sonra da illərlə özünü göstərəcək. Turizmdən gələn gəlir ölkə iqtisadiyyatını gücləndirir, yeni iş yerlərinin açılmasına xidmət göstərir və iqtisadi şaxələndirməni təmin edir.

Biz gələn il İslam Həmrəyliyi oyunlarını keçirəcəyik və bu da çox rəmzi məna daşıyır. Bir ölkədə, bir şəhərdə 2 il ərzində həm Avropa, həm İslam Həmrəyliyi oyunları keçirilir. Bu bizim niyyətimizi göstərir. Çünki idman yarışları, o cümlədən Avropa oyunları sadəcə olaraq, idman tədbiri deyildi, bu bir dostluq bayramı, həmrəylik təzahürü idi.

Bildiyiniz kimi, bu il Azərbaycanda «Multikulturalizm ili» elan edilmiş və il ərzində bir çox mötəbər tədbirlər keçirilmişdir. İslam oyunlarının, Avropa oyunlarının Azərbaycanda keçirilməsi bir daha multikulturalizm ideyalarını təbliğ və tərənnüm edir. Əminəm ki, biz islam oyunlarını da ən yüksək səviyyədə keçirəcəyik, bizim təcrübəmiz var və oyunların başlamasına təqribən 6 ay vaxt qalır. Demək olar ki, bütün əsas hazırlıq işləri görülübdür. Əlbəttə ki, bu oyunlara sərf olunan xərclər çox aşağı səviyyədədir. Çünki bizim bütün infrastrukturumuz var, təşkilatçılıq qabiliyyətimiz yüksək səviyyədədir. Əminəm ki, bu yarışlarda iştirak edəcək idmançılar Bakıdan ən xoş təəssüratlarla ayrılacaqlar.

Bu yaxınlarda Bakıda Ümumdünya Şahmat Olimpiadası keçirilmişdir və bu da Yay Olimpiya oyunlarından sonra ölkələrin sayına görə ikinci mötəbər tədbirdir. Biz artıq dünyada bir idman mərkəzi kimi tanınırıq. Bəzi hallarda hansısa səbəblər üzündən əgər bir ölkədə çempionat, dünya çempionatı keçirə bilmirlərsə, Bakıya müraciət edirlər – bu yaxınlarda belə bir hal olub – və biz çox operativ şəkildə, heç bir əlavə hazırlıq görmədən o çempionatı Azərbaycanda keçirə bilirik. Bu, beynəlxalq idman qurumları, beynəlxalq federasiyalar üçün də artıq bir faktdır, bunu bilirlər. Əgər hər hansı bir yerdə problem varsa, onlar bilirlər ki, bizə müraciət edə bilərlər və biz, əlbəttə ki, istənilən yarışı qısa müddət ərzində ən yüksək səviyyədə keçirə bilərik. Bu reallıqdır və bu reallığı biz özümüz

yaratmışıq, heç kim bizə kömək etməyib. Əksinə, bütün bu illər ərzində bəzi antiazərbaycan dairələri çalışırdılar ki, bizim uğurlarımıza kölgə salsınlar, bizi ləkələsinlər, bizə şər, böhtan atsınlar. Ancaq bunun heç bir təsiri olmamışdır. Çünki nəticə göz qabağındadır və Azərbaycan xalqı həmişə həmrəylik göstərir. Milli maraqlarımızın müdafiə edilməsində biz həmişə bir yerdəyik və bu ictimai dəstək, əlbəttə ki, mənim işimi də asanlaşdırır. Biz istənilən məsələ ilə bağlı prinsipial mövqemizi həmişə ifadə edirik, deyirik. Biz haqq yolundayıq. İdman uğurlarımız, digər sahələrdəki uğurlar bunu göstərir.

Əlbəttə, bu uğurların əsasında idmançılarımızın peşəkarlığı, fədakarlığı, məşqçilərin peşəkarlığı dayanır. Eyni zamanda, dövlət siyasəti aparılır. İdmanın inkişafı bizim dövlət siyasətimizdir və idman infrastrukturunun yaradılması prosesi davam edir. Bölgələrdə 40-dan çox müasir Olimpiya İdman Kompleksi yaradılıbdır. Gələn il Abşeron və Ağcabədi rayonlarında 2 Olimpiya İdman Kompleksi açılmalıdır. Bir neçə idman kompleksinin tikintisi davam edir. Biz gələcək illərdə də bu istiqamətdə işlərimizi davam etdirəcəyik ki, hər bir rayonda idmanla məşğul olmaq üçün ən müasir şərait yaradılsın. İndi əksər şəhərlərimizdə bu imkanlar var, harada ki, yoxdur, orada da olacaq.

Biz idmanın kütləviliyini daim diqqət mərkəzində saxlamalıyıq. Çünki bizə idman nəticələri, qələbələr lazımdır, bizə sağlam gənclər lazımdır. Hər bir gənc idmanla məşğul olmalıdır. Çalışmaq lazımdır ki, idmanla məşğul olmayan gənc qalmasın. Çünki idmanla məşğul olan hər bir insan öz həyatında, fiziki vəziyyətində, mənəvi-psixoloji durumunda bunun gözəl nəticələrini görür. İdmançılar həm fiziki cəhətdən, həm mənəvi cəhətdən sağlamdırlar, vətənpərvərdirlər. Onlar Vətəni təbliğ edirlər. Onlar bizim səfirlərimizdir. Onlar Azərbaycan bayrağı altında çıxış edirlər. Ona görə onlarda vətənpərvərlik ruhu çox yüksəkdir, fiziki güc də var və bütün bölmələrdə uşaqların, yeniyetmələrin idmanla məşğul olması üçün tədbirlər görülür.

Biz coğrafiyanı genişləndiririk və çalışmalıyıq ki, idmanla məşğul olmaq vərdişi kütləvi xarakter alsın.

Bu il artıq başa çatır. Bir daha qeyd etmək istəyirəm ki, bu il ərzində bizim çoxlu idman qələbələrimiz olubdur. Əminəm ki, idmançılar bizi gələn il də qələbələrlə sevindirəcəklər. Mən bütün Azərbaycan idmançılarını, idman mütəxəssislərini qarşıdan gələn Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm və Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra 2016-cı ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.*

*Azərbaycan Prezidenti ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə Tarverdi Allahverdiyevə, Çingiz Eyvazova, Seymur Əhədova, Vaqif Feyzullayevə, Oleq Krapivinə, Firudin Qurbanova, Həmid Məmmədyarova və Bəhruz Salehliyə Əməkdar bədən tərbiyəsi və idman xadimi fəxri adlarının döş nişanlarını təqdim etdi.*

*Ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında xüsusi xidmətləri olan Abas Əzimova və Qəhrəman Məmmədyarova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədlər təqdim olundu.*

*Dövlətimizin başçısı İlham Əliyev olimpiya çempionu Radik İsayevə və Rio Olimpiadasında yarışların idarə olunmasında göstərdiyi yüksək peşəkarlığa görə beynəlxalq dərəcəli hakim Hicran Şərifova Milli Olimpiya Komitəsinin «Olimpiya» ordenlərini təqdim etdi.*

*Azərbaycanda qeyri-olimpiya idman növlərinin inkişafında xüsusi xidmətlərinə görə Nurlan Aslanov, Bəxtiyar Abbasov, Ayaz Məmmədov, Vasif İsmayılov, Şəmsi Bayramov, Ramal Aslanov, Adil Əliyev, Zaur Axundov, Nəriman Quliyev və Emin Hacıyev Milli Olimpiya Komitəsi prezidentinin Fəxri fərmanları ilə təltif edildilər.*

*Prezident İlham Əliyev 2016-cı ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.*

*Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi, dövlətimizin başçısına fəaliyyətində uğurlar arzuladı.*

## İÇƏRİŞƏHƏRDƏ MARİONET TEATRININ AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də İçərişəhərdə Marionet Teatrının açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı teatrın binasının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Prezidenti və xanımı teatrın binasında yaradılan şəraitlə tanış oldular.*

*Dövlətimizin başçısına və xanımına görülən işlərlə bağlı ətraflı məlumat verildi. Bildirildi ki, Müslüm Maqomayev, 20 ünvanında yerləşən Marionet Teatrının binası 1880-ci ildə antik obraz və motivlərdən istifadə edilərək, neoklassisizm üslubunda inşa olunub. Yerli əhəmiyyətli tarixi-memarlıq abidəsi olan bina Bakı zadəganlarından olan Səlimxanovlara aid idi. Tarixi binanın fasadında XIX əsrin sonuna xas klassik rus memarlığı elementlərindən və Avropa dekorlarından istifadə edilib.*

*Qeyd olundu ki, milli dəyərlərə bağlılığı qorumaq və mədəni irsimizi gələcək nəsillərə ötürmək məqsədilə İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nəzdində Marionet Teatrı 2013-cü ildən fəaliyyət göstərir. Tarixi və mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qoruyucusu olan, onu beynəlxalq aləmdə tanıdan Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın xüsusi dəstəyi ilə teatrın fəaliyyətinin genişləndirilməsi istiqamətində kompleks işlər həyata keçirilib. Nəticədə teatr üçün İçərişəhərdə bina ayrılıb və bu binanın teatrın fəaliyyətinə uyğunlaşdırılması işləri uğurla tamamlanıb. Teatrda istifadə olunan kuklalar buradakı emalatxanada hazırlanacaq.*

*Marionet Teatrı fenomeni yetərincə maraqlı olmaqla yanaşı, dünyada populyar olan teatr incəsənəti janrlarındandır. Bu janr teatr növləri arasında çox çətin başa gələn və eyni zamanda, ən maraqlı və cəlbedici sayılanlardan biridir. Çətin olduğuna görə, əksər ölkələrdə belə teatr ənənəsi mövcud deyil. Azərbaycanda Marionet Teatrı ilk dəfə keçən əsrin 80-ci illərinin ortalarında rejissor və rəssam Tərlan Qorçunun təşəbbüsü ilə yaranıb. Bütün yaş qrupuna aid insanlarda maraq doğuran bu teatr janrı xalqımızın zəngin, çoxşaxəli mədəni irsinin ən müxtəlif sahələrini – memarlıq, milli geyim və musiqi, dilimizin nitq melodikliyini, xalqımızın həyat tərzini və bayramlarımızı, rəqslərimizi özündə birləşdirir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva teatrın səhnəsində marionet kuklalarının ifasında «Leyli və Məcnun» operasından bir hissəyə tamaşa etdilər.*

*Qədim Şərq folkloruna məxsus məhəbbət əfsanəsi «Leyli və Məcnun» orta əsrlər dövrü ədəbiyyatının ən məşhur mövzusu olub, 50-dən çox şair, o cümlədən dahi Azərbaycan şairləri Nizami Gəncəvi və Məhəmməd Füzuli eyniadlı poemalar yazıblar. Dahi bəstəkar Üzeyir Hacıbəyli 1907-ci ildə Şərq muğamı və Qərb klassik musiqisinin sintezi əsasında «Leyli və Məcnun» operasını bəstələyib. «Arşın mal alan» operettası və «Leyli və Məcnun» operası hazırda Marionet Teatrının repertuarında xüsusi yerlərdən birini tutur. Teatr 1990-cı ildə Fransada «Arşın mal alan»ın uğurlu premyerasını keçirib, sonrakı illərdə bu operettanı dünyanın bir çox ölkələrində nümayiş etdirib. Bu gün isə artıq teatrın qastrol xəritəsində Almaniya, ABŞ, Rusiya, Polşa, İsveçrə kimi ölkələr də yer alır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin yeni «Şirvanşahlar» kolleksiyası ilə də tanış oldular.*

*İncəsənət Mərkəzi 2012-ci ilin oktyabrında Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nazirlər Kabineti yanında İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Londonda yerləşən Ənənəvi İncəsənət üzrə Şahzadə məktəbi arasındakı razılaşma*

*əsasında yaradılıb. Mərkəzin dördillik uğurlu fəaliyyəti nəticəsində Azərbaycan incəsənəti və sənətkarlığının gələcək inkişafı üçün yaradıcı gənc sənətkarlar qrupu yetişdirilib. Mərkəzdə Azərbaycanın tarixi və mədəni irsindən ilhamlanan, eyni zamanda, müasir bazarın kommersiya tələblərinə və estetik həssaslığına cavab verən müxtəlif məhsullar ərsəyə gətirilir. IX–XVI əsrlərdə Azərbaycan ərazisində hökmranlıq edən Şirvanşahlar dövlətinin zəngin mədəniyyəti kolleksiyada öz əksini tapıb. XIII əsrdə Şirvanşah III Fəribürzün əmri ilə tikilən Bayıl Qəsri, Şirvan–Abşeron memarlıq məktəbinin XIII–XVI əsrlərə aid Şirvanşahlar Saray Kompleksi memarlıq abidəsi, eləcə də Şirvanşahlar dövlətinin atributları kolleksiyanı yaradan dizaynerlər tərəfindən əsas ilham mənbəyi olaraq seçilib.*

*Bütün bunlar göstərir ki, Azərbaycan memarlığının və mədəniyyətinin nadir incisi sayılan İçərişəhərin qorunması diqqət mərkəzindədir. Xalqımızın milli sərvəti olan İçərişəhər dövlət başçımızın diqqət və qayğısı sayəsində intibah dövrünü yaşayır, burada həyata keçirilən bərpa işləri bu qədim şəhəri xalqımızın çoxəsrlik tarixinə həmişəlik daxil edib. Şirvan–Abşeron memarlıq məktəbinin ən məşhur nümunəsi olan İçərişəhərin YUNESKO-nun Dünya İrs siyahısına daxil edilməsi Azərbaycan xalqının bəşər mədəniyyətinə töhfələr verdiyini bir daha təsdiqləyir.*

*Sonda xatirə şəkli çəkdirildi.*

# İÇƏRİŞƏHƏRDƏ BƏYLƏR MƏSCİDİNDƏ BƏRPA İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*24 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də İçərişəhərdə Bəylər məscidinin bərpa və konservasiya işlərindən sonra təqdimatında iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə məsciddə yaradılan «Müqəddəs əmanətlər» ekspozisiyası ilə tanış oldular.*

*İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi Əsgər Ələkbərov dövlətimizin başçısına və xanımına görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, qədim Bakının inkişaf mərhələlərinə nəzər salanda bu şəhərdə qədim dövrlərdən başlayaraq, müxtəlif din və həyat tərzlərinin bir-birini əvəz etdiyini və nəticə etibarilə mənəvi mədəniyyətin mənbəyinə çevrildiyini görürük. VII əsrin birinci yarısından Azərbaycanda, o cümlədən Bakıda islam dininin yayılmasının geniş vüsət alması bu şəhərdə çoxsaylı dini memarlıq abidələrinin – məscid, təkyə, məktəb-məscid və türbələrin tikilməsinə səbəb olub və bu proses yüzilliklər boyu davam edib, nəticədə günümüzə onlarla qədim mədəniyyət abidələrini gətirib çıxarıb. 1895-ci ildə inşa olunan Bəylər məscidi də yerli əhəmiyyətli tarix-memarlıq abidəsidir.*

*Qeyd olundu ki, İçərişəhər ərazisində inşa olunan bu sonuncu məscid zalın böyüklüyünə və tikinti quruluşuna görə digər dini abidələrdən fərqlənir. Onun inşasında Avropa, Şərq, eləcə də yerli memarlığın konstruktiv prinsiplərindən istifadə olunub. Mükəmməl görünüşlü minarənin yuxarı hissəsi Qərbi Avropaya xas olan dekorativ elementlərlə bəzədilib. Məscidin zalında və mehrabında mükəmməl bədii daşyonma sənəti nümunələrindən*

*məharətlə istifadə edilib. Memarlıq abidəsi qədim məscidin yerində tikilib.*

*Bəylər məscidində bərpa və konservasiya işləri İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəvət etdiyi avstriyalı məşhur bərpaçı ekspert Erix Pummer tərəfindən aparılıb. 2014–2015-ci illərdə görülən işlər zamanı məscidin bərpasında İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi də iştirak edib, qapı və pəncərələri memarlıq elementləri ilə bəzəyib. Nəticədə təyinatına uyğun muzeyləşdirilən məsciddə «Müqəddəs əmanətlər» ekspozisiyası yaradılıb.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, ekspozisiyada islam dininin müqəddəs əmanəti olan müxtəlif dövrlərə aid qədim Qurani-Kərim kitabları nümayiş etdirilir. Burada 73 Quran, 7 dini kitab, 19 dini atribut – ümumilikdə, 99 eksponat nümayiş olunur. Yanğından hifz olunan kitabların vərəqləri, Dərbənd məscidinə aid və axund tərəfindən divara hörülərək qorunan Quran, eləcə də burada nümayiş etdirilən Quranın cüzləri ekspozisiyada diqqəti cəlb edən eksponatlardır. Azərbaycanın müxtəlif regionlarından toplanılan müqəddəs əmanətlər yanğına məruz qalan kitabxanalar və şəxsi mülklərdən aşkar edilib.*

*Burada yaradılan şərait bir daha təsdiqləyir ki, milli-mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dövlətimizin başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, paytaxtda və ölkəmizin bölgələrində onlarla məscid, dini məbəd, tarixi abidə və ziyarətgah inşa edilib, bərpa olunub və ya yenidən qurulub. Heydər Əliyev Fondu da bu prosesə böyük töhfələr verib, mədəni və mənəvi mühitin qorunmasında mühüm xidmətlər göstərib. İçərişəhərdəki Bəylər məscidinin bərpa və konservasiyası da ölkəmizdə milli-mənəvi dəyərlərin inkişafı ilə bağlı görülən işlərə önəmli bir töhfədir.*

## YASAMAL YAŞAYIŞ KOMPLEKSİNDƏ İLK DOQQUZMƏRTƏBƏLİ BİNANIN VƏ MƏKTƏB BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*24 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin birinci layihəsi olan Yasamal Yaşayış Kompleksində inşa ediləcək ilk doqquzmərtəbəli binanın və məktəb binasının təməlqoyma mərasimində iştirak etmişlər.*

*Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru Samir Nuriyev prezident İlham Əliyevə layihə barədə məlumat verdi.*

*Agentliyin ilk layihəsi olan bu kompleks şəhərətrafı dairəvi avtomobil yolunun kənarında yerləşir. Kompleksin ümumi sahəsi 11,6 hektar olacaq. Bu ərazinin seçilməsində rahat yaşayış üçün bir neçə mühüm məqam nəzərə alınıb. Belə ki, ərazi şəhərin ekoloji cəhətdən təmiz və əlverişli hissəsində yerləşir. Ərazinin yaxınlığında 5 hektara yaxın yaşıllıq zonasının olması isə kompleksin ekoloji durumunu daha da yaxşılaşdırır.*

*Prezident İlham Əliyev Yasamal Yaşayış Kompleksində inşa olunacaq ilk doqquzmərtəbəli binanın təməlini qoydu.*

*Yaradılacaq bu ilk şəhərcik 29 çoxmənzilli yaşayış binasından ibarət olacaq. Bunlardan 17-sinin ikibloklu doqquzmərtəbəli, 12-sinin isə birbloklu 12 mərtəbəli olması planlaşdırılır. Bu binalardakı 1854 mənzildən 301-i birotaqlı, 1110-u ikiotaqlı, 443-ü isə üçotaqlı olacaq. Birotaqlı mənzillərin sahəsi təqribən 31 kvadratmetrdən 33 kvadratmetrədək, ikiotaqlı mənzillərin sahəsi təqribən 50 kvadratmetrdən 58 kvadratmetrədək, üçotaqlı mənzillərin sahəsi isə təqribən 70 kvadratmetr təşkil edə-*

*cək. Bütün mənzillər tam təmirli vəziyyətdə və mətbəx mebeli ilə birlikdə vətəndaşlara təklif olunacaq.*

*Kompleksin tikintisi üçün seçilmiş məkanın üstünlüklərindən biri də onun paytaxtın əsas iş yeri mərkəzlərinə yaxın yerləşməsidir. Bununla yanaşı, ərazidə yaradılacaq yeni nəqliyyat infrastrukturunun Bakının mövcud yol və ictimai nəqliyyat şəbəkəsi ilə inteqrasiyası nəzərdə tutulur. Bu isə sakinlərin çox vaxt itirmədən istədikləri yerə çatmalarına imkan verəcək.*

*İnşa olunacaq mənzillərin vətəndaşlar tərəfindən alınması prosesində şəffaflığın təmin edilməsinə xüsusi diqqət göstəriləcək. Bu məqsədlə «Elektron hökumət» portalında «Güzəştli mənzil» elektron sistemi yaradılacaq. Bu sistem vətəndaşlara virtual «şəxsi kabinet» yaratmaq yolu ilə qeydiyyatdan keçmək və gələcəkdə növbəlilik prinsipinə əsasən, müvafiq xidmətlərdən faydalanaraq, mənzil əldə etməyə əlverişli şərait yaradacaq. Sistem 2017-ci il mayın 1-dən etibarən fəaliyyətə başlayacaq.*

*Sonra dövlətimizin başçısı burada inşa ediləcək məktəb binasının təməlini qoydu.*

*Kompleksdə mənzillərlə yanaşı, bir sıra sosial obyektlər də tikiləcək. Onların arasında 240 yerlik uşaq bağçası və 960 şagird yerlik orta təhsil məktəbi də var. Ərazidə müvafiq sosial infrastrukturun yaradılması, həmçinin ictimai iaşə, məişət və digər xidmət obyektləri üçün qeyri-yaşayış sahələrinin də istifadəyə verilməsi nəzərdə tutulur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, bu gün şəhərimizin həyatında çox əlamətdar bir gündür. Bu gün Bakıda yeni yaşayış kompleksinin təməl daşı qoyuldu. Bu münasibətlə Bakı sakinlərini ürəkdən təbrik etmək istəyirəm.

Bu, yeni bir sosial layihədir. Bu layihənin icra edilməsi bir daha onu göstərir ki, sosial məsələlərin həlli bizim üçün həmişə prioritet olub. Bu il aprel ayının 11-də mənim sərəncamımla

Mənzil İnşaatı Dövlət Agentliyi yaradılıb. Bu agentliyin əsas vəzifəsi vətəndaşların mənzil-məişət problemlərini həll etməkdən ibarətdir. Eyni zamanda, Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti nəticəsində inşaat sektorunun inkişafına yeni təkan veriləcək və bu da öz növbəsində, minlərlə yeni iş yerinin yaradılmasına gətirib çıxaracaq.

Bu, yeni sosial təşəbbüsdür, yeni sosial layihədir. Sosial binaların tikintisi mənzilə ehtiyacı olan ailələr üçün böyük dəstək olacaqdır. Ümumiyyətlə, son illər ərzində biz ciddi iqtisadi islahatlarla yanaşı, həmişə sosial məsələlərin həllinə də böyük diqqət vermişik. Son 10 il ərzində pensiyalar 7 dəfə, maaşlar 5 dəfə artıb. Ölkəmizdə bir çox sosial infrastruktur obyektləri tikilib. 3000-dən çox məktəb, 600-dən çox xəstəxana tikilib və təmir edilib. 90-dan çox məcburi köçkün qəsəbəsi salınıb və bu proses davam edir. Ünvanlı sosial yardımın məbləği artırılır və bu proqram üzrə yardım alanların sayı da lazım gələndə artırılır. Bir sözlə, sosial siyasət bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə ki, bu siyasəti daha da uğurla aparmaq üçün bizim güclü iqtisadi imkanlarımız olmalıdır. Bu imkanları biz yaradırıq, hətta böhranlı vaxtlarda da ciddi islahatlar aparılır və bu islahatlar öz nəticələrini verməkdədir.

Burada, Yasamal rayonunda icra edilən layihə birinci layihədir. Bundan sonra da layihələr icra ediləcəkdir. Burada 29 yaşayış binasının, uşaq bağçasının, məktəbin tikintisi nəzərdə tutulur. Bu yaşayış kompleksində 1800-dən çox mənzil inşa ediləcək. Ümid edirəm ki, biz bu birinci layihənin açılışını 2018-ci ildə edəcəyik.

Müəyyən səbəblər üzündən mənzil ala bilməyən vətəndaşlar da Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti nəticəsində mənzil ala biləcəklər. Çünki biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq, imkanlı təbəqə, yoxsul təbəqə, aztəminatlı vətəndaşlar var və onların problemlərinin həllini dövlət öz üzərinə götürür. Artıq qeyd etdiyim kimi, müxtəlif sosial proqramlar icra olunur və mənzil təminatı da, əlbəttə ki, hər bir ailənin həyatında xüsusi yer tutan amildir. İmkanlı vətəndaşlar özlərini

mənzillərlə, evlərlə təmin edirlər, ancaq buna imkanı olmayanlar üçün dövlət öz yardımını əsirgəməməlidir. Bu gün bu layihənin başlanması bunun əyani sübutudur. İlk növbədə, şəhid ailələrinə, müharibə veteranlarına, gənc mütəxəssislərə, müəllimlərə, alimlərə, hərbçilərə, bu kateqoriyadan olan vətəndaşlara bu yaşayış kompleksində güzəştli şərtlərlə mənzillər veriləcək. Şərtlər doğrudan da çox güzəştlidir, uzunmüddətli ödəmə şərti ilə insanlar yeni mənzillərə köçəcəklər.

Bu layihənin icra edilməsi nəticəsində inşaat sektoru da canlanacaq. Bu il inşaat sektorunda tənəzzül yaşanır. Əgər biz ümumi daxili məhsulumuzun inkişafının və tənəzzülünün dinamikasına nəzər salsaq görərik ki, bu gün ümumi daxili məhsulun göstəricilərini aşağı salan amil inşaat sektorundakı tənəzzüldür. Bunun da 2 səbəbi var. Dövlət investisiyaları azalıb, bu da təbiidir. Çünki bizim gəlirlərimiz azalıb və biz ilk növbədə, gəlirlərimizi sosial məsələlərin həllinə yönəltmişik. Onu da qeyd etməliyəm ki, bu il bir dənə də olsun sosial proqram ixtisara düşmədi. Bu birinci məsələdir. Digər səbəb isə, əlbəttə ki, sahibkarlar da mənzil inşaatına az fikir verməyə başlamışlar. Ona görə Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti və icra ediləcək digər layihələr nəticəsində biz inşaat sektorunu canlandıracağıq. Bu özlüyündə böyük bir hərəkətə, canlanmaya gətirib çıxaracaq, inşaat sektorunda minlərlə iş yeri yaradılacaq. Eyni zamanda, inşaat materialları ilə məşğul olan, onları istehsal edən şirkətlər də öz fəaliyyətini bərpa edəcək, genişləndirəcəkdir. Beləliklə, bu layihənin ölkə iqtisadiyyatına da çox müsbət təsiri olacaqdır.

Nəzərə alsaq ki, son illərdə ölkəmizdə aparılan islahatlar və şaxələndirmə siyasəti nəticəsində biz, demək olar ki, əsas tikinti materialları ilə özümüzü təmin edirik, bu layihələrin icrasında biz idxal komponentindən asılı olmayacağıq. Mənə verilən məlumata görə, bu binaların tikintisində istifadə ediləcək materialların 80–90 faizi Azərbaycan istehsalı olacaqdır və ilk növbədə, biz idxala tələbatımızı azaldacağıq. Digər tərəfdən,

yerli şirkətlər də inşaat materiallarını istehsal edərək, öz maddi imkanlarını yaxşılaşdıracaqlar. Mən özəl sektora da müraciət edirəm. Biz 2017-ci ildə inşaat sektorunda çox böyük bir inkişaf görəcəyik. Bax, bu gün Azərbaycanda sosial binaların tikintisi, icra edilən digər layihələr çox böyük canlanmaya gətirib çıxaracaqdır.

Qeyd etdiyim kimi, bu layihə çərçivəsində 29 bina tikiləcək. Hazırda Bakı şəhərində köhnə, yararsız vəziyyətdə olan binaların yerində 60-dan çox yeni, hündürmərtəbəli yaşayış binasının tikintisi aparılır və bu iş davam etdiriləcəkdir. Bu da bu il müəyyən etdiyimiz siyasət nəticəsində mümkündür. Sahibkarlara şərait yaradılıb. Yerli icra orqanları bu məsələ ilə bağlı öz dəstəklərini göstərir. Artıq birinci belə layihə bu yaxınlarda Ramana qəsəbəsində icra edildi. Mən də o binanın açılışında iştirak etmişəm ki, bu prosesə öz dəstəyimi verim.

Qeyd etdiyim kimi, hazırda Bakıda 60-dan çox hündürmərtəbəli binanın tikintisi ya başlanılıb, ya da ki, indi son hazırlıq işləri aparılır. Əvvəlki binalarda yaşayan insanlara kirayə pulu verilir. Onlar 1 il, il yarım kirayədə qalırlar. Sonra həmin o ərazidə tikiləcək binalarda onlara mənzillər verilir. Artıq Ramana qəsəbəsində sakinlər bunu görüblər. Onlara təmirli mənzillər verilir və eyni zamanda, o mənzillərin sahəsi onların əvvəlki mənzillərindən təqribən 30, 40, 50 faiz, bəzi hallarda 2 dəfə böyükdür. Onlar o yararsız binalardan yeni binalara, yeni mənzillərə köçürlər, onların yaşayış sahəsi də artır.

Bax, bu layihənin prinsipi bundan ibarətdir ki, əvvəllər orada yaşayan vətəndaşlar da görəcəklər ki, bunun nə qədər böyük faydası var. Yerli icra orqanları və sahibkarlar burada birgə fəaliyyət göstərməlidirlər. Bakıda köhnəlmiş, yararsız və qəzalı vəziyyətdə olan binaların sayı, əfsuslar olsun ki, kifayət qədərdir. Vaxtilə bəzi binalar qanunsuz yollarla tikilib. Heç sənədi də yoxdur o binaların. Ancaq insanlar orada yaşayırlar. Həmin insanların yaşayış şəraiti nə onları, nə də dövləti qane edə bilməz.

Ona görə gələn il Bakıda bu istiqamət üzrə ən azı 60 bina inşa ediləcək. Əgər biz «Ağ şəhər» layihəsini – orada da yaşayış binalarının tikintisi sürətlə gedir – «MİDA» layihəsini əlavə etsək, görərik ki, gələn il Bakı şəhərində ən azı 100-dən çox yaşayış binasının tikintisi nəzərdə tutulur. Bu da minlərlə, on minlərlə iş yerinin yaradılması, inşaat sektorunun canlanması və Bakımızın daha da gözəlləşməsi deməkdir. Çünki indi Bakıya gələn hər bir xarici qonaq – əgər o qərəzsizdirsə – qeyd edir ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Mən istəyirəm ki, Bakının bütün rayonları ən yüksək zövqə layiq olsun, təkcə şəhərin mərkəzi yox. Bunun üçün bu layihələrin icrası xüsusi əhəmiyyət daşıyır.

Yasamal Yaşayış Kompleksinin yaradılması nəticəsində bu ərazidə müasir infrastruktur yaradılır – qaz, işıq, su xətləri, kommunikasiyalar, yollar, yaşıllıq zonaları, idman meydançaları. Bu, şəhər infrastrukturuna da böyük dəstəkdir. Görün bu bir layihənin və bir təşəbbüsün nəticəsində biz özümüz üçün nə qədər böyük, yeni imkanlar aşkar edirik. Bu layihənin multiplikativ effekti çox böyük olacaq.

Bir daha sözümün əvvəlinə qayıtmaq istəyirəm ki, bu layihəni başlayarkən, ilk növbədə, vətəndaşlar haqqında düşünürdük. İstəyirdik ki, bu gün mənzil ala bilməyən ailə mənzil ala bilsin. Bu hərəkat, bu təşəbbüs kütləvi xarakter almalıdır. İndi Bakı şəhərində ikinci layihənin icrası üçün hazırlıq işləri gedir. İkinci layihə bundan da böyük olacaq. Əgər burada tikinti meydançası 11 hektardırsa, ikinci layihədə 20 hektar olacaq. İkinci layihə Hövsan qəsəbəsində icra ediləcək. Orada da onlarla yeni yaşayış binasının tikintisi nəzərdə tutulur.

Biz bunu bu gün dövlət xətti ilə icra edirik və burada tikiləcək binaların maliyyə resursları da dövlət büdcəsində nəzərdə tutulur. Ancaq mən bu gün sahibkarlara da müraciət edirəm. Onlar da bu təşəbbüsə qoşulsunlar və bu proses kütləvi xarakter alsın. Onsuz da dövlət öz üzərinə düşən vəzifəni icra edəcək. Həm Bakı şəhərində, həm digər böyük şəhərlərimizdə və gələcəkdə hər bir yerdə sosial binaların tikintisi aparılmalıdır və

aparılacaq. Ancaq bu prosesə daha geniş xarakter vermək üçün özəl sektor da buna qoşulmalıdır. Özəl sektorun inkişafı üçün biz bütün lazımi tədbirləri görürük, güzəştli şərtlərlə kreditlər verilir. Mən mütəmadi qaydada sahibkarlarla görüşürəm. Bugünkü təşəbbüs, bax, bugünkü təməlqoyma mərasimi sahibkarlara da bir siqnaldır ki, onlar həm özləri, həm də dövlət üçün daha böyük işlər görə bilsinlər. Qeyd etdiyim kimi, biz bu layihənin həyata keçirilməsi nəticəsində bir neçə mühüm vəzifəni icra edəcəyik.

Mən bu gün sizi – Bakı sakinlərini bir daha ürəkdən salamlayıram. Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm. Sağ olun.

* * *

**S a m i r  N u r i y e v** *(Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru):* Möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

Hörmətli tədbir iştirakçıları!

Müasir Azərbaycan öz müstəqilliyini bərpa etdiyi 25 il müddətində mürəkkəb və eyni zamanda, çox uğurlu bir yol keçib. Ulu öndərimiz Heydər Əliyevin və Sizin, möhtərəm Prezident, rəhbərliyiniz altında aparılmış genişmiqyaslı islahatlar ölkəmizdə sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına, əhalinin maddi rifahının artmasına xidmət edib. Həyata keçirdiyiniz uzaqgörən siyasət sayəsində bir çox sosial məsələlər öz həllini tapıb, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və həyat şəraitinin daha da yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb.

Möhtərəm cənab Prezident, Sizin qarşıya qoyduğunuz məqsədlərdən biri də ölkə əhalisinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Xüsusilə də aztəminatlı vətəndaşların, gənc ailələrin mənzil probleminin həll edilməsi prioritet vəzifə kimi müəyyən edilib. Son illər ərzində, əhalinin müxtəlif kateqoriyalarının mənzil ehtiyaclarının dövlət tərəfindən ödə-

nilməsi sahəsində bir çox layihələr uğurla həyata keçirilib, 2003–2015-ci illərdə dövlət vəsaiti hesabına tikilmiş mənzillərin ümumi sahəsi 3 milyon 200 min kvadratmetr olub.

Bununla yanaşı, vətəndaşların yaşayış sahələrinə olan tələbatının təmin olunması məqsədi ilə 2005-ci ildə ölkədə uzunmüddətli ipoteka kreditləşməsini həyata keçirmək üçün Azərbaycan İpoteka Fondu yaradılıb. Həmin ildən başlayaraq bu günə qədər fond vasitəsilə 18 mindən artıq ailəyə 730 milyon manatdan çox ipoteka krediti verilib.

Bu sahədə ardıcıl siyasəti davam etdirərək, ölkədə yaşayış binalarının tikilməsini təşkil etmək və aztəminatlı ailələrin güzəştli şərtlərlə mənzillər əldə etməsi üçün şərait yaratmaq məqsədilə zati-aliləriniz bu il aprelin 11-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması haqqında fərman imzaladı. Yeni yaradılmış quruma göstərdiyiniz dəstək Agentliyin uğurlu fəaliyyətinə zəmin yaratmaqla yanaşı, qarşımızda mühüm və məsuliyyətli vəzifələr qoyur. Bu vəzifələri layiqincə yerinə yetirmək məqsədi ilə, ilk növbədə, agentliyin yüksəkixtisaslı, müasir düşüncəli, Azərbaycanda və xaricdə təhsil almış təcrübəli mütəxəssislərdən ibarət işçi heyəti formalaşdırıldı.

Növbəti addım kimi, tərəfimizdən şəhərsalma nöqteyi-nəzərdən əlverişli yerləşmə prinsipi əsas götürülərək, torpaq sahələrinin seçilməsinə başlanıldı. Ötən müddət ərzində agentliyin mütəxəssisləri Bakıda və ölkənin digər şəhərlərində bir çox torpaq sahələrinə baxış keçirib, müvafiq meyarlar üzrə qiymətləndirmələr aparıblar. Torpaq sahələrinin dəyərləndirilməsi zamanı ilk növbədə, şəhərlərin inkişaf perspektivləri nəzərə alınaraq, həmin ərazilərin iş yeri mərkəzlərinə yaxınlığı, ekoloji cəhətdən əlverişliliyi, nəqliyyat və mühəndis-kommunikasiya şəbəkəsinin mövcudluğu əsas meyar kimi götürülür.

Bununla yanaşı, agentlik tərəfindən qabaqcıl beynəlxalq təcrübə öyrənilib, bu sahədə uzun müddət uğurla fəaliyyət göstərən analoji xarici təşkilatlarla əlaqələr yaradılıb. Bu təşkilatların təcrübəsinə əsaslanaraq qeyd etmək olar ki, ölkəmizdə güzəştli

mənzillərin tikilməsi yerli iqtisadiyyatın inkişafına təkan verməklə yanaşı, bu mənzilləri əldə edən insanlara, əsasən də gənc ailələrə öz gələcək həyat planlarını daha əminliklə qurmağa və ailə büdcələrini səmərəli planlaşdırmağa kömək edəcək. Bu da öz növbəsində, onların maliyyə savadını artıracaq.

Onu da qeyd etmək istərdim ki, sosial mənzillərin tikintisi vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, həmçinin inşaat sektorunun inkişafına da müsbət təsir göstərəcək, tikinti materialları istehsalını stimullaşdıracaq, yeni iş yerlərinin yaradılmasına xidmət edəcək. Son illər ərzində Azərbaycanda tikinti materialları istehsal edən bir çox müəssisələr yaradılıb, zavodlar inşa edilib. Apardığımız təhlillər göstərir ki, çoxmənzilli binaların tikintisində istifadə olunacaq inşaat materiallarının 80–90 faizinin məhz yerli istehsal hesabına təmin edilməsi mümkündür. Həyata keçirdiyimiz layihələr bu sahədə çalışan sahibkarlara öz istehsal həcmlərini bərpa etməyə, bazarda mövqelərini daha da möhkəmləndirməyə kömək edəcək.

Möhtərəm cənab Prezident!

Cari il noyabrın 16-da «Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında» Fərman imzaladınız. Agentliyin sifarişi ilə inşa olunacaq mənzillərin ölkə vətəndaşları tərəfindən güzəştli şərtlərlə əldə edilməsi qaydasını təsdiqlədiniz. Bu qaydaya əsasən müəyyən edilmiş sosial kateqoriyalara aid olan aztəminatlı ailələr mənzilləri orta bazar qiymətindən aşağı qiymətə və Azərbaycan İpoteka Fondunun güzəştli ipoteka krediti vasitəsilə 30 ilədək uzunmüddətli ödəniş şərtləri ilə əldə edə biləcəklər.

Bununla yanaşı, dekabrın 6-da «Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi» də təsdiqləndi. Qeyd etməliyəm ki, bu 2 mühüm sənəd agentliyin fəaliyyətində istiqamətverici rol oynayır və işin səmərəliliyinin artırılmasına böyük və əvəzolunmaz bir

töhfədir. Zati-aliləri, təşkilatımıza növbəti dəfə verdiyiniz bu dəstəyə və göstərdiyiniz yüksək etimada görə, bütün kollektivimiz adından Sizə öz dərin minnətdarlığımızı bildiririk. Məhz bu dəstəyin və Azərbaycanda sosial mənzillərin tikintisi layihəsinə ayırdığınız xüsusi diqqətin nəticəsidir ki, bu gün, agentliyin yaradılmasından çox qısa bir müddət keçməsinə baxmayaraq, artıq ilk yaşayış massivinin təməli qoyulur. Cənab Prezident, təməlqoyma mərasimində Sizin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı bizim üçün böyük şərəf olmaqla yanaşı, eyni zamanda, aztəminatlı ailələrə göstərdiyiniz böyük qayğının təzahürüdür.

Bu gün təməli qoyulan Yasamal Yaşayış Kompleksi şəhərin ekoloji cəhətdən təmiz və əlverişli hissəsində yerləşir. Bu kompleksin layihələndirilməsi ölkəmizdə mövcud şəhərsalma qanunvericiliyinə və dövlət tikinti normalarına uyğun həyata keçirilib. Burada çoxmənzilli binalarla yanaşı, insanların rahat yaşayışı üçün zəruri olan hər cür şəraitin yaradılması, geniş həyətlərin, yaşıllıq zonalarının, uşaq meydançalarının və sosial infrastruktur obyektlərinin tikintisi nəzərdə tutulur.

Ümumi ərazisi 11,6 hektar olan bu şəhərcik 29 çoxmənzilli yaşayış binasından ibarət olacaq. Bunlardan 17-sinin 9 mərtəbəli, 12-sinin isə 12 mərtəbəli olması planlaşdırılır. Bu binalarda ümumilikdə 1854 mənzil olacaq ki, onların təqribən 16 faizinin birotaqlı, 60 faizinin ikiotaqlı, 24 faizinin isə üçotaqlı olması nəzərdə tutulur. Mənzillər tam təmirli və mətbəx mebeli ilə təchiz olunmuş vəziyyətdə vətəndaşlara təklif ediləcək.

Kompleksin ərazisində vətəndaşların rahat yaşayışını təmin etmək məqsədilə 240 nəfərlik uşaq bağçası, 960 şagird yerlik tam orta məktəbi də əhatə edən müvafiq sosial infrastrukturun yaradılması, habelə ictimai iaşə, məişət və xidmət obyektlərinin istifadəyə verilməsi nəzərdə tutulur. Bu gün kompleksin ilk yaşayış binasının təməli ilə yanaşı, məktəbin də təməlinin qoyulması çox böyük rəmzi məna daşıyır. Yasamal Yaşayış Kompleksində təhsil müəssisələrinin yaradılması gənc

sakinlərimizin müasir tədris şəraiti olan binalarda keyfiyyətli təhsil almaq imkanlarını artıracaq.

Onu da qeyd etmək istəyirəm ki, bu kompleksin tikintisində iştirak etmək üçün investorlar da kifayət qədər yüksək maraq göstərir və bununla bağlı artıq bir neçə təşkilatla danışıqlara başlanılıb. Planlaşdırılan dövlət–özəl tərəfdaşlığı formatında investisiyaların cəlb edilməsi, bu sahədə dayanıqlı və davamlı inkişafın təmin edilməsinə zəmin yaradacaq.

Möhtərəm cənab Prezident!

Sizi əmin etmək istərdik ki, bizə göstərdiyiniz yüksək etimadı doğrultmaq məqsədi ilə vətəndaşlarımızın layiqli yaşayış şəraitinin təmin olunması işində var gücümüzlə çalışaraq, öz səylərimizi əsirgəməyəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Xanım Şamilova** *(güzəştli mənzil əldə etmək hüququna malik şəxslərdən biri, müəllimə):* Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım və tədbir iştirakçıları!

Mənzilə ehtiyacı olan ailələr adından Sizi ürəkdən salamlayıram. Bu evlərin təməlqoyma mərasimində iştirakınız üçün Sizə dərin təşəkkürümü bildirirəm.

Verdiyiniz bu qərar mənzilə ehtiyacı olan bir çox ailəni, xüsusilə gəncləri nikbin gələcəyə kökləyir. İllərdir ki, kirayədə yaşayan gənc ailələr bu gün təməli qoyulan evlərin kirayəçisi deyil, sahibi olacaqlar. Mən və mənim kimi bütün ailələr bu proqramın reallaşmasını daha çox arzulayırıq. Bu gün bizim üçün böyük bayramdır. Sizin bu istiqamətdəki siyasətiniz həm mənzilə ehtiyac duyanlara, həm də gənclərə göstərdiyiniz böyük qayğının göstəricisidir.

Mənzilə ehtiyacı olan insanların probleminin həlli ilə bağlı Sizin təşəbbüsünüzlə gənc ailələrə mənzillərin bazar qiymətindən aşağı və güzəştli kreditlə əldə edilməsi üçün şərait yaradılıb. Buna görə Sizə xüsusi təşəkkürümüzü bildiririk.

Cənab Prezident!

Mən müəlliməyəm. Biz müəllimlər gələcəyimiz olan uşaqlarla işləyirik və onların yüksək biliyə malik əsl vətəndaşlar ki-

mi yetişməsi üçün əlimizdən gələni əsirgəmirik. Bu yolda Sizin qayğınızdan güc alırıq. İqtisadi cəhətdən əlverişsiz şəraitə baxmayaraq, qəbul etdiyiniz qərar əsasında bizim əməkhaqqımız 2 dəfə artırılıb.

Son 12 ildə ölkəmizdə 3000-dən çox məktəb tikilib və əsaslı təmir olunub. Görülən işlər nəticəsində bu gün daha keyfiyyətli tədris mühiti formalaşıb. Müəllimlərin səmərəli fəaliyyəti, şagirdlərin bilik və bacarıq əldə etmələri üçün hər cür şərait yaradılıb. Bunun üçün Sizə xüsusi təşəkkür edirik.

Ulu öndərimiz də müəllimlərə həmişə yüksək qiymət verib. Onun müəllim haqqında dediyi «Müəllim yeganə şəxsiyyətdir ki, cəmiyyət özünün gələcəyini – uşaqların tərbiyəsini yalnız ona etibar edir» fikri müəllimə verilmiş ən gözəl qiymətdir. Doğrudan da fəhləni, alimi, həkimi müəllim tərbiyə edir.

Sizin müəllimlərin sosial müdafiəsinin gücləndirilməsinə yetirdiyiniz diqqət bizi daha həvəslə və əzmlə çalışmağa ruhlandırır, işimizə daha məsuliyyətli və yaradıcı yanaşmağımıza stimul verir.

Azərbaycanın birinci xanımı, dəyərli Mehriban xanım, Sizin fəaliyyətinizi də xüsusi qeyd etmək istəyirəm. Mehriban xanım, Siz bütün sosial məsələlərə xüsusi və həssas münasibətinizlə cəmiyyətimizə bir nümunəsiniz. Sizin uşaqlara olan xüsusi qayğınız, analıq qayğınız danılmaz faktdır.

Möhtərəm cənab Prezident!

Bu gün Sizin ad gününüzdür. Hətta bu əlamətdar gündə Siz bizim yanımızdasınız və sosial qayğıya ehtiyacı olan insanlarla bir yerdəsiniz. Buna görə Sizə minnətdarıq. Sizi ad gününüz münasibətilə ürəkdən təbrik edirik. Sizə doğma Azərbaycanımızın inkişafı naminə gördüyünüz bütün işlərdə uğurlar və möhkəm cansağlığı arzulayırıq.

Cənab Prezident, mən Sizin ailənin soyadının nəfəsini həmişə üzərimdə hiss etmişəm. Çünki daimi iş yerim akademik Zərifə Əliyeva adına liseydir. Buna görə Sizə xüsusi təşəkkür edirəm.

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25 ili tamam oldu. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da

artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi – Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoyub. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, antiazərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 dekabr 2016-cı il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

«Tu-154» təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni sarsıtdı.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2016-cı il*

## ÜMUMRUSİYA AZƏRBAYCANLILARI KONQRESİNİN IV QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri!

Əziz dostlar!

Sizi Ümumrusiya Azərbaycanlıları Konqresinin növbəti IV Qurultayının işə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edir, ali toplantınıza uğurlar arzulayıram.

Uzun tarixi dövr ərzində Rusiya ilə siyasi-iqtisadi və humanitar sahələrdə təşəkkül tapmış dostluq əlaqələri bu ölkədə çoxsaylı Azərbaycan diasporunun formalaşmasını şərtləndirən əsas amillərdən olmuşdur. Hazırda Ümumrusiya Azərbaycanlıları Konqresi dünya azərbaycanlılarının diaspor təşkilatları sırasında xüsusi yer tutur. 15 il əvvəl ümummilli lider Heydər Əliyevin və Rusiya Federasiyasının Prezidenti cənab Vladimir Putinin xeyir-duası ilə təsis edilmiş bu qurum təşkilati səviyyəsinə və əhatə dairəsinə görə Azərbaycan diaspor hərəkatının avanqardı sayıla bilər. Konqres ötən illər ərzində Rusiyadakı soydaşlarımızın mənəvi əlaqələrinin genişləndirilməsi, yaşadıqları regionların ictimai-siyasi və mədəni həyatında fəal iştirakının təmin edilməsi, Rusiya ilə Azərbaycan arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və digər sahələrdə səmərəli fəaliyyət göstərmişdir.

Diaspor quruculuğu məsələsinə daim böyük önəm verən Azərbaycan dövləti Rusiya Federasiyasında məskunlaşmış azərbaycanlı icmalarının pozitiv, yaradıcı və əhəmiyyətli sosial fəaliyyətini yüksək dəyərləndirir. Hesab edirəm ki, hər bir azərbaycanlı ilk növbədə, yaşadığı ölkənin layiqli vətəndaşı olmalı, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak etməli, onun inkişafına öz dəyərli

töhfəsini verməlidir. Məhz belə insanların daxil olduğu diaspor təşkilatları soydaşlarımızı sıx birləşdirə, xalqımızı ləyaqətlə təmsil edə və qarşılıqlı əlaqələrin möhkəmlənməsinə daha faydalı xidmət göstərə bilər.

2016-cı ildə Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı və VII Azərbaycan–Rusiya Regionlararası Forumda Azərbaycan diasporunun Rusiya Federasiyasında gördüyü işlərə qiymət verildi, əldə edilmiş nailiyyətlər, qazanılmış təcrübə, müasir dövrün tələb və çağırışları nəzərə alınmaqla, yeni vəzifələr müəyyən edildi. Əminəm ki, Ümumrusiya Azərbaycanlıları Konqresinin bugünkü ali toplantısı da işgüzar şəraitdə və konstruktiv ruhda keçəcək, irəli sürülən ideyalar və qəbul edilən qərarlar qurumun işini keyfiyyətcə daha yüksək mərhələyə qaldırmağa, azərbaycanlıların dost Rusiyanın çoxmillətli cəmiyyətinə sıx inteqrasiyasına, iki ölkə arasında strateji əməkdaşlığın inkişafına əlavə imkanlar açacaqdır.

Qurultay iştirakçılarına bu yolda əzmkarlıq, rəhbər orqanlara seçiləcək yeni heyətə ardıcıl, məqsədyönlü və uğurlu fəaliyyət arzulayıram. Fürsətdən istifadə edərək, hamınızı 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 dekabr 2016-cı il*

## XALQ ARTİSTİ ZEYNƏB XANLAROVAYA «HEYDƏR ƏLİYEV» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*26 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə görkəmli müğənni, Xalq artisti Zeynəb Xanlarovanı «Heydər Əliyev» ordeni ilə təltif etmişdir.*

**İ l h a m Ə l i y e v:** Əziz və hörmətli Zeynəb xanım!

Mən sizi, ilk növbədə, qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illərdir ki, xalqımızı öz gözəl sənətinizlə sevindirirsiniz. Xalqımızın musiqi tarixində sizin çox böyük yeriniz vardır. Siz dünya şöhrətli müğənnisiniz və Azərbaycanı, bizim xalqımızı, dövlətimizi uzun illər ərzində, həm sovet dövründə, həm müstəqillik dövründə dünyada təbliğ edirsiniz. Azərbaycan xalqı sizi çox sevir. Siz bunu yaxşı bilirsiniz.

Ulu öndər Heydər Əliyev həmişə sizə çox böyük diqqət və qayğı göstərirdi, həm ötən əsrin 70–80-ci illərinin əvvəllərində, həm də müstəqillik dövründə. Ulu öndər sizi çox qiymətləndirirdi, çox sevirdi. Xatırlayıram ki, atam təqaüddə olan zaman siz Moskvaya gəlib ona baş çəkdiniz. Mən də o görüşdə iştirak edirdim. O vaxt da siz öz iradənizi, öz mərdliyinizi göstərdiniz. Çünki o vaxt Heydər Əliyevə qarşı əsassız ittihamlar irəli sürülmüşdü. Ovaxtkı sovet və Azərbaycan rəhbərliyi ona qarşı kampaniya aparırdı. Onun, necə deyərlər, qanadı altında böyümüş insanların bir çoxu ona nəinki baş çəkirdi, hətta zəng etməyə də qorxurdu.

Yəni mən o günləri çox yaxşı xatırlayıram və heç vaxt unutmuram. Siz isə Moskvada onun evinə gəldiniz. Mən də o

görüşdə idim. Ona mənəvi dəstək verdiniz. Sizin çox gözəl, səmimi söhbətiniz oldu. Mən o günü heç vaxt unutmuram və unutmayacağam.

Siz xalqımızın mərd qızısınız. Həmişə prinsipial olmusunuz, həmişə həqiqəti demisiniz və heç bir şeydən qorxmadan həmişə öz mövqenizdə qalmısınız. Bu gün Azərbaycan parlamentinin üzvü kimi də sizə çox böyük hörmət var. Çünki siz xalqımızı narahat edən məsələləri daim diqqətdə saxlayırsınız, öz prinsipial mövqenizi göstərirsiniz. Buna görə də mən sizə minnətdarlığımı bildirirəm, sizə cansağlığı, yeni uğurlar arzu edirəm.

Xalq, dövlət qarşısında göstərdiyiniz böyük xidmətlərə görə mənim sərəncamımla siz ulu öndərin adını daşıyan, dövlətimizin ən ali mükafatı – «Heydər Əliyev» ordeni ilə təltif edilirsiniz. İcazə verin, bu yüksək mükafatı, bu ordeni sizə təqdim edim.

*Dövlətimizin başçısı «Heydər Əliyev» ordenini Zeynəb Xanlarovaya təqdim etdi.*

**Z e y n ə b X a n l a r o v a:** Ay Allah, kaş ulu öndərimiz sağ olaydı və görəydi ki, Siz bu ordeni mənə verdiniz.

*Azərbaycanın ən yüksək dövlət mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif olunmasını ona göstərilən böyük diqqətin və qayğının ifadəsi kimi dəyərləndirən və buna görə minnətdarlığını bildirən Xalq artisti Zeynəb Xanlarova xalqımızın ümummilli lideri Heydər Əliyevin işıqlı xatirəsini dərin ehtiramla yada saldı. Ulu öndər Heydər Əliyevin elm, mədəniyyət və incəsənət xadimlərinə həmişə yüksək qayğı göstərdiyini vurğulayan Xalq artisti bu ənənələrin hazırda prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini minnətdarlıq hissi ilə qeyd etdi.*

**Z e y n ə b X a n l a r o v a:** İnanın, mən bütün dünyanı gəzmişəm. Dünyanın harasına getmişəmsə, mükafatlar almışam. Ancaq aldığım mükafatların içərisində ən çox sevdiyim bu ordendir. Mən həmişə deyirəm, bu cavanlığında adam Azərbaycanı elə bil təzədən qurub-yaradıb.

Mən ömrüm boyu Sizə minnətdaram. Həmişə demişəm, Siz əsl kişinin oğlusunuz. Siz Heydər müəllimin yadigarısınız. Sizə Allah bundan sonra 100 il ömür versin və Siz Azərbaycanı yaşadasınız.

Siz hər bir azərbaycanlının Prezidentisiniz. Sizinlə gənclər də, ahıllar da fəxr edirlər. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, Zeynəb xanım.

## «BAKI AĞ ŞƏHƏR»DƏ GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*26 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 26-da «Bakı Ağ şəhər»də görülən işlərlə tanış olmuş, Fəvvarələr Meydanı parkı, ictimai parkinq və piyada keçidi kompleksinin təməlqoyma mərasimində iştirak etmişlər.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov və «Bakı Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına ötən müddətdə görülən işlər barədə məlumat verdilər. Qeyd olundu ki, burada mükəmməl infrastruktur formalaşdırılıb. Xəqani Rüstəmov küçəsi ilə Nobel prospektinin kəsişməsindəki yeraltı piyada keçidində işlər tamamlanmaq üzrədir. Burada 220 metr uzunluğunda qalereyanın tikintisi yekunlaşıb, hazırda mərmər və qranitdən istifadə olunmaqla, tavanın üzlənməsi işləri davam etdirilir. Həmin keçiddə 8 eskalator quraşdırılıb. Bundan başqa, layihə çərçivəsində daha 2 piyada keçidin inşası nəzərdə tutulur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, «Bakı Ağ şəhər» layihəsi üzrə Xəqani Rüstəmov və Süleyman Vəzirov küçələri də daxil olmaqla, yeni salınan yolların ümumi uzunluğu 22,3 kilometrə çatacaq, eni isə 16 metrdən 47 metrədək dəyişəcək. Ümumilikdə, burada 63 çoxsaylı kəsişən yolun təmiri və asfaltlanması həyata keçiriləcək. Bakının 2 əsas prospektini – Babək və Nobel prospektlərini birləşdirən Xəqani Rüstəmov küçəsi 3 gediş və 3 gəliş olmaqla, 6 hərəkət zolağından ibarətdir. Bildirildi ki, «Ağ şəhər» layihəsi çərçivəsində «Yaşıl ada və villa zonası» adlanan ərazidə ümumi uzunluğu 2 kilometrə çatan əsas və kəsişən bir neçə küçədə işlər yekunlaşıb. Layihə çərçivəsində küçələrdə 20 min kvadratmetr piyada səkisi və yolayrıcı inşa olunub. Yolların kənarında 300-dək çinar və zeytun ağacı əkilib. Yeni salınan küçələrdə hərəkətin normal təşkili üçün 200-ə qədər yol nişanı quraşdırılıb.*

*Dövlətimizin başçısı və xanımı «Yaşıl ada» kvartalının artıq məskunlaşdırılan ilk məhəllələri ilə tanış oldular. Prezident İlham Əliyevə xüsusi detallarla bəzədilən, klassik üslublu Paris evlərinin məhəllələrində aparılan abadlıq və yaşıllıq, infrastruktur-kommunikasiya işləri barədə ətraflı məlumat verildi. Burada sakinlərin rahatlığı və dolğun istirahətləri üçün hərtərəfli şərait var. Məhəllələrdə uşaqlar üçün oyun meydançası, yaşıllıq zonası, yerüstü avtodayanacaq yaradılıb. Məhəllələrin təhlükəsizliyi də sutka ərzində diqqətdə saxlanılır. Paris evlərində dayanıqlı elektrik enerjisi, su, qaz, kanalizasiya xətləri, internet və İPTV artıq sakinlərin istifadəsinə verilib. Dövlət başçımızın siyasətinə uyğun olaraq, insan amili, soydaşlarımızın ən yüksək standartlar səviyyəsində yaşayışı və istirahəti bu layihənin başlıca məramıdır.*

*Sonra prezident İlham Əliyevə 2-ci Yaşıl Ada küçəsində aparılan işlər barədə məlumat verildi. Buradakı binaların üzərində xüsusi dizaynlı ad lövhələri, klassik üslublu saat, küçə adlarının piyada yollarında qeyd edilməsi, binaların vitrinlərinin «Ağ şəhər» haqda məlumat plakatları ilə bəzədilməsi, müxtəlif növ ağaclar və həmçinin «Yaşıl ada» evlər zonasına giriş binası diqqəti xüsusilə cəlb edir. Yollarda piyadalar, əlillər və xüsusi qayğıya ehtiyacı olanlar üçün də müvafiq şərait yaradılıb. Avtomobillər üçün xüsusi dayanacaq yerlərinin olması piyadaların təhlükəsiz və sərbəst gediş-gəlişinə imkan verir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Yaşıl ada» kvartalı çərçivəsində salınan yeni yaşıllıq məkanı ilə də tanış oldular. «Sahil 14» və «SETA» MTK yaşayış kompleksləri arasındakı bu xudmani yaşıllıq məkanı kvartalın bənzərsiz memarlıq üslubunu üzvi şəkildə tamamlayır. Avtonəqliyyat vasitələrindən azad ərazi sakinlərin rahatlığı və istirahəti üçün işıqlandırma sistemi, velosiped dayanacaqları, küçə mebelləri ilə təmin olunub, buradakı yaşıllıqlar göz oxşayır.*

*1-ci Yaşıl Ada küçəsindəki yeni yol da müasirliyi ilə diqqəti çəkir. Burada «Müşahidəçi-2» daş heykəli qoyulub. Xatırladaq ki, «Müşahidəçi-1» daş heykəli 2016-cı ilin sentyabrında Heydər*

*Əliyev Fondu tərəfindən təşkil edilən «Daşın nəğməsi» I Beynəlxalq heykəltəraşlıq simpoziumu çərçivəsində təqdim olunub. «Müşahidəçi-2» heykəli «Bakı Ağ şəhər»in inkişafını və buradakı dəyişiklikləri müşahidə edən insan anlamı daşıyır. Heykəlin yaxınlığında yerləşdirilən günəş enerjisini elektrik enerjisinə çevirən dizayner skamyası elektron cihazlar üçün nəzərdə tutulub. Bu da «Bakı Ağ şəhər»də ətraf mühit məsələlərinə maksimum diqqət yetirilməsinin əyani nümunələrindən biridir.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bakı Ağ şəhər» ərazisində tikinti işlərinin gedişi ilə tanış olmaq üçün avtobusla gəzintiyə çıxdılar. Qeyd edildi ki, şəhərin qədim və iri parklarından olan Nizami parkının yaxınlığında yerləşən «Knightsbridge» (Naytsbric) kompleksində yaşayış binaları, biznes mərkəzi və məktəbin tikintisi aparılır. Park rayonunda 20 mərtəbəli binalar inşa olunur, yeni istinad divarı tikilir. «Bakı Ağ şəhər» layihəsi dünyada iqtisadi və maliyyə böhranının tüğyan etdiyi indiki dövrdə Azərbaycanda investisiyalar üçün yaradılan əlverişli biznes mühitinin, sahibkarlığın inkişafına dövlətin hərtərəfli dəstəyinin və insan amilinin əsas meyarlarından biri olmasının əyani təcəssümüdür.*

*Mərkəzi Bulvar küçəsində də tikinti işləri davam edir. Eni 37 metr, uzunluğu isə 2 kilometr olan bu yol «Bakı Ağ şəhər»in mərkəzi ilə kəsişir və layihənin bir neçə rayonlarını birləşdirir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, burada «Ağ şəhər»in Mərkəzi Park Rayonu salınacaq. Yaşayış binaları və biznes mərkəzindən ibarət rayonun adı burada salınacaq böyük parkdan qaynaqlanır. «Ağ şəhər»in şimal hissəsindəki Babək prospektində də inşaat işləri səngimir. Müasir üslublu evlərdən ibarət həmin rayonda yeni meydan tikilir. Bildirildi ki, modern dizaynlı meydan «Ağ şəhər»in Babək prospektindən eni 37 metr, hər iki istiqamətdə üçzolaqlı avtomobil yolları, geniş və yaşıllaşdırılmış piyada səkilərindən ibarət girişi olacaq.*

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bakı Ağ şəhər» çərçivəsində layihələndirilən Fəvvarə-*

*lər Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksinin təməlqoyma mərasimində iştirak etdilər. Dövlətimizin başçısına məlumat verildi ki, Fəvvarələr Meydanının sahəsi keçmiş «Qara şəhər»in ən çox çirklənmiş ərazilərindən biri sayılırdı. Yeddimərtəbəli müasir üslublu yaşayış binaları, park, ictimai avtodayanacaq və piyada keçidindən ibarət olacaq bu kvartalda hazırda tikinti işləri gedir. Yaşayış binalarının əhatə etdiyi parkda 3 qrupdan ibarət fəvvarələr, eksklüziv uşaq meydançası, xüsusi landşaft dizaynı və 760 yerlik avtodayanacaq tikiləcək. Fəvvarələr Meydanında layihələndirilən park və piyada keçidi «Ağ şəhər» boyunca piyadaların gəzintisi və mənalı istirahətinə geniş imkanlar açacaq. Belə ki, piyadalar şimalda yerləşən Babək prospektindən Mərkəzi Park rayonu, Fəvvarələr Meydanı və körpü vasitəsilə birbaşa «Ağ şəhər» bulvarına qədər 2 kilometrlik yolu gedib-gələ biləcəklər. Bildirildi ki, Nobel prospekti boyunca Fəvvarələr Meydanının «ləndmark»ı sayılan Şərq–Qərb ofis binaları yerləşəcək. Bu ofis binalarının mərkəzində yeni Central Plaza meydanı Hollandiyanın «UN Studio» memarlıq bürosu tərəfindən layihələndirilib. «Ağ şəhər»də salınan metro stansiyalarından birinin çıxışı da məhz bu ofis kompleksinin yerləşdiyi ərazidə olacaq.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bakı Ağ şəhər» çərçivəsində layihələndirilən Fəvvarələr Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksinin təməlini qoydular.Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada ağac əkdilər. Təməli 5 il əvvəl qoyulan «Bakı Ağ şəhər»də ötən müddətdə böyük həcmdə işlər görülüb və tikinti-quraşdırma tədbirləri davam edir, dünyadakı müasir şəhərsalma tendensiyasını maksimum ehtiva edən və bitkinliyi ilə seçilən «Bakı Ağ şəhər» meqalayihəsi uğurla reallaşdırılır.*

*Təməlqoyma mərasimindən sonra xatirə şəkli çəkdirildi.*

## BAKI KONQRES MƏRKƏZİNİN QARŞISINDA YENİ SALINMIŞ İSTİRAHƏT PARKININ AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 26-da Bakı Konqres Mərkəzinin qarşısında yeni salınmış istirahət parkının açılışında iştirak etmişlər.*

*Keçmiş Səttarxan adına Maşınqayırma zavodunun ərazisində geniş abadlıq işləri aparılaraq, burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıb. Bu ərazi əvvəllər, zavodun istismarı zamanı sürtkü və kimyəvi maddələrlə yararsız vəziyyətə düşmüşdü. İnşaat işləri zamanı ərazi illərlə qalmış tullantılardan təmizlənib, torpaq səthi dəyişdirilib, genişmiqyaslı abadlıq işləri aparılıb.*

*Prezident İlham Əliyev istirahət parkının rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı və xanımı parkda yaradılan şəraitlə tanış oldular.*

*Parkın tikintisini «İlk inşaat» şirkəti həyata keçirib. Ümumi sahəsi 7 hektardan çox olan park qısa müddətdə yaradılıb.*

*Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi bu istirahət məkanında genişmiqyaslı yaşıllıq işləri də həyata keçirilib. Parkın ümumi ərazisində 300-dən çox müxtəlif növ ağac, 50 mindən artıq gül və kol bitkiləri əkilib. Burada çinar, tut, dəmirağacı, söyüd və palıd ağaclarının bir neçə növləri var. İstirahət parkının yaşıllaşdırma konsepsiyasında ilin fəsilləri nəzərə alınıb. Bu məkanın yaşıllaşdırma işləri aparılarkən flora və iqlim mühiti təhlil edilərək, əsasən İtaliyadan gətirilmiş bitki və ağaclara üstünlük verilib. Buradakı yaşıllıqların suvarılması üçün müasir drenaj sistemi yaradılıb, 20 kilometrdən çox borudamcı suvarma və 1000-ə yaxın çiləyici vasitə quraşdırılıb.*

*Ərazidə 4 müxtəlif istirahət zonası salınıb. Parkdakı idman zonasında müxtəlif trenajorlar və qurğular qoyulub. Parkda uşaqlar üçün də xüsusi zonalar quraşdırılıb, həmin zonalar 2700 kvadratmetrə yaxın yumşaq səthlə örtülüb. İstirahət parkının ərazisində fəvvarə və ümumi sahəsi 2200 kvadratmetrə yaxın 3 göl yaradılıb. Göllərin yaradılmasında müasir texnologiya və avadanlıqdan istifadə edilib. Parkda sintetik örtüklə təchiz edilmiş buz meydançası da var. İlin bütün fəsillərində fəaliyyət göstərəcək meydançanın ümumi sahəsi 2130 kvadratmetrdir.*

*İstirahət parkı müasir mühəndislik, işıqlandırma və infrastrukturun bir mərkəzdən idarəolunma sistemi və təhlükəsizlik kameraları ilə təchiz edilib. Ümumilikdə, bu parkın inşası ilə Heydər Əliyev Mərkəzi və Təbriz küçəsi arasında olan ərazinin vətəndaşlarımızın mənalı istirahəti üçün abadlaşdırılması layihəsi tam yekunlaşdırılıb.*

## BİNƏ QƏSƏBƏSİNİN ƏLİ İSAZADƏ KÜÇƏSİNDƏ YENİDƏNQURMADAN SONRA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*26 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 26-da Bakı şəhəri Binə qəsəbəsinin Əli İsazadə küçəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olmuşlar.*

*Paytaxtın Xəzər rayonunun Binə qəsəbəsinin daxili avtomobil yollarında yenidənqurma işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında dövlətimizin başçısının imzaladığı sərəncama uyğun olaraq «Azəravtoyol» Açıq Səhmdar Cəmiyyəti tərəfindən aparılan işlər yüksək keyfiyyətlə yerinə yetirilib. Əhali arasında «Südçülük sovxozu»na gedən yol kimi tanınan bu küçə uzun müddət təmir olunmadığı üçün onun hərəkət hissəsi yararsız vəziyyətə düşmüşdü. Uzunluğu 4,5 kilometr olan küçənin həm də ensiz olması nəqliyyat vasitələrinin, xüsusən də payız-qış mövsümündə hərəkəti üçün xeyli çətinliklər yaradırdı. Artıq bu problem tam aradan qaldırılıb.*

*Dövlətimizin başçısı Əli İsazadə küçəsinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Əli İsazadə küçəsinin yenidən qurulması layihəsi çərçivəsində yol yatağının eni 20–22 metrə qədər genişləndirilib. Piyadaların rahat və təhlükəsiz hərəkəti üçün yol boyunca səkilər tikilib. Sutkanın qaranlıq saatlarında hərəkətin normal təşkili üçün yolboyu müasir işıqlandırma sistemi qurulub. Bundan başqa, layihə çərçivəsində səth sularının yolun hərəkət hissəsindən normal kənarlaşdırılması üçün zəruri olan bəzi yerlərdə yeni yağış-kanalizasiya sistemi yaradılıb. Yenidənqurma işləri çərçivəsində*

*kommunikasiya xətləri kənara köçürülüb, zəruri yerlərdə yol yatağının yararsız qruntu qazılaraq çıxarılıb, bunun əvəzinə karbonat materialı tökülərək, kipləşdirilib və yeni asfalt-beton örtüyünün döşənməsi işləri aparılıb. Küçə boyunca zəruri yerlərdə 17 yol nişanı quraşdırılıb, yol-cizgi və göstərici xətlər çəkilib.*

*Yenidən qurulan bu küçə Heydər Əliyev prospekti–Aeroport – Mərdəkan avtomagistralındakı mövcud yol qovşağından istifadə etməklə, Binə, Mərdəkan, Bilgəh, Qala, Pirallahı qəsəbələrinə və şəhərin mərkəzinə doğru əhalinin rahat gediş və gəlişini təmin etməyə imkan yaradacaq.*

# QALA–PİRALLAHI AVTOMOBİL YOLUNUN İKİNCİ HİSSƏSİNİN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 26-da Bakının Xəzər rayonunda Qala–Pirallahı avtomobil yolunun ikinci hissəsinin açılışı mərasimində iştirak etmişlər.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, uzunluğu 21,6 kilometr olan Qala–Pirallahı avtomobil yolunun tikintisi layihəsinin 7 kilometrlik ikinci hissəsinin yenidən qurulması işləri tamamlanıb. Yolun inşası prezident İlham Əliyevin sərəncamları ilə təsdiq edilmiş «Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı», həmçinin «Paytaxtın nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə əlavə Tədbirlər Planı» əsasında aparılıb.*

*Birinci texniki dərəcəli Qala–Pirallahı avtomobil yolunun 7 kilometrlik hissəsi 6 hərəkət zolaqlıdır. Hər bir hərəkət zolağının eni 3,75 metrdir. Ümumi eni 34 metr olan yolun kənarlarında piyadaların rahat və təhlükəsiz hərəkətinin təmin edilməsi üçün səkilər inşa edilib. Asfalt-beton örtüklü yol boyunca drenaj xətti çəkilib. Marşrut avtobuslarının ümumi hərəkətə maneçilik törətməməsi üçün yol boyunca 14 dayanacaq inşa olunub. Tikinti işlərindən sonra zəruri olan yerlərə yol nişanları və məlumatverici lövhələr quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlərin çəkilişi işləri aparılıb. Bütün işlər qrafikə uyğun, texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə aparılıb. Layihənin reallaşdırılmasında əsas məqsəd həm şəhər mərkəzi, Mərdəkan və Bilgəh, həm də Qala və Pirallahı istiqa-*

*mətlərində avtonəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkətini təmin etməkdır.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Xatırladaq ki, yolun 4 hərəkət zolağından ibarət olan 14 kilometrlik hissəsi 2014-cü ilin oktyabr ayında istismara verilib. Yolun 6 hərəkət zolağından ibarət olan ikinci hissəsinin tikintisinə isə 2015-ci ildə başlanılmışdı.*

## RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ BAŞÇISI RAMAZAN ABDULATİPOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Rusiya Federasiyası Dağıstan Respublikasının başçısı Ramazan Abdulatipovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Ramazan Hacımuradoviç! Bu il Siz yubileyinizi qeyd etmisiniz. Bu əlamətdar tarix münasibətilə Sizi Azərbaycan xalqı adından təbrik etmək istəyirəm. Azərbaycan Sizi təcrübəli, müdrik siyasətçi, gözəl Dağıstanın rəhbəri, Dağıstan və Azərbaycan xalqları arasında qardaşlıq münasibətlərinin möhkəmləndirilməsi üçün çox işlər görən insan kimi, çox yüksək qiymətləndirir. Yubileyiniz münasibətilə və qardaşlıq əlaqələrimizin möhkəmləndirilməsi işində böyük xidmətləriniz nəzərə alınaraq, Siz Azərbaycanın ali ordeni – «Dostluq» ordeni ilə təltif edilmisiniz.

Azərbaycanda Sizi bizim xeyirxah və yaxşı dostumuz kimi tanıyırlar. Siz Azərbaycanda tez-tez olursunuz, Azərbaycanı və Azərbaycan xalqını yaxşı tanıyırsınız və münasibətlərimizin möhkəmləndirilməsi üçün çox işlər görürsünüz. Mən bilirəm və görürəm ki, Siz Azərbaycan ilə Dağıstan arasında tarixi əlaqələrin inkişafının və möhkəmləndirilməsinin səmimi və qəti tərəfdarısınız. Azərbaycan xalqı Sizə həm də bizim görkəmli şəxsiyyətlərimizin xatirəsinə göstərdiyiniz münasibətə görə çox minnətdardır. Sizin təşəbbüsünüzlə Dağıstandakı küçələrin biri bizim dahi lider Heydər Əliyevin adını daşıyır. Həmçinin Sizin təşəbbüsünüzlə bir qədər əvvəl Mahaçqalada Böyük Vətən müharibəsi illərində dağıstanlıları normal həyatla təmin etmək üçün böyük işlər görmüş Əziz Əliyevin abidəsinin açılışı olub.

Biz hamımız gözəl bilirik ki, deportasiya olunma təhlükəsi var idi və dağıstanlıları səmimi sevən, bu sevgini həyatı boyu yaşadan insan kimi, Əziz Əliyev o dövrün ağır repressiyalarının Dağıstanda kütləvi hal almaması üçün əlindən gələni edirdi. Mənim üçün bunun xüsusi mənası var. Çünki mənim babamın və atamın xatirəsi qardaş Dağıstanda əbədiləşdirilib. Gənc nəslin bu barədə bilməsi çox vacibdir. Sizin tərəfinizdən atılan bu addımlar həm onların xatirəsinə ehtiram əlamətidir, həm də gənclərin bizim ənənə və köklərimizi bilməsinə istiqamətləndirilib. Əlbəttə, yaşlı nəsil bunun hamısını gözəl bilir. Lakin biz Dağıstan və Azərbaycan gənclərinin bu qardaşlıq tellərinin möhkəmləndirilməsinə səy göstərməliyik. Sizin rəhbərliyiniz ilə Dağıstanın inkişafından çox məmnunuq. Respublikada genişmiqyaslı dəyişikliklər həyata keçirilir, sosial-iqtisadi inkişaf çox sürətlə gedir. Həmçinin Siz Dağıstanda millətlərarası anlaşmaya, təhlükəsizliyin möhkəmləndirilməsinə böyük diqqət yetirirsiniz. Bu bizim üçün çox vacibdir və Sizin uğurlarınız bizi sevindirir. Onu da bilirəm ki, Sizin respublika rəhbəri kimi fəaliyyətiniz Rusiya rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Qonşu kimi biz də görürük ki, Sizin rəhbərliyinizlə respublika Rusiya Federasiyasının regionları arasında qabaqcıl yerə çıxır. Əlbəttə, bizim münasibətlər – Dağıstan ilə Azərbaycan arasındakı münasibətlər Rusiya ilə Azərbaycan arasında sürətlə inkişaf edən və artıq çoxdandır strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş dövlətlərarası əlaqələrin vacib amilidir.

İki gün əvvəl mən Rusiya prezidenti Vladimir Vladimiroviç Putinlə telefonla danışdım. Bir daha fikir mübadiləsi apardıq və əlaqələrin inkişafından məmnunluğumuzu bildirdik. Rusiya Prezidenti son 3 ildə 3 dəfə Azərbaycanda olub. Bu özlüyündə bir göstəricidir. Bizim müxtəlif sahələri əhatə edən və çoxplanlı dövlətlərarası münasibətlərimizdə Dağıstan ilə əməkdaşlıq həmişə xüsusi yer tutur. Bizim üçün Dağıstan Rusiyanın bütün regionları arasında ən yaxın, ən əziz diyardır. Mən bir daha Sizi yubiley münasibətilə təbrik etmək və Azərbaycan dövlətinin ali

mükafatını – «Dostluq» ordenini şəxsən təqdim etmək istəyirəm.

*Azərbaycan prezidenti İlham Əliyev «Dostluq» ordenini Ramazan Abdulatipova təqdim etdi.*

**Ramazan Abdulatipov:** Hörmətli İlham Heydər oğlu, əziz dostlar!Bizim xalqlar minilliklər boyu ümumi məkanda – mədəni və tarixi məkanda yaşayıblar. Ona görə də dağıstanlıların və azərbaycanlıların bir çox nəsli bizim mehriban qonşuluq və qardaşlıq əlaqələrimizin inkişafına böyük töhfələr verib. Biz faktiki olaraq, bir çox parametrlər üzrə bir-birimizə çox yaxın və doğma xalqlarıq. Bir neçə yüzilliklər ərzində Azərbaycan Rusiya ilə ümumi tarixi və mədəni məkanda yerləşib. Dağıstanın isə indi də bu məkanda olması bizim üçün vacibdir və münasibətlərimizin inkişafına təsir edir.

Əlbəttə, Rusiya–Azərbaycan münasibətlərinin möhkəmlənməsində əməyi olan insanların əhəmiyyətli rolunu qeyd etmək çox vacibdir. İlk növbədə, mən bu nöqteyi-nəzərdən həm Sovet İttifaqının, həm Dağıstanın, həm Azərbaycanın, həm də Rusiyanın dövlət xadimi, ən ağır illərdə Dağıstana rəhbərlik etmiş Əziz Əliyevin adını çəkirəm. Dağıstanın rəhbəri olduğu dövrdə o, Dağıstan Respublikasının iqtisadi inkişafında, dövlət və mədəni quruculuğunda, Dağıstan və dağıstanlıların ləyaqətinin qorunmasında böyük rol oynayıb. Əlbəttə, bu bizim münasibətlərimizin, dövlətlərarası, həmçinin Dağıstan regionu ilə münasibətlərin inkişafında yaxşı baza yaratdı.

Əlbəttə ki, bu gün mən Sizin əlinizdən bu yüksək mükafatı alarkən, dahi Heydər Əliyevlə ünsiyyətimi minnətdarlıqla xatırlayıram. Bu insan həmişə Dağıstandakı vəziyyətlə maraqlanırdı, Dağıstandakı vəziyyətlə bağlı narahat olurdu, heç nəyə baxmayaraq, Rusiya–Azərbaycan münasibətlərinin əhəmiyyətinə bir gün də laqeyd qalmırdı. Əlbəttə, burada Vladimir Vladimiroviç Putinin də böyük rolu var. O, müdrik dövlət xadimidir. Onun ilk səfərlərindən biri Azərbaycan Respublikasına olub, Heydər Əliyevlə görüşüb. O, Heydər Əliyevə olan böyük ehtiramını müxtəlif söhbət və görüşlərdə dəfələrlə qeyd

edib. Böyük mənada bizim və Azərbaycan dövləti və xalqının bəxti gətirib ki, Sizin simanızda Heydər Əliyevin belə bir layiqli xələfi var. Siz faktiki olaraq, Azərbaycanın simasını yeniləşdirdiniz. Bu sima çox müasir, çox mədəni oldu. Buna görə də biz bu illər ərzində Azərbaycan xalqının, Azərbaycan Respublikasının və prezident kimi, şəxsən Sizin nailiyyətlərinizlə fəxr edirik. Əlbəttə, Sizinlə Vladimir Vladimiroviç Putin arasındakı yaxşı və xoş münasibətlər bizim üçün çox vacibdir. Dostluq və qarşılıqlı anlaşmanın olduğu belə vəziyyətdə, belə mühitdə qarşılıqlı faydalı əməkdaşlığımız üçün gözəl şərait yaranır. Düşünürəm ki, biz hələ qarşılıqlı faydalı əməkdaşlıq üçün xalqlarımızın böyük potensialından tam istifadə etməmişik. Bu olacaq.

Azərbaycanda «Dağıstan günləri»nin keçirilməsi Azərbaycan xalqının və rəhbərliyinin Dağıstana, Dağıstan mədəniyyətinə nə qədər mehriban münasibət göstərdiklərini nümayiş etdirdi. Bizim burada verdiyimiz yekun konsertdə faktiki olaraq, ölkənin bütün rəhbərliyi iştirak edirdi. Bu günlər olduqca ürəkaçan keçdi. Bu günlər ona görə belə ürəkaçan keçir ki, bizim əcdadlarımız əsrlərboyu birlikdə xoşniyyətli yaşayıblar. Heç nə bizim münasibətlərimizin inkişafına mane olmamalıdır. Əminəm ki, Rusiya–Azərbaycan, Dağıstan–Azərbaycan münasibətlərinin inkişafının ən yaxşı illəri hələ qarşıdadır. Həm Vladimir Vladimiroviç Putinin, həm də Sizin gördüyünüz böyük işlər bunu deməyə əsas verir. Siz hələ çox işlər görməyə qadirsiniz. Siz bir qədər əvvəl öz yetkin yaş yubileyinizi qeyd etdiniz. Bu yubiley Sizin qısa müddət ərzində həyata keçirdiyiniz nəhəng işlərin məzmunu ilə dolğun idi. Düşünürəm ki, Azərbaycan Respublikasının ən yaxşı illəri də hələ qarşıdadır. Ona görə biz də bu yubileyi qeyd etmək istəyirik. Biz bir kiçik kubok sifariş etmişik. Keçən dəfə mən burada üzərində portret olan, bundan bir qədər böyük kuboku Heydər Əliyevə hədiyyə etmişdim. Bu isə 55 illiyiniz münasibətilə Sizinkidir. Siz həmişə əlaçı olmusunuz. Gələcəkdə də əlaçı olasınız.

Əlbəttə, Azərbaycan Respublikasının Hökumətinə və sizin səfirinizə, bizim səfirimizə çox təşəkkür edirik. Vladimir Doroxin çox böyük diqqət yetirir. Mənimlə birlikdə Xalq Məclisinin təmsilçisi, Dövlət Dumasının deputatı, bizim nümayəndəmiz buradadır. Əslində bu hadisə mənim üçün tarixi əhəmiyyət daşıyır. Çünki mən bu ordendə ilk növbədə, Heydər Əliyevin töhfəsini görürəm. Çünki o məni həqiqətən, Azərbaycanla bağlayıb. Əsas odur ki, Siz də dahi Heydər Əliyevin işlərini bu planda davam etdirirsiniz. Mənim fəaliyyətimi belə qiymətləndirdiyinizə görə çox sağ olun. Çalışacağam ki, bu etimadı doğruldum.

*Sonra prezident İlham Əliyev ilə Ramazan Abdulatipovun görüşü oldu. Dövlətimizin başçısı Ramazan Abdulatipovun Azərbaycanın yüksək dövlət mükafatına layiq görülən Dağıstanın ilk rəhbəri olduğunu dedi və mükafatı təqdim etməkdən məmnunluğunu bildirdi. Azərbaycan Respublikası ilə Dağıstan Respublikası və xalqlarımız arasında əlaqələrin daha da yaxınlaşdırılmasında Ramazan Abdulatipovun xidmətlərinə toxunan dövlətimizin başçısı Dağıstanın inkişafında onun rolunu vurğuladı. Bu il Dağıstanın əldə etdiyi uğurları qeyd edən dövlətimizin başçısı gələn ildə də Dağıstanda yeni nailiyyətlərin qazanılacağına ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev Dağıstanla əməkdaşlığı uğurla inkişaf edən Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin daha da möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Ramazan Abdulatipov vurğuladı ki, Rusiya prezidenti Vladimir Putinlə görüşləri zamanı dəfələrlə qeyd edib ki, qonşu Azərbaycanın inkişafı yaxşı nümunədir. Dağıstanın rəhbəri bildirdi ki, Azərbaycanın paytaxtında, ümumilikdə, bütün respublikada olan sabitlik onlar üçün nümunədir. Ramazan Abdulatipov qeyd etdi ki, Rusiya dövlətinin başçısı onlara Azərbaycanın təcrübəsindən istifadə etməyin mümkünlüyünü bildirib və Dağıstanın Rusiya–Azərbaycan münasibətlərinin inkişafında rolunu vurğulayıb.*

## İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*2016-cı ilin Azərbaycan–İran əlaqələrinin tarixində xüsusi yer tutduğunu vurğulayan dövlətimizin başçısı bu il ərzində baş tutan görüşlərə toxunaraq, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə çox səmərəli görüşün keçirildiyini məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev ölkələrimiz arasında bu il, həmçinin önəmli sənədlərin imzalandığını və onların artıq icra edildiyini dedi. 2017-ci ilin də uğurlu olacağına, ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənəcəyinə və mühüm əhəmiyyət daşıyan layihələrin icra olunacağına əminliyini ifadə edən dövlətimizin başçısı əlaqələrimizin genişləndirilməsində hökumətlərarası birgə Komissiyanın fəaliyyətini xüsusi qeyd etdi. Dekabrın 29-da Naxçıvan–Təbriz–Tehran–Məşhəd beynəlxalq sərnişin qatarının ilk reysinin yola salınacağını əlamətdar hadisə kimi dəyərləndirən prezident İlham Əliyev dəmir yolunun fəaliyyətinə uğurlar arzuladı.*

*İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Mahmud Vaezi ad günü münasibətilə dövlətimizin başçısını təbrik etdi. O, eyni zamanda, Yeni il bayramı münasibətilə də prezident İlham Əliyevə və Azərbaycan xalqına xoş arzularını çatdırdı. Mahmud Vaezi İran İslam Respublikası-*

*nın Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Mahmud Vaezi ona İran Prezidentinin hökumətlərarası birgə Komissiyanın iclası çərçivəsində prezident İlham Əliyevin tövsiyələrinin yerinə yetirilməsi və 2017-ci ildə ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı yol xəritəsinin hazırlanmasına dair tapşırıqlar verdiyini bildirdi.*

*Görüşdə 2016-cı ildə Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən ticarət mübadiləsinin artımı, investisiya qoyuluşu, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimizin regionları arasında əməkdaşlığın genişləndirilməsinin önəmi qeyd olundu, Neftçalada Avtomobil zavodunun inşasının uğurla davam etdirilməsi və yaxın vaxtlarda Pirallahıda birgə Dərman İstehsalı zavodunun təməlqoyma mərasiminin keçiriləcəyi iqtisadi sahədə əməkdaşlığımızın yaxşı nümunəsi kimi dəyərləndirildi.*

*Söhbət zamanı Naxçıvanda keçiriləcək Azərbaycan–İran biznes-forumunun önəmi vurğulanaraq, forumun ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## 1 SAYLI «ASAN KOMMUNAL» MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK VƏ SƏYYAR «ASAN QATAR»LA TANIŞLIQ

*28 dekabr 2016-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 28-də Bakıda 1 saylı «ASAN kommunal» Mərkəzinin açılışında iştirak etmiş və Biləcəri stansiyasında səyyar «ASAN qatar»la tanış olmuşdur.*

*Dövlətimizin başçısı mərkəzi işə saldı.*

*Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov mərkəzdə yaradılan şərait barədə dövlətimizin başçısına məlumat verdilər.*

*«ASAN kommunal» mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında prezident İlham Əliyevin bu ilin mayında imzaladığı fərmanla bu mərkəzlərin yaradılması Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılıb. Pilot layihə çərçivəsində 1 saylı «ASAN kommunal» Mərkəzi paytaxtın Nəsimi, Nərimanov və Binəqədi rayonlarında qeydiyyatda olan 653600 vətəndaşa xidmət edəcək.*

*Mərkəzdə dövlətimizin başçısının «ASAN xidmət» binalarının açılışı, həmçinin «Azərişıq», «Azərsu», «Azəriqaz» qurumlarının müxtəlif tədbirləri zamanı çəkilən fotolarından ibarət stend var. Ümumi sahəsi 2800 kvadratmetr olan mərkəzdə 3 qurum – «Azərişıq» və «Azərsu» Açıq Səhmdar cəmiyyətləri, həmçinin «Azəriqaz» İstehsalat Birliyi tərəfindən vətəndaşlara 45 növ xidmət göstəriləcək. Burada eyni zamanda, bank və sığorta xidmətləri də təşkil edilib. Mərkəzdə 85 əməkdaş və 20 könüllü xidmət edəcək. Müasir İKT avadanlığı ilə təchiz olunan*

*binada istirahət və stress əleyhinə otaqlar, kafe, ana-uşaq otağı, uşaq əyləncə mərkəzi də fəaliyyət göstərəcək. Mərkəzdə növbə sisteminin tənzimlənməsi üçün xüsusi monitorlar, daim internetə açıq özünəxidmət kompüterləri, rüsumlar, xidmətlər haqqında məlumatları və ərizə nümunələrinin doldurulmasını əks etdirən «elektron məlumat köşkü», «ASAN ödəniş» terminalları, «108 Çağrı mərkəzi»nə zəng köşkü quraşdırılıb.*

*Akademik Həsən Əliyev küçəsində yaradılan mərkəzdə 40 avtomobil üçün yeraltı dayanacaq var. Bu mərkəzin yaradılması Azərbaycanda dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə görülən əhəmiyyətli işlərin ardıcıl xarakter aldığını bir daha nümayiş etdirir. Belə layihələrin icrası dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanı formalaşdırıb. Bu isə Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.*

*Prezident İlham Əliyevə «ASAN ödəniş» sisteminin mobil tətbiqi barədə məlumat verildi. Bu sistemlə istifadəçilər abonent kodlarını, bank hesablarını, protokol nömrələrini və digər ödəniş təyinatlarını tətbiqin yaddaşında saxlaya və bir toxunuşla ödəniş edə bilərlər. Mobil tətbiqdə nəzərdə tutulmuş avtomatlaşdırılmış ödənişlər imkanı vaxtı gəldiyində ödənişləri istifadəçilərin əvəzinə icra edərək, bu barədə istifadəçini məlumatlandıracaq. Bu, mobil əməliyyat sisteminin Azərbaycan dilində yazılmış dövlət ödənişləri sektorunun ilk mobil tətbiqidir.*

*Qeyd edək ki, «ASAN viza» portalı vasitəsilə elektron viza almaq istəyənlər ödəniş etdikdən sonra həmin şəxsin vizası 3 iş günündə elektron poçt ünvanına göndəriləcək. Bu xidmət Azərbaycana gələn turistlərin sayının artmasında da mühüm rol oynayacaq. «ASAN viza» sistemi «Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və «ASAN viza» sisteminin yaradılması haqqında» dövlətimizin başçısının 2016-cı ilin iyununda imzaladığı fərmana uyğun olaraq, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və aidiyyəti qurumların birgə fəaliyyəti nəticəsində yaradılıb.*

*Prezident İlham Əliyevə «ASAN radio»nun 1 illik fəaliyyəti ilə bağlı da məlumat verildi. 100 FM dalğasında yayıma başlayan radio dövlət xidmətləri sahəsində ixtisaslaşan ilk və yeganə radiodur. Əsas missiyası maarifləndirmək olan radioda il ərzində 1200-dən artıq veriliş, 5500-dən çox «ASAN xəbər» buraxılışı, 18 mindən artıq maarifləndirici reportaj yayımlanıb.*

*Sonra dövlətimizin başçısına «ASAN könüllüləri» təşkilatının fəaliyyəti barədə məlumat verildi. 4 il əvvəl prezident İlham Əliyevin tapşırığı ilə fəaliyyətə başlayan ilk 10 nəfərdən ibarət «ASAN könüllüləri» hərəkatı bu gün 10 mindən çox gənci özündə birləşdirir. Ötən dövr ərzində 35 mindən çox gənc «ASAN könüllüləri» sırasına qoşulmaq üçün müraciət edib. Könüllülər 1000-dən artıq müxtəlif mövzulu təlimlərdə iştirak ediblər. Onlardan 700-dən çoxu asankadr.az portalı vasitəsilə müxtəlif şirkətlərdə işlə təmin olunub.*

*Könüllü qruplardan biri tərəfindən hazırlanmış «Prezidentim» adlı videoçarx nümayiş olundu.*

*Prezident İlham Əliyevə hazırda Bakı şəhərində inşa edilən 2 və 3 saylı «ASAN kommunal» mərkəzləri barədə də məlumat verildi. Bildirildi ki, 2 saylı «ASAN kommunal» Mərkəzi Bakı Dəmir Yolu vağzalında, 3 saylı Mərkəz isə Ukrayna dairəsi yaxınlığında yerləşəcək. Bu mərkəzlərdə də vətəndaşlara yüksək səviyyədə xidmət göstərmək üçün bütün şərait yaradılacaq.*

*Sonra dövlətimizin başçısı mərkəzin kollektivi ilə görüşərək, çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Salam, sabahınız xeyir olsun!

Bu gün Bakıda «ASAN kommunal» Mərkəzi açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu ilin may ayında mən müvafiq fərman imzalamışam. Fərmana əsasən, «ASAN kommunal» mərkəzləri yaradılmalı idi. Birinci mərkəz artıq fəaliyyətə başlayır. Mənə verilən məlumata görə, yaxın gələcəkdə

növbəti mərkəz də açılacaq. Bu çox gözəl təşəbbüsdür, növbəti layihədir.

«ASAN xidmət» öz fəaliyyətini genişləndirir. «ASAN xidmət», o cümlədən «ASAN kommunal» mərkəzlərində ən yüksək xidmət göstərilir və göstəriləcək. Bina da çox yaraşıqlıdır, çox gözəldir. Vətəndaşlar üçün də yaxşı şərait yaradılıb. Burada işləyənlər üçün yaxşı şərait yaradılıb. Bu, ölkəmizin müasirliyini, inkişafını göstərir, bizim siyasətimizi əks etdirir.

Bildiyiniz kimi, bu yaxınlarda mənim göstərişimlə kommunal tariflərin həcminə düzəlişlər edilibdir. Bu da sırf sosial yanaşma idi. Çünki növbəti düzəlişdən sonra artıq vətəndaşların 75–80 faizi işıq və qaz pulunu köhnə tariflərlə ödəyəcək. Yəni bu o deməkdir ki, əhalimizin əksəriyyəti bu dəyişikliyi hiss etməyəcək, əksinə, görülmüş tədbirlər nəticəsində vətəndaşların sosial müdafiəsi gələn il daha da möhkəmlənəcək.

Bu, sosial ədalət prinsipidir. İmkanlı, varlı insanlar, böyük evlərə, villalara sahib olan vətəndaşlar daha çox ödəməlidirlər. Kiminsə imkanı azdır və ya məhduddur, yaxud da ki, orta təbəqənin nümayəndələridir, onlara dövlət daim güzəştlər edir. Hətta artırılmış tariflərin səviyyəsi qonşu ölkələrdə mövcud olan tariflərdən bir neçə dəfə aşağıdır. Buna baxmayaraq, yenə də qeyd etmək istəyirəm, biz növbəti addımı ataraq, sosial müdafiəni daha da gücləndirmişik.

«ASAN xidmət» təşəbbüsü də sosial xarakter daşıyır. Çünki bu, vətəndaşlara göstərilən xidmətdir. Vətəndaşlar bu xidmətdən istifadə edərək, heç bir çətinlik çəkmirlər. Təsadüfi deyil ki, «ASAN xidmət»in bəyənilmə əmsalı təxminən 100 faizə yaxındır. Yəni bu, camaatın, insanların bu xidmətə verdikləri qiymətdir. Son bir neçə il ərzində 13 milyon müraciət olub. Yəni bu doğrudan da ölkəmizdə geniş vüsət alıb. Həm «ASAN xidmət»in coğrafi əhatəsi genişlənir, həm də funksiyaları artır. Artıq bizim 11 mərkəzimiz var. Onlardan 6-sı bölgələrdə yerləşir. Gələn il Quba və Mingəçevir şəhərlərində 2 yeni mərkəz açılacaq. Gələn il, eyni zamanda, digər 2

şəhərimizdə – Şəkidə və İmişlidə növbəti mərkəzlərin tikintisi başlanacaq.

«ASAN səyyar» xidməti göstərilir. Bu gün biz «ASAN qatar» sistemini də işə salacağıq. «ASAN viza» artıq fəaliyyət göstərir. Mənə verilən məlumata görə, artıq bu proses başlayır və əminəm ki, gələn il çox geniş vüsət alacaq. Bu da «ASAN»ın növbəti addımıdır. Beləliklə, «ASAN xidmət» öz fəaliyyətini genişləndirir. Mən bir neçə dəfə demişəm ki, «ASAN xidmət»də mövcud olan mədəni xidmət, qayda-qanun, nizam-intizam, şəffaflıq hər bir yerdə olmalıdır. Ona görə «ASAN xidmət» hər bir sahədə öz təsirini göstərməlidir və göstərir.

Əslində bu sistemin yaradılması ictimai xidmətlər və ictimai münasibətlər sahəsində bir inqilab idi. Bu özlüyündə böyük bir irəliləyiş, böyük bir yenilikdir. Ancaq «ASAN xidmət»in təsiri təkcə bundan ibarət deyil, bu mərkəzlərdə göstərilən xidmətlərlə məhdudlaşmır. «ASAN xidmət», ümumiyyətlə, vətəndaş–məmur münasibətlərinə yenilik gətirdi, rüşvətxorluğa qarşı mübarizədə bizə daha da böyük güc verdi. Yəni göstərdi ki, rüşvətxorluqla mübarizə aparmaq və qələbə çalmaq mümkündür. Bax, «ASAN xidmət»in mənası və əhəmiyyəti bundan ibarətdir. Vətəndaşlar da bu xidməti çox bəyənirlər və gözləyirlər ki, onların rayonlarında da «ASAN xidmət» mərkəzləri açılacaq. Biz bunu tədricən edəcəyik. Bizim planlarımıza görə, 2018-ci ildə ölkəmizdə, yəni rayonlarda 10 mərkəz yaradılacaq. Ondan sonra bu proses daha da sürətlə gedəcək.

«ASAN viza»ya gəldikdə isə bunun yaradılması əslində bir zərurət idi. Çünki biz çalışırıq ki, Azərbaycana daha çox turist gəlsin. Həm ölkəmizi tanısın, həm də ölkəmiz haqqında düzgün məlumat alsın. Eyni zamanda, bu, ölkə iqtisadiyyatına da böyük töhfədir. Həm hotellər, həm də ictimai yerlər işləyir, deməli, ölkəmizə valyuta gəlir. Ancaq dəfələrlə eşitmişdim ki, Azərbaycana gəlmək üçün viza almaq böyük problemdir. Çünki vizalarla bağlı vəziyyət bizi qane edə bilməzdi. Həm pozuntular kifayət qədər çox idi, həm əsassız tələblər irəli sürülürdü.

Ümumiyyətlə, Azərbaycana gəlmək üçün insanlar gərək aylarla növbə tutaydılar, gedib başqa şəhərlərdə bizim səfirliklərdə, konsulluqlarda növbədə dayanaydılar, hələ onlara viza verilib-verilməyəcəyi bəlli deyildi. Ona görə bu məsələni birdəfəlik həll etmək üçün «ASAN viza» yaradıldı və indi istənilən vətəndaş 3 gün ərzində Azərbaycana gələ bilər. Mənə verilən məlumata görə, bu il – hətta «ASAN viza» hələ işə düşməmiş – Azərbaycana gələn turistlərin sayı təxminən 10 faiz artıb. Bəzi ölkələr var ki, o ölkələrdən gələnlərin sayı 30–40 dəfə artıb. 2017-ci ildə bu proses daha da sürətlə gedəcək.

2016-cı ilin sonunda bu yeni mərkəzi ziyarət edərkən bir daha görürəm ki, bizim təşəbbüslərimiz bu gün reallığa çevrilir, siyasətimiz konkret işlərdə özünü göstərir. Bu belə də olmalıdır. Düzgün göstərişlər verilib, ancaq gərək yerlərdə də onlar icra edilsin. Mən bu mərkəzlərin – 11 mərkəzin, bu, 12-cisidir – hamısının açılışında olmuşam. Mən bu açılışlara gəlməyimlə, bu hərəkata bir daha öz dəstəyimi göstərirəm və sizin fəaliyyətinizə yüksək qiymətimi ifadə edirəm.

Əlbəttə ki, biz «ASAN xidmət»i könüllülər hərəkatından ayıra bilmərik. Bu da bir yenilikdir. «ASAN» yaranana qədər Azərbaycanda könüllülər hərəkatı olmamışdır. Biz könüllülər haqqında eşitmişdik, ancaq könüllülər hərəkatı nədir, onu bilmirdik. Bu gün artıq bu hərəkat Azərbaycanda yaşayır. Mənə verilən məlumata görə, 10 min gənc artıq könüllü kimi, «ASAN xidmət» mərkəzlərində işləyib və bu insanların bir çoxu bu gün müxtəlif vəzifələrdə, müxtəlif işlərdə ölkəmizin gələcək inkişafı üçün çalışırlar. Hazırda bütün bu mərkəzlərdə 700-dən çox könüllü fəaliyyət göstərir. 2 il bundan əvvəl mən könüllülərin birinci toplantısında onlarla görüşmüşdüm.

Nəhayət, bu mərkəzlərin bir xüsusiyyəti də var ki, burada iş yerləri açılır. Bu mərkəzdə təxminən 100-ə qədər yeni iş yeri açılır. İşləyənlərin, demək olar ki, hamısı gənclərdir və onların əksəriyyəti qadınlar, qızlardır. Bu da məni çox sevindirir. Çünki bizdə qadınlar da işlə təmin olunmalıdırlar. Beləliklə, biz həm işsizliklə uğurla mübarizə aparmış oluruq, həm də ki, qadınlar

cəmiyyətimizin fəal üzvləri kimi, dövlətimizə xidmət göstərmiş olurlar.

Mən sizi bu mərkəzin açılışı və qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edir, yeni uğurlar arzulayıram.

* * *

**Gülnar Allahverdiyeva** *(1 saylı «ASAN kommunal» Mərkəzində çalışan «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin əməkdaşı):* Cənab Prezident, xoş gəlmisiniz! Bu kommunal mərkəzdə Sizi gördüyümüz üçün çox sevinirik.

«ASAN xidmət» fəaliyyət dövrü ərzində vətəndaşlara yüksək standart və prinsiplər əsasında qayğı ilə xidmət göstərib. İndi isə bu təcrübə Sizin göstərişinizlə kommunal xidmətlərdə tətbiq ediləcək. Bununla da kommunal xidmətlər də «ASAN xidmət» standartına keçəcək.

Cənab Prezident, Siz ölkəmizdə vacib islahatlar aparır, əhalinin rifah halının yüksəldilməsi üçün daim çalışırsınız. Əmin olun ki, bu islahatları əhalinin hər bir təbəqəsi hiss edir. Xüsusilə də dövlətin sosial ədalət prinsipini qoruması və əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsi hər zaman Sizin diqqətinizdə olub. Elə sonuncu dəfə Tarif Şurasının kommunal xidmət haqları ilə bağlı qərarında güzəşt limitinin Sizin göstərişinizlə artırılması bunun bariz nümunəsidir. Bununla da aztəminatlı təbəqə sosial xidmət haqlarını ödəməkdə heç bir çətinlik yaşamayacaq.

Cənab Prezident, bu yeni mərkəzdə həm biz işçilər, həm də vətəndaşlar üçün yaxşı şərait yaradılıb. Bizim üzərimizə düşən vəzifə vətəndaşlara yalnız layiqli xidmət göstərməkdir. Biz «Azəriqaz», «Azərişıq» və «Azərsu» qurumlarının əməkdaşları olaraq, Sizə söz veririk ki, kommunal xidmətləri vətəndaşlara şəffaf, operativ və nəzakətlə çatdıracaq, hər bir vətəndaşımızın xidmətdən razı qalması üçün səylərimizi əsirgəməyəcəyik.

Yeni mərkəzlərin açılması gənclər üçün yeni iş yerləri deməkdir. Burada 100-dən artıq gənc mütəxəssis vətəndaşlara xid-

mət göstərəcək. Biz gənclərə belə müasir və innovativ iş yerində çalışmaq imkanı yaratdığınız üçün Sizə minnətdarlığımızı bildiririk. Bir daha təşəkkür edirik.

**İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

* * *

*Sonra prezident İlham Əliyev səyyar «ASAN qatar»la tanış olmaq üçün «Azərbaycan Dəmir Yolları» QSC-nin Biləcəri stansiyasına gəldi.*

*«Azərbaycan Dəmir Yolları» QSC-nin sədri Cavid Qurbanov görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.*

*Prezident İlham Əliyevin tapşırığı əsasında «ASAN xidmət» mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqlarla təchiz olunmuş səyyar «ASAN qatar» konsepsiyası reallaşdırılıb. Bakı vaqon deposunda «ASAN qatar» sisteminin tətbiqi ilə bağlı xüsusi vaqonlar hazırlanıb. Səyyar «ASAN qatar» gözləmə zalı, laboratoriya, xidmət zalı, əməkdaşların istirahət kupeləri olmaqla, 4 vaqondan ibarətdir.*

*Dövlətimizin başçısı səyyar «ASAN qatar»da yaradılan şəraitlə tanış oldu.*

*Bildirildi ki, ölkəmizdə geniş dəmiryolu şəbəkəsindən, mövcud infrastrukturdan, kommunikasiya xətləri və ən müasir texnologiyalardan istifadə edərək, yerlərdə vətəndaşlara yeni konsepsiya ilə xidmət göstərilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev səyyar «ASAN qatar» xidmətinin fəaliyyətə başlamasını bildirən düyməni basdı.*

*«ASAN qatar»da ölkəmizdə dəmiryolu nəqliyyatının inkişafında böyük xidmətləri olan ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin bu sahəyə diqqət və qayğılarının, həmçinin dövlətimizin başçısının «ASAN xidmət» mərkəzlərinin açılışlarında iştirakının əks olunduğu fotoguşə yaradılıb. Səyyar «ASAN qatar» vasitəsilə 4 dövlət orqanı – Ədliyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri,*

*həmçinin Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 9 növ xidmət göstəriləcək. Eyni zamanda, qatarda 3 növ funksional yardımçı xidmətlər – foto və tibb xidməti, o cümlədən «Azərpoçt» MMC tərəfindən göstərilən bank xidmətləri təşkil edilib. Burada ilk dəfə olaraq «Azərbaycan Dəmir Yolları» QSC-nin xidmətləri üçün ayrıca pəncərə yaradılıb. «ASAN qatar»da 25 əməkdaş, 6 könüllü işləyəcək. Qeyd edək ki, bu günədək «ASAN xidmət» mərkəzlərinin təsis edilmədiyi regionlardakı əhaliyə xidmətlərin çatdırılması və onların mərkəzlərə gəlmədən xidmətlərdən yararlanması üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilən irihəcmli xüsusi avtobuslar səyyar formada əhaliyə xidmət göstərir. Prezident İlham Əliyevin tapşırığına əsasən avtobusların sayı artıq 10-a çatdırılıb. Təsadüfi deyil ki, 2013-cü ilin iyunundan bəri 915 minə yaxın vətəndaşa səyyar xidmət göstərilib. Odur ki, səyyar «ASAN qatar» xidmətinin həyata keçirilməsinin əsas məqsədi dövlət xidmətlərinin vətəndaşlar üçün daha rahat, yeni və innovativ üsullarla əlçatanlığını təmin etmək və region sakinlərinin məmnunluğuna nail olmaqdır. «ASAN qatar» növbəli qaydada ölkədə bütün istiqamətlərdə hərəkət edərək, əvvəlcədən təyin olunan yerdə dayanacaq və əhaliyə xidmət göstərəcək. «ASAN qatar»ın ilk gedəcəyi məntəqə Qazax rayonu olacaqdır.*

## QEYDLƏR

**1. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 5–6, 87, 118, 246–248.

**2. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarının Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 5, 12, 60, 72, 86, 284.

**3. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Company of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 5.

**4. Buyar Nişani** (d.1966) – Albaniya siyasətçisi. 2012–2017-ci illərdə Albaniya Respublikasının Prezidenti olmuşdur. – 6, 118.

**5. Kamboca,** K a m b o c a K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 181 min km$^2$, əhalisi 16 milyon nəfərdir. Ərazisi 19 əyalətə (kxetə) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Pnompen şəhəridir. – 10.

**6. Norodom Sihamoni** (d.1953) – 2004-cü ildən Kambocanın Kralıdır. – 10.

**7. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 11–12, 87, 161, 165, 265.

**8. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 13–14, 92, 93, 94, 104, 170–171, 264, 265–267, 294.

**9. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat, yazıçı. 2017-ci ildən ABŞ-ın 45-ci prezidentidir. – 13–14, 93.

**10. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları

Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 13.

**11. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 13, 68, 71, 88.

**12. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 13.

**13. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini

formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in Zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 13, 71.

**14. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 13, 69, 176.

**15. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 14, 249.

**16. Fələstin Dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti

Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min km$^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir – 16.

**17. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının sədri (Fələstin Dövlətinin Prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 16.

**18. Füzuli** (1959-cu ilədək Qaryagin rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 km$^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 17–25, 36, 195.

**19. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda qəsəbə. Əhalisi 2877 nəfərdir. 1993-cü ildə erməni işğalçıları tərəfindən işğal edilmiş Horadiz 6 ay sonra Azərbaycan Ordusu tərəfindən azad edilmişdir. – 17, 20, 26–43.

**20. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 km$^2$, əhalisi 199,5 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 19, 195, 207–217.

**21. Zakir Həsənov,** Zakir Əsgər oğlu (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 22, 199.

**22. Şahin Mustafayev,** Şahin Abdulla oğlu (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə isə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 19, 48.

**23. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağın işğalına başladılar. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni silahlı qüvvələrinin tapdağı altındadır. – 23, 33, 36, 70, 71, 134, 144, 176, 195, 214, 215, 249, 272.

**24. Cəbrayıl** — Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 23, 36, 195.

**25. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 24, 195, 199.

**26. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas

etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 24, 195, 199.

**27. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 28, 30, 41, 42, 43, 44, 179, 203, 206, 207, 208, 222, 243–244, 246–248, 268, 272, 282, 315, 316, 317, 328, 330, 331, 332.

**28. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 30, 56, 66, 203, 204, 210.

**29. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 45, 68, 196.

**30. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 643,8 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 40, 110, 161, 164, 249.

**31. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb

İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 56, 107, 161, 164, 167, 179, 180, 184, 189, 191, 197, 201, 202, 203, 204, 207, 209, 210, 212, 217, 222, 244, 293, 294, 296, 297, 298, 304, 308–309, 318, 319, 321, 322, 324.

**32. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Mənzil-qərargahı Maniladadır (Filippin). Banka 50-

yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 60–61.

**33. Oman,** O m a n S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 64.

**34. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. – 64.

**35. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilat. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 66, 76, 77, 78, 85.

**36. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 77, 88, 94, 99–100, 107, 110, 121–122, 167, 175–178, 227, 268–270, 274–275, 277, 294, 312, 313, 314, 328–332.

**37. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda

olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 81, 110, 148–149.

**38. Avstraliya,** Avstraliya İttifaqı – Avstraliya qitəsində dövlət. Sahəsi 7,7 milyon km$^2$, əhalisi 24 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və 2 əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya Kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 84–85, 92, 97, 110.

**39. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 86, 107, 272–273.

**40. İçərişəhər** – Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu

dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 85,293–297.

**41. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 86, 110, 160, 161, 165, 188, 242, 276, 280, 281–283.

**42. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 86.

**43. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 87.

**44. «Vaşinqton post»** – ABŞ-da gündəlik qəzet. Əsası 1877-ci ildə qoyulmuşdur. Tirajı təxminən 545,3 min nüsxədir. – 92.

**45. «Nyu York Tayms»** – ABŞ-da gündəlik qəzet. 1851-ci ildən Nyu Yorkda nəşr edilir. Tirajı 876,6 min nüsxədir. – 92.

**46. Rəşid Behbudov**, Rəşid Məcid oğlu (1915–1989) – Azərbaycan və SSRİ Xalq artisti. Azərbaycan vokal məktəbinin görkəmli nümayəndəsi. Dünyanın bir çox ölkələrində uğurla keçən qastrol səfərlərində olmuşdur. SSRİ Dövlət mükafatı laureatı və Sosialist Əməyi Qəhrəmanı. – 96, 97.

**47. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon $km^2$, əhalisi 1 milyard 336 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 101.

**48. Pranab Mukherci** (d.1935) – Hindistanın dövlət xadimi. 2004–2006-cı illərdə Müdafiə naziri, 2006–2009-cu illərdə Xarici İşlər naziri, 1982–1984 və 2009–2012-ci illərdə Maliyyə naziri, nəhayət, 2012–2017-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 101.

**49. Total** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 102.

**50. Mavritaniya,** Mavritaniya İslam Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 1031 min $km^2$, əhalisi 3,89 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 117.

**51. Kuba,** Kuba Respublikası – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min $km^2$, əhalisi 11 milyon nəfərdir.

Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı Dövlət Şurasının Sədridir. Paytaxtı Havana şəhəridir. – 119, 232–233.

**52. Raul Kastro Rus** (d.1931) – Kuba inqilabçısı və dövlət xadimi. 2008-ci ildən Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri və Kuba Silahlı Qüvvələrinin Baş Komandanıdır. – 119.

**53. Fidel Kastro,** K a s t r o R u s (1926–2016) – 1960–2008-ci illərdə Kuba Respublikası Dövlət Şurası və Nazirlər Sovetinin Sədri, 1965–2011-ci illərdə Kuba KP MK-nın Birinci katibi və Kuba Silahlı Qüvvələrinin Baş komandanı. 1953-cü ildə Batista diktaturasına qarşı silahlı üsyana başçılıq etmişdir. – 119, 232, 233.

**54. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 120, 155–156, 161, 164, 333–334.

**55. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 120, 155, 156.

**56. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 125–145.

**57. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 125–145.

**58. Arif Alışanov,** A r i f N i z a m o ğ l u (d.1960) – iqtisadçı, iqtisad elmləri namizədi. 2006-cı ildən Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri, Milli Məclisin üzvüdür. – 131.

**59. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 132, 252.

**60. Avrasiya İqtisadi İttifaqı** – Belarus, Qazaxıstan və Rusiya tərəfindən 2014-cü il oktyabrın 9-da yaradılmış siyasi və iqtisadi təşkilat. İttifaq 2015-ci il yanvarın 1-dən fəaliyyətə başlamışdır. – 137.

**61. Cisco** – əsasən böyük təşkilatlar və telekommunikasiya müəssisələri üçün rabitə şəbəkə avadanlığını hazırlayıb satan transmilli amerika kompaniyası. Dünyada yüksək texnologiyalar sahəsində ixtisaslaşan ən iri kompaniyadır. Kompaniyanın xüsusiyyətlərindən biri biznes modelində mühəndislərin kompüter şəbəkəsində çoxəhatəli sertifikasiya sisteminə yiyələnmələridir. Kompaniyanın əsası 1984-cü ildə qoyulmuşdur. – 146–147.

**62. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. –151, 152.

**63. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentidir. – 151.

**64. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş naziri və vitse-prezidenti, Dubay əmiri. – 152.

**65. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 160, 188, 242, 276, 280.

**66. Ramin Quluzadə (**d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini işləmişdir. 2017-ci ildən Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar naziridir. – 161, 222.

**67. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 km$^2$, əhalisi 82,5 min nəfərdir. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal ediblər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225)

paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 176, 247, 248, 334.

**68. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 188.

**69. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası Hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 196, 214.

**70. Göyçə** – İrəvan xanlığının 15 mahalından biri. İndiki Ermənistan ərazisində qədimdən Azərbaycan türklərinin yaşadıqları bölgə. Göyçə adının ilk dəfə V əsrin sonlarında işlədildiyi güman edilir. Şah İsmayılın (1487–1524) 1510-cu ilə aid fərmanında «Göyçə mahalı» qeyd edilmişdir. Türkmənçay müqaviləsinə (1828) əsasən İrəvan xanlığının tərkibində çar Rusiyasının tərkibinə qatılmışdı. 1829–32-ci illərə aid məlumata görə, Göyçə mahalında 100-dən çox yaşayış məskəni, 14 354 nəfər əhali (əsasən azərbaycanlılar) qeydə alınmışdı. Ermənilərin kütləvi şəkildə Qərbi Azərbaycana köçürülməsi Göyçə mahalının etnik tərkibini əsaslı şəkildə dəyişdirdi və mahal erməniləşdirilməyə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə inzibati-ərazi vahidi idi (əhalisi özünü Cümhuriyyətin tərkib hissəsi hesab edir və onun hakimiyyətinin möhkəmləndirilməsi uğrunda mübarizə aparırdı). Ermənilər bu torpaqlara iddialarını həyata keçirmək üçün azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridirdilər. Azərbaycanda və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sovet-

bolşevik rejiminin himayəsi ilə Göyçə, demək olar ki, bütünlüklə Ermənistana verildi. Mahalın Azərbaycan türklərinə məxsus yaşayış məskənlərinin adları kütləvi surətdə dəyişdirilərək erməniləşdirildi. Ermənilərin həyata keçirdikləri soyqırımları və zorakı köçürmələr nəticəsində tarixən azərbaycanlılara məxsus olan Göyçə mahalında hazırda bir nəfər də olsun azərbaycanlı qalmamışdır. – 196, 214.

**71. Mehri,** M e g r i r a y o n u – Ermənistan ərazisində azərbaycanlılar yaşayan ərazi. Azərbaycanın qədim yaşayış məskəni olub. – 196.

**72. Gorus** – Azərbaycan Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra tarixi ərazimiz olan Zəngəzur qəzasının mərkəzi. Gorusda 1823-cü ildə 119 ailə (azərbaycanlı və erməni) yaşayırdı. Ərazisi 752 km$^2$-dir. 1829–1931-ci illərdə İrandan və Türkiyədən xeyli sayda erməni köçürülərək, Gorus rayonu ərazisində yerləşdirilmiş, gəlmə ermənilərin hesabına şəhərin əhalisi artmışdır. 1905 və 1918-ci il Zəngəzurdakı erməni–müsəlman davaları zamanı Gorus erməniləri xüsusilə qəddarlıq göstərmişlər. Keçən əsrin 20-ci illərinin sonlarından həyata keçirilən rayonlaşdırma zamanı Gorus rayonu təşkil edilmişdir. Zəngəzur qəzasının əsas hissəsi Ermənistana inhar edildi və Gorus Zəngəzur qəzasının, daha sonra Gorus rayonunun mərkəzi oldu. – 196.

**73. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47)

imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 196, 214.

**74. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min $km^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 218.

**75. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 218.

**76. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 207,7 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 221, 236.

**77. Məmnun Hüseyn** (d.1940) – iş adamı. 2013–2018-ci illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 221, 236.

**78. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min $km^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 226.

**79. Maha Vaciralonqkorn (d.1952)** – 2016-cı ildən Tailandın Kralıdır. – 226.

**80. İndoneziya,** İ n d o n e z i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 228.

**81. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 228.

**82. «Euronews» –** dünyada baş verən hadisələri 24 saat operativ surətdə işıqlandıran Avropa informasiya telekanalı. «Euronews»un kabel, peyk və efir yayımları Avropa, Afrika, Asiya, Avstraliya, Şimali və Cənubi Amerikada, həmçinin Yaxın Şərqdə – 150-dən çox ölkədə yayımlanır.

Kanal Yayım Birliyinin təşəbbüsü ilə Fransada yaradılmışdır. «Euronews» 14 dildə yayımlanır. Mənzil-qərargahı Lion (Fransa) şəhərindədir. – 229–230.

**83. Misir,** M i s i r  Ə r ə b  R e s p u b l i k a s ı – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1 milyon km$^2$, əhalisi 97 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 245, 246–248.

**84. Əbdülfəttah əs-Sisi** (d.1954) – Misirin siyasi və hərbi xadimi. 2014-cü ildən Misir Ərəb Respublikasının Prezidentidir. – 245.

**85. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə

məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmış, həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 246–248, 294.

**86. Vayra Vike-Freyberqa** (d.1937) – Latviyanın dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 246–248.

**87. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə

görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 244.

**88. Əziz Əliyev,** Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 244, 329, 330.

**89. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 244.

**90. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 244.

**91. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 244.

**92. 1990-cı il 20 Yanvar hadisələri** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 247.

**93. İsrail** – Yaxın Şərqdə dövlət. Sahəsi 22,1 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci

il 29 noyabr tarixli Qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. Paytaxtı Yerusəlim şəhəridir. – 250–258.

**94. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 260, 281–283.

**95. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ - l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 260, 281, 282.

**96. Qətər,** Q ə t ə r D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2,6 milyon nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Doha şəhəridir. – 263.

**97. Təmim bin Həməd əl-Tani** (d.1980) – 2013-cü ildən Qətər Dövlətinin əmiridir. – 263.

**98. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci illərdə yenidən

Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 277, 312, 313, 323, 330, 331, 332.

**99. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. –278, 294.

**100. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal Kansleridir. – 278.

**101. *bp*,** «British Petroleum» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 284.

**102. Zeynəb Xanlarova,** Zeynəb Yəhya qızı (d.1936) – müğənni, xanəndə. Azərbaycan və SSRİ Xalq artisti. Repertuarında muğam, təsnif, Azərbaycan xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları əsas yer tutur. Xalq musiqisinin, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarının populyarlaşmasında xidməti böyükdür. Azərbaycan Respublikası Milli Məclisinin (2000-ci ildən) üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal», «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 315–317.

**103. Fransua Olland** (d.1954) – Fransanın dövlət xadimi. 2012–2017-ci illərdə Fransa Respublikasının Prezidenti olmuşdur. – 249.

**104. Bəylər məscidi** – İçərişəhərin şimal-qərbində, Şirvanşahlar sarayının Murad Darvazası yaxınlığında dini memarlıq abidəsi. Məscid 1895-ci ildə inşa edilmişdir. Onun inşasında Avropa, Şərq, eləcə də yerli memarlıq üslubuna xas olan orqamentlərdən istifadə edilmişdir. Məscidin minarəsinin yuxarı hissəsi qərbi Avropaya xas olan dekorativ elementlərlə bəzədilmişdir. – 296–297.

**105. Ramazan Abdulatipov** (d.1946) – Rusiyanın siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. 2013–2017-ci illərdə Rusiya Federasiyası Dağıstan Muxtar Respublikasının başçısı olmuşdur. 2017-ci ilin oktyabrından Rusiya Federasiyasının Xəzəryanı region ölkələrində humanitar və iqtisadi məsələlər üzrə xüsusi numayəndəsidir. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 328–332.

## Şəxsi adlar göstəricisi


**Abbas Mahmud** – 16
**Abbasova Fiqurə** – 186–187
**Abdulatipov Ramazan** – 328–332
**Abdullayev Namiq** – 115
**Abdullayev Səbuhi** – 131
**Abdullayev Vaqif** – 44
**Axramoviç Gennadi** – 131
**Akihito** – 279
**Alıyev Alı** – 17, 34, 35
**Alıyeva Mahnur** – 20, 22
**Allahverdiyev Tarverdi** – 291
**Alışanov Arif** – 131
**Aslanov Nurlan** – 291
**Asghedom Petros** – 7
**Aun Mişel** – 15
**Babayev Lütfəli** – 179
**Behbudov Rəşid** – 96, 97
**Bellen Aleksander** – 262
**Benedetti Gianpietro** – 265
**Bin Səid Qabus** – 64
**Brink Bridcet** – 104
**Berdiyev İsmayıl** – 177–178
**Bokova İrina** – 76–77
**Boriçiç Aleksandar** – 105–106
**Cabbarov Mikayıl** – 132
**Centiloni Paolo** – 11–12
**Çavuşoğlu Mövlud** – 188
**Çembers Con** – 146–147
**Çrnadak İqor** – 168–169
**Dadli Robert** – 284

**Danişevski Con** – 88–89, 93
**Dastgir Xan Xürrəm** – 221
**Davıdko Gennadi** – 131
**Davidson Brüs** – 84–85
**Dodo İqor** – 62
**Elçibəy** – 178
**Elkin Zeev** – 252
**Embarş Məhəmməd** – 234–235
**Enqida Qetaçyu** – 77–79
**Erikson Yonas** – 82–83
**Eyvazov Çingiz** – 291
**Eyyubov Yaqub** – 131
**Əhədov Seymur** – 291
**Ələsgərov Fuad** – 335
**Əl-Hüseyn Abdullah** – 82
**Əl-Məktum Məhəmməd** – 151
**Əl-Xəlifə Şeyx Həməd** – 259
**Əl-Qurair Məcid** – 80
**Əl-Nəhəyyan Xəlifə** – 150
**Əl-Tani Şeyx Təmim** – 263
**Əliyev Heydər** – 28, 30, 41, 42, 43, 44, 179, 203, 206, 207, 208, 222, 243–244, 246–248, 268, 272, 282, 315, 316, 317, 328, 330, 331, 332
**Əliyev Əziz** – 244, 329, 330
**Əliyev Tamerlan** – 244
**Əliyeva Mehriban** – 56, 107, 161, 164, 167, 179, 180, 184, 189, 191, 197, 201, 202, 203, 204, 207, 209, 210, 212, 217, 222, 244, 293, 294, 296, 297, 298, 304, 308–309, 318, 319,321, 322, 324
**Əliyeva Zərifə xanım** – 244
**Əs-Sisi Əbdülfəttah** – 245

**Əkbərova Gülarə** – 197–198
**Ərdoğan Rəcəb Tayyib** – 160, 188, 242, 276, 280
**Əsədov Heydər** – 132, 152
**Əsədov Oqtay** – 244
**Əzimov Abas** – 291
**III Fəribürz** *(Şirvanşah)* – 295
**Füzuli Məhəmməd** – 294
**Gəncəvi Nizami** – 294
**Gil Jose** – 93
**Hadid Zaha** – 85, 149
**Həsənov Əli** – 88
**Hacıbəyli Üzeyir** – 294
**Həsənov Kərəm** – 107, 131
**Həsənov Ramiz** – 252
**Həsənov Zakir** – 22, 199
**Həsənzadə Rauf** – 198–199
**Həziyeva Balacaxanım** – 115, 116
**Hüseyn Məmnun** – 221, 236
**Hüseynov Etibar** – 53
**Hüseynov Qorxmaz** – 57, 191
**Hokstayn Amos** – 264
**Xanlarova Zeynəb** – 315–317
**İbrahimova Elmira** – 202
**İohannis Klaus** – 150
**İzoria Levan** – 272–273
**İsmayılova Xədicə** – 88
**İvaniç Mladen** – 103
**Janq Vençay** – 60–61
**Jao Houlin** – 154
**Jilkin Aleksandr** – 268–270
**Karlov Andrey** – 277
**Kastro Fidel** – 119, 232, 233
**Kastro Raul** – 119
**Kenyatta Uhuru** – 241
**Klinton Hillari** – 92, 93

**Kərimov İnam** – 335
**Kolokoltsev Vladimir** – 227
**Köçəriyev Xaləddin** – 57
**Qanser Maykl** – 146–147
**Qarayev Əbülfəs** – 132
**Qayev Andrey** – 131
**Qazheli Genti** – 5–6
**Qəhrəman İsmayıl** – 281–283
**Qorçu Tərlan** – 294
**Quluzadə Ramin** – 161, 222
**Quliyev Namiq** – 48
**Lalli Maykl** – 170–171
**Lopez Xose** – 111
**Loythard Doris** – 261
**Lukaşenko Aleksandr** – 125–145
**Luçinski Petru** – 246–248
**Makdyu Darren** – 266–267
**Makey Vladimir** – 132
**Marşal Klayv** – 81–82
**Mehdiyev Ramiz** – 244
**Meydani Recep** – 246–248
**Merkel Angela** – 278
**Məmmədov Müstəqim** – 189
**Məmmədov Raqib** – 207
**Məmmədov Saleh** – 18, 45, 318
**Məmmədov Vüsal** – 52–53
**Məmmədova Elnarə** – 38
**Məmmədyarov Elmar** – 132, 252
**Məmmədova Nəzakət** – 216–217
**Mixaylov Sergey** – 92, 94
**Məmmədova Yeganə** – 54
**Minçev Maksim** – 90–91
**Mirziyoyev Şavkat** – 218
**Mukherci Pranab** – 101
**Mustafayev Şahin** – 19, 48

**Muradov Vidadi** – 19
**Nakao Takehiko** – 60, 61
**Namazəliyev Məcnun** – 38–40
**Nazarbayev Nursultan** – 260, 281, 282
**Netanyahu Benyamin** – 250–258
**Netanyahu Sara** – 250
**Nikolson** *(baronessa)* – 148–149
**Nişani Buyar** – 6, 118
**Niqmatulin Nurlan** – 281–283
**Niinistö Sauli** – 174
**Nkoana-Maşabane Maite** – 157–158
**Nuriyev Samir** – 304–308
**Olland Fransua** – 249
**Park No-Hvanq** – 83–84
**Pastrana Andres** – 231
**Popova Marqarita** – 271
**Portuondo Alfredo** – 232–233
**Putin Vladimir** – 277, 312, 313, 329, 330, 331, 332
**Puyanne Patrik** – 102
**Radev Rumen** – 63
**Rama Edi** – 6
**Rasizadə Artur** – 244
**Renzi Matteo** – 11, 12
**Roqozin Dmitri** – 274–275
**Ruhani Həsən** – 120, 155, 156, 333–334
**Salahova Zərifə** – 292
**Sekuta Robert** – 170
**Semaşko Vladimir** – 131
**Serageldin İsmail** – 246–248
**Serbone Cüzeppe** – 86–88
**Slutski Leonid** – 99–100
**Səfərova Maya** – 202
**Sihamoni Norodom** – 10

**Stefanoviç Neboyşa** – 219–220
**Stoyanov Peter** – 246–248
**Şərif Məhəmməd Nəvaz** – 221
**Şamilova Xanım** – 308–309
**Şirəliyev Oqtay** – 180
**Şubo Zin** – 166
**Tadiç Boris** – 246–248
**Tağıyeva Esmira** – 184
**Temer Mişel** – 159
**Tramp Donald** – 13–14, 93
**Tursunbekov Çınıbay** – 281–283
**Uld Əbdüləziz Məhəmməd** – 117
**Vaciralonqkorn Maha** – 226
**Vaezi Mahmud** – 155–156, 164, 333–334
**Vasilyevna Olqa** – 121–122
**Vidodo Coko** – 228
**Vəliyev Ağalar** – 210
**Vike-Freyberqa Vayra** – 246–248
**Viskonti Stefan** – 249
**Vuds Albert** – 114
**Veronis Raymonds** – 65
**Yeromina Yevgeniya** – 115
**Zatlers Valdis** – 246–248
**Zayats Leonid** – 132
**Zeybəkçi Nihat** – 280
**Zuma Ceykob** – 157, 158

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 284
**Açex** – 228
**Adana** – 160
**Ağdam** – 19,195, 207–217
**Ağdərə** – 23, 36, 195
**Ağcabədi** – 27
**Ağstafa** – 19
**Afrika** – 66, 138, 170, 171
**Albaniya** – 5–6, 87, 118, 246–248
**Almaniya** – 110, 278, 294
**Altkirç** – 40
**Amerika** *(qitə)* – 66
**Amerika Birləşmiş Ştatları** – 13–14, 92, 93, 94, 104, 170–171, 264, 265–267, 294
**Avstriya** – 161, 262
**Avstraliya** – 84–85, 92, 97, 110
**Alp dağları** – 92
**Asiya** – 66, 76
**Avropa** – 60, 82, 86, 137, 170, 171, 286
**Aşıqlı** – 58
**Belarus** – 125–145, 161, 165
**Berlin** – 278
**Beşiktaş** – 242
**Beyləqan** – 27, 44–59
**Bəhreyn** – 259
**Bilgəh** – 325
**Binə** – 325
**Birləşmiş Ərəb Əmirlikləri** – 107, 151, 152
**Bolqarıstan** – 63, 87, 90–91, 246–248, 271

**Bosniya və Herseqovina** – 103, 168–169
**Böyük Britaniya** – 81, 110, 148–149
**Braziliya** – 159
**Cənubi Afrika Respublikası** – 157–158
**Cəbrayıl** – 23, 36, 195
**Cibuti** – 92
**Çin** – 110, 166
**Dağıstan** – 328–332
**Dağlıq Qarabağ** – 23, 33, 36, 70, 71, 134, 144, 176, 195, 214, 215, 249, 272
**Dubay** – 80
**Eritreya** – 7
**Əlinəzərli** – 58
**Əfqanıstan** – 266, 267
**Fələstin** – 16
**Finlandiya** – 174
**Fransa** – 40, 110, 161, 164, 249
**Füzuli** – 17–25, 36, 195
**Gəncə** – 27
**Gorus** – 196
**Göyçə** – 196, 214
**Gürcüstan** – 107, 272–273
**Həştərxan** – 268–270
**Hindistan** – 101
**Horadiz** – 17, 20, 26–43
**Xaçmaz** – 19
**Xankəndi** – 24, 195, 199
**Xəzər dənizi** – 85, 92, 95–98
**Xorvatiya** – 88, 161
**İndoneziya** – 228
**İran** – 120, 155–156, 161, 164, 333–334
**İrəvan** – 196, 214
**İsmayıllı** – 19
**İsveç** – 82

**İsveçrə** – 261, 294
**İsrail** – 250–258
**İsgəndəriyyə** – 246–248
**İspaniya** – 93, 107
**İtaliya** – 11–12, 87, 161, 165, 265
**Kamboca** – 10
**Kanada** – 92
**Kayseri** – 276
**Keniya** – 241
**Kipr** – 107
**Kolumbiya** – 159, 231
**Koreya Respublikası** – 83–84, 92
**Kuba** – 119, 232–233
**Qafqaz** – 141, 172, 175–178
**Qala** – 325
**Qaraçay-Çərkəz Respublikası** – 177–178
**Qazax** – 19
**Qazaxıstan** – 260, 281–283
**Qəbələ** – 19
**Qətər** – 263
**Qırğız Respublikası** – 281–283
**Quba** – 19
**Quzanlı** – 207, 209
**Latviya** – 65, 246–248
**Lələtəpə** – 23, 24, 25, 36, 37, 199
**Livan** – 15
**London** – 294
**Lüksemburq** – 107
**Macarıstan** – 107
**Mahmızlı** – 212
**Mavritaniya** – 117
**Mehri** – 196
**Mədinə** – 176
**Məkkə** – 176
**Mərakeş** – 234–235

**Mərdəkan** – 325
**Minsk** – 141
**Misir** – 245, 246–248
**Moldova** – 62, 246–248
**Monteneqro** – 88
**Monako** – 91
**Moskva** – 247, 269
**Myanma** – 354
**Naxçıvan** – 176, 247, 248, 334
**Niderland** – 161–165
**Oman** – 64
**Orta Şərq** – 170, 171
**Özbəkistan** – 218
**Pakistan** – 221, 236
**Polşa** – 294
**Portuqaliya** – 107
**Ramana** – 112–117
**Rumıniya** – 92, 150
**Rusiya** – 77, 88, 94, 99–100, 107, 110, 121–122, 167, 175–178, 227, 268–270, 274–275, 277, 294, 312, 313, 314, 328–332
**Sabunçu** – 112
**Sakit okean** – 66, 76
**Serbiya** – 219–220, 246–248
**Səudiyyə Ərəbistanı** – 82
**Sloveniya** – 161, 166
**Stokholm** – 83
**Sudan** – 346
**Sumqayıt** – 27
**Şəfəq** – 58
**Şəmkir** – 19
**Şimali Qafqaz** – 175
**Şuşa** – 24, 195, 199
**Ukrayna** – 107

**Tailand** – 226
**Tərtər** – 37, 189–206
**Tovuz** – 19
**Türkiyə** – 86, 110, 160, 161, 165, 188, 242, 276, 280, 281–283
**Yaponiya** – 279
**Yunanıstan** – 87
**Zəngəzur** – 196, 214
**Zərdab** – 179–187

# MÜNDƏRİCAT

ALBANİYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ GENTİ QAZHELİ İLƏ GÖRÜŞ

*5 noyabr 2016-cı il ....................................................................................5*

ERİTREYA DÖVLƏTİNİN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ PETROS TSEQQAİ ASGHEDOM İLƏ GÖRÜŞ

*5 noyabr 2016-cı il ....................................................................................7*

«TEATR VƏ MULTİKULTURALİZM» MÖVZUSUNDA KEÇİRİLƏN IV BAKI BEYNƏLXALQ TEATR KONFRANSININ İŞTİRAKÇILARINA

*7 noyabr 2016-cı il ....................................................................................8*

KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ

*7 noyabr 2016-cı il ..................................................................................10*

İTALİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ NAZİRİ PAOLO CENTİLONİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 noyabr 2016-cı il ..................................................................................11*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DONALD TRAMPA

*9 noyabr 2016-cı il ..................................................................................13*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL AUNA

*11 noyabr 2016-cı il* ........................................................................ *15*

FƏLƏSTİN DÖVLƏTİNİN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ABBASA

*11 noyabr 2016-cı il* ........................................................................ *16*

FÜZULİ RAYONUNA SƏFƏR

*12 noyabr 2016-cı il* ........................................................................ *17*

HORADİZDƏ MƏCBURİ KÖÇKÜNLƏR ÜÇÜN SALINMIŞ
YENİ QƏSƏBƏDƏ YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ
ZAMANI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*12 noyabr 2016-cı il* ........................................................................ *26*

BEYLƏQAN RAYONUNA SƏFƏR

*12 noyabr 2016-cı il* ........................................................................ *44*

«QARABAĞ TAXIL» MƏHDUD MƏSULİYYƏTLİ
CƏMİYYƏTİN ÖZƏL PİLOT TAXILÇILIQ
TƏSƏRRÜFATININ FƏALİYYƏTİ İLƏ TANIŞLIQ ZAMANI
BEYLƏQAN RAYON İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*12 noyabr 2016-cı il* ........................................................................ *46*

ASİYA İNKİŞAF BANKININ VİTSE-PREZİDENTİ VENÇAY
JANQ İLƏ GÖRÜŞ

*14 noyabr 2016-cı il* ........................................................................ *60*

MOLDOVA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İQOR DODONA

*15 noyabr 2016-cı il* ........................................................................ *62*

BOLQARISTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RUMEN RADEVƏ

*15 noyabr 2016-cı il ............................................................................63*

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*15 noyabr 2016-cı il ............................................................................64*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RAYMONDS VEYONİSƏ

*15 noyabr 2016-cı il ............................................................................65*

DÜNYA XƏBƏR AGENTLİKLƏRİNİN V KONQRESİNİN, ASİYA VƏ SAKİT OKEAN ÖLKƏLƏRİ İNFORMASİYA AGENTLİKLƏRİ TƏŞKİLATININ XVI BAŞ ASSAMBLEYASININ BİRGƏ AÇILIŞI MƏRASİMİ

*16 noyabr 2016-cı il ............................................................................66*

DUBAY TİCARƏT VƏ SƏNAYE PALATASININ SƏDRİ MƏCİD SAİF ƏL-QURAİR İLƏ GÖRÜŞ

*16 noyabr 2016-cı il ............................................................................80*

DÜNYA XƏBƏR AGENTLİKLƏRİNİN V KONQRESİNİN İŞTİRAKÇILARININ BİR QRUPU İLƏ GÖRÜŞ

*17 noyabr 2016-cı il ............................................................................81*

XƏZƏR DƏNİZ GƏMİÇİLİYİNİN YENİ GƏMİLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*18 noyabr 2016-cı il ............................................................................95*

RUSİYA DÖVLƏT DUMASININ BEYNƏLXALQ MƏSƏLƏLƏR KOMİTƏSİNİN SƏDRİ LEONİD SLUTSKİ İLƏ GÖRÜŞ

*18 noyabr 2016-cı il ............................................................................99*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PRANAB MUKHERCİYƏ

*21 noyabr 2016-cı il* ........................................................................*101*

TOTAL ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU PATRİK
PUYANNE İLƏ GÖRÜŞ

*21 noyabr 2016-cı il* ........................................................................*102*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN
SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB MLADEN İVANİÇƏ

*22 noyabr 2016-cı il* ........................................................................*103*

ABŞ DÖVLƏT KATİBİ KÖMƏKÇİSİNİN MÜAVİNİ
BRİDCET BRİNK İLƏ GÖRÜŞ

*22 noyabr 2016-cı il* ........................................................................*104*

AVROPA VOLEYBOL KONFEDERASİYASININ
PREZİDENTİ ALEKSANDAR BORİÇİÇ İLƏ GÖRÜŞ

*23 noyabr 2016-cı il* ........................................................................*105*

AZƏRBAYCAN BEYNƏLXALQ DAŞINMAZ ƏMLAK VƏ
İNVESTİSİYA SƏRGİSİ İLƏ TANIŞLIQ

*23 noyabr 2016-cı il* ........................................................................*107*

BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ
XOSE PERURENA LOPEZ VƏ AVROPA KANOE
FEDERASİYASININ PREZİDENTİ ALBERT VUDS
İLƏ GÖRÜŞ

*23 noyabr 2016-cı il* ........................................................................*111*

RAMANA QƏSƏBƏSİNDƏ SAKİNLƏR ÜÇÜN
TİKİLMİŞ YENİ YAŞAYIŞ BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 noyabr 2016-cı il* ........................................................................*112*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİ-
DENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD
ƏBDÜLƏZİZƏ

*25 noyabr 2016-cı il* ........................................................................ *117*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BUYAR NİŞANİYƏ

*25 noyabr 2016-cı il* ........................................................................ *118*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ
NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB
RAUL KASTRO RUSA

*26 noyabr 2016-cı il* ........................................................................ *119*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*26 noyabr 2016-cı il* ........................................................................ *120*

RUSİYA FEDERASİYASININ TƏHSİL VƏ ELM NAZİRİ
OLQA VASİLYEVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*27 noyabr 2016-cı il* ........................................................................ *121*

«BAKUTEL–2016» XXII BEYNƏLXALQ TELEKOMMUNİ-
KASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİ
VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*28 noyabr 2016-cı il* ........................................................................ *123*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR
LUKAŞENKONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*28 noyabr 2016-cı il* ........................................................................ *125*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR
LUKAŞENKO İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*28 noyabr 2016-cı il* ........................................................................ *126*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*28 noyabr 2016-cı il* ....................................................................... *129*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 noyabr 2016-cı il* ....................................................................... *131*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKO İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*28 noyabr 2016-cı il* ....................................................................... *133*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ ALEKSANDR LUKAŞENKOYA «HEYDƏR ƏLİYEV» ORDENİNİN TƏQDİMETMƏ MƏRASİMİ

*28 noyabr 2016-cı il* ....................................................................... *143*

CİSCO ŞİRKƏTİNİN BAŞ VİTSE-PREZİDENTİ MAYKL QANSERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2016-cı il* ....................................................................... *146*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA NİKOLSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 noyabr 2016-cı il* ....................................................................... *148*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS İOHANNİSƏ

*29 noyabr 2016-cı il* ....................................................................... *150*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*29 noyabr 2016-cı il* ......................................................................................*151*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*29 noyabr 2016-cı il* ......................................................................................*152*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VOLAÇİTƏ

*29 noyabr 2016-cı il* ......................................................................................*153*

BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HOULİN JAO İLƏ GÖRÜŞ

*29 noyabr 2016-cı il* ......................................................................................*154*

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 noyabr 2016-cı il* ......................................................................................*155*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ ƏMƏKDAŞLIQ NAZİRİ MAİTE NKOANA-MAŞABANENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 noyabr 2016-cı il* ......................................................................................*157*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL TEMERƏ

*30 noyabr 2016-cı il* ......................................................................................*159*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*30 noyabr 2016-cı il* ......................................................................................*160*

«BAKUTEL–2016» SƏRGİSİ İLƏ TANIŞLIQ

*30 noyabr 2016-cı il .......................................................................161*

BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ İQOR ÇRNADAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 dekabr 2016-cı il .........................................................................168*

ABŞ-ın TİCARƏT NAZİRLİYİNİN MÜŞAVİRİ MAYKL LALLİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 dekabr 2016-cı il..........................................................................170*

«QAFQAZDA DİNİ TOLERANTLIQ ƏNƏNƏLƏRİ VƏ AZƏRBAYCANIN MULTİKULTURALİZM MODELİ» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

*1 dekabr 2016-cı il..........................................................................172*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

*2 dekabr 2016-cı il..........................................................................173*

QAFQAZ XALQLARI ALİ DİNİ ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*2 dekabr 2016-cı il..........................................................................175*

ZƏRDAB RAYONUNA SƏFƏR

*2 dekabr 2016-cı il ..........................................................................179*

MƏRKƏZİ RAYON XƏSTƏXANASINDA ƏSASLI TƏMİRDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ ZAMANI ZƏRDAB İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*2 dekabr 2016-cı il..........................................................................180*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 dekabr 2016-cı il............................................................................188*

TƏRTƏR RAYONUNA SƏFƏR

*3 dekabr 2016-cı il............................................................................189*

«TƏRTƏR ŞƏHƏRİNİN İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏN QURULMASI» LAYİHƏSİNİN BAŞA ÇATMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏDBİRDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 dekabr 2016-cı il............................................................................191*

AĞDAM RAYONUNA SƏFƏR

*3 dekabr 2016-cı il............................................................................207*

ZİYAN DƏYMİŞ EVLƏRİN TİKİNTİSİ VƏ BƏRPASI İŞLƏRİ İLƏ TANIŞLIQ ZAMANI AĞDAM RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 dekabr 2016-cı il............................................................................212*

ÖZBƏKİSTAN RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ

*5 dekabr 2016-cı il............................................................................218*

SERBİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ, DAXİLİ İŞLƏR NAZİRİ NEBOYŞA STEFANOVİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 dekabr 2016-cı il............................................................................219*

PAKİSTAN İSLAM RESPUBLİKASININ TİCARƏT NAZİRİ XÜRRƏM DASTGİR XAN İLƏ GÖRÜŞ

*5 dekabr 2016-cı il*.........................................................................................*221*

RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN REGİONAL DATA VƏ BEYNƏLXALQ KOMMUTASİYA MƏRKƏZLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*5 dekabr 2016-cı il*.........................................................................................*222*

TAİLAND KRALI ƏLAHƏZRƏT MAHA VAÇİRALONQKORNA

*6 dekabr 2016-cı il*.........................................................................................*226*

RUSİYA FEDERASİYASININ DAXİLİ İŞLƏR NAZİRİ VLADİMİR KOLOKOLTSEV İLƏ GÖRÜŞ

*6 dekabr 2016-cı il*.........................................................................................*227*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB COKO VİDODOYA

*7 dekabr 2016-cı il*.........................................................................................*228*

«EURONEWS» TELEKANALININ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN «BAKUTEL–2016» SƏRGİSİNDƏ İŞTİRAKI İLƏ BAĞLI REPORTAJI

*7 dekabr 2016-cı il*.........................................................................................*229*

MƏRKƏZÇİ DEMOKRATLAR İNTERNASİONALININ PREZİDENTİ ANDRES PASTRANANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 dekabr 2016-cı il*.........................................................................................*231*

KUBA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ALFREDO NİEVES PORTUONDO İLƏ GÖRÜŞ

*7 dekabr 2016-cı il*.........................................................................................*232*

MƏRAKEŞ KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ MƏHƏMMƏD ADİL EMBARŞ İLƏ GÖRÜŞ

*7 dekabr 2016-cı il.........................................................................234*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏMNUN HÜSEYNƏ

*8 dekabr 2016-cı il.........................................................................236*

YENİDƏN QURULMUŞ RAMANA–MAŞTAĞA AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*8 dekabr 2016-cı il.........................................................................237*

ZIĞ–ƏMİRCAN–YENİ SURAXANI AVTOMOBİL YOLUNUN 5 KİLOMETRLİK HİSSƏSİNİN ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*8 dekabr 2016-cı il.........................................................................239*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UHURU KENYATTAYA

*9 dekabr 2016-cı il.........................................................................241*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*11 dekabr 2016-cı il.......................................................................242*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2016-cı il .......................................................................243*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLFƏTTAH ƏS-SİSİYƏ

*12 dekabr 2016-cı il.......................................................................245*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİ VƏ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*12 dekabr 2016-cı il*..........................................................................*246*

ATƏT-in MİNSK QRUPUNUN FRANSADAN OLAN YENİ HƏMSƏDRİ STEFAN VİSKONTİ İLƏ GÖRÜŞ

*12 dekabr 2016-cı il*..........................................................................*249*

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*13 dekabr 2016-cı il*..........................................................................*250*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 dekabr 2016-cı il*..........................................................................*252*

İSRAİLİN BAŞ NAZİRİ BENYAMİN NETANYAHU İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*13 dekabr 2016-cı il*..........................................................................*253*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*13 dekabr 2016-cı il*..........................................................................*259*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*13 dekabr 2016-cı il*..........................................................................*260*

İSVEÇRƏ KONFEDERASİYASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ XANIM DORİS LOYTHARDA

*14 dekabr 2016-cı il*..........................................................................*261*

AVSTRİYA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDER VAN DER BELLENƏ

*14 dekabr 2016-cı il*..........................................................................*262*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*15 dekabr 2016-cı il*..........................................................................*263*

ABŞ DÖVLƏT DEPARTAMENTİNİN XÜSUSİ ELÇİSİ VƏ ƏLAQƏLƏNDİRİCİSİ AMOS HOKSTAYNIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2016-cı il..........................................................................264*

İTALİYANIN «DANİELİ & C.OFFİCİNE MECCANİCHE S.P.A» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN RƏHBƏRİ GİANPİETRO BENEDETTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2016-cı il..........................................................................265*

ABŞ-ın NƏQLİYYAT KOMANDANI GENERAL DARREN MAKDYUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il..........................................................................266*

RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il..........................................................................268*

BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ MARQARİTA POPOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il..........................................................................271*

GÜRCÜSTAN RESPUBLİKASININ MÜDAFİƏ NAZİRİ LEVAN İZORİANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il..........................................................................272*

RUSİYA FEDERASİYASI BAŞ NAZİRİNİN MÜAVİNİ DMİTRİ ROQOZİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 dekabr 2016-cı il..........................................................................274*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*17 dekabr 2016-cı il*.............................................................................*276*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*19 dekabr 2016-cı il*.............................................................................*277*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL
KANSLERİ XANIM ANGELA MERKELƏ

*20 dekabr 2016-cı il*.............................................................................*278*

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*20 dekabr 2016-cı il*.............................................................................*279*

TÜRKİYƏ RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRİ
NİHAT ZEYBƏKCİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*21 dekabr 2016-cı il*.............................................................................*280*

TÜRKİYƏ, QAZAXISTAN VƏ QIRĞIZ RESPUBLİKALARI
PARLAMENTLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞ

*22 dekabr 2016-cı il*.............................................................................*281*

*bp* ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ROBERT DADLİ
İLƏ GÖRÜŞ

*22 dekabr 2016-cı il*.............................................................................*284*

2016-cı İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNMUŞ
MƏRASİM

*23 dekabr 2016-cı il*.............................................................................*285*

İÇƏRİŞƏHƏRDƏ MARİONET TEATRININ AÇILIŞI MƏRASİMİ

*24 dekabr 2016-cı il*.............................................................................*293*

İÇƏRİŞƏHƏRDƏ BƏYLƏR MƏSCİDİNDƏ BƏRPA
İŞLƏRİNDƏN SONRA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*24 dekabr 2016-cı il*............................................................................*296*

YASAMAL YAŞAYIŞ KOMPLEKSİNDƏ İLK DOQQUZ-MƏRTƏBƏLİ BİNANIN VƏ MƏKTƏB BİNASININ TƏMƏLQOYMA MƏRASİMİ

*24 dekabr 2016-cı il*............................................................................*298*

DÜNYA AZƏRBAYCANLILARINA

*24 dekabr 2016-cı il*............................................................................*310*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*25 dekabr 2016-cı il*............................................................................*312*

ÜMUMRUSİYA AZƏRBAYCANLILARI KONQRESİNİN IV QURULTAYININ İŞTİRAKÇILARINA

*26 dekabr 2016-cı il*............................................................................*313*

XALQ ARTİSTİ ZEYNƏB XANLAROVAYA «HEYDƏR ƏLİYEV» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*26 dekabr 2016-cı il* ............................................................................*315*

«BAKI AĞ ŞƏHƏR»DƏ GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*26 dekabr 2016-cı il*............................................................................*318*

BAKI KONQRES MƏRKƏZİNİN QARŞISINDA YENİ SALINMIŞ İSTİRAHƏT PARKININ AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2016-cı il*............................................................................*322*

BİNƏ QƏSƏBƏSİNİN ƏLİ İSAZADƏ KÜÇƏSİNDƏ YENİ-DƏNQURMADAN SONRA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*26 dekabr 2016-cı il*............................................................................*324*

QALA–PİRALLAHI AVTOMOBİL YOLUNUN İKİNCİ HİSSƏSİNİN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*26 dekabr 2016-cı il*..........................................................................*326*

RUSİYA FEDERASİYASI DAĞISTAN RESPUBLİKASININ BAŞÇISI RAMAZAN ABDULATİPOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 dekabr 2016-cı il*..........................................................................*328*

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MAHMUD VAEZİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 dekabr 2016-cı il*..........................................................................*333*

1 SAYLI «ASAN KOMMUNAL» MƏRKƏZİNİN AÇILIŞINDA İŞTİRAK VƏ SƏYYAR «ASAN QATAR»LA TANIŞLIQ

*28 dekabr 2016-cı il*..........................................................................*335*

QEYDLƏR..............................................................................................*344*

*Şəxsi adlar göstəricisi*.......................................................................*373*

*Coğrafi adlar göstəricisi* ..................................................................*378*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət* **Orucov**

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.